جميع البحوث العلمية والردود على الملاحدة للمؤلف

# الرد على أبرز شبهات الملاحدة

# و بيان طرق المساعدة للمُجابهة

قرأ وعلَّق عليه: عاصم ممدوف أبو صلاح

المؤلف: صاحب بن فرمان أسدوف

(باللغة الآذرية)

# Ateistlərin məşhur şübhələrinə cavablar

# və onlarla mübarizədə yardımçı metodlar

**Məsləhətçi: Asim Məmmədov**

**Müəllif: Sahib Əsədov**

بِسْمِ اللهِ الرَّحْمَنِ الرَّحِيمِ

# Müqəddimə

Dəyərli oxucu! Bu kitabın ateistlərin Azərbaycandakı şübhələrinin qarşısının alınmasında, onlara İslami aspektdən tutarlı cavabların verilməsində, ateizmlə mübarizədə səmərəli işlərin görülməsi və bir çox istiqamətlərdə faydalı olacağına ümid edirik!

Vətənimiz uzun müddət sovet kommunistlərinin işğalı altında olsa da, insanlarımız İslamı qəlbərində yaşatmağı bacarmışlar. Lakin, son illərdə ateizm təbliğatının ölkəmizdə yenidən canlanmasını, dinə qarşı danışmağın bəzi insanların sevimli peşəsinə çevrildiyini, bu yayılan şübhələrin müqabilində isə dinlərini bilməyən, elmdən uzaq avam insanların cahil metodlarla dini müdafiə etmək istədiklərini, xüsusən də intelektual səviyyəli müsəlmanların dinin müdafiəsində önəmli arxiv və ya mənbələrə müraciət edə bilməmələrini gördükcə insan bu vəziyyətdə hansısa kiçik və faydalı olacağını düşündüyü cəhdlər etmək istəyir. Bu kitabı da həmin kiçik cəhdlərdən biri kimi qəbul etmək olar. Qeyd edim ki, bu kitab həmin hislərlə yazdığım məqalələri bir araya cəm etmək yoluyla ərsəyə gəlmişdir. Gələcəkdə yeni məqalələrimi də bu kitaba əlavə edib həm kitabın həcmini, həm də məzmununu elmi əsaslara və elmi fəsil bölgüsünə uyğun bölərək genişləndirmək niyyətindəyəm. Lakin, hələlik oxucuların faydalanması üçün məqalələri bir araya toplayıb onların faydalanmasını asanlaşdırmaq məqsədilə bu işi oxucularımıza təqdim etməyi məqsədə uyğun gördüm. Allahdan bu işi müsəlmanlara və qeyrilərinə faydalı etməsini diləyirəm!

16.08.2018. Mədinə şəhəri Sahib Əsədov

## *Allaha niyə inanmalıyıq?!*

Əvvəla, **sual verilsə ki,** Allahın varlığına maddi dəlil axtarmaq doğrudurmu?

**Cavab** belə olacaq ki, xeyr. Çünki, dinin cavabı belədir ki, Allah bizə bu dünyada özünü göstərmək istəməmişdir. Əgər Allah bizi sınaqdan keçirmək üçün özünü göstərmək istəməmişdirsə, onda Onun varlığına maddi dəlil axtarmaq doğru deyil. Bu zaman dəlilin digər növlərinə baxmaq lazımdır. (Fitri, hissi, şəri və elmi dəlillər kimi) Maddi dəlil gözlə görməklə olduğu üçün, ateistlər yalnız dəlilin maddi növünə inanır və dəlilin digər növlərini bu məsələdə inkar edirlər. Baxmayaraq ki, bu məsələdə ancaq maddi dəlilə inanacaqlarını deyirlər, amma başqa məsələlərdə dəlillərin əqli, elmi, fitri kimi növlərini qəbul edirlər. Artıq bu barədə dəfələrlə danışılıb ki, ateist havanı görmədən havanın varlığına inanır, mikrobu görmədən də mikrobun varlığına inanır və s. Hətta, ateist bu məsələdə ziddiyyətə də düşə bilir.

Bir çox hallarda yadplanetliləri öz gözüylə görmədən ateist onların varlığına inanır. Amma, sağlam ağılın tələbinə əsasən bu qədər nizamlı, möhtəşəm gözəllikdə bir aləmin Allah tərəfindən yaradıldığını qəbul etmir.

**Allahın varlığına dəlalət edən dəlillər dörd qismdir.**
**1 - Fitri dəlillər.**
**2 - Hissi dəlillər.**
**3 - Şəri dəlillər.**
**4 - Elmi dəlillər.**

Söhbətimiz də elə bu istiqamətdə olacaqdır. Yəni, hansı misallar gətirsək, hamısı bu dörd məsələdən kənara çıxmayacaqdır.

**1 - Fitət dəlili; Sağlam fitrət dəlil axtarmadan da Allahın varlığına şahidlik edir**.

Allaha inanmaq hər bir insanın fitrətində olan təbii hislərdir. Sağlam ağıl bir çox ilahın deyil, yalnız bir ilahın olduğunu qəbul edir. Lakin, biz fitrət dedikdə İslam fitrətini qəsd edirik. Dedik ki, İnsanın fitrəti Allahı tanımağın, qəbul etməyi gərəkdirir. Çünki, sağlam fitrətlər Allahın varlığına şahidlik edir. İnsanın bunu görməməzlikdən gəlməsi mümkün deyil. Bu yalnız insanın asi və Rəbbindən uzaq olması halında mümkün ola bilər. Əgər insanın fitrəti sağlam olarsa, o zaman o Rəbbini tanıyacaq, qəbul edəcək, özünün Ona nə qədər ehtiyaclı olduğunu, müsibət və çətinlik zamanı Ona yönəlməyin əhəmiyyətini dərk edəcək. Alimlər deyirlər ki, sağlam fitrət Allahın varlığına dəlalət etdiyi üçün, yalnız fitrəti pozulmuş insanlara Allahın varlığı üçün müxtəlif dəlillər ərz oluna bilər.
Amma, bəzən Allahı inkar edən biri də özü bilmədən Allahı təsdiqləyir. Bu barədə olmuş bir qısa hekayəni qeyd edəcəyəm.

«Bir dəfə sinif otağında ateist müəllim tələbələrinə lövhə üzərində həndəsi bir fiqur çəkdiyi zaman şiddətli zəlzələ baş verir. Ateist müəllim dərhal əlindəki təbaşiri yerə ataraq deyir: Ay Allah (kömək ol!)

Zəlzələ qurtardıqdan və qorxusu keçdikdən sonra isə tələbələri:
Sən axı zəlzələ əsnasında Allahdan kömək istəmişdin!? dedikləri zaman, əvvəl dediyini inkar etsə də, sonra etiraf edərək deyir:
Bu fitri bir şeydir ki, yaradılışdan bizdə var!»

(əl-Fusul əl-Mufiydə, fi təqviyətil-Aqiydə, səh 38)

Ona görə də insanın kimliyindən asılı olmayaraq dara, sıxıntıya düşən kimi Allahı köməyə çağırması təbii bir haldır. Allah bu həqiqəti Quranda belə ifadə etmişdir:

«Onlar gəmiyə mindikləri zaman, dini yalnız Allaha məxsus edərək, Ona yalvarırlar. Allah onları xilas edib quruya çıxaran kimi, yenə də Ona şərik qoşurlar.» (ər-Rum, 65)

Həmçinin, başqa bir misal verək; Az olmayıb ki, ucsuz-bucaqsız quraq çöllərdən birində təsadüfən qədim bir şəhərin qalıqları tapılıb. Arxeoloqların əsas işi isə sadəcə o şəhəri kəşf etmək, sonda o şəhərin təxmini yaşını təyin etmək olur. Amma heç bir arxeoloq və ya bioloq çıxıb demir ki, həmin qədim şəhər təbiət amillərindən küləklərin, yağışların, istinin, soyuğun və s. təsiri ilə özü-özünə yaranıb!... Əgər bu zaman kimsə bizə desə ki, bu qədim şəhər səbəbsiz yerə öz-özünə yaranıb və ya özü-özünü yaradıb, onda biz o insanın ağlında bir problem olduğunu təxmin edəcəyik. Belə bir sözü heç kim deməz. **Çünki, əslində özü olmayan bir şey nəyi isə yarada bilməz!** Bu məsələ insanların ağlının şəksiz şəkildə qəbul etdiyi bir şeydir. Çünki, bir şəhərin mövcudluğu o şəhəri tikən, quran, planlayan zəkalı şəxslərin mövcudluğuna dəlalət edir.

Eləcə də sizə deyilsə ki, böyük bir qaya özü-özünə bu binanın üzərinə qalxıb, heç kim buna inanmaz. Eləcə də bir qayanın özü-özünə binanın başından endiyini desək heç kim buna inanmaz.
Çünki, cansız bir varlığın bunu etməsi mümkün deyil. Mütləq ona təsir edən, onu qaldıran və endirən varlıq barədə düşünməli olursan.

Maraqlı olan isə budur ki, insanlar təkidlə bir şəhərin onu düzəldən insanlar olmadan meydana gəlməsini mümkünsüz hesab edir və özü-özünü düzəldən şəhərin olmadığını bildirirlər, bir qayanın yüksəyə qaldırılması üçün də təkidlə kiminsə onu yüksəyə qaldırmasının gərəkdiyinə inanırlar. Lakin, onlardan bəziləri bu ehtişamlı kainatın Yaradan olmadan yarandığını mümkün sayırlar. Baxmayaraq ki, kainat bu qeyd etdiklərimizdən daha qəliz quruluşlu və daha böyük yaradılışlıdır. Allah Quranda bunu təsdiq edərək buyurmuşdur: «Həqiqətən, göylərin və yerin yaradılması insanların yaradılmasından daha böyük şeydir. Lakin insanların çoxu bunu bilmir.» (Ğafir, 57)

- Daha bir misal; Fərz edək ki, bir insan belə deyir: Mən özümü yaratmışam. Görəsən, o şəxs iddia edə bilərmi ki, göyləri və yeri yaratmışdır?! Əgər var olmayan bir şey göyləri və yeri yarada bilmirsə, əgər göylər və yer də özü-özünü yarada bilmirsə, əgər onlar bu şeylərin hamısını yaratdıqlarını iddia edə bilmirlərsə, onda bu o deməkdir ki, bütün bunları mütləq bir yoxdan Yaradan vardır. Bu Yaradan isə Uca Allahdır.

**2 - Hissi dəlillər;** Kainatda baş verən bütün hadisələr aydın bir şəkildə Allahın varlığına dəlalət edir. Bu hadisələrin ən mühümü yaradılış hadisəsidir. O baxımdan ki, Allah kainatdakı bütün varlıqları (ağacları, dənizləri, çayları, səmanı) yaratmışdır. Bu şeylərin təsadüfən yaranması və ya özü-özünü yaratması imkansızdır. Əksinə, bütün bunları yoxdan icad edən, yoxdan yaradan vardır. Necə ki, Quranda buyurulmuşdur:
«Bəlkə onlar öz-özünə yaranıblar? Yaxud onlar yaradanlardır?Yoxsa onlar göyləri və yeri yaradıblar? Xeyr, onlar qətiyyən inanmırlar» (Tur, 35-36)

Necə ki, Allah hər məxluqa onun özünə münasib qüvvə vermişdir.

Məsələn; Allah dəvəni qüvvətli yaratmış, ona yük və insan daşımaq, çətinliyə dözmək qabiliyyəti vermişdir. O bir yerdən başqa yerə agir yük daşıyır, halbuki, balıq bunu edə bilməzdi.

**3 - Şəri dəlil;** Bəşər övladına göndərilmiş bütün şəriətlər Allahın varlığına dəlalət edir. Həmçinin, şəriətlər Allahın Kamilliyinə, Elminə, Rəhmətinə və Hikmətinə dəlalət edir. Çünki, bu qanunlar yalnız kamilliklə vəsf olunan bir varlıq tərəfindən ola bilər ki, o da Allahdır.

**4 - Elmi dəlillər;** Səbəb və nəticə qanunu:
Bu qanun bəyan edir ki, hər səbəbin nəticəsi vardır. Hər nəticənin də səbəbkarı vardır. Bu isə bütün elmlərin əsasıdır. Bunun da göylərin və yerin yaranması ilə möhkəm əlaqəsi vardır. Bu məsələnin Allahın varlığına dəlil olan hissəsi isə odur ki, hər bir başlanğıcı (əmələ gəlməsi) olan varlığın mütləq şəkildə var olma səbəbi var. Kainatın var olmasının səbəbinin də Allahdan olması labüddür. Çünki, kainatın var olmasının sifətlərinin səbəbi zamanla əlaqəli deyil. Zamanın xaricində var olmaq isə Uca Allaha aid bir şeydir.

**Qayə elminin qanunu:** Bu qanun, təbiətdə olan varlıqları araşdıraraq bu varlıqların yaradılışındakı qayə, hədəf və funksiyalarını bəyan edərək kainatın yaradıcısına işarə etmək məqsədini daşıyır.

Yuxarıda qeyd etdiyimiz kimi, digər dəlillər də məhz bu dəlillərlə əlaqəlidir. Məsələn; təkcə suyun yaradılması Allahın varlığına elmi dəlil kimi bəs edir. Alimlər qeyd edirlər ki, başqa bir planetdə həyatın mövcud olması üçün mütləq şəkildə yer üzündəki  keyfiyyətdə suyun olması labüddür. Yəni, dünyada gördüyümüz həyat kimi bir həyatın başqa yerdə olması üçün suyun mövcudluğu mütləqdir. Bu da suyun neçə mühüm bir yaradılış və yüksək dəqiqliklə düşünülmüş məqsəd üçün yaradıldığına bir işarədir. Yəni, bütün ehtimallarda bu tərkibdə və bu keyfiyyətdə suyun öz-özünə yaranması mümkünsüz görünür. Allah isə Quranda suyun yaradılış və həyatdakı əhəmiyyətini belə vurğulamışdır:

«Məgər kafirlər göylərlə yer bir olduğu zaman Bizim onları bir-birindən araladığımızı, hər canlının su ilə canlı olmasını görmürlərmi? Yenədəmi inanmırlar?» (əl-Ənbiya, 30)

Ateistlər ilk mikro orqanizmlərin sudan yarandığını desələr də, özləri də bilmədən Qurandakı həqiqəti təsdiqləmiş olurlar. Lakin, alimlər hər canlının su ilə canlı olmasının anlamı barədə əsasən iki rəy demişlər. Bəzi alimlər buradakı «su ilə canlı olmaqdan» məqsədin su içməyə olan ehtiyac, bəziləri isə yaradılış suyunun qəsd edildiyini vurğulamışlar. Buradakı təfsilat odur ki, insan torpaqdan yaransa da, onun nəsli yaradılış suyu ilə davam etmişdir. Eyni zamanda insan da su içir. Oddan yaranan cinlərin də su içdiyi sünnədən sabitdir.

Artıq müasir elm də kainatdakı həyatın varlığı və davamı üçün suyun əhəmiyyətini, canlıların su ilə necə varlığını davam etdirməsini isbatlayır.

Başqa bir misal; Günəş əgər bir azca öz yerindən daha yaxında yerləşsəydi, onda yer üzündə şiddətli istidən dolayı həyat mövcud olmazdı. O cümlədən də, əgər günəş bir azca öz indiki yerindən uzaqda yerləşsəydi, onda yer üzündə şiddətli soyuqdan dolayı həyat iflic olar və mümkünlüyünü yenə itirərdi. Hətta, ay səbəbilə dənizlərdə qabarmanın baş verməsi və s. bütün yalnız təbiətin xeyrinə olan prosseslərdir. Göydəki milyonlarla ulduzların toqquşmadan dəqiq şəkildə hərəkət etmələri və s. bir çox həqiqətlər təsadüfi yaradılışı, xaos və qarışıqdan deyil, kainatdakı dəqiq ilahi nizamdan bizə xəbər verir.

Digər dəlillərə gəldikdə isə, bunlardan:

**1 - Meyar dəlili:** Bu meyar dəlilinə görə insan maddədən yaransa da, onun mənəvi aləmi, əxlaqi keyfiyyətləri, haqqı nahaqdan seçmək hisləri kimi xüsusiyyətləri Allahın bir lütfüdür. Bunu maddi aləmlə bağlamaq əqli cəhətdən mümkünsüzdür. Yəni, ateizm insanın maddədən təsadüfən yarandığını iddia etdiyi halda, insanın mənəvi aləmini, əxlaqını izah etməkdə zorlanır. Deməli, meyar dəlili həm cismin, həm də ruhun tələbatına görədir.

**2 - Məxluqun (yaradılmışın) mütləq şəkildə Xaliqi (Yaradanı) olmalıdır.** Hər bir işin görəni vardır. Heç nə özü-özünə baş vermir. **Hər bir hadisənin də səbəbi vardır.** Bu boyda kainatın özü-özünə yarandığını demək ən böyük ağılsızlıqdır.

Ona görə də heç nə səbəbsiz baş vermir. Bu sağlam düşüncəli hər bir insanın qəbul etdiyi bir şeydir. Hətta, uşaqlar belə bunu dərk edirlər. Bir misal verək; «Əgər bir uşağı onun xəbəri olmadan (onu görmədən) kimsə vurub

gizlənsə, uşaq deyəcək ki: "Məni kim vurdu?!" Əgər ona deyilsə ki, "səni heç kim vurmayıb", uşağın əqli ona təsir edənin olmadığı halda ona zərbə dəyməsini qəbul etməyəcəkdir. Əgər ona deyilsə ki, səni filankəs vurub, o da onu vurub heyifini çıxarmadıqca ağlaya-ağlaya qalacaqdır.» (Məcmuul-Fətəva, 5/358) hətta hər bir işin faili (iş görəni) olmasını, səbəbsiz yerə olmadan baş verməsini heyvanlar, hətta, həşəratlar belə bilirlər. Məsələn; bir yatmış və ya qafil inəyin üzərinə daş atılsa, o dərhal oyanıb nə baş verdiyini bilmək üçün daşın atıldığı tərəfə boylanacaq və bu işi kimin etdiyinə baxacaqdır. Çünki, o bilir ki, hər bir hadisənin səbəbkarı vardır. Bu instinkt canlılarda yaradılışdan bəri mövcuddur.

**3 - Allah bu dünyada Özünü bəndələrinə göstərmək istəməmişdir. Lakin, Qiyamət günü Allahı mömin qulları görəcək və çox sevinəcəklər. Onu inkar edənlər isə Onu görməyərək həsrətə düçar olacaqlar;** Uca Allah Quranda bu məqama toxunmuşdur: «O gün neçə-neçə üzlər nurlanacaq və öz Rəbbinə baxacaqdır.» (Qiyamət, 22-23) Bu ayə dəlildir ki, Allah mömin qullarına görsənəcəkdir. Lakin, bu dünyada Allahı görmək mümkün deyildir. O zaman ki, Musa (AleyhisSələm) Allahı görmək istədi. Allah bu dünyada ikən Onu görməsinin mümkünsüz olmasını bildirdi. Quranda həmin hadisə belə hekayə edilmişdir: «Musa təyin etdiyimiz vaxtda gəldikdə Rəbbi onunla danışdı. Musa dedi: “Ey Rəbbim! Özünü mənə göstər, Sənə baxım”. O dedi: “Sən məni (bu dünyada) görə bilməzsən. Lakin bu dağa bax. Əgər o, öz yerində qala bilsə, sən də Məni görəcəksən”. Rəbbi dağa göründükdə onu parça-parça etdi. Musa da bayılaraq yerə sərildi. Özünə gəldikdə isə dedi: “Sən pak və müqəddəssən! Sənə tövbə etdim və mən iman gətirənlərin birincisiyəm!”» (əl-Əraf, 143)

Peyğəmbərimiz də (Allahın Ona salavatı və salamı olsun) möminlərin Allahı cənnətdə görəcəklərini səhih (mötəbər) hədislərdə bildirmişdir. Deməli, Allah bu dünyada özünü qullarına göstərmək istəməmişdir. Lakin, cənnətdə mömin qullarına özünü göstərəcəkdir. Zatən, insanlar bu dünyada ikən Allahı görsəydilər, artıq imtahan dünyasının bir mənası olmazdı. Onda hər kəs Allaha inanardı və insanların mələklərdən fərqi olmazdı. Çünki, mələklər Allaha asilik etməz, Ona tam, yəqinliklə iman gətirərlər. İnsan isə şəkk və yəqinlik arasında doğru seçim etməklə mələklərdən daha yüksək məqama yüksələ bilir.

Elə bu məqamda onu da qeyd etmək yerinə düşərdi ki, bəzi ateist və deistlər deyirlər ki, **olmazmiydi ki, insan bu dünyada ancaq ləzzət və nemət içində olaydı?!** Bu da özlərini aldatdıqları bir sualdır. Çünki, birincisi həmin aləm cənnət deyilən yerdə olacaq, Allah tam nemətlər və ləzzətlər aləmi olaraq cənnəti yaratmışdır. Bu dünya əməl meydanıdır, cənnət və cəhənnəm isə qarşılıq, əvəz verilmə, mükafatlandırma və ya cəzalandırma aləminə aiddir. Bu şeyləri qarışdırmaq olmaz. İnsan iş vaxtıyla istirahət vaxtını qarışdırarsa, problemlə üzləşdiyi kimi, əməl meydanıyla cəza meydanını da qarışdırarsa, problemlə üzləşəcəkdir. Bütün bu cür suallar əslində dini savadsızlıqdan qaynaqlanır.

**4 - Dünyada xeyirin və şərin mövcud olması Allahın varlığına dəlalət edir.**

1) Şərin əksi olan xeyir: Şərin mövcudluğunun əqli və psixoloji cəhətdən təsdiqlənməsi, xeyirin də açıq-aydın mövcudluğunun təsdiqlənməsinə dəlildir. Xeyirin mövcudluğu isə Allahın mövcudluğuna dəlildir. Tamamilə

maddə ilə əlaqəli olan bir dünyada isə xeyirin olması mümkün deyil. Halbuki, xeyir mövcuddur. Bu da Allahın varlığına dəlalət edir.

2) Şərin özü varlığın yaradılmasına dəlalət edir. Çünki, ateistlərdən bir çoxu belə Allahın qüdrətinə şəkk etmələri ilə demək istəyiblər ki, Allah kamildirsə, niyə hər şeyi kamil etməyib və niyə naqisliklər var? Lakin, əvvəlcə unudublar ki, yaradılışda hər şeyin kamil olması şərt deyil. Allah istədiyi kimi yaradır. Lakin, bir şeydə razılaşıblar ki, Allah kamil olmalıdır. Yaradılmışların naqis olması, naqis varlıqları isə Kamil olanın yaratması sağlam ağılın qəbul etdiyi həqiqətlərdəndir. Bu nahiyədən də şərin mövcudluğu Allahın varlığına dəlalət edir. Allah şərlə qullarını imtahana çəkir. Üstəlik onlara seçim də vermişdir. Məxluqlar naqis, Allah isə kamildir. Zatən, həm ateistlərin, həm də iman əhlinin ittifaqına görə əgər Allah varsa, o Kamil olmalıdır. Kamil olmayan məxluqların yaradıcısı isə yalnız Kamil olan Allah ola bilər.

3) “Xeyir və şər nəyə lazımdır?” deyənlər çirkin olmasa, gözəlin qədrini bilinməz, pis olmasa, yaxşının qədrini bilinməz, xəstəlik olmasa sağlamlığın qədrini bilinməz və s. bir-birinə tərs mütənasib bir çox misalları çəksək dərhal razılaşarlar. Onlar bu dünyanın rəngarəng və maraqlı olması üçün bu bir-birinə əks olan məfhumların var olmasının hikməti barədə düşünsələr, bunun arxasında hər şeyə Qadir olan Uca Allahın olduğunu anlayarlar.

### 5 - Ağrı, əsrarəngiz gözəlliklər, bənzərsiz nizam və hikmətlər:

İnsanın ağrı hiss etməsi necə baş verir? Ağrı olmasaydı

insan bədənindəki problemləri necə bilərdi və nələr baş verərdi? Bu təsadüfdürmü? Bunu insan bədənində proqramlaşdıran kimdir? Dünyadakı əsrarəngiz gözəlliklərin yaranması təsadüfdürmü? Yoxsa, bunları düşünərək Yaradan vardır? Təbiətdəki bəzi gözəlliklər bəzən insanı bihuş edir.

Həmçinin, İsaac Nyuton demişdir: «Günəşin, planet və ulduzların əsrarəngiz dəqiq nizamının ərsəyə gəlməsi yalnız Qüdrətli, (hər şeyi hökmündə saxlayan) Hökmdar olan bir Yaradanın tərəfindən mümkündür. O hər şeyə hökm edir.» (Newton, 1687, principia)

Albert Eynşteyn demişdir: «İnsan hər dəfə təbiətin sirlərini öyrəndikcə, Allaha olan təzimi (Onu Uca hesab etməsi) və ehtiramı çoxalır!» (Mənbə: Einstein, as cited in brian, 1996, 119)
Həmçinin, o yenə demişdir: «Hər dəfə elm öyrəndikcə Allaha olan inancım daha da artdı.» (Mənbə: Einstein, as Cited in Holf, 1997)

Bu qəbildən olan sözləri daha çox oxumaq istəsəniz bu keçidə daxil olub "İman zəkalılar üçün deyilmi?" adlı həmin məqaləmizi oxuya bilərsiniz:

http://senxatirlat.com/iman-zekalilar-ucun-deyil/

**6 - Heyvanlardakı ibrətlər Allahın varlığına dəlalət edir:**

Əgər heyvanlara, onların yaradılışına, onlara verilən müxtəlif xüsusiyyətlərə, onların ruzilərini, qidalarını

qazanma yollarına baxsaq, onları yönəldən bir qüvvəni görərik.

Məsələn; bal arısı uzun məsafələrə, əvvəllər getmədiyi gül-çiçək olan yerlərə xətaya yol vermədən gedir və həmin yerləri taparaq ruzilənir. Quranda bu barədə Allah buyurur: Rəbbin bal arısına belə vəhy etdi: "Dağlarda, ağaclarda və insanların düzəltdikləri çardaqlarda özünə pətəklər hör. Sonra bütün meyvələrdən ye və Rəbbinin səndən ötrü asanlaşdırdığı yollarla get". O arıların qarınlarından tərkibində insanlar üçün şəfa olan müxtəlif rəngli bal çıxır. Həqiqətən, bunda düşünən adamlar üçün dəlillər vardır.» (ən-Nəhl, 69)

Deməli, bal arısı Allahın ona verdiyi instinkt ilə ona asanlaşdırılmış yollarla öz qidasını tapmış olur. Sonra bal arısının düzəltdiyi bal da Allahın nişanələrindəndir. Bal insanlar üçün bir şəfadır. Bal pətəklərinin altıbucaqlı olması, arının yalnız həmin altıbucaqlı pətəklərə öz yığdığı balı depolaması, başqa sayda bucaqları olan pətəklərə bunu etməməsi də düşündürücüdür.

Tovuzquşunun quyruğu, əlvan və heyrətamiz görünüşü Darvini çox düsündürmüşdü. Çünki, o bilirdi ki, tovuzquşu kimi gözəl görünüşlü bir quşun təsadüfən yaranmasını demək insanlar arasında çox ağır bir iddia olaraq qarşılanıla bilər.

Qarışqanın öz azuqəsini toplaması, özünə ev qurması, özündən dəfələrcə ağır olan yemini daşıya bilməsi hamımızın bildiyi həqiqətlərdir.

Filin uzun xortumunun əl funksiyasını yerinə yetirməsiylə həm bununla su içməsi, həm də qidalanması Qüdrətli  Yaradana işarə edir.

Quşların ən sadə və rahat şəkildə havada uçması, ilk təyyarənin məhz quşların göydə uçmasına baxıb düzəldilməsi…

Yırtıcı heyvanların rahat ov etmələri üçün pəncə və caynaqlarının, kəskin iti dişlərinin olması…

Bəzi heyvanların ən peşəkar memarları belə heyrətə gətirən yuvaqurma qabiliyyəti…

İstiyə ən dözümlü heyvanlardan olan dəvənin günlərcə yemək yemədən su içmədən belindəki yağları əridib uzun məsafələri qət etməsi…

Bəzi heyvanların başqa heyvan növlərinə rəhmət və qayğı göstərməsi…

İnək, dana, qoyun və keçi kimi heyvanların südünün içiliməsi, yunu və s. istifadə olunması.

At, qatır, uzunqulaq  kimi bəzi heyvanların insanın xidmətində olması.

Uzun ayaqlı quşların (leylək kimi) su içində rahat şəkildə ov etməsi, bu uzun ayaqlar vasitəsilə diqqətini ova tərəf

cəmləyib daha asan ov etməsi və ovunu asanlıqla qaçırmaması…

Ayının çayın balıq olan yeri bilməsi və həmin yerdən balıq ovlaması. Ayının heç bir şeydən qorxmadan uzun müddət qış yuxusuna getməsi…

Dənizlərdəki balıqların müxtəlif və möhtəşəm qidalanma metodları, onların havada deyil, suda yaşamasının necə təmin edilməsi və bir çox məsələlər…

O misallar ki, bu kiçik yazıda saymaqla bitməz…

Bütün bunlar heyvanların onları yaradan tərəfindən öz xeyirlərinə, qidalarına yönəldilmələrinə dəlalət edir. Onları Yaradan onların nəyə ehtiyacı olduğunu çox gözəl bilir. Ona görə də Allah Quranda buyurmuşdur:

«Yer üzündə elə bir canlı yoxdur ki, onun ruzisini Allah verməsin. Allah onların qərar tutduqları yeri də, qorunub saxlanıldıqları yeri də bilir. Bunların hamısı açıq-aydın Yazıdadır (Lövhi-məhfuzdadır).» (Hud, 6)

Yaradılmışlar arasındakı bu heyrətamiz fərqləri, qeyri adi bacarıqları və imkanları gördükcə insan bəşər qanunlarının fövqündə olan ilahi qanunları və Allahın varlığını hiss edə bilər.

## 7 - İnsanın öz yaradılışı Allahın varlığına dəlalət edir;

İnsanın öz yaradılışına baxması əslində Allahın Qüdrətini dərk etməsi üçün bəs edir. Uca Allah Qurani-Kərimdə buyurmuşdur:
«Qəti inananlar üçün yer üzündə dəlillər vardır. Sizin özünüzdə də dəlillər vardır. Məgər görmürsünüz?» (əz-Zəriat, 21)

Xromosomlarda insanın bütün genetik məlumatlarının toplanması, heç bir insanın barmaq uclarının başqasına bənzəməməsi, qan damar sisteminin mükəmməl quruluşu, insanın mükəmməl həzm sistemi, sümük və oynaqların mükəmməl quruluşu, gözün mükəmməl quruluşu və daha necə şeylər ki, bu, insan bədəninin necə böyük bir ilahi əsər olduğunu sərgiləyir. İnsanın bu barədə düşünməsi onun böyük bir yaradıcı qüvvə olan Allahın varlığını təsdiqləməsi üçün kifayət edir.

## 8 - Yaradılış və icad dəlili;

**Birincisi**; bu dəlilə əsasən canlılar var olmadan yaradılıbdır. Yəni, əvvəl olmayan şeylər sonradan mövcud olub, yaradılıblar.

**İkincisi** isə, hər bir şey ki, əvvəl olmadığı halda sonradan yaranmışdır, mütləq şəkildə onun bir yaradıcısı vardır.

## 9 - Quranda Allahı tanımaq yolları:

«əl-Fəvaid» kitabında deyilir: «Uca Allah Quranda qullarını Onu tanımaq üçün iki yola dəvət edir:

**Birincisi;** Onun (kainatda) etdiyi feillərinə baxmaq.

**İkincisi:** Onun ayələri barədə fikirləşmək, düşünmək.

- **Onun (kainatda) etdiyi feillər** Quran və hədislərdə qeyd olunduğu kimi ilahi sifətləri lazımlı edir, çünki, feilin (işin) baş verməsi onu edən faili (işi görənin varlığını) gərəkdirir, bu da Allahın varlığına, Onun Qüdrətinə, İradəsinə və Elminə dəlalət edir. Ona görə ki, qüdrəti, həyatı, elmi və iradəsi olmadan var olan və ya ümumiyyətlə var olmayan bir şeyin seçim edərək iş (feil) görməsi mümkünsüzdür.

Həmçinin, müxtəlif xüsuslarda işlərin bir cür və təkrarsız görülməsi də failin (işi görənin) iradəsinə və gördüyü işin özbaşına (öz-özünə) baş vermədiyinə dəlalət edir.
Bunda Allahın hikmətinə dəlalət edən neçə-neçə məsləhətlər, hikmətlər və tərifəlayiq qayələr vardır.
Bunda Allahın Rəhmətinə dəlalət edən neçə-neçə faydalar, yaxşılıqlar və xeyirlər vardır……..

- **Onun ayələri barədə fikirləşmək, düşünmək;** Allahın nişanələri (ayələri) görülən (təbiətdə olan) və (Quran oxunduğu zaman) eşidilən, anlaşılan olur.

**Allahın görülən (müşahidə olunan) ayələrinə misal olaraq** Quranda deyilir:
«Həqiqətən də, göylərin və yerin yaradılmasında, gecə ilə gündüzün bir-birilə əvəz olunmasında, insanlara fayda verən şeylərlə yüklənmiş halda dənizdə üzən gəmilərdə, Allahın göydən endirdiyi, onunla da ölmüş torpağı diriltdiyi suda, Onun bütün heyvanatı yer üzünə yaymasında, küləklərin istiqamətinin dəyişdirilməsində və göylə yer arasında ram edilmiş buludlarda, başa düşən insanlar üçün dəlillər vardır.» (əl-Bəqərə, 164)

Həmçinin, başqa ayədə belə deyilir: «Doğrusu, göylərin və yerin xəlq edilməsində, gecə ilə gündüzün bir-birini əvəz etməsində ağıllı adamlar üçün dəlillər vardır.» (Ali İmran, 190)

**Allahın (Quran oxunduğu zaman) eşidilən, anlaşılan ayələri barədə isə** Quranda belə deyilir: «Məgər onlar Quran barəsində düşünmürlərmi?» (ən-Nisa, 82) həmçinin: «Məgər onlar bu Söz haqqında düşünmürlərmi?» (əl-Muminun, 68) həmçinin deyilir: «Bu mübarək Kitabı, insanların onun ayələrini düşünüb anlaması və ağıl sahiblərinin də ondan ibrət götürməsi üçün sənə nazil etdik.» (Sad, 29) bu da (bu ayələr) həmçinin çoxdur. (əl-Fusul-əl-Mufiydəh, fi təqviyətil-Aqiydəh, səh 34; ixtisarla)

**10. Allaha ibadət etmək üçün yaradılmışıq:**

Sonda bütün bu danışdıqlarımızdan belə bir qənaətə gəlmək olar: «“Göyləri və yeri yaradan Allaha şəkk etməkmi olar? O, günahlarınızı bağışlamaq və sizə müəyyən vaxta qədər möhlət vermək üçün sizi iman gətirməyə çağırır”.» (İbrahim, 10)

Həyat qayəsiz deyildir. Hara qaçsaq da, bir gün öləcəyik. Biz Ona yəqinliklə inanmalı, Ona ibadət etməli və bizi yoxdan yaradan Xaliqə öz qulluq borcumuzu yerinə yetirməliyik! Allaha bu dünya və axirətdə həqiqi mənəvi həyat yaşayıb xoşbəxt olmaq üçün inanmalıyıq! Allaha inanmaq Uca Allahın haqqıdır! Allaha inanmalıyıq ki, mənasız həyatdan xilas olub mənalı, həqiqi həyat yaşayaq! Allaha Ona görə inanmalıyıq ki, biz insanlar əbəs yerə yaradılmışıq! Uca kainatın Yaradıcısı ən çox sevilməyə və ən çox qorxulmağa layiqdir. Bəli, biz Ona ibadət etməliyik! Çünki, biz bunun üçün yaradılmışıq! Ona görə də Uca Allah buyurmuşdur:

«Mən cinləri və insanları ancaq Mənə ibadət etmək üçün yaratdım.» (əz-Zəriat, 56)

Allah bizi ona ibadət üçün yaratsa da, Onun bizim Ona ibadət etməyimizə ehtiyacı yoxdur. Bu ibadət isə gündəlik həyatda çox az vaxt alır. Bununla yanaşı Allah insanlara bir çox hüquqlar vermişdir, o bizdən bütün günü ibadət etməyimizi də istəmir. O sadəcə Yaradanimizi tanıyıb Ona layiqli qul olmağımızı istəyir.

- **İstifadə edilmiş ədəbiyyat:**


- Qurani-Kərim.
- əl-Fusul-əl-Mufiydə fi təqviyətil Aqiydə.
- Minhəcul-Muslim, Əbu Bəkr əl-Cəzəiri.
- Muşkilətuş-Şər va Vucudilləh. əl-Aciyri.

- Bərahin əl-Aqliyyə alə Vucudilləh, əs-Sədi.
- əl-Ədillətu Alə Vucudilləh, Omar Süleyman
- **Allah yətəcəllə fi Asril-İlm, nuxbətun minəl-Bəəhisin.**
- Einstein, as Cited in Holf.
- Yaqeen.net - əl-Ədillətu alə Vucudilləh.
- Mawdo.com - əl-Ədillətu alə Vucudilləh.

## ALLAHI KİM YARADIB? – SUALI BARƏDƏ.

Həmd olsun aləmlərin Rəbbi olan Allaha, Allahın salamı və salavatı olsun peyğəmbərimiz Muhəmmədə, onun ailəsinə və səhabələrinə. Şahidlik edirəm ki, Allahdan başqa ibadətə layiq olan haqq məbud yoxdur, təkdir və şəriki yoxdur və şahidlik edirəm ki, Muhəmməd Onun qulu və elçisidir. Bundan sonra:

Bu sual ateistlərin verdiyi əslən yalnış olan və doğru olmayan sualdır.

Əvvəla, deyək ki, bu sualda hiylə var. Hiylə odur ki, bir şeyin hökmünü başqa bir şeyin hökmüylə qarışdırırlar. Yəni, Xaliqlə (Yaradanla) məxluqun (yaradılmışın) böyük fərqi var. Allahın yeməyə, içməyə, yatmağa, mürgüləməyə və s. ehtiyacı yoxdur. Allah ölmür, insan isə ölür. Allah Əzəli və Əbədidir.

Bir misal verək; Bir dülgər qapı düzəldir. Dülgərin qapını düzəltməsi o demək deyil ki, dülgərlə onun düzəltdiyi qapı eyni xüsusiyyətlərə malikdir. Dülgər, yeyir, içir, yatır, qapı isə bunları edə bilmir. Ona görə də dülgərlə qapı arasında belə fərq olduğu halda, bəs bütün kainatı Yaradanla onun yaratdıqları necə bəsit bir sualla müqayisə oluna bilər? Ona görə də Allah Quranda buyurmuşdur:

**«De: “O Allah Təkdir! Allah Möhtac deyildir. O, nə doğub, nə doğulub, Onun bənzəri də yoxdur”.»** (əl-İxlas surəsi, 1-4)

Daha bir misal verək. Məsələn; Allah Rəhimdir deyəndə bir insan rəhməti anladığı kimi düşünür. Halbuki, Allahın necə Rəhmli olduğunu tam mənada düşünə bilmir. Allahın gözəl adlarından biri də əl-Əvvəldir, yəni ondan əvvəl heç nə

mövcud olmayıb. Allah buyurur: **«Onun (Allahın) mislində heç bir şey yoxdur.»** (əş-Şura, 11)

Təsəvvür etməklə anlamaq ayrı-ayrı şeylərdir. İnsan bir şeyi təsəvvür etməyə çalışa bilər, lakin, hər təsəvvür olunan şey düzgün və öz həqiqi anlamında başa düşülməyə bilər.

Ey ateistlər! Əgər siz bizim Allahdan əvvəl heç nə olmadığına inanmağımızı məntiqsiz hesab edirsinizsə, o zaman sizin də maddədən əvvəl heç nə olmadığını deməyiniz daha məntiqsizdir.

Həmçinin, bir şeyi görməmək o şeyin varlığının olmadığı mənasına gəlmir. Bir misal verək: Evdə oturmusan, birdən qapı döyülür. Sən həmin anda qapını döyənin kim olduğunu bilmirsən. Amma, kiminsə və ya nəyinsə qapıya toxunduğunu və ya qapını döydüyünü qəbul edirsən. Deməli, qapını döyəni görmədiyin üçün qapını kiminsə döydüyünü də inkar edə bilməzsən.

Həmçinin, ateistlər qeyb aləmini inkar edirlər. Lakin, özləri də bilmədən qeybi təsdiqləyirlər. Bu necə baş verir? Yəni onlar bu boyda aləmin öz-özünə maddədən yarandığını, özü də bunun təsadüfən baş verdiyini iddia edirlər. Yəni, görmədikləri, onlara görə qeybdə olan bir şeyə inanırlar. Biz müsəlmanlar isə qeyb aləmini təsdiqləmiş və qeybə iman gətirmişik. Biz də onlara sual verdikdə ki, Allahı kim yaradıb deyə sual verdiyiniz kimi, biz də soruşuruq, bəs maddəni kim yaradıb? Ağıllı bir insan isə hər bir sənət işinin sənətkarı olmasına inanır, bir şey düzəldilibsə, onun düzəldəni də var. Sadəcə Allah bənzərsiz olduğu üçün, bu dünyada bizə özünü göstərmək istəmədiyi üçün biz onu görə bilmirik. Quranda Allah buyurub ki:

**«Gözlər Onu dərk etmir. O isə gözləri dərk edir»** (əl-Ən`əm, 103)

Lakin, Qiyamət günü həqiqi iman sahibləri Allahı görəcəklər. O kəslər ki, Allaha bu dünyada onu görmədən inanıblar, bu **«Qiyamət günü Cənnətdə Allahı görmək»** ən böyük feyz və mükafat olacaqdır. Ona görə də özünüzü bu böyük mükafatdan məhrum etməyin. Allahı o dünyada görməyə Qurandan dəlil isə bu ayədir:

**«O gün neçə-neçə üzlər nurlanacaq və öz Rəbbinə baxacaqdır.»** (əl-Qiyamə, 22-23)

Elmi cəhətdən də insan gözü məhdud çərçivədə və məhdud uzaqlığı görür. Görmədiyimiz o qədər ulduzlar var ki! Lakin, biz ulduzların mövcudluğunu onları görməsək də qəbul edirik.

Həmçinin, günəşin işığı özündəndir, ay isə işığını günəşdən alır. Bu da bir elmi faktdır. Bir insanın günəş işığının özündən olduğunu bildiyi halda günəş işığını hansı planetdən alır? – deyə bir sual verməsi məntiqsiz olduğu kimi, onun – Allahı kim yaradıb? – deməsi də məntiqsiz bir sualdır. Çünki, Allahın Yaradıcı olması Onun yaradılmaması anlamındadır. Bu Allaha məxsus bir keyfiyyətdir ki, Quranda **«O doğmayıb və doğulmayıb»** deyilir.

Başqa bir misal deyək; Eləcə də *«su niyə islaqdır?»* deyə məntiqsiz bir sual verildiyi zaman sual verənə deyərik ki, suyun islaqlığı özündəndir. Kiminsə və ya hansısa maddənin onu islaq etməsinə ehtiyac yoxdur. Beləcə görünür ki, bu sual – Allahı kim yaratdı? – sualı da məntiqsiz və hiyləli bir sualdır. Söz oyunu desək daha doğru olardı.

Həmçinin, bilmək lazımdır ki, Məhəmməd Peyğəmbər (salləllahu aleyhi va səlləm) birbaşa bu şübhəyə münasibət bildirmişdir. Biz müsəlmanlar bu hədisi eşitdikdə daha da bu dinin insanı maraqlandıran ən mühüm suallara necə cavab verdiyinin şahidi oluruq və yəqinliyimiz daha da artır. Bu ən mötəbər hədis kitablarında gəlib. Hədis belədir: «Peyğəmbər (salləllahu aleyhi va səlləm) buyurdu: **«İnsanlar bir-birinə sual verərlər ki, Allah yaradılmışları yaratdı, bəs Allahı kim yaratdı? Kim özündə belə bir şey hiss edərsə qoy desin: Allaha və Peyğəmbərinə iman gətirdim.»** (Muslim, 134; İman kitabı)

Bu dediyimiz hədis imanda şəkkə düşən şəxsin edəcəyi duadır. Buxari və Müslimin müştərək rəvayət etdiyi hədisdə isə bu duadan əlavə “Allahı kim yaratdı?” sualının bir şeytani vəsvəsə olduğu qeyd olunur və deyilir: ***«Qoy (bu şübhəyə düşən insan) Allaha sığınsın və buna son qoysun.»*** Yəni, bu şübhənin ardınca getməsin, bu barədə düşünməyə son qoysun.

Xülasə odur ki, Allah Yaradandır, Onun Yaradan olması, yaratdıqlarına bənzəməməsi bəs edir ki, biz onu yaradılmışlarla müqayisə etməyək. Çünki, insan və digər məxluqlar yeyib-içir, yatır, yorulur, ölür və s. Allah bu xüsusiyyətlərdən uzaq olduğu kimi yaradılmağa ehtiyacı olmaqdan da uzaqdır. O, Özündən əvvəl heç nə olmayan Əvvəldir və məxluqatın Yaradıcısıdır.

# Təbiətin yaratdıqları? Yoxsa, Allahın yaratdığı təbiət?!

Bəzi insanlar deyirlər: "təbiətin yaratdığı canlılar" və yaxud da "təbiətin verdiyi nemətlər" və s. Bununla da, təbiəti yaradıcı qüvvə kimi göstərməyə çalışır, Allahı Yaradan olaraq göstərməkdən qaçırlar. Onların qətiyyən «Allahın yaratdığı canlılar» və ya «Allahın verdiyi nemətlər» dediklərini eşitməzsən. Onlar təbiətə Allahın bəxş etdiyi qeyri-adi halları Allahın qüdrəti kimi deyil, "təbiətin özündən olan qüdrət" kimi vəsf edirlər.

Halbuki, bu düşüncə tamamilə maddiyyatçı düşüncədir. Onlara görə "hər şeyi təbiət yaradıb" və ya "təbiət özü-özünü yaradıb". Bu cür danışanlar həyatda olmalarının həqiqi mənasını hələ də başa düşməmişlər.

**İlk öncə onlara deyirik ki, "təbiət" dedikdə nəyi qəsd edirsiniz?**

Təbiət dedikdə varlıqları nəzərdə tutursunuz, yoxsa, kainatın idarə olunduğu qayda-qanunu və ya nizam-intizamı nəzərdə tutursunuz? Yoxsa, "təbiət" sözündən qəsdiniz bu kainatı ərsəyə gətirən, ixtira edən başqa bir gücdürmü?!

Əgər desələr ki, biz kainatın özünü qəsd edirik, onda deyirik ki, olmayan bir şey özünü necə yarada bilər?! Bu söz "bir şey özünü yaradır" sözünü təkrarlamaq kimidir. Sanki, deyirsən ki, kainat kainatı yaradıb, səma səmanı yaradıb, yer yeri yaradıb, varlıq da insanı və heyvanı yaradıb. Bu söz ağıla, məntiqə ziddir. Eynilə də bir şeyin özündən daha yaxşısını yaratmasını demək məntiqə ziddir. Yer, səma, ulduzlar, günəş və ayda ağıl, görmək və eşitmək

yoxdur. Bu şeylər necə ağıllı, görən və eşidən insanı yarada bilir?! Bu baş verə bilməz!

Əgər deyilsə ki, bunların hamısı təsadüfən yaranmışdır, deyirik ki, bizə yəqinliklə sabitdir ki, heç nə təsadüfən yaranmır. «Təsadüfi yaranma» mövzusunda bu məsələni daha geniş izah edəcəyik inşəAllah!

**Özü-özünü yaratmaq nəzəriyyəsi:**

"Təbiətin yaradan olmasına" inanmaq, bunu müəyyən sözlərlə izhar etmək müasir bütpərəstliyin yayılmış bir formasıdır. Bu cür sözləri biologiya (təbiətşünaslıq) alimlərindən də bəziləri deyir, üstəlik də qurdun insan və ya heyvan nəcisindən əmələ gəlməsini, bakteriyanın əmələ gəlməsini və bu zaman yeməyi yeyib xarab etməsini bu fikirə dəlil kimi təqdim edirlər.

Çox keçmədən bu yeni bütpərəstlik əqidəsinə Fransız alimi Paster cavab verdi və bu etiqadın batil olduğunu elmi şəkildə isbat etdi. O sübut etdi ki, iddia olunan qurd və bakteriyanı təbiət yaratmır, əksinə, bu varlıqlar gözün görə bilmədiyi əsli olan kiçik varlıqlardır. O, sözünün doğruluğunu göstərən, alimləri qane edən dəlillərini təqdim etmişdir. O, bir qidanı havadan uzaq tutaraq bakteriyaları isti buxarla məhv edir. Bu zaman nə yeni bakteriyalar yaranmır, nə də yemək xarab olmur. Bu nəzəriyyə qidaların paketlənməsi sənayesi sahəsində irəli sürülmüşdür.

**"Təbiət" kainatda hökmranlıq edən qanunlardır?**

Bəzi insanlar isə, elə hesab edirlər ki, təbiət, kainatdakı hökmranlıq edən qanunlardır. Bu rəy təbiətin "yaradan" olmasını deyənlərin rəyidir.

Onlar deyirlər ki, bu kainat özünün hər bir hissəsini idarə edən qanunlara və nizamlara əsasən hərəkət edir, orada baş verən hadisələr də bu qanunlara əsasən baş verir. Buna da bir saatın uzun müddət boyunca dəqiqlik və nizamla hərəkət etməsini misal çəkirlər. Onun "hərəkət etdirən olmadan hərəkət etməsini" buna dəlil gətirmək istəyirlər. Halbuki, o saatı düzəldən kiminsə olduğunu unudurlar! O saatı ilk dəfə istehsal edən onun bu sxemdə olmasını təmin etmişdir.

Bu rəydə olanlar sözün həqiqi mənasında bu suala cavab vermirlər! – Kainatı kim yaradıb?! Bu sual cavabsız qaldığı halda, onlar bizə "kainatın necə hərəkət etməsinin qanunlarını" cavab kimi təqdim edirlər. Halbuki, biz onlardan bu əzəmətli kainatı yaradan və kainatın idarə edildiyi qanunları yaradan varlıq barədə sualımıza cavab istəyirik!…

Qədim insanlar yağışın səmadan yağdığını bilirdilər. Lakin, bu gün biz dənizlərdə suyun buxarlanması prosesi barədə çox şeyi öyrənə bilirik. Biz bunu tam görüntülü gerçək halı ilə öyrənə bilirik. Özü özlüyündə isə bunun bir izahı yoxdur. Yəni, elm bizə bu hadisələrin necə elmi qanunlara çevrildiyini, göylə yer arasında bu proseslərin necə faydalı və müdhiş formada ortaya çıxmasını və s. bizə elmi qanunlar icad etməklə izah etmir.

İnsanın "təbiət qanununu kəşf etməsi kainatın izahının tapılmasıdır" demək bunu deyənin yalnız özünü aldatmasıdır. Çünki, "kiçik təbiət" kainatın heç nəyini izah etmir. Çünki, təbiətin özünün izaha ehtiyacı vardır.

İndi isə, fikrimizi daha aydın izah etmək üçün sizə ağıllı bir kişi və elmilə seçilən bir həkim arasında baş verən söhbəti qeyd etmək istəyirəm:

**-Kişi**: Qanın qırmızı olmasının səbəbi nədir?

**-Həkim**: Çünki, qanın tərkibində qırmızı rəngli hüceyrələr var. Hər bir hüceyrənin həcmi isə 1/700 qədərdir.

**-Kişi**: Çox gözəl, bəs bu hüceyrələr niyə qırmızı olur?

**-Həkim**: Çünki, bu hüceyrələrdə homoqlabin adlı maddə var ki, bu maddə ürəkdə oksigenlə qarışdıqda qırmızı rəngə bürünür.

**-Kişi**: Çox gözəl, bəs bu hemoqlabin daşıyan hüceyrələr haradan meydana gəlir?

**-Həkim**: O, sənin ciyərlərində hazırlanır.

**-Kişi**: Qəribədir! Bəs görəsən bu qədər çoxlu şeylər necə qanla, hüceyrələrlə, ciyərlə və başqa şeylərlə əlaqəni necə qurur? Bunların bəziləri digərlərilə necə sıx əlaqədədir. Görəsən, bu şeylər üstün bir incəliklə öz öhdəsinə düşən vacib işi necə yerinə yetirir?!

**-Həkim**: Bax, biz bunu təbiət qanunu adlandırırıq.

**-Kişi**: Lakin, bu təbiət qanunundan məqsəd nədir, ey möhtərəm həkim?

**-Həkim**: Bu qanundan məqsəd təbiətin və kimyanın daxilinin dərinliklərindəki hərəkətlərdir.

**-Kişi**: Lakin, nə üçün bu qüvvələr daima məlum nəticələri hədəf götürür? Bu qanun quşların havada uçması, balıqların suda yaşaması, insanın dünyada var olması, o cümlədən də, bütün imkanları və qəribə təsirli bacarıqlarını yerinə yetirməklə öz aktivliyini necə nizamlayır?!…

**-Həkim**: Məndən bunu soruşma… Çünki, mənim elmim yalnız baş verənlərdən bəhs edir. Bu elm (təbiətşünaslıq) "nə üçün" sualına cavab vermir.

Bu suallardan kainatın arxasında gizlənən səbəblərin, sirlərin izahında müasir elmin hansı səlahiyyətə malik olduğu aydın olur. Həqiqətən də, kainatın məsəli öz örtüyü ətrafında dövr edən bir alətin məsəlinə bənzəyir. Onun haqqında bildiyimiz yalnız onun dövrə vurmasıdır. Lakin, əgər biz bu alətin örtüyünü qaldırsaq, onun çoxlu halqa və çarxlarla necə hərəkət etdiyini, bir-birilə birgə dövrə vurduğunu və onun bütün hərəkətlərini müşahidə edə bilərik. Lakin, görəsən, biz sadəcə bu alətin daxilindəki hərəkətləri görməklə onu kimin düzəltdiyini öyrənə bilirikmi? Məntiqi cəhətdən necə anlaşıla bilər ki, bizim bu prossesi müşahidə etməyimiz o alətin öz-özünə düzəldiyini sübut edir?!

**"Təbiət qüvvədir" fikri barədə…**

Bəzi insanlar deyirlər ki, təbiət, kainatı icad edən, eşidən, görən, müdrik, bacarıqlı bir canlı qüvvədir. Biz də onlara deyirik ki, bu doğru və haqdır. Lakin xətanız odur ki, siz bu qüvvəni "təbiət" adlandırırsınız. Bu isə, kiçik xəta deyil.

Bu əsrarəngiz yaradıcı qüvvə Yaradanın layiq olduğu «Allah» adına işarə edir. Biz Allahı Uca Ad və Sifətləri ilə tanımışıq. Ona görə də biz gərək Allah özünü Quranda nə ilə adlandırıbsa, o cür də adlandıraq:

**«Onların əcdadları da elə onlar kimi danışırdılar. Onların qəlbləri bir-birinə oxşayır.»** (əl-Bəqərə, 118)

Yaradılışı bu kainata nisbət edənlər də buna bənzər sözlər demişlər. Onların bu məsələdə sələfləri var. Onlara

«Dəhriyyə» də deyilir. Onlar baş verən hadisələri zamana nisbət edirlər. Onlar görüblər ki, kiçik böyüyür, böyük qocalır, qoca isə zaman keçdikcə ölür, gecə və gündüz bir-birini əvəzləyir, beləcə həyatı və ölümü də zamana nisbət etmişlər. Allah onlar barəsində Quranda buyurmuşdur:

**«Onlar dedilər: "Həyat ancaq bizim dünya həyatımızdır. Kimimiz ölür, kimimiz də doğulur. Bizi öldürən ancaq zamandır". Bu haqda onların heç bir biliyi yoxdur. Onlar ancaq zənnə qapılırlar.»** (Casiyə, 24)

Ona görə də, təbiət hadisələrinin idarəsini Allahdan qeyrisinə nisbət etmək küfrdür və qadağandır. Uca Allah bir ilahi hədisdə buyurmuşdur: ***«Qullarımdan mənə iman gətirən və mənə küfr edən halda sabahlayanlar var. O kəs ki, – Allahın lütfü və rəhməti sayəsində bizə yağış yağdı – deyir, o kəs Mənə iman gətirmiş, ulduzu inkar etmişdir. Amma, o kəs ki, – filan ulduza görə yağış yağmışdır – deyirsə, o artıq Məni inkar etmiş və ulduza iman etmişdir.»*** (Buxari, Muslim)

Bu hədis çox əzəmətli hədisdir. Bu hədisdən aydın olur ki, təbiət hadisələrini Allaha nisbət etməliyik. Bu hədisdə İslamdan qabaqkı cahiliyyə dövründəki müşriklərinin (bütləri Allaha şərik qoşanların) əməlinə işarə vardır. O kəslər ki, təbiətdə baş verən yağış hadisəsini ulduzlara və ya bürclərə nisbət edir, bu yağışdan Allahın iradəsini uzaq tutur, təbiəti və ya xarici fəzadakı ulduzları yağış yağmasının səbəbi kimi izah edirdilər. İslam dini gəldikdə bu kimi əməlləri qadağan etdi.

Həmçinin, Allah Quranda buyurmuşdur:

**«Həqiqətən, Allah göyləri və yeri tərpənməsinlər deyə, tutub saxlayır. Əgər tərpənsələr, Ondan başqa onları heç kəs tutub saxlaya bilməz. Həqiqətən də, O, Həlimdir, Bağışlayandır.»** (Fatir, 41)

**"Təbiətin qəzəbi" sözü barədə:**

Bu söz də dindən bixəbər ateistlərin və digər inanmayan insanların yaydığı sözlərdəndir. Belə sözləri işlətməkdən uzaq olmaq lazımdır. Bu sözü əsasən təbii fəlakətlər haqqında işlədirlər. Onların bu sözü çox işləməsindən məqsəd təbii fəlakətlərdən Allahın iradəsini uzaqlaşdırmaq, «Allahın qəzəbi» sözüylə «təbiətin qəzəbi» sözünü əvəz etməkdir.

Bilmək lazımdır ki, təbiət özü Allahın yaratdığı məxluqlardandır. Təbiətin müstəqil bir iradəsi və seçimi yoxdur. Əksinə, təbiət Allahın əmrinə, iradəsinə və təqdirinə tabedir. Allah yerin və səmanın Onun əmrinə tabe olması barədə buyurmuşdur: «Sonra O, tüstü halında olan göyə tərəf yönəlib ona və yerə: "Könüllü surətdə və ya məcburi olaraq gəlin əmrimə boyun əyin!"– dedi. Onlar: "Könüllü olaraq gəldik!"– dedilər.» (Fussilət, 11) Ona görə də qəzəblənməyi və onun nəticəsini təbiətə nisbət etmək doğru deyildir. Bunu ("təbiətin qəzəbi" sözünü) hətta, məcazi mənada belə demək olmaz. Çünki, bu sözdə kainatın təsadüfən yarandığını iddia edənlərin sözlərini təsdiqləmək vardır.

Ona görə də insan təbiətin deyil, Allahın qəzəbindən qorxmalıdır. Görəsən, insan zəlzələlərin qarşısını ala bilərmi? İnsan su qasırğalarının qarşısını ala bilərmi? İnsan vulkanları dayandıra bilərmi? İnsan dənizdəki sunaminin qarşısını ala bilərmi? İnsan ən adi şeylərdən biri olan QİÇS xəstəliyinin qarşısını ala bilirmi? O xəstəlik ki, ilkin olaraq

əxlaqsızlıq yayılan yerlərdən yayılmağa başlayır və insanların günahlarına Allahın bir qəzəbi olaraq ortaya çıxır. Ona görə də veriləsi suallar hələ çoxdur.

Hər kəs bilməlidir ki, güc-qüvvət Allaha məxsusdur, təbiətə deyil. Ona görə də Quranda buyurulmuşdur:

**«Kaş zülm edənlər əzabı gördükləri zaman bütün qüdrət və güc-qüvvətin Allaha məxsus olduğunu və Allahın şiddətli əzab verdiyini görəydilər.»** (əl-Bəqərə, 165)

**Quran təbiəti Allahın idarə etdiyini, təbiəti Allahın yaratdığını deyir:**

**«Həqiqətən də, göylərin və yerin yaradılmasında, gecə ilə gündüzün bir-birilə əvəz olunmasında, insanlara fayda verən şeylərlə yüklənmiş halda dənizdə üzən gəmilərdə, Allahın göydən endirdiyi, onunla da ölmüş torpağı diriltdiyi suda, Onun bütün heyvanatı yer üzünə yaymasında, küləklərin istiqamətinin dəyişdirilməsində və göylə yer arasında ram edilmiş buludlarda, başa düşən insanlar üçün dəlillər vardır.»** (əl-Bəqərə, 164)

**«Göydən su endirən Odur. Biz onunla hər bir bitkini yetişdirdik, ondan yaşıl otlar bitirir, onlardan da üst-üstə düzülmüş dənələr çıxarırıq. Xurma ağacının tumurcuqlarından, sallanmış salxımlar yetişir. Biz həmçinin üzüm bağları, bir-birinə bənzəyən və bənzəməyən zeytun və nar ağacları da yetişdiririk. Bar verdiyi və yetişdiyi zaman onların meyvəsinə baxın. Şübhəsiz ki, bunlarda iman gətirən adamlar üçün dəlillər vardır.»** (əl-Ənam, 99)

**«Küləkləri Öz mərhəməti önündə yağışdan qabaq müjdəçi olaraq göndərən Odur. Nəhayət, o küləklər ağır buludları daşıyarkən, Biz o buludları ölü bir diyara tərəf qovur, onunla yağmur endirir və bunun vasitəsi ilə hər cür meyvə yetişdiririk. Biz ölüləri də belə dirildəcəyik. Bəlkə, düşünüb ibrət alasınız.»** (əl-Əraf, 57-58)

**«Şübhəsiz ki, mal-qarada da sizin üçün bir ibrət vardır. Biz sizə, onların qarınlarındakı ifrazat və qan arasından çıxan, içənlərin boğazından rahat keçən təmiz süd içirdirik.**

**Siz xurma ağacının meyvələrindən və üzümlərdən içki və xeyirli ruzi hazırlayırsınız. Həqiqətən, bunda anlayan adamlar üçün dəlillər vardır.**

**Rəbbin bal arısına belə vəhy etdi: "Dağlarda, ağaclarda və insanların düzəltdikləri çardaqlarda özünə pətəklər hör.**

**Sonra bütün meyvələrdən ye və Rəbbinin səndən ötrü asanlaşdırdığı yollarla get". O arıların qarınlarından tərkibində insanlar üçün şəfa olan müxtəlif rəngli bal çıxır. Həqiqətən, bunda düşünən adamlar üçün dəlillər vardır.»** (ən-Nəhl, 66-69)

**"O, Allahdır. Ondan başqa ibadətə layiq olan məbud yoxdur. Dünyada da, Axirətdə də həmd Ona məxsusdur. Hökm Onundur və siz Ona qaytarılacaqsınız.**

**De: "Bir deyin görək, əgər Allah gecəni üstünüzdə Qiyamətə qədər uzatsa, Allahdan başqa hansı məbud sizə bir işıq gətirə bilər? Məgər siz eşitmirsiniz?"**

**De: "Bir deyin görək, əgər Allah gündüzü üstünüzdə qiyamətə qədər uzatsa, Allahdan başqa hansı məbud dincəldiyiniz gecəni sizə gətirə bilər? Məgər siz görmürsünüz?"**

**O, Öz mərhəməti ilə sizin üçün gecəni və gündüzü yaratdı ki, dincələsiniz və Onun lütfündən ruzi axtarasınız. Bəlkə, şükür edəsiniz."** (Qasas, 70-73)

**"O, Öz mərhəməti ilə sizin üçün gecəni və gündüzü yaratdı ki, dincələsiniz və Onun lütfündən ruzi axtarasınız. Bəlkə, şükür edəsiniz.**

**Ünsiyyətdə rahatlıq tapasınız deyə, sizin üçün özünüzdən zövcələr yaratması, aranıza məhəbbət və mərhəmət salması da Onun dəlillərindəndir. Həqiqətən, bunda düşünənlər üçün ibrətamiz dəlillər vardır.**

**Göylərin və yerin yaradılışı, dillərinizin və rənglərinizin müxtəlifliyi də Onun dəlillərindəndir. Həqiqətən, bunda bilənlər üçün ibrətamiz dəlillər vardır!**

**Gecə və gündüz yatıb dincəlməyiniz, Onun lütfünü axtarmağınız da Onun dəlillərindəndir. Həqiqətən, bunda eşidən kəslər üçün ibrətamiz dəlillər vardır.**

**Həm qorxu, həm də ümid vermək üçün ildırımı sizə göstərməsi, göydən su endirib yeri ölümündən sonra onunla diriltməsi də Onun dəlillərindəndir. Həqiqətən, bunda başa düşən adamlar üçün ibrətamiz dəlillər vardır."** (ər-Rum, 20-24)

**«Birinin suyu dadlı və şirin, digərininki isə duzlu və acı olan iki dənizi qovuşduraraq aralarında maneə və keçilməz sədd qoyan Odur.»** (əs-Səcdə, 26-27)

Bu barədə Quran ayələri çoxdur. Sadəcə, bununla kifayətlənirik.

**İstifadə edilmiş mənbələr:**


1. Qurani Kərim.
2. Səhih-əl-Buxari kitabı.
3. Səhih əl-Muslim kitabı.
4. əl-İsləm Yətəhəddə, Vahiduddin.
5. Aqidətut-Tahaviyyə kitabının şərhi.
6. Cəmiul-Fərid fi şərhi Kitəbit-Tövhid.
7. İydahul-Məqal fi əsbəbiz-Zilzal, Şeyx Muqbil.

# ATEİZMDƏ ŞƏR PROBLEMİ ANLAYIŞI

(THE PROBLEM OF EVİL)

Dəyərli oxucu! Bu mövzunu anlamaq üçün kiçik bir giriş etmək mühümdür. Əslində bu mövzudan daha geniş danışmaq mümkündür. Çünki, ateistlərin bu şübhəsi bir sualdan ibarət deyil, bu müzakirədə onların iman əhlinə, iman əhlinin də onlara sualları ortaya çıxır. Ümumiyyətlə bu şübhənin çoxşaxəli təfsilatları olduğu üçün bu şübhəyə cavabı bir iki sual cavabla yekunlaşdırmaq nə elmi baxımdan, nə də ateistlərə izah etmək yönündən əlverişli deyil. Məqsəd ateistlərin həqiqəti başa düşməsidirsə, onda məsələyə daha geniş prizmadan yanaşmağa ehtiyac yaranır. Ona görə də bacardığımız qədər bu ümumi yazıdan sonra bu mövzu ilə birbaşa əlaqəli olan bəzi şübhələrə də ayrıca məqalələr şəklində təfsilatlı cavablar vermək niyyətindəyik. Müvəffəq edən Allahdır!

*(Buradan aydın olur ki, cavabımız iki hissədən ibarət olacaq*

***BİRİNCİSİ:*** *Şübhə barədə və cavabı barədə ümumi anlayış olsun deyə ümumi cavab.*

***İKİNCİSİ:*** *Şübhənin digər şaxələnən suallarına cavab olaraq təfsilatlı cavab. Bu yazılarda isə inşəAllah şər problemi ilə birbaşa əlaqəli olan başqa şübhələrə ayrıca cavab veriləcəkdir.)*

Lakin, bu məqalədə konkret mövzuya keçərək ümumi şəkildə danışacağıq.

Bu çoxşaxəli şübhəni gətirən ateistlər elə hesab edirlər ki, bu şübhə ilə həqiqəti başa düşmək və ya Allahı inkar etmək kifayətdir. Lakin, dindarın onlara ünvanladığı suallar onları

əks arqumentlər qarşısında qoyur və dərk edirlər ki, məsələnin daha dərin əqli-məntiqi tərəfləri var.

**Bir az daha mövzuya yaxınlaşaq…**

Ateistlər sual verirlər ki, nəyə görə dünyada şər mövcuddur? Nəyə görə müsibətlər, faciələr, ağrılar, müharibələr və s.mövcuddur? Allah bu müsibətlərin qarşısını niyə almır? Əgər o varsa, heç bir şər olmamalı deyildimi və ya şər daha az olmalı deyildimi? və s.

Bu şübhənin kökü isə problemsiz və ya daha az problemi olan bir dünyanı təsəvvür etmək hüccəti ilə Allahı inkar etməyin mümkünlüyünü düşünən ateist şübhəsidir. Həmçinin, şərin mövcudluğundan dolayı Allahın Rəhmətinə, Qüdrətinə və Elminə şəkk edənlərin şübhəsidir.

Halbuki, şərin mövcud olması Allahın nə Rəhmətinə, nə elminə, nə də Qüdrətinə zidd deyildir.

Bu şübhəyə cavabı anlamaqda ateistlərə mane olan ən mühüm amillərdən biri maddiyyatçı düşüncədir ki, insanın həyatının yalnız bu dünya ilə məhdud olması qənaətinə gəlmələrinə səbəb olmuşdur.

Sonra isə suala cavabdan əvvəl ateistlərə yönələn əks arqumentli suallar da ortaya çıxır. Bunlardan:

1) Dünyada xeyir çoxdur, yoxsa, şər?

2) Dünyada şərin mövcudluğu Allahı inkar etməyə bəs edirmi?

3) Allah şərin mövcudluğu ilə bəzi hikmətləri qəsd etmiş ola bilməzmi? Şərlərin hamısı xalis şərdir, yoxsa, özündə xeyir də ehtiva edən nisbi şərdir?

4) Ateistlərin xəyal etdiyi "şərsiz, müsibətsiz aləmin" gerçəkləşməsi elmi cəhətdən mümkündürmü?

5) Şərin olmadığı bir aləmdə həyatın mənası nə olacaqdı?

6) Niyə görə ateistlər xeyir barəsində yox, şər barəsində sual verirlər? Məgər xeyir daha uzunmüddətli, ağrılar və şər daha qısa müddətli və daha az deyilmi?

7) Əgər Allah yoxdursa, dünyadakı bu qədər xeyirlər haradandır?

8) Allahın varlığı ilə şərin varlığı məntiqi cəhətdən ziddiyyət təşkil edirmi?

9) İnsan aləmdə kiçik bir zərrə olduğu halda bədən üzvlərinin məhdud fəaliyyəti olduğu halda (gözün görmə məsafəsinin, qulağın eşitmə məsafəsinin azlığı kimi və s), ağlının və idrakının şər məfhumunu tam mənada anladığını və bunun Allahı inkar etməyə kifayət etdiyini deyə bilərmi? və s. bir çox suallar verilə bilər.

## İNDİ İSƏ KEÇƏK ATEİST ŞÜBHƏSİNƏ CAVABA:

**BİRİNCİSİ;** Yer üzündə şərin mövcud olmasını Allahın olmadığına dəlil sayanlara deyirik: Əksinə, yer üzündə şərin mövcud olması Allahın mövcud olmasına dəlildir. Bunu bir neçə nöqtədə izah etmək olar:

1) **Meyar dəlili:** bu meyar dəlilinə görə insan maddədən yaransa da, onun mənəvi aləmi, əxlaqi keyfiyyətləri, haqqı

nahaqdan seçmək hisləri kimi xüsusiyyətləri Allahın bir lütfüdür. Bunu maddi aləmlə bağlamaq əqli cəhətdən mümkünsüzdür və maddi aləmlə hər şeyi izah etmək istəyən müasir ateizmdə mənəvi aləmdən olan “əxlaq anlayışı” ən qəliz mövzulardan sayılır.

2) **Şərin əksi olan Xeyir:** Şərin mövcudluğunun əqli və psixoloji cəhətdən təsdiqlənməsi, xeyirin də açıq-aydın mövcudluğunun təsdiqlənməsinə dəlildir. Xeyirin mövcudluğu isə Allahın mövcudluğuna dəlildir. Tamamilə maddə ilə əlaqəli olan bir dünyada isə xeyirin olması mümkün deyil. Halbuki, xeyir mövcuddur. Bu da Allahın varlığına dəlalət edir.

3) **Şərin özü varlığın yaradılmasına dəlalət edir.** Çünki, ateistlərdən bir çoxu belə Allahın qüdrətinə şəkk etmələri ilə demək istəyiblər ki, Allah kamildirsə, niyə hər şeyi kamil etməyib və niyə naqisliklər var? Lakin, əvvəlcə unudublar ki, yaradılışda hər şeyin kamil olması şərt deyil. Allah istədiyi kimi yaradır. Lakin, bir şeydə razılaşıblar ki, Allah kamil olmalıdır. Yaradılmışların naqis olması, naqis varlıqları isə Kamil olanın yaratması sağlam ağılın qəbul etdiyi həqiqətlərdəndir. Bu nahiyədən də şərin mövcudluğu Allahın varlığına dəlalət edir. Allah şərlə qullarını imtahana çəkir. Üstəlik onlara seçim də vermişdir. Məxluqlar naqis, Allah isə kamildir. Zatən, həm ateistlərin, həm də iman əhlinin ittifaqına görə əgər Allah varsa, o Kamil olmalıdır. Kamil olmayan məxluqların yaradıcısı isə yalnız Kamil olan Allah ola bilər.

4) **Ağrı…Əsrarəngiz gözəlliklər…bənzərsiz hikmətlər:**

İnsanın ağrı hiss etməsi necə baş verir? Ağrı olmasaydı insan bədənindəki problemləri necə bilərdi və nələr baş verərdi? Bu təsadüfdürmü? Bunu insan bədənində

proqramlaşdıran kimdir? Dünyadakı əsrarəngiz gözəlliklərin yaranması təsadüfdürmü? Yoxsa, bunları düşünərək Yaradan vardır? Ağrı hissi, dünyadakı gözəlliklər və bənzərsiz hikmətlər barədə ayrıca bir yazıda ətraflı məlumat vermək mümkündür.

**İKİNCİSİ: Ateistlərin düşündüyü yaradılış qayəsiz və məqsədsizdir, üstəlik onlara görə hər şey təsadüfən yaranmışdır. Halbuki, Allah buyurur: «Məgər siz elə hesab edirsiniz ki, biz sizi boşunamı yaratdıq və siz bizə qaytarılmayacaqsınız?»** (əl-Mu’minun, 115)

Halbuki, təsadüfən yaranan dünyada xeyirin şərdən çox olması olduqca düşündürücüdür. Məgər belə bir təsadüfi dünyada şər xeyiri üstələməli deyildimi?

Deməli, ateistlər yaradılışın məqsədini anlamamış və kamil həyatın yalnız bu dünyada ola biləcəyini düşünmüş, Allahın sınaq dünyasından sonra vəd etdiyi cənnət barədə düşünməmişlər. Yəni, ateistlərin axtardığı şərsiz, müsibətsiz həyatı möminlər də axtarır. Lakin, möminlər bu keçici dünyanı şərlərdən uzaq cənnət hesab etməyiblər. Ateistlər elə bir aləm axtarırlar ki, orada şər (müsibət, bəla, problem və s.) olmasın. Allah da elə bir aləmi (cənnəti) Ona inananlara vəd etmişdir. Ona inanmayanları isə bu cənnətdən məhrum edəcəyini bildirmişdir. Lakin, ateistlər daha da tələsərək cənnəti bu dünyada tapmaq istəmişlər. Məsələ bu qədər sadədir. Lakin, ateistlər məsələni daha qəlizləşdirərək Allahı inkar etmələrinə bəhanələr axtarmağa başlamışlar. «Şər problemi» də ateistlərin bu bəhanələrindəndir.

**ÜÇÜNCÜSÜ:** Ateistlərin şər olaraq bildiyi **bütün şərlər heç də tam mənada şər deyildir. Bir çox şərlərin hikməti və xeyirli tərəfləri vardır.** Məsələn; vulkan püskürməsiylə yer qabığında çox faydalı və lazımlı prosseslər gedir, yerin daxili xəzinələri, insanın istifadəsi üçün gərəkli, faydalı olan maddələr ortaya çıxır.

**Vulkan** yer üzündə dağların yaranmasına səbəb olur. Dağlar isə yer üzünün hərəkət müvazinətinin qorunmasına səbəb olan ağırlıqlardır. Eləcə də zəlzələlər yer üzünün yaşayış halına uyğunlaşmasının səbəblərindəndir.

**Zəlzələlər** bir növ yerin nəfəs alması deməkdir ki, bunun olması yerdəki həyatın davamı üçün labüd və qaçınılmazdır. Həm də bütün zəlzələlər quruda deyil, seysmoloqların ittifaqı ilə suda (dənizdə) baş verir. Deməli, vulkan və zəlzələlər bir növ yerin nəfəs alması və qorunmasıdır.

**Xəstəliklər** də bir növ insan bədəninin təmizlənməsi prossesini yerinə yetirir.

**Ağrı hiss etməklə** insan bədənindəki problemli yerdən xəbər tutur. Bu ağrı hissi Allahın insana böyük bir lütfüdür.

**Müharibələr isə:** özüylə gətirdiyi faciələrlə yanaşı özündən sonra bütün xalqların sülh naminə atdıqları ən böyük addımların səbəbidir. BMT-nin, Dünya təhlükəsizlik şurasının və bir çox böyük millətlər təşkilatlarının yer üzündəki sülh naminə bir araya gəlmələri məhz müharibələrdən sonra olmuşdur.

Məsələn; BMT ikinci dünya müharibəsindən sonra təsis edilmişdir. Bir çox ixtiralar (pensilin, raketlər, yüksək

keyfiyyətli təyyarələr və s. müharibələr dövründə baş vermişdir.

Müharibələr iki istiqamətdə: həm dağıtmaq, həm də sürətli abadlaşdırmada inkişafa səbəb olub. Həm xeyirə, həm şərə doğru.

**Fəlakətlər** zamanı xeyirxah insanlar ortaya çıxır, zərərçəkmişlərə yardım etmək kimi insanlığın yardımlaşma xarakteri biruzə verir.

**Ölüm** isə: Əgər əcdadlarımız ölməsəydilər, biz bu gün öz vəzifələrimizdə ola bilməzdik. Bütün peşə sahələrində kifayət qədər insanlar olar, dünyada insan sayının çoxluğu böyük fəlakətə səbəb olardı. Lakin, biz ölümün yalnız şər tərəfini düşünür, bu tərəfini isə heç düşünmürük. Göründüyü kimi bizə bir çox şər kimi görünən amillər var ki, əslində o amillər dünyada həyatın davamlı olması üçün lazımlıdır. O şər kimi görünən amillərin deməli xeyirli tərəfləri var və o şər görünənlər tamamilə şər mahiyyətli deyildir.

**DÖRDÜNCÜSÜ: Xeyir və şər bir-birini tamamlayır.** Ona görə də alimlər demişlər ki, hikmət bir birinə zidd, qarşı olan şeylərin yaradılması ilə tamamlanır. Gecə ilə gündüz, yüksəklik və çökəklik, yaxşı və pis, yüngül və ağır, şirin və acı, soyuq və isti, ağrı və ləzzət, həyat və ölüm, dərd və dəva kimi misallar ki, bunların yaradılmasıyla varlığın yaradılmasındakı bir ilahi hikmət ortaya çıxır və bu ağıl sahibləri üçün bir işarədir. Biz xəstəlik olmadan sağlamlığın qədrini bilə bilmərik. Pis olmadan yaxşının qədrini bilə bilmərik. Çirkinlik olmadan gözəlliyin qədrini bilmərik. Deməli, biz varlıqların və məfhumların əksini tanıdıqca bu şeylərin qədir-qiymətini bilirik.

**BEŞİNCİSİ: Çətinliklər aktivlikləri ortaya çıxarır:** İnsan dar gündə dostunu tanıyır. Müharibə vaxtı qəhrəmanlar ortaya çıxır. Çətinliklər olmasa hamı ağa olduğunu iddia edər. Bir sözlə çətinliklər şəxsiyyətləri yetişdirir. Yaşayış çətinlikləri ilə ortaya varlı-kasıb çıxır. Bəzi çətinliklərdə qorxaqla şücaətli aydın olur. Beləcə həyat imtahanı insanları fərqləndirdiyi kimi, axirətdə də fərqləndirəcəkdir.

**ALTINCISI: Xeyir də var, Şər də var. Lakin, hansı daha davamlıdır və əsasdır? hansı isə istisnadır?**

Əgər bir insan xəstəlik barədə düşünsə, görəcək ki, sağlamlıq daha davamlıdır, xəstəlik isə istisnadır.

**Zəlzələ** qısa saniyələr müddətində baş versə də, zəlzələdən sonra uzun illər yerin sabit olması göstərir ki, yerin sabitliyi əsas və davamlı olandır, zəlzələ isə istisnadır və müvəqqətidir.

**Vulkan** da bunun kimi illərlə püskürmür, vulkandan sonra bir müddət sonra ətrafında həyat öz axarına qayıdır.

**Müharibələr** də adətən özündən sonra uzunmüddətli sülhləri gətirir.

**Xəstəliklər** də adətən bir insan ömrünün az bir müddətini əhatə edir. Bu misalları ona görə çəkdik ki, bilinsin ki, yer üzündə davamlı olan xeyirdir, şər isə istisnadır.

**YEDDİNCİSİ: «Allahın Ədaləti və Qüdrəti» məsələsini anlamayıblar.** Allahın şərlə xeyir arasında bizə seçim və iradə verməsi Onun ədalətindəndir. Yer üzündə şərin mövcud olması Allahın Ədalətinə, Qüdrətinə və Rəhmətinə zidd deyildir. O, bizi şərin olmadığı bir aləmə (hansı ki,

ateistlər də həqiqətdə bunu axtarırlar) dəvət edir. Lakin, o aləmə getmək üçün bu imtahan aləmində (dünyada) xeyirlə şər imtahanından üzü ağ çıxmalıyıq. Ona görə də Quranda buyurmuşdur: **«Biz sizi sınamaq üçün şər və xeyirlə imtahana çəkirik. Siz ancaq Bizə qaytarılacaqsınız!» (əl-Ənbiya, 35)**

Ona görə də ateistlər soruşanda ki, Allah elə bir aləm yarada bilməzmi ki, orada şərlər, müsibət və bəlalar olmasın?

Deyirik ki: bəli! Artıq Cənnət aləmi mövcuddur. Orada nə bir şər, nə bir müsibət olacaqdır! Orada ancaq ləzzət və həzz olacaq, üstəlik bildiyimiz, bilmədiyimiz neçə-neçə nemətlər olacaqdır.

**Əgər sual verilsəydi ki, Allah niyə ancaq yaxşı insanlardan ibarət dünya yaratmadı?** (Necə ki, bəzi ateistlər soruşurlar)

**CAVAB:** Bəli! Allah bunu istəsəydi edə bilərdi! Əvvəla, onda həyatın bir mənası olmazdı. Həmçinin, insanın öz seçimi və səyi ilə bir xeyirə nail olması faydası da hasil olmazdı. Bəli, Allah bunu istəsə edərdi. Necə ki, Quranda buyurmuşdur: **«Əgər Rəbbin istəsəydi, insanları vahid bir ümmət edərdi. Amma onlar elə hey ixtilafdadırlar.»** (Hud, 118)

Bütün dünyanı qeyd etdiyimiz ləzzət aləmi kimi görmək istəyənlər belə bir sual verirlər:

**Maddi təbiət maddi əziyyətdən uzaq yaradılsa, olmazdımı?**

Cavabdan əvvəl deyək ki, bu sual heç məntiqi suala oxşayırmı? Bəyan etdik ki, bu dünyada şər və xeyir, əziyyət və rahatlıq var. Cənnətdə isə yalnız rahatlıq var. Çünki, cənnət başqa aləmdir. Dünya başqa aləm. İki aləmi qarışdırmaq lazım deyil. Bu sualı vermək günəş istisinin xeyirlərini bilə- bilə o istinin şərrindən danışanın halına bənzəyir. Yəni, – **Günəş** öz istisindən, radiasiyasından və əziyyətindən qurtulsa, olmazmı? – sualına bənzəyir. Çünki, günəşin xeyiri varsa, zərəri də var. Amma, günəş bu bütünlüyü ilə günəşdir. Günəşdən hansısa funksiya götürülsə, o günəş olmazdı. Lakin, yenə insanlar günəşdən daha çox xeyirlər əldə edirlər. İstidən ölənlər isə çox vaxt ehtiyatsızlıqdan ölürlər.

**Yağışlar** da əksər vaxtlarda xeyir gətirir, zərəri olsa belə. Bu suallar bu dünyanın təbiəti üçün deyildir. Həmin arzular cənnət üçün daha uyğundur.

**Həmçinin, bilməliyik ki, Allah şəri, fəsadı və şər əhlini sevmir.** Lakin, imtahan dünyasında yaxşı ilə pisin ayırd edilməsi üçün buna icazə vermişdir. **«Allah fəsad törədənləri sevmir.»** (əl-Maidə, 64) Hətta, Allah yer üzündə fəsad, şər törədilməsini qadağan edərək buyurmuşdur: **«Yer üzü islah olunduqdan sonra, orada fəsad törətməyin.»** (əl-Əraf, 56)

İnsanlar Allahın ədalətini bu misalla da görə bilərlər. İnsanların danışıb deyinməsi, «şər problemini» bəhanə etmələri də nəfsi problemdir. Çünki, məsələn; əgər Allah insanları birbaşa cənnətə və ya cəhənnəmə salsaydı, cəhənnəm əhli deyəcəkdi ki, Allah bizi imtahan etmədən niyə cəhənnəmə saldı? Allah bizə niyə zülm etdi və s. Allah isə insanları layiq olduqları yerə zülm etmədən, ədaləti və rəhmətiylə düşmələrini istədiyi halda insanlardan bəziləri

Allahın ədalətli olmadığını iddia edirlər! Onlar bunu düşünə bilmirlərmi? Yoxsa, düşünməkdən də qorxurlar?

**Yer üzündəki, şərlər iki qismə bölünür.** Təbii hadisələr yoluyla olan şərlər və insanların törətdikləri şərlər. Ateist düşüncəsinin qəribə tərəfilərindən biri də bir insanın başqa insana təcavüz etməsini Allahı inkar etməyə dəlil saymalarıdır. Doğurdan da bu yalnış düşüncədir. İnsanlar günah edir, sonra Allah niyə mane olmadı deyirlər?! Bir narkoman bu bəlaya düçar olduqda, sonra ağrılar içində qıvrıldıqda onun bu hala düşməsinə görə yalnız özü qınanır və etdiyi şər onun özünə nisbət olunur. O insan bilə-bilə özünə zülm edirsə, Allah ona nə yardım etsin ki?! İnsan ağılının bu qədər ucuz düşüncələrə aldanmasına yalnız nəfsi istəklərə uymaq səbəb ola bilər. Uca Allah Quranda buyurur: **«İnsanların öz əlləri ilə etdiyi əməllərinin nəticəsi olaraq quruda və dənizdə fəsad törəyir ki, Allah onlara, etdiklərinin bir qismini daddırsın. Bəlkə, onlar haqqa qayıdalar.»** (ər-Rum, 41)

Başqa ayədə: **«Hələ o günahların çoxunu əfv edir.»** (Şura, 31) buyurur. Hələ Allah bizim etdiyimiz günahların çoxuna görə bizi cəzalandırmır.

İnsanlar törətdikləri əməlləri və şərləri Allaha nisbət etməli deyillər. Allah hər şeyi Yaratmışdır. **Lakin, şər Allaha nisbət olunmur. Şər Allahın feili deyildir. Şər Allahın yaratdığı məxluqatların feilidir. Allah şərin özünü deyil, şərin var olmasının mümkünlüyünü yaratmışdır. Başqa ibarə ilə desək: şərin mövcudluğundakı bəzi məsləhətlərə görə şərin mövcudluğuna icazə vermişdir.** Yoxsa, Allah nə şəri, nə də şər əhlini sevmir, necə ki, bu barədə artıq danışdıq.

Eləcə də, necə ki, Allahın insanlarda və ya başqa canlılarda yaratdığı rənglər, ruhlar, güc və zəifliklər kimi vəsfləri Allaha nisbət etmədiyimiz kimi, məntiqi cəhətdən gərək biz etdiyimiz şəri və ya yaradılmışlardan gələn şərləri də Allaha nisbət etməyək!

## *HUMANIZM NƏDİR? ALLAHSIZLIQ ÇAĞIRIŞI, YOXSA "İNSANLIĞA XİDMƏT ADI ALTINDA GİZLİ İDEOLOGİYANIN TƏBLİĞİ?"*

Dəyərli müsəlmanlar! Bu məqaləni yazmaq qərarına o zaman gəldim ki, ta ki, cəmiyyətimizdə bu fikirə dəvət edən bir ziyalı təbəqəsinə nisbət edilən şəxsin video çıxışını müşahidə etdim. O öz danışığında **"mənim dinim insanlıq dinidir"** deyir və **"humanizmi"** qəsd etdiyini vurğulayırdı. Belə şəxslər dinləri (başda İslam olmaqla) inkar edib, "**humanizmi və insanlığı Allah yerinə qoyur"**, humanizm ideologiyasının dini əvəz edə biləcəyini vurğulayır və Allahsızlığa dəvət edirlər.

**Bu yazımızda:** Humanizmlə yanaşı Avropada ortaya çıxmış bəzi eyniköklü (Allahı və dini inkar edən) ideologiyalarının yaranma amillərindən danışmaq istəyirik.

Humanizm nədir? Görəsən bu doğurdan da illərlə bizə təlqin edilən "xoşməramlı" insanlığa xidmət fikirləridir? Yoxsa, bu parlaq fikirlərin arxasında "İnsanlığı Allahsızlıq, ateizm girdabına salmaq" məqsədləri durur?! Görəsən, humanizm məktəbinin davamçıları doğurdanmı insanlığa, bəşəriyyətə xidmət edir? Yoxsa, sadəcə Avropada kilsəyə qarşı qiyamdan (15-16-cı əsrlərdə), yəhudi ideologiyalarından törənmiş batil əqidələrdən biri, başda İslam və xristyanlıq olmaqla dinlərə qarşı mübarizə üçün təşkil edilmiş fikirlər toplusudur?

Təbii ki, 16-cı əsrdən 19-cu əsrə kimi bu ideologiyalar tədricən yarandı və inkişaf etdi. Bu ideologiyaların son təşəkkül tapanlarından biri *"humanism" (humanizm)* idi. Humanizmin banisi isə Fransalı filisof və ateist August comte (1798-1857. vəf.) olmuşdur.

Amerika humanistlər Assosasiyası humanizmə aşağıdakı tərifi vermişdir:

*«Humanizm — ali varlığa inamın köməyi olmadan, özünü reallaşdırmaq və bəşəriyyətə daha çox fayda vermək məqsədilə etik həyat tərzi keçirməyə qadir olduğumuzu və buna məcbur olduğumuzu iddia edən mütərəqqi həyat mövqeyidir.»* (Wikipediya)

Bu tərifdən də göründüyi kimi tərif **«ali (Uca) Varlıq olan Allahın inkarı ilə başlayır.»** İnsanlığa rəhmət, mərhəmət, şəfqət hislərini verən, onları bir qətrə sudan Yaradan Allahı inkar edən batil bir ideologiya insanlıq naminə işlər görəcəyini iddia edir. Halbuki, İslamı düzgün anlayan neçə-neçə qərb mütəfəkkirləri İslamın bəşəriyyəti xilas edə biləcək yeganə din olduğunu qəbul etmişlər.

Artıq Avropanın təhrif olunmuş xristyanlıqdan gördüyü zülmlərin nəticəsində bir çox ideologiyalar ortaya çıxmışdı. Hər bir ideologiya təhrif olunmuş xristyanlığın yerinə insan ağılına əsaslanan qanunlar icad etməkdə və Allahı inkar etməkdə ittifaq etmişdilər. Avropa insanı İslamla yetərincə tanış olmamışdı. Buna baxmayaraq avropalılar zaman-zaman İslamın (müsəlmanların) elmi nəaliyyətlərindən faydalanmışdılar. Amma, son və haqq din olan İslamı tanımayan avropada İslama düşmənçiyi yayan da elə kilsə idi. Kilsənin və xristyanlığın təhrif olunması, İsa peyğəmbəri (əleyhissalamı) ilahiləşdirməsi, bir çox təhriflərlə İsəvilikdən uzaqlaşması, kilsə hakimiyyətinin avropa insanlarına zülmü, onda bir vergi, həftədə bir dəfə kilsə ərazilərində pulsuz işləmək, elm adamlarına kafir damğası vurulub qətl edilmələri və s. bir çox səbəblər sonda avropada kilsə hakimiyyətinə qarşı böyük bir inqilaba səbəb oldu. Bu inqilab, bu üsyan illərlə davam etdi.

Avropadakı inqilabın əsas amilləri isə:

1) *Dinin təhrif olunması,*

2) *Kilsə hakimiyyətinin zülmü.*

3) *Çoxsaylı vergilər və s. sadalamaq olar.*

Həmçinin, həmin dövrdə müsəlmanların elmi tərəqqisindən də yararlanmaq meylləri Avropada mövcud idi. Çünki, həmin dövrdə İslam aləmi elmi inkişafa görə Avropadan öndə idi. Ona görə də qeyd etdiyimiz amillərə bir çox tədqiqatçılar Avropanın İslam mədəniyyətindən, İslamın elmi tərəqqisindən təsirlənmələrini də əlavə edirlər. Həmçinin, amillərdən; onların qədim yunan fəlsəfəsinə qayıtmaları və bunu elmin və fəlsəfənin əsası kimi götürmələri də qeyd olunur.

Xülasə; bu dövrdəki prosseslərdən geniş danışsaq, qəsd etdiyimiz mövzu **"humanizm"**dən yayınarıq deyə çox uzatmırıq, amma, oxuculara bu kiçik giriş nöqtəsini qeyd etməli idik ki, o dövr barədə təsəvvür əmələ gəlsin.

Avropada bu qəliz dövrdə bir çox ideologiyalar yarandı ki, bütün ideologiyalar ictimai, siyasi, fəlsəfi məsələləri əhatə edir, bir növ cəmiyyətə xidmət məqsədi ilə təqdim olunması müşahidə olunsa da, bu ideologiyaların hər biri **«Dinə qarşı olmaqda, bir çoxları isə Allahsızlıq nöqtəsində»** birləşirdi. Sonda Azadlıq anlayışını «əxlaq dəyişkəndir» deyəcək qədər dəyişən, **«mənfəəti özünə əqidə seçən praqmatizmə qədər»** insanın yaradılış fitrətinə ziddiyyət təşkil edən ideologiyalar ortaya çıxdı. Humanizm isə daha çox **"realizm"** və **"positivizm"** ideologiyasıyla əlaqəlidir və bu ideologiyanın bir qoludur desək heç də yanılmış olmarıq.

Avropada yaranmış çoxsaylı ideologiyalar onları yalanın, içkinin, qumarın, əxlaqsızlığın «mənfəət gətirəcəyi təqdirdə yaxşı əxlaqdan sayılacağı» qədər əxlaq anlayışlarını dəyişdi. Hətta, hər şeyin dadına baxmış, yeni zövqlər axtaran adamlar azadlığın sərhədlərini keçib insan fitrətinə, yaradılışına, insan təbiətinə zidd hərəkətləri etməyi də "azadlıq axtarışından" saymaqla böyük bir əxlaqi tənəzzülə doğru keçid etdilər.

İslamda isə əxlaq sabitdir və dəyişkən deyildir.

Onlara görə isə gözəl əxlaqdan olan doğruluq, dürüstlük, vəfalılıq, cəsarət, səxavətlilik, həyalı olmaq və s. keyfiyyətlər mənfəət gətirmədikdə, rəzil və alçaq əxlaqlardan yalan, hiyləgərlik, qorxaqlıq, xəyanət, pozğunluq və s. məzəmmət olunmuş əxlaqlarla əvəz oluna bilər. Baxmayaraq ki, bu anlayış daha çox **"praqmatizm"** (yəni, mənfəətçilik və ya gəlir gətirən hər şeyi icazəli görmək) ideologiyasında daha qabarıq görünür, lakin, avropada yaranmış digər fikri hərəkatların, ideologiyaların da qəbul etdiyi "əxlaqi prinsiplər dəyişkəndir və sabit deyildir" qaydasına əsasən, bu ideologiyaların daşıyıcıları eyni əxlaqi tənəzzülə məruz qalmış olurlar.

Amma, birbaşa ***"humanizm"*** əqidəsinin seçildiyi etiqadi problemli nöqtə insanı Allah yerinə qoyması, insanı ilahiləşdirməyə, müqəddəsləşdirməyə, özlərinin də dedikləri kimi ***"onun (insanın) uğrunda fədakarlıq etməyə"***, bu ad altında Allaha ibadəti və ilahi qanunları inkar etmək və bu fikirlərlə əvəzləməkdir.

Həmçinin, onlar yalnız maddi dünya ilə kifayətlənir qeyb aləminə inanmırlar.

**Xülasə;** bütün diqqəti insana yönəltmək, bütün həyatın qayəsinin insanda cəmləşməsi, Yaradıcının inkarı, Yaradıcı qüvvə onlara görə olmadığı üçün insanı bu boşluğu doldurmaq üçün ilahiləşdirmək və müqəddəsləşdirmək… Bir sözlə insan üçün yaşamağa çağırırlar.

**Sual verilə bilər ki, bəs bunu həyatın əsas qayəsi etməkdə nə problem var?**

Cavabında deyirik ki, insanlara faydalı olmaq ayrı məsələdir, insanlar üçün yaşamaq ayrı məsələdir. Bu çağırışın **«aldanış nöqtəsi»** də elə budur.

**Birincisi:** Allahı inkar edənlər özləri də bu məsələdə ixtilaf ediblər. Bəziləri özün üçün yaşa, bəziləri başqaları üçün yaşa deyirlər. Reallıqda isə Allahı inkar edənlər elə özləri üçün yaşayırlar. Nəfs və havalarına xoş gələn şeylər onlar üçün gözəllik meyarıdır. İnsan əgər öz Yaradanını inkar edərək insanlığa xidmət yolunu seçəcəksə, çox zaman bu iddia kitab səhifələrində qalan bir iddiadan o yana keçmir.

**Ikincisi:** İslam dini humanistlərin demək istədikləri, lakin, Allahsız şüurla yanaşdıqları üçün «İnsanlara faydalı olmaq» qayəsini daha dəqiq ifadə etmişdir. Elə bu məqsədi daha doğru və dəqiq ifadə edən İslam Peyğəmbəri buyurub ki: ***«İnsanların ən xeyirlisi, insanlara ən faydalı olandır.»*** (Sahihul-Cəmi, 3289)

Deməli, insanlara faydalı olmaq qayəsilə Allaha ibadət qayəsi bir nöqtədə birləşir. İslama görə Allaha yaxşı qul olan kəs özünə də, ailəsinə də, cəmiyyətə və hətta bəşəriyyətə faydalı olmağı bacarır.

**Üçüncüsü:** İslama görə Allah insanı Öz Yaradanına ibadət etməsi üçün yaratmışdır. Həyatın əsas qayəsi də budur.

***«Humanizm»*** (insanpərvərlik) fikrinin daşıyıcıları isə bu *"parlaq şüar"* altında əslində küfr, Allahsızlıq, ateizm fikirlərini hislərinə aldanaraq qəbul etmiş olurlar. Bu söz (humanizm) nə qədər xoş səslənsə də, bir fikrin həqiqəti zahirdəki onun adına görə deyil, fikrin, etiqadın həqiqi siması ilə, təlimləri ilə izhar olur.

Diqqətlə yanaşsaq, İslam şəriəti insana böyük diqqət və hüquqlar vermişdir. Əgər diqqətlə İslamı öyrənsək, İslamafobların yazılarını, azğın firqələrin İslam adı altında etdiklərini bir kənara qoysaq, təmiz İslamı öyrənsək görərik ki, İslam insanı necə uca məqamlara çıxardır. Allah Qurani-Kərimdə buyurmuşdur: **«Biz Adəm oğullarını hörmətli etdik, onları quruda və dənizdə minik üstündə daşıdıq, onlara pak ruzilər verdik və onları yaratdıqlarımızın çoxundan xeyli üstün elədik.»** (əl-İsra, 70)

Həmçinin, yaradılışın məqsədi *"humanistlərin"* iddia etdiyi kimi yalnız ölüb gedəcək insanlara xidmətdən ibarət deyil, əksinə, daha uca məqsədlər üçündür. Ən birinci məqsəd isə Qurani Kərimdə belə açıqlanır: **«Mən cinləri və insanları ancaq Mənə ibadət etmək üçün yaratdım.»** (əz-Zəriyət, 56)

İnsanlığa xidmət isə Allahın buyurduğu kimi olduqda Allah bunun qarşılığında böyük mükafatlar vəd edir. İslamafobların və humanistlərin Qurandakı bu ayədən xəbərləri yoxdur yəqin. Ayə belədir:

«Buna görə də İsrail oğullarına yazıb buyurduq ki, kim bir adamı öldürməyən və ya yer üzündə fəsad törətməyən bir şəxsi öldürərsə, sanki bütün insanları öldürmüşdür. Kim də onu ölümdən xilas edərsə, sanki bütün insanları xilas etmiş hesab olunar. Elçilərimiz onlara aydın dəlillər gətirdilər.

Onların çoxu isə bundan sonra da yer üzündə həddi aşdılar.» (əl-Maidə, 32)

Deməli, **İslam dini bir insanı haqsız yerə öldürməyin bütün insanları öldürməyə bərabər olduğunu bildirir**. Amma, bu gün dünyada tökülən milyonlarla haqsız qanlara bais olmuş qərb dünyası ***«Güclüyəm, haqlıyam»***, ***«Parçala, hökm et»*** siyasətini edir, bizə də humanist dəyərlərini sırıyır. Müsəlman ölkələrinə savaş alovunu salaraq, özü kənardan izləyir.

Bir də onu demək istəyirəm ki, illərlə insanlarımıza təqdim olunan *"humanistlik"* zahirən xoş görünə bilər. Kimsə insanlığa xidmət edək deyərsə, biz də bunu təqdirəlayiq hal kimi qarşılayırıq və bir termin olaraq humanizmin (insanlığa xidmət mənasında) əleyhinə deyilik, lakin, kim humanizmi əqidə kimi qəbul edərsə, yuxarıdakı verdiyimiz tərifdəki kimi humanist olmaqçün birinci Allahı inkar etməyi vacib görərsə, bunun küfr və küfrə dəvət olduğunu deyirik.

Əlqərəz**, İnsanlığa xidmət etməkçün heç də humanist (və ya ateist) olmağa ehtiyac yoxdur.**

Allah İslam Peyğəmbərini aləmlərə rəhmət olaraq göndərmişdir. Uca Allah Qurani-Kərimdə buyurmuşdur: **«Səni də aləmlərə ancaq bir rəhmət olaraq göndərdik.»** (əl-Ənbiya, 107)

Ona görə də O insanları əfv etməyi, xətalarından keçməyi, insanlara və cəmiyyətə xidmət etməyi öyrətmiş, hətta, yoldan insanlara əziyyət verən bir şeyi götürüb kənara atmağı imanın 46 şöbəsindən biri olduğunu bildirmişdir. Nəinki insanlara, hətta, heyvanlara qarşı rəhmli olmağı ümmətinə öyrətmişdir. Cəmiyyətə xidmət olan ağac

əkməyə, su çəkməyə, özündən sonra faydalı əsər və ya yaxşı övlad qoyub getməyə, qonşu ilə yaxşı davranmağa, valideyin asiliyi əmr etmədikcə **"uf"** belə demədən ona itaət etməyə, böyüklərə hörmət etməyə, uşaqlara mərhəmət etməyə, yolda qalanlara, itənlərə yardım etməyə, yetimə əl tutmağa, xəstələri ziyarət etməyə rəğbətləndirmiş və kasıblara maddi yardım edib zəkat çıxarmağı Allahın əmrilə dinin beş əsasından biri etmişdir. Saydıqca qurtarmır bu cəmiyyətə və insanlığa xidmətə yönəlmiş İslami əmrlər.

İslam dini cəmiyyətə, insanlığa xidmət üçün kifayət qədər yolları bəyan etmişdir. O yolları ki, bəndələrinə yaxşı bələd olan Allah göstərmişdir. Amma, insan ağılının məhsulu belə ideal həyat düsturu verməyə qadir deyildir. Çox vaxt belə olur. Kimsə insanlığa xidmət naminə hansısa bir yol kəşf etdiyini iddia edir, sonra isə İslamın əsrlər öncə bu məsələdən danışdığı ortaya çıxır.

***"Kommunizm"*** və ya ***"Marksizm"*** də o dövrdə yaranmış ideologiyalardandır ki, insan fitrətinə uyğun gəlmədiyi üçün sovet hökuməti çox tab gətirə bilmədi. Çünki, sovet hakimiyyəti də ***"kommunist"*** ideologiyası ilə ağıllı və axmaq, alim və fəhlə, bacarıqlı və bacarıqsız insan təbəqəsini eyni tutub təbii haqq olan mülkiyyət hüququndan məhrum edirdi. Ailə isə fərdin yox, dövlətin mülkü sayılırdı. İnsan isə robot kimi işləməli idi, maddiyyat mənəviyyatdan önə çəkilmişdi. Ümumiyyətlə, İnsan fitrətinə və Allahın şəriətinə zidd olan bütün ideologiyalar sovetlər kimi məhvə məhkumdur.

Allah həyatın və ölümün qayəsi barədə Quranda buyurmuşdur: **«Əməl baxımından hansınızın daha yaxşı olduğunuzu sınamaq üçün ölümü və həyatı yaradan Odur. O, Qüdrətlidir, Bağışlayandır.»** (Mulk, 2)

Həyatın qayəsini unudan ateist və humanistlərə Allahdan doğru yol diləyərək son ayələri qeyd edirik: «**Məgər insan onu nütfədən yaratdığımızı görmür? Budur, o indi açıq-aşkar mübahisə edir.O Bizə bir məsəl çəkdi, lakin yaradılışını unutdu. O dedi: "Çürümüş sümükləri kim diriltdə bilər?" De: "Onları ilk dəfə yaradan Özü onları dirildəcəkdir. O, hər bir məxluquna yaxşı bələddir.**» (Yasin, 77-79)

# ÜÇ ALİMİN ATEİSTLƏRLƏ SÖHBƏTİ

## ***Birincisi:*** **İmam Əbu Hənifənin ateistlərlə söhbəti**:

Ateistlərdən bəziləri imam Əbu Hənifədən (rahiməhullah) Yaradanın varlığı barədə soruşurlar.

Onlara deyir ki: Gözləyin, mən indi mənə verilən bir xəbər barədə düşünürəm; Mənə dedilər ki, dənizdə içi müxtəlif ticarət malları ilə dolu olan bir gəmi var ki, onu qoruyan və sürən bir kimsə də yoxdur. Buna rəğmən gəmi öz-özünə gedir, gəlir və (suda) üzür. Bu gəmi böyük dalğalardan qurtulana kimi yarıb keçir, heç kimin idarəsi olmadan istədiyi tərəfə üzüb gedir.

– (Ateistlər) dedilər: Bu, ağıllı kimsənin danışacağı bir şey deyil.

– (Əbu Hənifə) dedi: ***«Bəs bu boyda göy və yer aləmində olan canlılar və buna aid olan bilinən şeyləri Yaradan biri yoxdurmu?!***

***(Bu cavabdan) Onlar çaşıb qaldılar və onun səbəbiylə İslamı qəbul etdilər.»***

*(Məaric əl-Qabul, Hafiz əl-Hikəmi, 1/78; Təfsirur-Razi, 2/333)*

***İkincisi:*** **İmam Şafinin ateistlərlə söhbəti:**

Bəzi ateistlər imam Şafi'dən (rahiməhullah) soruşurlar.

– Yaradanın mövcud olmasına dəlilin nədir?

– Dedi: Tut ağacının yarpağı. Sizə görə (bütün) tut yarpaqlarının dadı, rəngi, iyi və forması eynidir?

– Dedilər: Bəli.

– Dedi: ***Lakin, barama qurdu bu yarpağı yeyir və ipək çıxardır. Bal arısı isə bu yarpaqdan bal çıxardır. Qoyun isə bu yarpaqdan peyin çıxardır. Ceyran isə bu yarpaqdan yeyib qarın hissəsində müşk (ətiri) çıxarır. Elə isə bir formada olan tut yarpağından eyni zamanda bu şeyləri ortaya çıxaran kimdir?***

Onlar onun sözlərini bəyəndilər və onun səbəbilə İslamı qəbul etdilər. Sayları isə on yeddi nəfər olardı.

*(Təfsirur-Razi, 2/333; Məaricil-Qabul, Hafiz əl-Hikəmi, 1/78)*

## ***Üçüncüsü:*** **İmam Cəfər əs-Sadiqin ateistlə söhbəti:**

İmam Cəfər əs-Sadiqin (rahiməhullah) yanında ateistlərdən biri Allahın varlığını inkar etdi. Cəfər-əs-Sadiq ona dedi:

– Heç dənizə (gəmiyə) minmisən?

– Dedi: Bəli.

– Dedi: (Gəmidə) Nələr baş verdiyini gördünmü?

– Dedi: Bəli. Bir gün nəhəng küləklər baş qaldırdı, beləcə gəmi sındı. Gəmiçilər isə (suda) batdılar. Mən isə gəminin lövhələrindən birindən asılı qaldım. Sonra o lövhə də məndən uzaqlaşdı. Birdən dalğaların təlatümü arasında sahilə gəlib çıxdım.

– Cəfər dedi: (Gəmiyə mindikdə) Bundan əvvəl gəmiyə və gəmiçilərə etimad edirdin, sonra səni xilas edəcəyinə ümid etdiyin lövhəyə etimad edirdin. O zaman ki, bu şeyləri itirdin, görəsən ölümə təslim olmuşdun, yoxsa, hələ də xilas olmağa ümidin var idi?

– Dedi: Əksinə, xilas olmağı ümid edirdim.

– Dedi: Bunu (xilasını) kimdən gözləyirdin?

– Həmin şəxs (cavab verməyərək) susdu.

Cəfər əs-Sa’diq dedi: ***«Həmin vaxt səni xilas edəcəyinə ümid etdiyin varlıqdır Yaradan! Səni batmaqdan xilas edən də O idi! Bundan sonra o şəxs İslamı qəbul etdi.»***

*(Təfsirur-Razi, 2/333)*

## *İSLAM DİNİNDƏ QULDARLIQ LƏĞV EDİLMƏYİB?*

*Bəzi insanlar İslam dinində quldarlığın ləğv edilmədiyini iddia edir və insanlar arasında bunu yaymağa çalışırlar.*

***Şübhənin cavabı:***

İslam dinini quldarlığı təsdiqləməkdə ittiham edənlərə cavab olaraq qədim quldarlıqla bu gün də mövcud olan quldarlığın tarixinə baxmaq və fərqləri təhlil etmək yetərlidir. Nəticədə şahidi olacağıq ki, qədim və müasir quldarlıq eyni hədəfdə birləşsə də qədim quldarlıq fərdlərə məxsus idisə, bu günkü quldarlıq əsasən xalqların və millətlərin qula çevrilməsi ilə mövcuddur. Əgər qədim quldarlıqda gündəlik ehtiyaclarının ödənilməsi müqabilində bir insan kiminsə qulu olurdusa, bu gün xalqların, kütlələrin də bəzən qul halına gətirildiyini görürük. Müstəmləkəçi dövlətlər bu kimi şübhələrlə müsəlman övladlarının başını qatıb şəxslərin qula çevrilməsindən danışır, amma nədənsə özlərinin xalqları, millətləri qul halına salarkən heç bundan danışaraq əsil rəzalətli quldarlığın bu olduğunu deyə bilmir bu *"azad fikirlilər"*.

Halbuki, bu quldarlıq şübhəsini ortaya çıxaranlar başqa adlar altında qanunlar çıxarıb dünyada bu qanunları yayaraq insanları bir növ qula, köləyə çevirir. Böyük ölkələrin kiçik ölkələri əzmək üçün məcburi qaydalar və tələblər qoymaları sanki, bu quldarlığın, müstəmləkəçiliyin bir hissəsi deylimiş kimi təəssürat formalaşdırırlar.

**Gəlin qədim insanların quldarlığının hansı vəsilələrlə həyata keçirdiklərini bir xatırlayaq:**

*Əsir götürülmək* insanların qula çevrilmələrinin səbəblərindən biri idi. Həmçinin, quldurluq və oğurlanma yolu ilə də insanlar qula çevrilə bilirdilər.

*Bəzi böyük cinayətləri edənlər* (adam öldürmək, oğurluq etmək, zina etmək və s) də qula çevrilirdilər.

*Borcunu verə bilməyənlər* borc sahibinin quluna çevrilirdilər.

Bəzi insanlar övladlarını qul kimi satırdılar.

Bəzi insanlar şiddətli kasıbçılıq və ya qorxuya düçar olduqda onlara yemək verəcək, qoruyacaq və himayə edəcək şəxslər üçün öz azadlıqlarından keçib qul olurdular.

Bəzi qulluq halları da nəsildən nəsilə keçirdi, məsələn; qul kənizlərdən olan uşaqların atası ağa olsa belə övladları qul kimi qalırdılar.

İslam hökmü isə gəlib bütün bu halları ləğv etdi və quldarlığa aparan vəsilələri aradan qaldırdı. Yalnız döyüşlərdən qalan əsirlərin qulluğu saxlanılmışdı ki, bu, bu gün də dünyada qalmış bir şeydir. Əsirliyi ləğv etmək isə döyüşlərin tamamilə ləğv edilməsi anlamına gəldiyi üçün dünya ölkələri əsir anlayışını qoruyub saxlamışlar. Çünki, səninlə döyüşən düşmən təslim olarsa, onu öldürməyib əsir götürmək normal bir haldır. Lakin, İslam dinində əsirlərlə yaxşı davranmaq, onları alçaltmamaq dindən hesab edilərək müəyyən şərtlərlə onları əsirlikdən azad etmək tövsiyə edilmişdir.

**İndi isə gəlin qeyri müsəlmanlarda qədim quldarlıqla tanış olaq:**

**Romalılarda** (ümumən Avropada) qullarla heyvan kimi davranılırdı. Qulun bütün insanlıq haqları əlindən alınmışdı, onları ən ağır işlərdə işlədirdilər. Əlləri bağlanırdı ki, qaçmasınlar. döyüşlərdə də istifadə olunurdular. Ağasına asi olduqda isə ən şiddətli əzab verilirdi. Qullar *qladiator* döyüşlərində döyüşdürülür və Romalılar bunu böyük təntənə ilə keçirirdilər. Bu döyüşlərdə qul olan insan qılınc, ox və nizə yaraları alır, ağaları və insanlar isə onların acısına kənardan tamaşa edirdilər.

**Yunanıstanda** isə fəlsəfə məktəbi quldarlığa bəraət qazandırırdı. *Aristotelin* məktəbinə görə hesab olunurdu ki, bir qism insanlar qul olmaq üçün yaradılmışlar. Aristotelin müəllimi Platun isə qulları vətəndaşlıqdan xaric hesab edirdi. Yunan mədəniyyəti ümumi quldarlığı dövlətin, xüsusi quldarlığı isə fərdlərin məsləhətindən hesab edirdi.

**Farslarda** və **Hindistanlılarda** da qulların vəziyyəti bunun kimi çox ağır idi. **Bütpərəst ərəblərdə** də İslama qədər qullar zülm içində idi ki, İslamı qəbul edən qullara *"dinsiz müşriklər"* tərəfindən işkəncələr verilmişdi. Suheyb ər-Rumi, Amir ibn Fuheyra, Bilal əl-Həbəşi və s. belələrindən idilər. Yəqin ki, çoxumuzun **Misirdəki**Fironlar dövrünün quldarlığı barədə az da olsa məlumatı vardır.

**Yəhudilər** isə quldarlıqda o qədər həddi aşmışdılar ki, qohumları bir-birini əsir götürüb qula çevirirdilər. (Bax, Quran: əl-Bəqərə, 85)

**Xaçpərəst** təlimlərində də qullar çox lazımlı hesab edilirdi. Keşiş Bolis və Petrosun yazıları da bunları təsdiqləyir.

**İslam dininin quldarlığa ədalətli yanaşması və tədricən quldarlığı sıradan çıxararaq aradan qaldırması:**

**<u>Quranda qul azad etmək barədə ayələr</u>**

Qurani-Kərimdə qul azad etməyə rəğbətləndirən ayələr çoxdur, bunlardan:

**a)** Nur surəsi 33-cü ayədə İman gətirib azad edilməsi barədə yazı istəyən və xeyirli halına ümid edilən **kölənin azad edilməsi** əmr edilir.

**b)** Nisa surəsi 92-ci ayədə bir mömini yalnışlıqla (səhlənkarlıqdan dolayı) öldürənin bunun qarşılığında (kəffarə cəzası olaraq) **bir qul azad etməli olduğu b**ildirilir.

**c)** Mücadələ surəsi 3-cü ayədə hər kim öz yoldaşına *«sən mənə öz məhrəmlərim kimi haramsan»* deyərsə, sonra bu səhvini düzəltmək istəyərsə, əvəzində **bir qul azad etməli olduğu** bildirilir.

**d)** Həmçinin, əl-Maidə surəsinin 89-cu ayəsində andını pozanların buna qarşılıq olaraq kəffarələrindən biri kimi digər kəffarələri edə bilməyənin **qul azad etməli olması** qeyd olunmuşdur.

**e)** əl-Bələd surəsində isə Uca Allah ateist (Allahı inkar edən) müşriklərə əzabını xatırladarkən yaxşı əməlləri sadalayarkən ən birinci **qul azad etməyi** qeyd etmişdir. (Bax, əl-Bələd surəsi, 11-17)

**f)** Tövbə surəsi 60-cı ayədə isə səkkiz qism insana zəkat malından verilməli olduğu qeyd olunur ki, onlardan bir

qisminin də **qul azad etməyə xərclənməsinin** gərəkdiyi vurğulanmışdır.

**f)** əl-Bəqərə surəsi 177-ci ayədə yaxşı əməl sahiblərindən danışılarkən onların içində nafilə sədəqədən belə **qul azad etməyə** xərcləyənlər qeyd olunmuşdur.

**Qul azad etmək barədə hədislərdən isə:**

Peyğəmbər (salləllahu aleyhi va səlləm) buyurur: ***«Kim bir müsəlman qulu azad edərsə, Allah onun hər bir (bədən) üzvünü cəhənnəmdən azad edər və onu Öz xilası ilə xilas edər.»*** (Buxari, Muslim)

Başqa bir hədisdə buyurmuşdur: ***«Kim öz köləsinə haqq etmədən cəza olaraq vurar və ya şillə çəkərsə, onun kəffarəsi o qulu azadlığa buraxmaqdır.»*** (Muslim)

Qullarla yaxşı davranmaq barədə hədislər də çoxdur.

Quran ayələri və Peyğəmbərin insanları qul azad etməyə təşviq etməsilə müsəlmanlar üçün qul azad etmək sevimli bir əmələ çevrilmişdi. Qullar və əsirlərlə yaxşı davranmaq barədə də çoxsaylı hədislər vardır. Hətta, onlara gözəl xitab etmək, onları alçaltmamaq da mühüm əməllərdən olmuşdur. Hədisdə deyilir: Peyğəmbər (salləllahu aleyhi va səlləm) buyurmuşdur: ***«Sizdən heç biri "mənim qulum və kələm" deməsin, hər biriniz Allahın qulusunuz. Qadınlarınız da Allahın qullarıdır. (Qul olanlara) Oğlum, qızım, cariyəm (deyə) xitab edin.»*** (Muslim)

**Tətbiqə gəldikdə isə:**

İmkanlı səhabələr daha çox qul azad edib daha çox savab qazanmağa həris idilər. Mövzunun əvvəlində qulluqdan azad edilmiş bəzi səhabələrin adlarını da qeyd etmişik.

Həmçinin, bəzi İslam alimləri demişlər ki, əgər miras sahibi vəfat edərsə, onun mirasçısı olmağa heç bir yaxın qohumu qalmazsa, onun qulu (köləsi) miras sahibi olmağa daha haqlıdır.

Tarixdə Məmlukilər (Maməliyk) dövləti (1250-1517) kimi tanınmış dövlət məhz anaları qul olan şəxslərin qurduğu dövlət idi ki, onların övladları İslam izzətiylə köləlikdən ağalığa doğru yüksəlmiş, tarixdə şanlı iz qoymuşdular.

Tədqiqatçılar da bu qənaətə gəlmişlər ki, İslam dini quldarlığı tədricən aradan qaldırmışdır.

Həmçinin, qeyd etdik ki, bu gün dünyada dolayısı yollarla insanların qul kimi istismarı yenə də mövcuddur. Bu gün dünyada nəinki şəxslərin, hətta, xalqların, kütlələrin müstəmləkəçilik yoluyla köləəşdirildiyini görmək çətin deyil.

Amerikanın Quantanamo həbsxanası və s. yerlər isə müasir dünyanın səssiz qaldığı işkəncə yerləridir. Belə misalları çox çəkmək olar.

Yer üzündə hal hazırda həqiqi və yeganə ateist dövlət olan Şimali Koreyada insanlar rəsmi şəkildə *"qullar və ağalar"* sinfinə bölünüblər. Bu nizam *"songbun"* adlanır. Ateistlərin yarım əsrə yaxındır ki, işləyən bu qanunlarını ateistlərin özlərindən tənqid edən isə hələ görməmişik. Lakin, onların cəmiyyətlərdən quldarlığı tədricən çıxaran,

qul azad etməyin savab əməl olduğunu bildirən İslam dininə qarşı bu yersiz və qərəzli ittihamı irəli sürdüklərini görürük. Müsəlman ölkəsi olan Tunisdə *"qul almaq və satmaq"* 1846-cı ildə qadağan olunduğu halda, bu tarix Amerikada 1865-ci ilə təsadüf edir. Dünyada isə 1926-cı ildə bir çox ölkələrdə qul alqı-satqısının qadağan edilməsi qeyd edilmişdir. Lakin, buna baxmayaraq bu gün insan alveri bəşəriyyətin qlobal problemi olaraq qalmaqda davam edir.

Həmçinin, filosof-ateistlərdən belə quldarlığı ciddi şəkildə tənqid edənlər olmamışdır. Əksinə, bir çox filosof ateistlər quldarlığın cəmiyyətlərdə müəyyən sosial və iqtisadi tənzimləmələr baxımından lazımlı olduğunu bildirmişlər. Yəqin ki, onlar ən yaxşı halda Aristotelin, Platonun, Hegelin, Coon Lock'un və s. bir çox filosofların sözlərindən xəbərsizdirlər. Ateist Karl Marks isə Şimali Amerikanın *"qullar olmadan"* mövcud olmasının mümkünsüzlüyündən danışmışdır. Belə misallar çoxdur, uzatmaq istəmirik.

Quldarlığı mütləq şəkildə tənqid edənlər, hazırkı həyatdakı iş və vəzifə fərqlərini də bir növ tənqid etmiş olurlar. Çünki, indiki zamanda da bir çox insanlar cəmiyyətdəki tutduqları vəzifə etibarilə qul olmaqdan heç nə ilə fərqlənmirlər. Belə hallara ateistlərin çox olduğu ölkələrdə də xeyli rast gəlinir.

Xülasə odur ki, iddialar parlaq görünsə də, bütün cəmiyyətlərdə sinfi təbəqələşmə, insanların fərqli ağıl sahibi olmalarından asılı olaraq tarix boyu «quldarlıq» müəyyən şərtlərdə mövcud olsa da, İslam dini quldarlığı tədricən ləğv etmişdir. Bunu müsəlmanlara bir şübhə kimi gətirənlərin isə özlərinin belə öz danışdıqlarına inandıqlarını demək çox çətindir.

## İSLAMDA QADINA ŞİDDƏT VARMI?

Uca Allah Qurani-Kərimdə buyurmuşdur:

**«Özbaşınalıq etmələrindən qorxduğunuz qadınlara nəsihət edin, (əgər düzəlməsələr) yataqda onları tərk edin və (əgər yenə düzəlməsələr) onları yüngülcə kötəkləyin! Əgər sizə itaət etsələr, onlara əziyyət vermək üçün başqa yol axtarmayın. Həqiqətən, Allah Ucadır, Böyükdür.»** (ən-Nisa, 34)

Bu ayəni *"qadına hörmətsizlik"* kimi təqdim edənlərə (bəzi ateistlərə, şərqşünaslara və s.) deyirik ki:

Cavabımız iki hissədən ibarətdir. Birinci hissə ümumi, ikinci hissə təfsilatlı cavabdır. Hər iki cavab arasında mühüm bir bağlılıq vardır.

### BİRİNCİ HİSSƏ (ümumi cavab):

Bilmək lazımdır ki, İslam şəriətinin insana təsiri iki mühüm məsələnin ətrafında dövr edir:

*1) İnsan daim mənfəətə can atır və bu sevgi ilə olur.*

*2) İnsan daim zərərdən qaçır və bu isə qorxu ilə olur.*

Bir tərəfdən Allah qadınla yaxşı davranmağı əmr etmişdir ki, bu sevgi ilə bağlıdır. «**Qadınlarla xoş rəftar edin**» (Nisa, 19)

İkinci tərəfdən isə Peyğəmbər də (salləllahu aleyhi va səlləm) buyurub ki, ***«Sizin ən xeyirliniz aliləsiylə yaxşı davrananınızdır və mən də öz ailəmlə yaxşı davranıram».*** (ət-Tirmizi) İnsanda müəyyən miqdarda

qorxu da olmalıdır. İnsanın fitrətinə qoyulmuş sevgi və qorxu hislərindən, sevgidən danışdıq. Qorxu tərəfi isə İslamın bəyan etdiyi cəzalar vasitəsilə gerçəkləşir. Bu cəzalandırmalar həmin anda şiddətli görünsə də, bu ümumən daha böyük mənfəətə hesablanmışdır. (Bu barədə *«vurmaq cəzası barədə»*məqalənin ikinci hissəsində daha ətraflı danışacaq və hətta «vurmaq» deyildikdə İslam şəriətində nəyin nəzərdə tutulduğunu da bəyan edəcəyik – Allahın izniylə)

**Dediyimiz məsələnin hikmətinə gəldikdə isə:**

Məsələn; (yuxarıda dediyimiz fitrətdə olan hala əsasən) İnsan mala can atır (yəni, malı sevir), eləcə də malı itirməkdən qorxur. Hətta, müasir dünyəvi qanunlar belə bu «fitrətə əsaslanan» qayda üzərində qurulmuşdur. Lakin, insanların çoxu İslam dininin insanın fitrətini necə qorumasına fikir verməmişlər. Dedik ki, dünyəvi qanunlar belə əsasən insanın fitrətdən olan «mənfəətə can atma (hansı ki, məhəbbətlə olur) və zərərdən uzaqlaşma (hansı ki, qorxu ilə olur)» qaydası üzərində qurulmuşdur. Şəriət qanunları da bunun üzərində nazil olmuşdur ki, insanların fitrətinə uyğun olsun. Uca Allah buyurmuşdur: **«Allahın insanları üzərində yaratdığı fitrət budur.» Ayənin sonunda isə deyir: «Doğru din budur, lakin insanların çoxu bunu bilmir.»** (ər-Rum, 30)

Dünyəvi cəhətdən də, məsələn; insan bir işə düzələndə sevgiylə işə başlayır ki, bunu da maaşa olan sevgisindən dolayı edir. Çünki, ehtiyaclarını ödəyəcək və mənfəət əldə edəcəkdir. Həmçinin, insan yaxşı bir işə düzəldikdən sonra o işi itirməkdən də daim qorxur. Bu da insanın dissiplinasını nizamlayır, tarazlayır.

Qadını şəriətin buyurduğu şəkildə (yüngülvari) döymək (ikinci hissədə bunun şərtlərini qeyd edəcəyik) bu da qorxu məsələsinə daxildir. Məsələn; qadının boşanması ilə sabit ailəsi dağılacaq, qadın məhəbbətini itirəcək, övladlar başsız qalacaq. Bu «yüngülvari döymək» cəzası da qadının öz xeyirinədir ki, boşanmaların sayı azalacaq, övladlar başsız qalmayacaq, bu cəmiyyətin də xeyirinə olacaq. Lakin, bir daha qeyd edirik ki, *«döymək»* sözü deyildikdə heç də ağıla gələn *"döymək"* mənası qəsd olunmur. (Bunu çox insanlar bilmir, məqalənin ikinci hissəsində bunu da ətraflı izah edəcəyik -Allahın izniylə)

İslamda boşanmanın qarşısını mümkün qədər almaq üçün mərhələlər qoyulmuşdur ki, insanlar birbaşa yox, o mərhələləri keçib çarə qalmadıqda, boşanmaya yönəlsinlər. (bu mərhələləri də ikinci hissədə qeyd edəcəyik)

**İKİNCİ HİSSƏ: (təfsilatlı cavab)**

**Birincisi:** bu ayədə qadının asiliyi (özbaşınalığı) zamanından, üsyankarlığı halından söhbət gedir. Heç də bu bütün hallara aid deyil.

**İkincisi:** ayədə *"yumşaq şəkildə kötəkləmək mənası"* Quranın təfsirlərində qeyd olunmuşdur ki, biz tərcüməni bəzi tərcüməçilər kimi "döyün" şəklində deyil, "yüngülvari kötəkləyin" şəklində tərcümə etdik. Çünki, Quranın təfsir alimləri "fədribuhunnə" ləfzinə bu mənanı vermişlər. Quranın dəqiq tərcüməsi olmadığı üçün mənaca tərcüməsini verdikdə də təfsir kitablarına əsasən bu mənaların verilməsi daha doğrudur.

**Üçüncüsü:** İslamda qadını və ya başqasını vurmaq deyildikdə hədislərdən də "üzə vurmaq və bədənin hansısa hissəsinə şiddətli vurmaq" qadağandır. İslama görə bunu

nəinki insanın üzünə, hətta heyvanın belə üzünə vurmaq qadağandır.

**Dördüncüsü:** Bəzi alimlər bu ayədən: kiçik misvak (diş təmizləyən kiçik, adi barmaqdan nazik ağac budağı) ilə yavaşca kötək vurmağı, qəsd ediblər ki, başqa cür kötəklədikdə bu üç şərt olmalıdır:

**1) bədənə iz qoymamaq,**

**2) şiddətli vurmamaq,**

**3) sümük zədələməmək.**

**Beşincisi:** ayədə qadını səbəbsiz yerə vurmaqdan söhbət getmir. Bunu etmək qətiyyətlə qadağandır.

**Altıncısı:** ayədə ərlə arvad arasındakı problemdə birinci həll yolu kimi "yumşaq kötəkləmək" yolu göstərilmir. Əksinə, birinci asi qadınla danışmamaq, (nəsihət etmək həll yolu kimi göstərilib, ayəni diqqətlə oxumaqdan insanları yayındıranlar məhz ayədə üç tövsiyənin ən sonuncusuna diqqətləri yönəldirlər ki, bu da qəlblərindəki mərəzdən xəbər verir) əgər bu metodla düzəlməsə, ayədəki ikinci metoda baş vurulur: Yəni, «bir yataqda yatmamaq, yataqda onları tərk etmək» əmri yerinə yetirilir. Fayda üçün deyək ki, ayədə islah məqsədilə yatağı tərk etməkdə otağı tərk etmək deyil, sırf yatağı tərk etmək nəzərdə tutulub. Ola bilər, birinci metodla qadın düzəlsin, nəsihətlə iş bitsin və iş kötəklənməyə qədər gedib çıxmasın.

Yatağı tərk etmək də qadını tərbiyələndirmək metodudur ki, fikir versəniz *"yumşaq şəkildə kötəkləmək"* əmri məhz ən sonda üçüncü metod və ya üçüncü mərhələ kimi qeyd olunub, ola bilsin ki, problem bu üçüncü mırhələyə kimi

uzanmadan əvvəl həll olunsun. Həmçinin, bütün qadınlar eyni deyillər. Bu da bir hikmətdir ki, elə qadınlar var ki, azacıq sərtlik görməsə düzəlmirlər. Amma, çox qadınlar iki mərhələdə düzələ bilir və heç yavaşca vurmağa da ehtiyac qalmır.

**Yeddincisi:** Peyğəmbər (salləllahu aleyhi va səlləm) hədislərdən birində qadın döyən bir kişiyə qız verməkdən çəkindirmişdir. başqa hədislər də var ki, Peyğəmbər qadınları döyməyi yaxşı hal hesab etmir, onlarla yumşaq davranmağı əmr edir. Necə ki, Əbul-Cəhm adlı şəxs Qeysin qızı Fatiməylə nişanlandıqda onun barəsində demişdi: ***«Ona gəldikdə, o qadınları çox döyən bir kimsədir.» Bir rəvayətdə isə: «Əsasını boynundan yerə endirməyən biridir.»*** deyə varid olmuşdur.

***YƏNİ AYƏDƏ MƏQSƏD QADINLARI VURMAĞA DƏVƏT ETMƏK DEYİL, AYƏDƏKİ MƏQSƏD İSLAH YOLLARINI GÖSTƏRMƏKDİR.***

Bir də ki, Peyğəmbər buyurmuşdur: ***«Sizin ən xeyirliniz öz ailəsinə yaxşı davrananınızdır, və mən də öz ailəmlə yaxşı davranıram.»*** Bu böyük Peyğəmbərin öz həyatı da nümunədir ki, heç vaxt qadınlarına əl qaldırmamışdır.

**Səkkizincisi:** Bir də bu gün dünyada qadın döymək geniş yayılıb. Bu da çox pis haldır. Bunu İslamla bağlamaq doğru deyil. Lakin, İslam insanlara öyrədir ki, hər dəfə qadını döymək çıxış yolu deyil. Hətta, Quranda şübhə kimi gətirdikləri ayədən bir neçə ayə əvvəl Allah kişilərə bunu əmr edir: **«Onlarla yaxşı davranın»** (ən-Nisa, 19) Sonra isə qadınların özbaşınalığı zamanı üç islah metodundan danışılır. Halbuki, onlar elə birinci bu ayəni misal gətirməli idilər ki, Allah qadınlarla yaxşı davranmağı əmr etmişdir. Bir sözlə Allah bu ayə ilə (ən-Nisa, 34) qadını döyməyə

yox, nə zaman insan buna məcbur olarsa, bunu yumşaq şəkildə, hansı mərhələdən sonra və necə edə bilər onu öyrədir, həmçinin, buna adət etməyin yaxşı bir iş olmadığını göstərir. Odur ki, İslam barəsində İslamın hansısa məsələdə mövqeyini bilmədən şübhə gətirənlər yanılırlar. Həqiqətən də Allah öz qullarını özlərindən də yaxşı tanıyır.

**Doqquzuncusu:** İki uğursuz alınan metoddan sonra (yəni, nəsihət etmək, düzəlməsə, yatağı tərk etmək) üçüncü *«yüngülcə vurmaq»* metoduna icazə verilsə də, qadın itaət etdiyi təqdirdə onu vurmaqdan əl çəkməyin vacib olmasını bilmək lazımdır. Elə həmin ayədə guya qadını *"döyməyi"* şübhə gətirənlər, nədənsə şübhəni gətirəndə ayənin bu hissəsini oxuculara təqdim etmirlər: **«Əgər sizə itaət etsələr, onlara əziyyət vermək üçün başqa yol axtarmayın.»** (ən-Nisə, 34)

Deməli, ayənin bu hissəsini gətirməyənlərin məkrli hiyləsi bir daha üzə çıxır. Halbuki, bu ayənin bir cümləsini gətirib başqa cümləsini verməyənlər dinə qarşı qərəzli və ədalətsiz mövqelərini sərgiləməkdən başqa bir şey etmirlər. Allahdan istəyirəm ki, bizi oxuyub faydalananlardan etsin!

**Qeyd:** Məqalədə qəsd olunan "şərqşünaslar"dan məqsəd İslamı öyrənməkdə məqsədi İslama qarşı mübarizə aparmaq olan şərqşünaslardır. Halbuki, şərqşünasları mötədil fikirli olanlarından danışmırıq. Çünki, şərqşünaslar bir neçə qismdirlər. Şərqşünasların bu qismini ona görə ateistlərlə birgə qeyd etdik ki, bu qism şərqşünaslar İslamla mübarizə aparmaq üçün ömürlərini həsr etmiş, kitablar yazmış, sonradan gələn dinsizlər üçün bir məsdərə çevrilmişlər.

## ATEIZMDƏ ƏXLAQ ANLAYIŞI

Yeni növ ateistlər davamlı şəkildə və hər fürsətdə təkrarlayırlar ki, əxlaqın böyük əhəmiyyəti var, azadlıq kimi insan haqları və uca dəyərlər var ki, gərək bunları qoruyaq. Adətən, bunu müsəlman və xristyanların müqəddəs kitablarını (1) pisləmək və iynəli tənqid etmək yoluyla edirlər. Qərb baxışında çox rast gəlmək olur ki, Quran və İncil kitablarından bəzi dəlillərdən istədikləri kimi yorum verib hansısa vəhşiliklərə misal gətirməyə çalışırlar.

Lakin, gəlin diqqət edək! Görək Hitlerin və ya ateist Sovet hökumətinin kütləvi qətl etmələrinin şərə yozulması ateistlərdə hansı meyarlarla və necə qəbul edilir? Bu hallardan niyə danışmırlar? Ateizm əsaslarında xeyir və şərin meyarları nədir? Bəli, ola bilsin ki, ateist, hansısa əxlaqi əməlləri yerinə yetirsin? Lakin, əxlaqi əməllə özünü təmizə çıxarmaq başqa, həqiqi əxlaq əsaslarını sərgiləmək ayrı-ayrı şeylərdir.

Richard Dawinks (müasir ateistlərin əsas liderlərindən biri) iddia edir ki, "biz yalnışı doğrudan ayırd edə bilirik", Daniel Dennett əxlaq gerçəkliyini təsdiq edir və əxlaqi dəyərlərin dünyada qoyulmuş cəhətlərdən olduğuna inanır. (2) Christopher Hitchens «Xeyir və şər», «Doğru və xəta», «Əxlaqi və qeyri əxlaqi» sözlərini tez-tez və aktiv şəkildə işlədir. (3)

Sam Harris isə iddia edir ki, qızıl qayda **"əsrarəngiz əxlaq başlanğıcıdır"** və özünün "əxlaqın nisbiliyi" sözünü deyənlərdən hesab etmir. (4)

**Lakin, görəsən onların bu etiqadlarını və fikirlərini yürütməkçün irəli sürdükləri əxlaq nəzəriyyəsi nədir elə?**

Dawinks'ə gəldikdə; O öz halına nisbətdə bu problemin həllini əxlaqi davranışı bioloji təkamülə əsaslandırmaq yolunda görür. Öz "The Selfish Gene" (Eqoist Genlər) kitabının əvvəlində iddia edir ki, biz insanlar nəcat tapmaq üçün alətlərik, biz kortəbii şəklində yüksək proqramlaşdırılmış cihazlarıq ki, bu da genlər adı ilə bilinən "eqoist zərrələri" qorumaq üçündür. (5)

O, əşyalara baxdıqda belə hesab edir ki, bizim etiqadlarımız və əxlaqi bilgilərimiz bundan öncə məhdud idi, bu da bizim nəsildən nəsilə ötürülən proqramlaşdırılmış üzvlərimizi eqoistliklə genlər sahəsindəki təkamülə hazırlayır. Dawinks razılaşır ki, başqa genlərə nisbətdə bu genlərin qalması üçün aydın görünən yol **"eqoistlikdir"** ki, bu fərdi varlıqların proqramlaşdırılması yoluyla baş tutan eqoistlikdir. (6) Başqa bir tərəfdən isə o razılaşır ki, "eqoist genlər"in eqoistliyi bəzən başqa varlıqlara eqoist təsiri o varlıqları (zərrələri) özündən önə çəkmək (üstün tutmaq) yoluyla və ya əxlaq yoluyla qalıcılığı özündə ehtiva edir. Bu isə xüsusən də yaxın qohumların başqa qohumlarla (intim) yaxınlığı zamanı baş verir. Məsələn; qardaş, bacı və oğullar və s. arasında…Dawinks bu sözünü izah edərək deyir: «**Hesablamalara görə üstün rəy budur ki**, fərdi varlıqları proqramlaşdıran genlər öz nüsxələrindən olan yaxın qohumların genləri üçün faydalıdır.» (7)

Proqramlaşdırılmış əxlaq təkcə qohumları "üstün tutmaq"dan ibarət deyil. Həmçinin, "qarşılıqlı" üstün tutma yolu kimi başqa bir vəsilə da var. Hansı ki, (Ateistlərin müasir liderlərindən olan Dawinks) bunu müxtəsər olaraq bu fikirlə izah edir: «Belimi qaşı, mən də sənin belini

qaşıyım.» Bu əxlaq anlayışının rolu yaxın qohumlarla kifayətlənmir, "bir növdən olan fərdlər" arasında da baş tutur. Hətta, fərdlərin müxtəlif növləri arasında da baş tutur. Buna da **"qarşılıqlı anlaşma"** ismi ilə işarə etmişdir. Bu növ əlaqədən isə "hər iki tərəfin faydalandığını" deyir. (8)

Dawinks və təkamül fikrinin əksər daşıyıcıları "üstün tutma"nın (onlara görə ən üstün əxlaqi ünsür) istəklə (seçim ilə) bağlı olmayan, Darvinin dediyi proqramlaşma olduğunu bildirirlər. Fərz edək ki, buna "yaxşı" dedik. Axı "bioloji nəzəriyyə" bizə əxlaq anlayışını izah edə bilmir! Tam əksinə olaraq, həqiqətdə isə bu nəzəriyyə əxlaq anlayışını inkar edir, bu cür yersiz izahlardan əvvəl isə ateistlər əxlaqın dinlərdən gəlmə bir xüsusiyyət kimi izah edirdilər. Hətta, Dawinks başqa bir sözündə bunu etiraf edərək deyir: **«Bütün mütləq hökmlər dinə söykənmir. Lakin, yer üzündəki mütləq əxlaqları dindən başqa bir şeylə müdafiə etmək olduqca çətindir.»** (Mənbə: The Good Delusion, səh 232)

Daniel Dennett də həmçinin "əxlaqın həqiqiliyini" təsdiqləyir və **"əxlaqın nisbiliyini"**deməkdən çəkinməyə rəğbətləndirir, əxlaq barəsində doğru elmi bir mövqe tutmaq üçün səy göstərir. Lakin, bunu etməkdə "doğruluq və ədalətlə əlaqəli yüksək dəyərləri önə çəkməyin gərəkdiyini" deyərək insanları bununla mükəlləf etməyi vacib görür. Lakin, yenə də hər şeyin maddədən ibarət olduğunu iddia edən ateist düşüncəsinə görə **əxlaqa bir izah verə bilməyərək** sadəcə əxlaqaın həqiqiliyini təsdiqləməklə kifayətlənir. O hesab edir ki, bu əxlaqi dəyərlərə riayət etməyi gərəkdirən yeganə səbəb "bu dəyərlərin yüksək dəyərlər olmasıdır və buna riayət etməkdən qaçmaq insanlarla bir olan həyatda mümkün deyildir." Daha sadə dildə isə, canlı olduğumuz üçün. Yəni, özü ifadə etdiyi kimi: «həyatda qalmaq və sülh içində yaşamaq üçün.» (9)

***ATEİSTLƏRİN ƏXLAQ PROBLEMİNİ BU CÜR BƏYAN EDƏ BİLƏRİK:***

**1)** Əgər onlarda «xeyir və şər» kimi əxlaqi anlayışlar mövzu olaraq mövcuddursa, onda onlara görə əxlaq anlayışını mövcudluğunu isbatlamaq üçün əxlaq mövzusu ilə əlaqəli əsas (dayaqlar, köklər) da olmalıdır.

**2)** Ateizm **«xeyir və şər»** mövzusu kimi əxlaqi anlayışları isbatlamaq üçün heç bir əxlaqi əsas təqdim etmir.

**3)** Buna görə də ateistə gəldikdə onun üçün xeyir və şər anlayışı mövzu olaraq mövcud olmadığı kimi, bir ateist üçün əxlaq anlayışlarının mövcud olmaması da vacib olur. (10)

Buna baxmayaraq, dörd ateist alim (Dawinks, Harres, Dennett və C. Hitchens) ateizmin əxlaqa ehtiyacı olmadığını açıq aydın etiraf etməyiblər. Bu da bu "əxlaq" anlayışının onlara görə olmamasını və əbəs yerə olduğunu gərəkdirir.

**Lakin, bəzi ateistlər var ki, bunu açıq aydın etiraf ediblər.** Məsələn; Michael Ruse (təkamül əxlaqı üzrə alim və fəlsəfəçi ateist) dostu Edward və Wilsonla birgə daha aydın və mütləq şəkildə təsdiqləyirlər ki, əxlaq təbii təkamül yaşayışı nahiyəsindən möhkəm bir yerə qoyula bilməz. Bu fikri belə izah edirlər:

«Əxlaq – və ya daha dəqiq idadə etsək – əxlaqa inanmağımız sadəcə bir "keyfiyyət vermədir" ki, nəticə etibarilə bizim çoxalmağımızı gücləndirmək üçün öz yerini tutmuşdur. Həmçinin, əxlaq, nə ilahi iradənin, nə təkamülün məcazi köklərinin sirri deyil, nə də var olmaq baxımından heç bir başqa hissənin sirri deyil (yəni, heç

nəyə aid bir gizlilik deyil). Mühüm bir məna kimi həqiqətən də **«əxlaq»** aldanış olan bir ifadədir ki, bizi genlərimiz aldadaraq aramızda yardımlaşmaq üçün bizi buna məcbur etmişdir. Əxlaq anlayışının söykənəcəyi xarici bir dayaq yeri yoxdur. Əxlaq təkamülün nəticəsidir. **Lakin, təkamülün əxlaqı müdafiə etməsi mümkün deyildir.** Çünki, əxlaq qınına qoyulmamış bir xəncərdir.» (11) Əxlaq **mövcud olmasından başqa** bir mühüm hədəfə xidmət edir…Lakin, əxlaq daşınılmaz bir xəncər kimi bütün insanların müştərək olduğu ALDANIŞDIR. (12)

Deməli, ateistlərə görə əxlaq əksər insanların inandığı bir anlayışdır, lakin, həqiqətdə mövcud olmayan bir şeydir. Bu fikir müasir ateistlərin qənaətə gəldiyi özlərinə görə doğru saydıqları fikirdir. Bunun nə demək olduğunu başa düşsələr də, başa düşməsələr də bunu təsdiqləyirlər…Lakin, biz bu məqalədə bu fikiri təsdiqləyənlərin sosial şəbəkələrdə ailə daxili intim münasibətlərin mümkünlüyü barədə sözlərini faktlarla misal çəkməkdən sadəcə həya edirik. Lakin, həmin faktlar bizdə mövcuddur. Lakin, "ateizmdə əxlaq anlayışı" adlı yazımızın ikinci hissəsində ola bilsin ki, bu fikirlərin hansı əxlaqi fəsadlara aparmasına dair bəzi misallar çəkdik.

**XÜLASƏ:** Bir insanın mütləq əxlaqi əsasları olmadan əxlaq bardə elmi, mövzuya uyğun sabit mövqe tutması mümkün deyil. Bu isə hər şeydən Xəbərdar, hər hikməti Bilən Uca Allaha inanmaqla mümkündür.

**QEYDLƏR VƏ İSNADLAR:**

(1) (Qeyd: Quranda İncilin təhrif olunmaslndan bəhs edilmişdir, bu barədə başqa bir yazıda məlumat vermək də olar.)

(2) God Is Great, God Is Good, 2009, edited by William Lane Craig & Chad Meister, p.110

(3) bax: (https://www.youtube.com/watch?v=HPYxA8dYLBY) həmçinin, bax: (https://www.youtube.com/watch?v=y0Q0o5une8Y).

(4) Letter to a Christian Nation: 11

(5) The Selfish Gene, p.v.

(6) The GodDelusion, 216.

(7) Eyni məsdər

(8) God Is Great, God Is Good, 113.

(9) Breaking the Spell: Religion and a Natural Phenomenon: 376.

(10) God Is Great, God Is Good, 115.

(11) Bu misal Şekspirin bir əsərindən götürülüb ki, kral bir nəfəri qətl etmək istədikdə qınına qoyulmamış qılıncın havada uçduğunu görür.

(12) The Evolution of Ethics, in Philosophy of Biology, səh 316.

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT:**

1) «Milişiyyə əl-İlhəd li-fəhmil-ilhəd əl-cədid» kitabı, müəllif: Abdullah ibn Saleh əl-Aciyri.

2) «Muşkilətuş-şərr va vucudullah» kitabı, müəllif: dr. Sə’mi A’miri.

3) «əl-Ilhəd vəl-Əxləq» elmi məqaləsi, yazar: Rıda Zeydən.

4) “Ateizmdə əxlaq” mövzusunda müxtəlif videoçıxışlardan iqtibaslar.

*   *   *

## *ISLAMOFOBIYA – QƏRBİN İSLAM DÜŞMƏNÇİLİYİNİN TƏZAHÜRÜ*

Bu yazımızda Allahın izni ilə islamofobiyanın mənası, səbəbləri, təzahürləri, Qərb mətbuatının İslam qorxusunu yaymaqda rolu və dünyada təbliğ edilən islamofobiyaya bir müsəlman kimi necə yanaşmalı olmağımızdan danışacağıq.

### İslamofobiya nədir?

İslamofobiya (islamophobia) yeni bir termindir, iki sözdən ibarətdir: İslam və fobiya (phobia – qorxu). Bununla bir şeyin fərz olunan təhlükəsindən şüursuz şəkildə qorxmaq və ya qorxutmaq qəsd olunur. Oksford İngilis lüğətində «Islamophobia» terminine bu tərif verilib: «İslamofobiya: İslama qarşı olan qorxu və ikrahdır. (İslamı və müsəlmanları) siyasi bir qüvvə kimi görmək, müsəlmanlara qarşı dözümsüzlük və ayrıseçkilik nümayiş etdirməkdir.» (Oxford English Dictionary – Islamophobia. Oxford University Press)

Bu termindən ilk dəfə 1991-ci ildə istifadə edilmiş, ABŞ-da 2001-ci ildə 11 sentyabr hadisəsindən sonra yenidən gündəmə gəlmişdir. (Wikipedia)

Bəzi tədqiqatçılar 80-ci və 90-cı illər arasında da istifadə edildiyini vurğulamışlar.

Ümumən, İslama və müsəlmanlara qarşı olan qorxu və nifrət təbliğatının tarixi Avropada “Səlib yürüşlərinə” qədər gedib çıxır.

«İslam və media fobiyası» kitabında deyilir:

«İslamdan və müsəlmanlardan qorxmaq, qorxutmaq və ya bir termin kimi işlədilən İslamophobia (yəni: İslam qorxusu) problemi istər xalq səviyyəsində, istər də rəsmi səviyyədə Qərbdə ümumi fikirə çevrilmişdir. Bu, Qərbin siyasət, strategiya, mətbuat və islamla əlaqəli kolleclərinin tədqiqat mərkəzlərində açıq bir şəkildə özünü biruzə verir. Qərb dünyasının şərhçilərinin, mütəfəkkirlərinin, siyasətçilərinin və mətbu orqanlarının fikirlərində İslama din, əqidə və mədəniyyət nahiyəsindən olan baxış Qərb mədəniyyətini təhdid edən və onunla qətiyyən uzlaşmayan bir baxış və İslam mədəniyylətiylə Qərb mədəniyyəti arasında dialoqa, birgəyaşayışa, qarşılıqlı anlaşma, qarşılıqlı ehtirama yönələn baxış arasında dəyişir. (əl-İsləm vəl-İ’ləmufubiyə, səh. 105)

İslamofobiya (islamophobiya) termini mötədil və qərəzli şərqşünaslıq araşdırmalarında da çox istifadə olunmuşdur. Mötədil şərqşünaslar öz araşdırmalarında (orientalisme islamophile) bu termini İslama qarşı mötədil və yumşaq yanaşma baxımından istifadə etmişlər. Qərəzli şərqşünaslar isə öz araşdırmalarında (Orientalisme İslamophobie) bu termindən tənqidi nöqteyi nəzərdən, İslam dinini və İslam mədəniyyətini başqa mədəniyyətlər üçün qorxulu təqdim etməkdə istifadə etmişlər. (əl-İsləm vəl-İ’ləməfubiyə, səh 108)

**İslamofobiyanın səbəbləri nələrdir?**

İslamofobiyanın səbəblərindən bəzilərini qeyd edək:

1) Qərb dünyasında yerli müsəlmanların və müsəlman miqrantların sayının sürətlə artması və bunu həzm edə bilməyən dairələrin əks fəaliyyəti. Son statistik göstəricilərə görə hazırda Avropada 60 milyon müsəlman yaşayır. Tədqiqatçıların fikrincə, mühacirlərin Avropa

ölkələrinə axını və onların arasında doğum hallarının artması nəticəsində 2050-ci ildə Avropa əhalisinin 20%-nin müsəlman olması ehtimalı gözlənilir.

2) İslamı həqiqi mənbələrinə (Qurana və hədislərə) müxalif şəkildə təmsil edən təkfirçi, radikal, dinə yeniliklər gətirən təriqətçi qrupların kor-koranə fəaliyyəti.

3) Böyük islam alimlərindən elm almayan, onların elmlərindən bəhrələnmədən, elm yolunda adi çətinliklərə belə tab gətirmədən fəaliyyət göstərməyə başlayan din xadimlərinin hikmətsiz fəaliyyəti.

4) İslama nifrətlə yanaşan başqa din mənsublarının və qeyri-din mənsublarının tarixi düşmənçiliklərinin yeni bir şəkildə təzahür etməsi.

5) İrqçilik (racism) fəaliyyətləri və əcnəbi düşmənçiliyinin (xenaphobia) təsirləri.

6) Mətbuat orqanlarına rəsmi və qeyri-rəsmi qəsdli təsirlər.

7) Qərbin öz insanlarının düşüncəsində İslam barədə formalaşdırmaq istədiyi “qorxulu İslam və müsəlmanlar” obrazı, xüsusən də, islamofobiyanın bəzi rəsmi dairələrin siyasətinə alət olması. Artıq çoxumuza məlumdur ki, müsəlmanları parçalamaq üçün uzun illərin planları islam düşmənləri tərəfindən bu günümüzdə aktiv şəkildə yerinə yetirilir, hətta, müxtəlif institutların illərlə müsəlmanlar barədə araşdırmalar edib onları zəiflətmək yollarını axtarmışlar. Xülasə, bu iş üçün institutlar işləyiblər. Heç təsadüfi deyil ki, qısa bir zamanda yaxın Şərqdə İŞİD kimi bir terror təşkilatı peyda olur, müsəlmanlar oraya aktiv şəkildə cəlb olunur, bunun vasitəsi ilə üç-dörd il bütün dünyada aktiv islamofobiya təbliğatı gedir, sonra da İŞİD-

in təsisçiları geri çəkilir, üstəlik həmin ərazilərdə müsəlmanlar qırılır, xəritədə isə, dəyişiklik olur. Bütün bunlar bizə İslamofobiya ilə əlaqəli ciddi mesajlardır.

**İslamofobiyanın dünyadakı təzahürləri:**

İslamofobiyanın dünyadakı təzahürlərindən bəzilərini qeyd edək:

1) Müsəlmanlara hicab problemi yaratmaq. Başqa açıq-saçıq geyim tərzlərinə azadlıq, abır-həya rəmzi olan hicaba isə qadağalar dünyadakı ədalətsizliyin, dözümsüzlüyün və islamofobiyanın ən aydın təzahürlərindəndir.

2) Saqqallı müsəlmanlara yersiz təziqlər və iş problemlərinin yaradılması. Halbuki, bu da, son əsrdə ortaya çıxmış bir qərb adətidir ki, müsəlman ölkələrində də tətbiq edilmiş və insanları buna uyğunlaşdırmaq istiqamətində təbliğat işləri görülmüşdür.

3) İslama qarşı mübarizə aparmaq və buna çağırmaq. Bu da, İslamofobiyanın ən yayılmış təzahür formalarındandır.

4) İslam barədə elementar məlumatları olmadan islama qiymət vermək səylərinin çox olması və s. Bunu daha çox ateistlər və başa dini təmayülü olan şəxslər edirlər.

5) Qərb aləminin, Qərb mediasının və bütün qərəzli mediaların İslam və müsəlmanlar barədə sözlərini araşdırmadan yayılması. Həqiqətən də, artıq dünyada İslam və müsəlmanlar barədə dəqiqləşdirilmədən yayılan xəbərlərin sayı çoxalmışdır.

6) Mediada terrorçu qrupların İslamın rəhmət əsaslarından uzaq olmalarına baxmayaraq "İslami qruplaşma" kimi

təqdim olunması halları. Həmçinin, İslam sözüylə “terror” sözünün qəsdli şəkildə yanaşı işlədilməsi halları.

7) Bəzi müsəlmanların əsassız şəkildə təqib və təhqir olunmaları.

Ümumiyyətlə, Avropa birliyinin 27 ölkəsində 23.500 nəfər üzərində ətraflı bir araşdırma edən «European Union Agency for Fundamental Rights» (FRA) dərc etdiyi bir anketdə bu ölkələrdə yaşayan hər üç müsəlmandan birinin sadəcə son bir ildə mütləq ayrı-seçkiliklə qarşılaşdığını və hər on müsəlmandan birinin də təcavüz (hücum xarakterli) və ya təhqirə məruz qaldığını göstərir. (Avrupada yükselen İslamofobi, Murad Aktaş, səh 3)

8) Bəzi islami kəlmələrə, şüarlara və rəmzlərə qarşı aqressivliyin, sərtliyin nümayiş etdirilməsi və hətta bəzi islami kəlmələrin istifadəsinin, mediada işlədilməsinin qadağan edilməsi və s.

Qeyd etmək olar ki, bunlar dünyada yayılmış islamofobiyanın bir çox təzahürlərdən yalnız bəziləridir.

**İslamofobiyanın qısa tarixinə nəzər yetirək:**

Məlum olduğu kimi, Əndəlüs müsəlmanlarının dövründə Kordova Xilafəti və Osmanlı Xilafəti zamanında Avropanın müəyyən hissəsi islam mədəniyyətinin əhatə dairəsinə daxil olmuşdur. VIII əsrdə Pireney yarımadasına ərəblərin daxil olması ilə XV əsrədək burada islam dini hakim olmuşdur. Əndəlüs torpaqlarında bura gələn müsəlmanlar, İslamı sonradan qəbul edən yerli əhali və xristianlar yanaşı yaşamışdır. Lakin, 1492-ci ildə sonuncu

müsəlman əyaləti olan Qrenadanın süqutu ilə İspaniyada qeyri-xristianların məhvinə yönəlmiş **rekonkista** siyasəti Qərb sivilizasiyasının bəşəri insanlıq dəyərlərinə sadiq olmadığını bir daha göstərdi. 1610-cu ilədək İspaniyada müsəlmanların yaşayışına son qoyuldu. 1492-1610-cu illər arasında müsəlmanların kütləvi qırğını və mühacirəti nəticəsində İspaniyanın əhalisi üç milyon nəfərə qədər azaldı. Müsəlmanlarla bərabər başqa din mənsublarının da İspaniyadan qovulması Qərbin tarixən digər dinlərə qarşı dözümsüzlüyünü bir daha təsdiq etdi.

İspaniyadan başqa Portuqaliya, Cənubi İtaliya, Malta da islami fəthlər dövründə İslamın xoşməramlı təsirinə məruz qalmışdır. Sonradan müsəlmanlar bütün bu coğrafiyadan tam sıxışdırıldılar. İslamı sonradan qəbul edən əhalini inkvizisiya tonqalı aqibəti gözləyirdi, ərəblər isə, ümumiyyətlə bu coğrafiyadan silindilər. Hazırda yalnız Maltada bir neçə minlik müsəlman icması qalmaqdadır. Baxmayaraq ki, XIII əsrdən islam bir din olaraq burada qadağan edilmişdir.

**İndi isə, gəlin müqayisə üçün Qərbin müsəlman Şərqinə doğru müdaxiləsinin pik dövrlərindən biri olan səlib yürüşləri zamanı olan münasibətlərə baxaq.**

Səlibçilər üçün müsəlmanlar din düşmənləri idi və müsəlmanların öldürülməsi şərəfli iş sayılırdı. Ümumilikdə isə, səlib yürüşünün iştirakçıları, Vatikan kilsəsi başda olmaqla onların Avropadakı havadarları müsəlmanlara qarşı tam dözümsüzlük nümayiş etdirirdilər.

Beləliklə, tarixi rakursdan qiymətləndirdikdə, Qərbdə müsəlmanlara qarşı normal münasibət heç vaxt müşahidə

olunmamışdır. Bu mənada indiki anlamla "islamofobiya" yeni bir hadisə deyil. Tarixin müxtəlif vaxtlarında Qərbin müsəlman Şərqinə münasibətində özünü göstərmişdir. Lakin müasir dövrümüzdə şərait olduqca fərqlənir. Keçən əsrdə Qərb ölkələrinin ucuz işçi qüvvəsi kimi gətirdiyi müsəlman miqrantlar indi əksər ölkələrdə hadisələrə təsir göstərə biləcək qüvvəyə malikdirlər. Artıq kimlərinsə bunu istəyib-istəməməyindən asılı olmayaraq İslam Qərbin daxili faktoruna çevrilib və günü-gündən də güclənməkdədir.

İnsan haqları və azadlıqları kimi günümüzün aktual çağırışları isə, Qərbin artıq bir dəfə təcrübədən çıxardığı "rekonkista" siyasətinə yenidən imkan vermir. Görünən odur ki, indi rekonkistanı "islamofobiya" əvəz edib. Avropanın bir sıra ölkələrində islam memarlığına qarşı qadağa, islami həyat tərzinə ikrah dolu münasibət, xüsusi ilə də, təhqirlərlə dolu karikatura qalmaqalı, Qərb cəmiyyətində İslama qarşı digər mənfi münasibət əks olunan hadisələr islamofobiya elementləridir.

Haqqında danışdığımız «İslamofobiya»-nın tarixinin Xaçlı (səlib) yürüşlərinə qədər gedib çıxdığını qeyd etmişdik.

Müsəlmanlara qarşı **Xaç yürüşləri müxtəlif mərhələlərdə baş vermişdir:**

Birinci mərhələ:1096-1099-cu illər.

İkinci mərhələ: 1147-1149-cu illər.

Üçüncü mərhələ: 1189-1192-ci illər.

Dördüncü mərhələ: 1202-1291.

(Ətraflı bax, Əl-Bidəyə vən-Nihəyə, İbn Kəsir; Hərakətus-Salibiyyə, Səid Əbdul-Fəttəh Aşur.)

**İslam barədə qorxu yaymaqda Qərb mətbuatının rolu:**

Qərb mediası müsəlmanlarla istehza etmək, İslamı aşağılamaq işini bir adətə çevirmişdir ki, bunu filmlərdə, qəzetlərdə, jurnallarda, kitablarda, televiziya ekranlarında, sosial şəbəkələrdə daim təkrarlayırlar. Bununla da, İslam barədə digər insanlarda mənfi fikir formalaşdırmağa çalışırlar.

Eduard Səid (Edward Said) iddia edir ki, İslamofobiyanın tarixi üç mərhələ keçmişdir: Səlib (Xaçlı) yürüşləri mərhələsi, (Qərəzli) Şərqşünaslıq mərhələsi və (müasir) mətbuat mərhələsi.

Qərbdəki islamofobiyanın təsirləri məscidlərdən və islam mərkəzlərindən də yan keçməmiş, müxtəlif məscid və mərkəzlərin yandırılması və qəsdli hücumlarla nəticələnmişdir.

İslamofobiya şüarları, qərbdə bir çox tanınmış simaların İslam əleyhinə işlətdiyi sözləri Qərb mətbuatı geniş kütlələrə çatdırmışdır. Bəzi qəzet və jurnallar zaman-zaman İslam əleyhinə yazılar hazırlamaqla reytinqlərini qaldırmağa çalışmışlar.

Qərbdəki mətbuat vasitələrinin ən tanınmış məlumat kanalları İslamdan qorxutmaq siyasətini yürüdür, qərb izləyicisi və oxucusunu öz böyük mətbu imkanları ilə İslam barədə qərəzli və qəzəbli yanaşma üstünlük təşkil edən diqqət mərkəzinə çevirir və bunun üçün səy göstərirlər.

Bütün bunlara baxmayaraq, qərbdə bu ədalətsizlikləri sezə bilən bəzi mütəfəkkirlər də vardır. Lakin onların sayı çox azdır. İslamın müdafiəsinə qalxaraq İslamofobiya (Islam qorxusu) əleyhinə danışan bəzi qərb mütəfəkkirlərinin ən bariz şəxslərindən Noam Çomski (Noam Chomsky), Cek Şahin (Jack Shaheen), Con Espisito (John Esposito) və başqalarını misal çəkmək olar.

**İslamofobiyaya qarşı bir müsəlman kimi necə yanaşmalıyıq?**

Biz bilməliyik ki, İslamı qəbul edən hər bir insan hidayət nemətini daddığı kimi böyük bir məsuliyyət də daşıyır. Bu əzəmətli məsuliyyət də bu pak dinin mənsubu olmaqla yanaşı, bu dini ölkəmizdə və dünyada gözəl şəkildə təmsil etməkdir. Hər bir müsəlman bacardığı qədər İslam haqqında olan böhtanların, yalanların doğru olmadığını isbatlamağa çalışmalı, İslamın yüksək insani dəyərləri, həqiqi insan haqlarını, rəhməti, sevgini, şəfqəti və bütün gözəl əxlaqi dəyərləri təbliğ edən bir din olduğunu, həmçinin, terrordan, zülmdən, haqsızlıqdan uzaq bir din olduğunu ətrafındakılara başa salmalıdır.

Lakin bilməliyik ki, İslamın haqq olduğunu, böhtançıların böhtanlarından uzaq olduğunu sübut etmək üçün öz islami kimliyimizi itirməyimizə ehtiyac yoxdur. Uca Allah bu barədə buyurmuşdur:

**«Sən onların dininə tabe olmayınca, nə yəhudilər, nə də xaçpərəstlər səndən razı qalmayacaqlar. De: "Yalnız Allahın haqq yolu doğru yoldur!" Əgər sənə gələn elmdən sonra onların istəklərinə uysan, səni Allahdan**

**nə bir qoruyan, nə də bir xilas edən olar.**»(əl-Bəqərə, 120)

***«Dünya möminin zindanıdır, kafirin isə cənnətidir»*** (Muslim, 2956) deyən Peyğəmbərimiz (Allahın Ona salavatı və salamı olsun) bizi müsibətlərin, sıxıntıların gözlədiyini xəbər vermişdir.

Uca Allah Qurani-Kərimdə bizə iman gətirməyənlərin dilindən əziyyət çəkəcəyimizi xəbər verərək buyurmuşdur: **«Siz hökmən malınız və canınızla sınaqdan keçiriləcəksiniz. Sizdən əvvəl Kitab verilənlərdən və müşriklərdən bir çox əziyyətverici sözlər eşidəcəksiniz. Əgər səbir edib Allahdan qorxsanız, bilin ki, bu, əzmkarlıq tələb edən əməllərdəndir.»** (Əli İmran, 186)

Beləliklə, bilmək lazımdır ki, islamofobiyanın məqsədlərindən biri də müsəlmanların öz dinlərində olan savadsızlığından istifadə edib onların tədricən öz dinlərinə olan baxışlarını dəyişdirib İslamı onlara mənfi surətdə təqdim etməkdir. Bu da, bir yazılmamış qaydadır ki, sən bir həqiqəti özün tanımasan, onu başqaları sənə istədikləri kimi tanıdarlar. Ona görə də, biz bir müsəlman kimi bacardıqca dinimizin əsaslarını, tövhidi və İslam əqidəsini yaxşı öyrənməliyik ki, İslam düşmənləri bizi aldada bilməsinlər. Uca Allah buyurur:

**«Bil ki, Allahdan başqa ibadətə layiq olan heç bir məbud yoxdur.»** (Məhəmməd, 19)

Biz hər birimiz səbr edərək dinimizi layiqincə yaşamağa çalışmalı, səbirlə, təmkinlə insanların müsəlmanlar barəsində olan yalnış fikirlərini onlara izah etməliyik!

**İnsanlar bilməlidirlər ki, terrorun vətəni yoxdur!** Terroristin dini, irqi və mənsubiyyəti olmur. İslamın terrorla əlaqələndirilməsi və cəmiyyətimizdə dindar insanlara qarşı ayrıseçkilik etmək özü islamofobiyaya xidmət etməkdir. **«Təsir əks təsirə bərabərdir»**, **«mərdi qovub namərd etmək»** prinsipini nəzərə alaraq vətəndaşlar bilməlidirlər ki, dindarlara ictimai təziq və qınaq göstərmək onları radikallığa sürükləmək deməkdir. Əksinə, onlar dindarların cəmiyyətimizdə yaydıqları xeyirlərə fikir verməli, cəmiyyətin islahı üçün dindarların atdıqları addımları yüksək qiymətləndirməlidirlər.

Həmçinin, **islamofobiyaya qarşı maarifləndirici tədbirlərdən biri** də İslamın bəşəriyyətə verdiyi rəhmət mesajlarını insanlığa çatdırmaqdır. Məsələn, Uca Allahın bu ayəsi kimi:

**«Kim bir adamı öldürməyən və ya yer üzündə fəsad törətməyən bir şəxsi öldürərsə, sanki bütün insanları öldürmüşdür. Kim də onu ölümdən xilas edərsə, sanki bütün insanları xilas etmiş hesab olunar.»** (əl-Maidə, 32)

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT:

1 – Qurani-Kərimin azərbaycan dilinə mənaca tərcüməsi.

2 – Səhih Muslim.

3 – Əl-İsləm vəl-İ'ləmufubiyə (ərəbcə), müəllif: dr. Məhcub ibn Səid.

4 – Avrupada yükselen İslamofobi ve medeniyyetler çatışması tezi. (türkcə) müəllif: Murat Aktaş.

5 – İslamofobiya kimə və nəyə xidmət edir? (məqalə). Ərəstü Həbibbəyli.

6 – Qılınc gücü müsəlmanı nədir? (məqalə) Sahib Əsədov.

Qeyd: **«Rekonkista»** Pireney yarımadasında yaşayan müsəlmanların xristianlar tərəfindən sıxışdırılaraq çıxarılmasına səbəb olmuş, dini məzmunlu hərəkatdır. "Rekonkista hərəkatı" Qranada əmirliyinin 1492-ci ildə dağılması nəticəsində başa çatmışdır. (Mənbə: Wikipediya, ixtisarla).

* * *

# ALLAH NİYƏ ŞİKƏST VƏ QÜSURLU İNSANLARI YARADIB? (ŞÜBHƏYƏ CAVAB)

Bu mövzu çox həssas mövzulardandır. Cavabımız əsasən iki hissədən ibarət olacaqdır:

**Birincisi:** Bu fiziki qüsurları, şikəstlikləri Allahı inkar etməyə dəlil kimi təqdim etmək doğrudurmu?

**İkincisi:** Bu qüsurlar məxluqlarda niyə mövcuddur və bunun hikmətləri nələrdir?

Cavabımızın ikinci hissəsində bu mövzulardan bəhs ediləcəkdir:

**Birincisi:** Kamillik, tamlıq və qüsur anlayışı.

**İkincisi:** Fiziki qüsurlu insana dünyada və axirətdə əvəz verilmə məsələsi.

**Üçüncüsü:** Mülk Allaha məxsusdur və Onun istədiyini bir hikmətlə yaratması.

**Dördüncüsü:** Bütün insanlara fikir versək, qüsurlu insanlara olduqca az (nadir hallarda) rast gələrik.

**Beşincisi:** Dünyada hər şeyin əksi olduğu kimi, xeyirlə şər, acı və şirin, gözəl və çirkin, sağlam və xəstə və s. əks məfhumların daim biri-birini tamamlaması.

**Altıncısı:** Şikəst və fiziki qüsurlu insanlar üçün dünya imtahanın asanlaşdırılması.

**Yeddincisi:** Başqa dinlərin və İslam dininin bu məsələyə münasibəti.

**Mövzu ilə əlaqəli bəzi suallara cavablar:**

1) Bu fiziki qüsurların bir faydası varmı?

2) Əqli cəhətdən qüsurlu şəxslərin aqibəti nə olacaq?

3) Fiziki qüsurlar **«Biz insanı ən gözəl biçimdə yaratdıq!»** (ət-Tin, 4) ayəsi ilə ziddiyyət təşkil edirmi? Ayənin mənası nədir?

4) İnsan zəkası (elm və texnologiya) inkişaf etdikcə qüsurlar və şərlər aradan qalxa bilərmi?

## Mövzuya giriş:

Bismilləh. Əlhəmdulilləh. Vəssalətu vəssəlamu alə mən lə nəbiyyə bədəhu. Sonra isə:

## BİRİNCİ HİSSƏ:

Bu fiziki qüsurları, şikəstlikləri Allahı inkar etməyə dəlil kimi təqdim etmək doğrudurmu?

Nadir hallarda baş verən bəzi qüsurlara əsaslanaraq bu böyüklükdə, bu əzəmət və ehtişamda olan aləmin, milyonlarla ulduzların, qalaktikaların və s. yaradıcısını inkar etmək doğrudurmu?

Özü də bu böyüklükdə aləmdə bir zərrə olan insanların çoxluğu içərisində nadir hallarda rast gəlinən qüsurların mövcudluğunu əsas gətirərək bu böyük, nizamlı aləmin yaradıcısını inkar etmək həm ağıla, həm də hikmətə ziddir.

Bu iddia həqiqətdən uzaqdır. Allah Qurani Kərimdə buyurur:

**«Bəlkə onlar öz-özünə yaranıblar? Yaxud onlar yaradanlardır? Yoxsa, onlar göyləri və yeri yaradıblar? Xeyr, onlar qətiyyən inanmırlar.»** (Tur, 35-36)

Bir misal verək; Hansısa bir şirkət avtomobil istehsalı ilə məşğul olur. Şirkət rəsmiləri avtomobillərdən bəzilərini biləərəkdən qəza halına salır, bununla istehsalı və avtomobilin dözümlülüyünü yoxlayırlar. Şirkət rəsmilərinin bu addımı normal qarşılanır və deyilmir ki, niyə avtomobilləri zay və ya israf edirsiniz? Həmçinin, eyni şirkətin istehsal etdiyi əzik, dağılmış avtomobillə, yeni avtomobil yanbayan qoyulduqda hər iki avtomobilin də eyni şirkət tərəfindən istehsal edildiyi inkar edilmir. Biz bir avtomobilin əzildiyini və ya dağıldığını misal çəkərək həmin avtomobilin hansı şirkət tərəfindən istehsal olunduğunu təsdiqləmək üçün mütləq avtomobilin salamat və tam olmasını şərt qoya bilmərik. Bu həqiqəti hər bir ağıl sahibi qəbul edir. Bəs onda necə olur ki, bəzi insanlar nadir hallarda rast gəlinən fiziki qüsurlu insanların mövcudluğunu Allahı inkar etməyə dəlil hesab edirlər? Bəs niyə məqsədli şəkildə əzilmiş bir avtomobili istehsal edən şirkətin olduğunu qəbul edirlər? Axı şirkət qəsdli şəkildə o avtomobili əzməyibmi? Əgər şirkətin bir neçə avtomobili əzməkdə məsləhəti olduğunu qəbul ediriksə, niyə ki, qüsurlu insanların mövcudluğunda bir məsləhət və hikmət olduğunu qəbul etməyək? Üstəlik də necə olur ki, hər iki hal qüsur sayılsa da, qüsur törədən şirkətin mövcudluğu deyil, Allahın mövcudluğu inkar edilir?

Əslində şikəst olan məxluqun özünə nəzər yetirsək, onda olan üzvləri, onun genlərini, sinir sistemini, sümüklərini, görmə qabiliyyətini, beynini, onurğa beynini, hüceyrələrini

və s. yaradanın olmamasını demək ağıla ziddir. Yuxarıdakı misala bənzər başqa bir misal verək; məsələn, biz çox mürəkkəb quruluşlu bir avtomobili kamil şəkildə gördükdə deyirik ki, bu avtomobili düzəldən biri var. Lakin, bir müddət sonra həmin markadan olan başqa bir avtomobili ya qəzaya uğramış, ya da fabrik xətası ilə ərsəyə gəlmiş halda gördükdə biz birinci avtomobilin istehsalçısının olduğunu, ikinci avtomobilin isə istehsalçısının olmadığını demirik. Hər iki avtomobilin bu mürəkkəbliyinə və texnologiyasına baxıb deyirik ki, «bəli, bunu düzəldən biri var.»

Bunları bildikdən sonra isə anlamış oluruq ki, qüsurlu saydığımız bir varlıq o demək deyil ki, yaradılmamışdır və ya yaradıla bilməz. O ki, qaldı bu yaradılışdakı hikmət və məqsədlərə, buna ikinci hissədə cavab verəcəyik.

## İKİNCİ HİSSƏ:

### Bu qüsurlar məxluqlarda niyə mövcuddur və bunun hikmətləri nələrdir?

***1) Kamillik, tamlıq və qüsur anlayışına münasibət***: Şəkk yoxdur ki, həyatda fiziki qüsurlu insanlar var. Bu cür fiziki qüsurlu insandan hansısa bədən üzvünün funksiyası götürülmüşdür. Lakin, bu funksiya başqasında tam şəkildə mövcuddur. Buradan da tamlıq və kamillik anlayışı çıxır. O insan ki, əzaları normal, sağlam doğulur, ona deyirik ki, bu tam şəkildə doğulub. Bu, tamamlıqdır, belə insanın bütün əzaları salamatdır. Lakin, insan nə vaxt kamil olur? İnsan mənəvi tamlığı ilə kamilləşir. Adi cismlə mənəviyyatsız kamil insan olmur. Məsələn: İnsan bir kitabı əzbər bilə bilər. Buna tam bilmək deyirik. Lakin, o kitabı kamil bilmək üçün isə onun mənalarını və şərhini də bilməlidir. Deməli, tamlıq ayrıdır, kamillik ayrı… Bir uşaq tam (əzaları salamat) doğulur, digəri isə fiziki qüsurlu doğulur.

Yəni, tam deyil. Bu bir növ (nemətdən) alınmadır. Yəni, başqasına verilən bir şey bir növ ondan alınıb. Bu cür şərlər cüzi şərlərə daxildir, xalis şər deyildir və ya şər məqsədilə deyil, bir hikmətlə ortaya çıxmış cüzi şərlərdir. Hikmətlər isə bizə bəzən məlum olur, bəzən isə məlum olmur. Alınma şər dedik. Bir misalla bunu izah edək: Qaranlıq nədir? Zülmətdir. Bir yerdə qaranlıq ola bilər. Lakin, hər yeri zülmət qaplayanda deyirik ki, gecə düşdü. Əlimizi digər əlimizin üstünə qoysaq, kölgəsi bir qaranlıq kimi düşəcək ki, bu bir növ cüzi qaranlıq sayılır. Bu, həqiqətdə olan vücudi (var olan) qaranlıq deyil. Bu, sadəcə işığın götürülməsi və qarşısının alınmasıdır. Lakin, buna *"qaranlıq"* yox, *«kölgə»* deyilir. Baxmayaraq ki, hər iki məfhumda işıqdan məhrum olma və ya işığın qarşısının alınması prossesi mövcuddur.

Bu misalları çəkməkdən məqsədimiz odur ki, alınma nemətlərin həyatın bir mərhələsində olmaması, başqa mərhələsində olmasının mümkünlüyünə işarə edək. Məsələn, ayağı şikəst bir insanın iman əhli olaraq öləcəyi təqdirdə cənnətdə ayağının tam bərpa olunacağını İslam dini vəd edir. Bu dünyada kor olan insan da həmçinin əbədi aləmlə müqayisədə müvəqqəti bir aləmdə fiziki qüsurlu olur. Cənnətdə isə insanın bütün əzaları sağlam olacaq. İnsan həyatının beş mərhələsi və yalnız bu mərhələrdən bir-ikisində fiziki qüsurluluğun mövcudluğu barədə qarşıda danışacağıq.

**2) Qüsurlu insanın bir əzasının fəaliyyətini itirdikdə onun başqa əzalarında bəzi üstünlüklərin yaranması.** Həmçinin, bu fərq yalnız dünyada zahirən elə görünür. Həqiqətdə isə axirətdə bu fərq olmayacaq. Şikəst, qüsurlu və ya çirkin insanlar (qeyd etdiyimiz kimi) cənnətdə tam, qüsursuz əzaları ilə olacaq və gözəl olacaqlar. Allah onların bu dünyada itirdiklərinin əvəzini ən gözəl şəkildə verəcəkdir. Dünyaya gəldikdə isə bəzi

qüsurların mövcudluğu insanın başqa hissiyyatlarının inkişafına səbəb olur. Məsələn, kor insanların qüvvətli yaddaşının formalaşması həm elmi, həm də təcrübi yolla artıq isbatlanmışdır. Həmçinin, kor insanların eşitməsinin və səslərə qarşı daha həssaslığı, itirdiyi gözlərindən dolayı bədənindəki görməni əvəzləmək mexanizmi kimi səslərdən hadisələri çözmək məharətinin inkişaf etməsini alimlər vurğulayırlar. Kar insanlarda da hissiyyatın güclənməsi, görmə qabiliyyətinin daha qüvvətlənməsi və s. əvəzləyici prosseslər baş verir. Başqa qüsurlu insanların da həyatdakı qəribə, qeyri adi məharətləri, hətta bəzən onların sağlam insanların belə çox çətinliklə əldə etdiyi uğurları həyatda əldə etmələri bizə bəzi qüsurların insanı həyatda daha mübariz, faydalı və çalışqan etdiyinə bariz nümunədir. Qənaətimizcə istər keçmişdə olan gözləri kor alimlərdən, istər də indiki gözləri kor alimlərdən, onların heyrətamiz zəkasından bəhs etməyə ehtiyac yoxdur. Bu, çoxlarının bildiyi, məlum bir məsələdir. Deməli, Allah bir yandan bir neməti alanda, başqa bir yandan da neməti verir.

**3) Allah Öz mülkündən istədiyi kimi xərcləyir və istədiyini də bildiyi bir hikmətlə yaradır.** Heç bizdən biri öz mülkündən istədiyi kimi xərclədikdə kimsə ona demir ki, sən niyə zülm etdin? Onda bütün mülk əlində olan kiməsə verir, kiməsə nəyisə vermirsə, niyə zülm etdi deyək? Bütün mülkün tam sahibi Allahdır. Hətta, varlılar belə tam mülk sahibi deyillər. Bizim nemət və qüsur anlayışımız da çox dar çərçivədədir. Yəni, bəzi insanlar var ki, mənəvi qüsurlara diqqət yetirmirlər. Halbuki, əsil, həqiqi qüsur mənəviyyatda olan qüsurdur. Bəziləri mənəviyyatsız, lakin, imkanlı, varlı insanı nemət sahibi hesab edirlər. Əksinə, mənəviyyatlı və lakin imkanı olmayan, kasıb insanı isə yazıq hesab edirlər. Halbuki, hər bir mənəviyyatlı insan mənəviyyatsız insandan üstündür. Əbəs yerə deyilməyib ki, əsil zənginlik qəlb zənginliyidir.

Biz istər nemətlərə, istər də qüsurlara öz dar meyarlarımızla baxırıq.

Bəzən bir nemətin sahibi özündəki nemətdən xəbərsiz olur, başqa insanlar isə onda olan neməti arzulayırlar. Eləcə də bəzən zahirdə qüsurlu gördüyümüz insanda elə bir xüsusiyyət ola bilir ki, digər insanlar həmin xüsusiyyəti əldə etmək üçün çox şey etməyə hazırdırlar. Məsələn, bir çox insanlar gözü görməyən insanların qüvvətli yaddaşına malik olmağı istəyərdilər. Neçə-neçə imkanlı şəxslər var ki, yaddaş zəifliyindən əziyyət çəkirlər. Halbuki, insanların çoxusu şiddətli unutqanlığı qüsur saymırlar. Halbuki, ömür boyu bu unutqanlıqdan əziyyət çəkirlər. Ona görə də "qüsur" anlayışına bir daha düzgün nəzər yetirmək lazımdır.

**4) Bütün insanlara fikir versək, qüsurlu insanlara olduqca nadir halda rast gələrik.** Allahın lütfü ilə əksər insanlar tam sağlam doğulurlar. Qüsurlular isə müqayisə olunmayacaq dərəcədə azdırlar.

Biz hələ ata və ananın səbəb olduğu zülmlə kimyəvi maddələrin təsirindən (məsələn; siqaret çəkmək, spirtli içki içmək, narkotik maddələrin istifadəsinə aludə olmaq və s. səbəblərdən) əmələ gələn qüsurlardan və ya hansısa dərmanların təsirindən yaranan qüsurlardan – istər valideynlər bu törətdiklərinin fərqində olsunlar, istər də fərqində olmasınlar – həmçinin, hələ embrionun şiddətli istiyə və ya zərərli şüalara məruz qalmasından danışmırıq… O cümlədən də artıq elm sübut etmişdir ki, ata, (rüşeymi daşıyan) ananın yanında uzun müddət siqaret çəkərsə, bu da doğulacaq körpədə müəyyən qüsurlara yol aça bilir. Lakin, Allahın rəhmətindəndir ki, körpənin bu cür səbəblərlə qüsurlara yoluxması elə də asan deyildir. Əgər Allahın rəhməti olmasaydı, bu xromosomlara olan təsir

daha asan olar və anadangəlmə xəstə və qüsurlu körpələrin sayı daha çox olardı. Bu məqamda Quranın bu ayəsini xatırlayırıq.

**«Həqiqətən, insan Rəbbinə qarşı çox nankordur.»** (əl-Ədiyət, 6)

Həqiqətən də bu nankorluq, bəzi insanların özlərinin bilərəkdən yol verdikləri səhvləri və zülmləri görməməzlikdən gəlib onları da Allaha nisbət etmələrindən görünür. Halbuki, şər Allaha nisbət olunmur. O cümlədən də, Allah insanların yuxarıda qeyd etdiyimiz və qeyd edilməyən körpəyə təsir edəcək bir çox səhlənkarlıqlarına baxmayaraq, yenə Öz qullarına rəhm edir və yenə də bu qüsurlar nadir hallarda baş verir.

**5) Dünyada hər şeyin əksi olduğu kimi, xeyirlə şər, acı və şirin, gözəl və çirkin, sağlam və xəstə və s. əks məfhumlar daim biri-birini tamamlayır.** Əgər xəstə və qüsurlu insanlar olmasaydı, sağlam insanlar sağlamlıqlarının qiymətini dərk etməzdilər.

**6) Şikəst və qüsurlu insanlar üçün dünya imtahanı asanlaşır.** Çünki, Allah hər kəsə öz daşıya biləcəyi qədər yük verir. Uca Allah bu barədə buyurmuşdur:

**«Allah hər kəsi yalnız onun qüvvəsi çatdığı qədər mükəlləf edər.»** (əl-Bəqərə, 286)

## Fiziki qüsurlu insanların imtahanı necə asanlaşacaqdır?

Bu suala artıq Quran ayəsindən cavabı bildik. Bir misal da verək: əvvəlcə bilməliyik ki, Allah müxtəlif insanları müxtəlif cür imtahan edir. Məsələn; fərz et ki, bir dünyəvi imtahanda əgər suallar asan gələrsə, cavabları yoxlanıldıqda bir az daha ciddi yanaşılacaqdır. Amma, imtahanda suallar çətin gələrsə, cavablar yoxlanıldıqda ədalət naminə cavablara daha yumşaq yanaşılacaqdır. Artıq imtahan çətin olduğu üçün tələbənin suala ümumən düz cavab yazmağına fikir veriləcəkdir. Amma, asan imtahanda daha çox xırdaçılığa gediləcəkdir. Bu bildiyimiz bir məsələdir. Eləcə də Allah fiziki qüsurlu şəxslərlə sağlam insanların sorğu sualını və məsuliyyətini eyni etməmişdir. Əksinə, qüsurlu insanlara axirət imtahanını asanlaşdıracaqdır. Eləcə də hədislərə əsasən varlılardan fərqli olaraq kasıbların cənnətə girməsi daha asan olacaqdır. Çünki, insanın var-dövləti çox olduqca onun sorğu-sualı da çətin olacaqdır. Çünki, İslamda maldan kasıblara zəkat vermək varlılara aiddir. Bu da bir imtahandır. Kasıb, imkansız insanlar isə bu imtahana tabe tutulmurlar. Yəni, belə bir öhdəlikləri olmur. Deməli, insanın məsuliyyəti, gücü, qüvvəsi artdıqca, onun imtahanı da çətinləşir. Zəif, qüsurlu, insanların imtahanı isə gücləri nisbətində olacaqdır. Bu da Allahın Ədalətindəndir. Uca Allah buyurur:

**«Həqiqətən, Allah zərrə qədər də olsa zülm etməz.»** (ən-Nisə, 40)

Birbaşqa misal; əgər biz sağlam və əlil insanlar üçün qaçış yarışı təşkil etmək istəsək, sağlam insanlara 100 metr, əlil insanlara isə 50 metr məsafədən bu yarışı təşkil etmək daha ədalətli olardı. Dünyəvi sınaq yarışlarında bu nüans nəzərə alınırsa, axirət sınağında daha çox nəzərə alınır. Dünyada

fiziki qüsurlu insanların imtahanının asanlaşdırılması olduğu kimi, axirət sınağında da bu asanlaşdırma mövcuddur.

**7) Gəlin baxaq görək başqa dinlərin bir insanın fiziki qüsurlu və ya şikəst dünyaya gəlməsinə münasibəti necədir?** Sonra isə İslam dininin ədalətli mövqeyi ilə tanış olaq.

*Başqa dinlərə gəldikdə:* Hinduslar və hinduizmdən təsirlənən bir çox dinlər hinduzmdəki «samkara» (karma) etiqadına əsasən inanırlar ki, bir insanın ruhu bir neçə həyat yaşayır, əgər əvvəlki həyatında bəzi çirkin əməlləri olubsa, növbətli həyatında onun ruhu müxtəlif heyvanların, hətta həşəratların bədənində ola bilər və o insan fiziki qüsurlu və ya şikəst biri kimi dünyaya gələ bilər. Yəhudilikdə də ümumən ruhların ölmədiyi, bədəndən bədənə keçdiyi inancı mövcuddur. Bəzi batil firqələrdə də bu inanc mövcudddur. Xristianlıqda isə qüsurlu insanların niyə mövcud olması barədə bir dini cavab tapa bilmədik.

***İndi də gəlin İslamın bu barədə izahını anlatmağa çalışaq:***

Digər dinlərdən fərqli olaraq İslama görə bu fiziki qüsur insanda davamlı olan bir hal deyil, həyatın beş mərhələsindən birində (ana bətnidə) və ya ikisində (dünyada sonradan qazanılan) aşkar olan bir haldır. Bu beş mərhələ barəsində bir az sonra danışacağıq.

Lakin, bilmək lazımdır ki, bu dünya öhdəliklər və əməl yeridir, əbədi səadət və davamlı ləzzətlər yeri deyil.

Allah Qurani-Kərimdə buyurmuşdur:

**«Əməl baxımından hansınızın daha yaxşı olduğunuzu sınamaq üçün ölümü və həyatı yaradan Odur. O, Qüdrətlidir, Bağışlayandır.»** (əl-Mulk, 2)

Bu ayə isə əslində mövzuyla əlaqəli verilmiş sualın cavabıdır. İnsanın yaşaması da, ölməsi də insanların hansının yaxşı daha əməl sahibi olduğunu ayırd etmək üçündür.

Ata ibn Rabah'dan rəvayət olunan hədisdə epilepsiya xəstəsi olan bir qadın Peyğəmbərin (salləllahu aleyhi va səlləm) yanına gələrək xəstəliyindən əziyyət çəkdiyini, yerə yıxıldığını və bu zaman üstünün açıldığını bildirdikdə Peyğəmbər ona: «İstəsən səbr et cənnəti qazan, istəsən dua edim şəfa tapasan.» deyir. Qadın deyir: Səbr edərəm. Sonra isə qadın xəstəliyindən dolayı huşunu itirdikdə, yerə yıxıldıqda üst-başının açılmaması üçün dua etməsini istəyir və Peyğəmbər də onun üçün dua edir. (1)

Bu cür qüsurlarla insanın özü, bəzən valideyinləri və bəzən digər yaxınları imtahan edilir.

**2)** Fiziki qüsurlu insan qədərə imanı, səbri və Allahın qəzavü-qədərinə razı olacağı təqdirdə başqa insanların sağlam olduqlarından dolayı mükəlləf olduqları dini mükəlləfiyyətlərin əksinə olaraq bəzi dini öhdəlikləri azalır. Bu fiziki qüsur səbəbilə dini öhdəliyin azalmasının nisbəti fiziki qüsurun növünə (ağırlığı və yüngüllüyünə) görə dəyişir.

**3)** Fiziki qüsurlu insanlar bu imtahandan səbrlə, qədərdən razı halda keçdikləri təqdirdə böyük savaba nail olaraq cənnəti qazana biləcəklər. İnsanın imtahanı (bəlası) şiddətləndikcə əcri və savabı artır, bunun hikməti odur ki,

insan bəzən öz əməli ilə çata bilməyəcəyi yüksək, uca məqamlara bəlalara səbr etməklə çatır.

Ona görə də Peyğəmbər (salləllahu aleyhi va səlləm) buyurmuşdur:

«Mükafatın böyüklüyü bəlanın (sınağın) böyüklüyü ilədir. Allah bir qövmü sevərsə, onları bəla ilə sınağa çəkər, hər kim razı qalarsa, o razılıq qazanar. Hər kim də qəzəblənərsə, ona qəzəb olunar.»(2)

Başqa bir hədisdə deyilir:

***«Bir insanın Allah qatında əməli ilə çata bilməyəcəyi yüksək məqama Allah onu sevmədiyi şeylərlə sınağa çəkməklə o yüksək məqama çatdırar.»*** (3)

Qısa dünya həyatı isə əbədi həyatla müqayisə oluna bilməz.

Uca Allah Quranda buyurmuşdur:

**«Yalnız səbir edənlərə mükafatları hesabsız veriləcəkdir»** (əz-Zumər, 10)

Gözlərin qüsuru insana ən çox əziyyət verən qüsurlardandır. Lakin, kim Allahın qədərinə iman və razılıqla buna səbr edərsə, ona cənnət vəd edilir. Peyğəmbər (Allahın Ona salavatı və salamı olsun) demişdir: Allah buyurdu ki:
«Əgər bəndəmi iki gözü ilə sınağa çəkərəmsə, o da səbr edərsə, iki gözünün əvəzində ona cənnəti verərəm»(4)

Peyğəmbər (salləllahu aleyhi va səlləm) buyurmuşdur:

***«Qiyamət günü sağlam kimsələr (dünyada) bəla verilmiş insanlara (böyük) savab verildikdə təmənna edəcəklər ki, kaş ki, (dünyada) bədənləri mişarla doğranardı (onlar da belə böyük savaba nail olardılar»*** (5)

**4)** Əgər bu dünya həyatı hər şeyin sonu olsaydı, Axirət həyatı olmasaydı, onda ateistin bu mövzuda sualının bir mənası olardı. Lakin, bu dünya həyatı insan övladının keçdiyi beş mərhələdən yalnız biridir. İnsan bütün mərhələlərdə fiziki qüsurlu olmur.– İnsan birinci ruh mərhələsində olur,– Sonra ana bətnindəki (ikinci) mərhələyə keçir,– Sonra üçüncü mərhələdə dünyaya gəlir,– Sonra bərzəx aləmində gözləmə mərhələsində olur,– Sonda isə axirətdə dirilmə mərhələsini keçərək əbədi, son mənzilinə keçid edərək ya cənnətə, ya da cəhənnəmə gedəcək.

Deməli, insan bu mərhələlərin hamısında qüsurlu bədən sahibi olmur. Onun qüsuru dünya həyatında zahir olmaqla onun Allaha imanı, qədərə razılığı, səbri imtahan olunur.

Fiziki qüsuru olan cənnət əhli cənnət mərhələsində gözəlləşəcək, onların fiziki qüsurları tam şəkildə aradan qalxacaq və cənnət əhli cavanlığın ən yaxşı və kamil çağında olan yaşda (33 yaş) olacaqlar. Onlar orada qocalmayacaq, yorulmayacaq, xəstələnməyəcək, ağrı çəkməyəcəklər və yalnız nemətlər içində olacaqlar.

**5)** Allah öz qullarına qullarına zülm etmir, Allah qullarına zülm etməkdən uzaqdır. Onun hər bir işində bir hikmət vardır. Bu hikmətlər bəzən bizə aydın olur, bəzən isə gizli qalır. İnsan anlaya bilmədiyi hikmətlər gördükdə bunu Uca Allaha həvalə etməli, səbr edərək qədərə razı olmalıdır.

**6)** Fiziki qüsurlu olmaq, hər cəhətdən qüsurlu olmaq deyil, əksinə, Allah bir neməti alırsa, başqa başqa neməti verir. Həqiqi qüsur mənəvi qüsurdur, fiziki qüsur deyil.

**Mövzu ilə əlaqəli bəzi suallara cavablar:**

***a) Sual verilsə ki: Bu qüsurların bir faydası varmı?***

**Cavab**: Bəli. İki mühüm faydanı qeyd edək:

Birincisi: Sağlam insanların bu nemətdən (bəzi bədən üzvlərindən, sağlamlıqdan və s. ) məhrum olan insanları gördükdə sağlamlıqlarının və ya bədən üzvlərinin sağlam olmasını dərk etmələri, bunu qiymətləndirmələri və öz hallarına şükür etmələri.

İkincisi: Bu qüsurların tibb elminin inkişafına töhfələri. Hansı ki, bu həqiqəti yalnız bu sahədə olanlar daha yaxşı dərk edə bilərlər.

***b) Sual verilə bilər ki, bəs dəli, əqli qüsurlu insanların axırı necə olacaq?***

Cavab odur ki, İslama görə dəli insandan qələm qaldırılmışdır. Yəni, etdiklərini şüurlu şəkildə etmədikləri üçün əməllərinə görə cəza məsuliyyəti daşımırlar. Axirətdə isə Allah onlara ağıl verəcək və onları imtahana çəkdikdən sonra ya Cənnətə, ya da cəhənnəmə salacaqdır. Ağıllı insanlara da dəlilərin varlığında bir ibrət vardır ki, bununla ağıl nemətinin qiymətini dərk edirlər. İnsan bəla sahiblərini gördükdə Allaha həmd etməli, yardıma ehtiyac olanlara da bacardığı yardımı etməlidir.

***c) Sual verilə bilər ki, Allah Quranda buyurur: «Biz insanı ən gözəl biçimdə yaratdıq!» (ət-Tin, 4) – bu ayə qüsurlu və şikəst insanların varlığıyla bir ziddiyyət təşkil edirmi?***

**Cavab:** Xeyr, ziddiyyət təşkil etmir. Çünki, bu ayəyə əsasən təkcə insanın zahiri görünüşü qəsd olunmur, insanın zahiri və batini cəhətdən mükəmməl yaradılışı, insanın bədən quruluşunun ən yaxşı şəkildə yaradılması nəzərdə tutulur. Lakin, bu ayənin zahirinə görə çirkin və gözəl insanların mövcudluğunun qiyas olunması doğru deyil. Çünki, buradan insan cinsinin ümumən başqa canlılarla müqayisədə ortaya çıxan üstünlüyündən söhbət edilir, istisna hallar hər canlıda ola bilir. Lakin, ümumi dəyərləndirmədə istisna hallar deyil, insanın ümumi fiziologiyası əsas götürülür. Bu fiziologiya isə insan deyilən varlığın mükəmməl yaradılaraq heyvanlardan ağıl, üstün idrak ilə seçilməsi və s. bir çox amilləri özündə ehtiva edir.

Böyük təfsir alimi ibn Cərir ət-Təbəri bu ayənin mənası barədə demişdir: Ayədə and içilən də elə budur. Allah insanı ən yaxşı surətdə və ən yaxşı quruluşda yaratmışdır. (digər canlılarla müqayisədə) qaməti dikəldilmiş, əzaları mötədil və daha yaxşıdır. (6)

Alimlərin əksəriyyəti də bu mənanı təsdiqləmişdir. Odur ki, bu ayənin mənası ilə nadir hallarda rast gəlinən fiziki qüsurların mövcudluğu ziddiyyət kəsb etmir. Çünki, bu ayədə normal, sağlam insanın necə olmasından bəhs edilir. İnsanın ümumi halı bu təməl üzərində olduğu üçün nadir istisna hallar bu təmələ zərər yetirmir. Elə bu şübhəni gətirənlərin özləri də qəbul edirlər ki, insan əsas etibarilə heyvanlardan yüksək səviyyədədir. İnsanın ən yaxşı halda yaradılmış olmasına bir misal da onu heyvanlardan fərqləndirən ağılıdır. Bu şübhəni gətirənlərin özlərindən də

soruşsan ki, insan ağıllıdır, yoxsa, heyvan? Heç düşünmədən insanın ağıllı olduğunu deyəcəklər. Bu cavab məqamında isə nadir hallarda rast gəlinən əqli qüsurlu insanları qeyd etmək heç yadlarına düşməyəcək. Ona görə də inanclı insanlara istisna halları misal çəkməklə dəlil gətirmələri heç də məntiqi görünmür.

*d) Daha bir şübhəyə cavab: Əgər bu söhbətdən sonra kimsə (ateist) iddia etsə ki, insan zəkası inkişaf etdikcə bu problemlər, müsibətlər, bəlalar və şərlər, anadangəlmə qüsurlar, hətta, zəlzələ və vulkanlar, bir sözlə şər problemi aradan qalxacaq, nəticədə isə dinə ehtiyac olmayacaq.* (7)

**Cavabında** deyirik ki: bu insanın özünü aldatmasından başqa bir şey deyil. Bu nisbi bir məsələdir. Lakin, bunun tam gerçəkləşməsi və şərin tamamilə ortadan qalxması mümkün deyil. Çünki, insan bu dünyada xeyir və şərlə imtahan olunur. Elə bu imtahan olunma Allahın yer üzündəki bir qanunudur (sünnəsidir).

Qurani-Kərim bu həqiqəti belə izah edir: «**Biz sizi sınamaq üçün şər və xeyirlə imtahana çəkirik. Siz ancaq Bizə qaytarılacaqsınız!**» (əl-Ənbiyə, 35)

Ona görə də insan bir çox şərləri yox etmıyə çalışsa da, yenə yeni şərlər çıxacaq və çıxmağa davam edəcəkdir. Məntiq və gerçəklik də bunu sübut edir. Texnika və elm inkişaf etdikcə yenə də dünyada problemlər, müsibətlər, xəstəliklər heç də azalmır.

İslam dini heç də müsibət zamanı dərdə səbr etməklə kifayətlənməyi əmr etmir, əksinə çıxış yollarını axtarmağı da əmr edir. Yazımızı uzatmamaq üçün çoxsaylı dəlilləri burada qeyd etmədən işarə etmək istəyirik ki, bəzi qərəzli insanlar İslamdakı səbr anlayışını *"yüksək*

*mübarizlik"* səviyyəsindən *"acizlik və ümidsizlik"* səviyyəsinə endirməklə dəyərləndirməyə çalışırlar. Belə insanlar ***"Sənə fayda verən şeyə yönəl, Allahdan yardım istə və aciz olma!"***(8) deyən İslam Peyğəmbərini tanımırlar. Həmçinin, Onun: ***"Allah elə bir xəstəlik endirməmişdir ki, onun dərmanını da endirmiş olmasın. Sadəcə bunu (dərmanı) bilən bilir, bilməyən isə bilmir."***(9) hədisindən də xəbərsizdirlər.

Deməli, İslam dinində xəstəliklərlə yüksək səviyyədə mübarizənin mümkünlüyü inkar olunmur. Həmçinin, elmi yeniliklər və icadlarla bəzi şərlərin qarşısının alına biləcəyi mümkün hesab olunur. Lakin, bütün şərlərin aradan qalxması mümkünsüzdür. Hətta, bu zənn və xəyaldır – deyərdim.

Bundan öncəki **"ateizmdə şər problemi məqaləsində"** bunu ətraflı bəyan etmişdik ki, xeyirlə yanaşı şər olmayan bir dünyanın mənası yoxdur. Yalnız xeyir olan, şər olmayan mənalı aləmi, cənnəti Allah yaratmışdır. Lakin, bunu imtahan dünyasında tələb etmək mənasızdır və əsassızdır. Bu dünyanın öz xüsusiyyətləri olduğu kimi, axirətin də öz xüsusiyyətləri var.

## Qeydlər və istinadlar:


(1) (Bax: Buxari, Muslim)

(2) (Sahihul-Cami, 2110)

(3) (Sahihul-Cami, 5815)

(4) (Buxari, 5329)

(5) (Sahihul-Cami, 8177)

(6) (Bax: ibn Cəririn təfsiri, Tin surəsi, 4-cü ayə)

(7) (Necə ki, tez-tez “dünya kosmosa uçur, siz isə…..” kimi cümlələr quranların özlərinin kosmosa uçduqlarını heç görmürük.)

(8) (Muslim)

(9) (Sahihul-Cami, 451)

# PEYĞƏMBƏRİN ÖZ OĞULLUĞUNUN ZÖVCƏSİYLƏ EVLƏNMƏSİ ŞÜBHƏSİNƏ CAVAB.

**Birinci məsələ:** Zeyd ibn Harisə Peyğəmbərin öz belindən gələn doğma övladı olmayıb.

**İkinci məsələ:** Peyğəmbərlə Zeydin oğulluq-atalıq bağları bu ayə ilə kəsilmişdir (Əhzab, 5)

– Mühüm bir qeyd də odur ki, Peyğəmbər Zeydi İslamdan əvvəlki dönəmdə oğulluğa götürmüşdü. Lakin, Allahın Qurani-Kərimdə nazil etdiyi ayəsindən sonra (Əhzab, 5) bu oğulluğa nisbəti aradan qalxmışdır. **Zeydin öz doğma atası isə Harisə ibn Şərahil olub, Muhəmməd Peyğəmbər deyil.** Əhzab surəsində deyilir ki:

**«Oğulluğa götürdüyünüz uşaqları öz atalarının adları ilə çağırın. Bu, Allah yanında daha ədalətlidir. Atalarını tanımasanız, onlar sizin din qardaşlarınız və yaxınlarınızdır.»**(Əhzab, 5)

**Üçüncü məsələ:** İslamda icazə verilən evliliklərdən biri də (nəsranilərin, bəzi qərəzli şərqşünasların və ateistlərin şübhə kimi gətirdikləri) **oğulluğa götürülən şəxsin boşadığı qadınla gözləmə müddəti bitdikdən sonra evlənmək**dir. Bu məsələ Qurani-Kərimdə icazəli və sabit olsa da, din düşmənləri dindən bixəbər insanları çaşdırmaq, şübhəyə salmaq üçün əllərindən gələni edir və bunu Peyğəmbərə qınaq kimi gətirməyə çalışırlar. Baxmayaraq ki, Qurani-Kərimdə bu məsələyə dəqiqliklə aydınlıq gətirilmişdir. Bu ayədə:

**«Öz belinizdən gələn oğullarınızın (boşadıqları) arvadları ilə evlənmək (qadağan edildi)»**(Əhzab, 37)

deyilir. Yəni, öz doğma oğullarınızın (boşadığı) qadınlarla evlənmək qadağan edildi. **Amma, doğma övladı olmayan, sonradan övladlığa götürülmüş kimsələrə qan qohumluğu olmadığından, həqiqi övlad olmadıqlarından dolayı onların boşadıqları qadınlarla evlənməyə Qurani-Kərimdə bu ayədə icazə verilmişdir:**

**«Zeyd zövcəsini boşadıqda səni onunla evləndirdik ki, oğulluqları övrətlərini boşadıqları zaman o qadınlarla evlənməkdə möminlərə heç bir sıxıntı olmasın.»** (Əhzab, 37)

Artıq qeyd edildi ki, Zeyd ibn Harisə Peyğəmbərin öz belindən gələn övladı deyildi. Sadəcə ona bir vaxta kimi himayəçilik etmişdi.

Peyğəmbər Zeydə: **«Sən bizim qardaşımız və yaxın adamımızsan»** – deyib. Allah da Quranda buyurub ki: **«Onlar (övladlığa götürdükləriniz) sizin din qardaşlarınız və yaxınlarınızdırlar.»** (Əhzab, 5)

**Dördüncü məsələ:** İslamın əvvəlində oğulluğa götürdükdə atalığa ata kimi nisbət olunmağa icazə vardı. Əhzab surəsi 5-ci ayə bunu nəsx etdi (hökmdən saldı) və bundan sonra hər bir oğulluğun atalığına deyil, öz doğma atasına nisbət olunması fərz oldu. Ona görə də Zeyd Məhəmmədin oğlu yox, doğma atası olan Harisənin oğludur.

**Beşinci məsələ:** Həmçinin, Əhzab surəsi 37-ci ayəyə əsasən, bu cür evlilik Qurani-Kərimdə nəinki Peyğəmbərə, həmçinin, bütün müsəlmanlara icazəli edilmişdir. Lakin, din düşmənləri müsəlmanların dini savadsızlıqlarından istifadə edərək yalnız Peyğəmbəri bu məsələyə görə sanki, günah bir iş tutmuş kimi qələmə verdikdə, bəzi müsəlmanlar bu hiyləni hiss etmirlər. Onlar bilməlidirlər ki,

bu evlilik əcnəbi şəxsin (qohum olmayan şəxsin) başqa bir əcnəbi şəxslə evliliyi qəbildəndir, bu nəinki Peyğəmbərə, hətta, bütün müsəlmanlara icazəlidir. Elə Əhzab surəsi 37-ci ayədə dəqiqliklə izah olunan məsələ də budur.

**Altıncı məsələ:** Zeynəbə (Allah ondan razı olsun) gəldikdə isə; O uşaqlığından Peyğəmbərə qohum olub, onun doğma bibisi qızı olub. Allah Zeynəbi göyün yeddi qatından yuxarıdan gələn əmrlə Peyğəmbərlə evləndirib: **«Səni onunla evləndirdik.»** deyə ayədə varid olmuşdur. (Əhzab, 37)

Zeynəb şərəfli, alicənab bir xanım idi. Peyğəmbərin (Allahın Ona salavatı və salamı olsun) **Zeynəbi birdən-birə görməsi və bundan sonra onunla evlənmək istəməsi yalan və iftiradır.** Bu barədə olan rəvayət də uydurmadır. Peyğəmbər (Allahın Ona salavatı və salamı olsun) Zeynəbi körpəliyindən tanıyırdı. Onu dəfələrlə görmüşdü. Çünki, onun doğma bibisi qızı idi və qohum düşürdülər. Peyğəmbərin Özü elə Zeynəbi Zeydlə evləndirmişdi. Hətta, ilk öncə Zeynəb Zeydlə evliliyə razılıq vermir. Lakin, Peyğəmbər (Allahın Ona salavatı və salamı olsun) Zeynəbə Zeydlə evlənməsini məsləhət görərək: **«Onunla evlən»** deyir. Bundan sonra bu Quran ayəsi nazil olur:

**«Allah və Onun Elçisi bir işə hökm verdiyi zaman heç bir mömin kişi və mömin qadın öz işlərində istədikləri qərarı verə bilməzlər. Allaha və Onun Elçisinə asi olan kəs, əlbəttə ki, açıq-aydın azğınlığa düşmüşdür.»** (Əhzab, 36)

Bu ayədən sonra isə Zeynəb Peyğəmbərə bildirir ki, Zeydlə evlənməyə razıdır və nigah baş tutur. (İbn Kəsirdən ixtisarla. 3/645)

Bütün bunlar Allahın əmri ilə gerçəkləşdi.

**Yeddinci məsələ:** Sual ola bilər ki, nəyə görə Peyğəmbər elə birinci dəfədən Zeynəblə evlənmədi, əksinə, Zeydi Zeynəblə evləndirdi?

Cavab: Dedik ki, Peyğəmbər Zeynəbi doğulmamışdan görmüşdü və onu birinci dəfə görmürdü. Onunla qohum olduğu üçün onu dəfələrlə görmüşdü. Həmçinin, Zeydlə Zeynəbi evləndirərkən də Zeynəbi ilk dəfə görməmişdi. Necə ki, bir uydurma rəvayətdə bu barədə söhbət açılmışdır. Ona görə də deyirik ki, əgər Peyğəmbərin Zeynəbə meyli olsaydı, onunla ilk dəfədən özü evlənərdi və beləcə Zeynəbin Zeydlə evlənməsinə səbəb olmazdı. Deməli, bu Allahın əmri ilə olan bir evlilik idi. (bax, əhzab surəsi, 36)

Peyğəmbər Zeyd ilə gəldikdə (Zeynəbi Zeydə istəmək üçün) həqiqətdə Zeynəbin istəyi və arzusu Peyğəmbərlə evlənmək idi. Qardaşı da onu Peyğəmbərlə evləndirmək istəyirdi. Lakin, Peyğəmbər Zeynəbi Zeydlə evləndirmək istəyəndə Zeynəb və qardaşı razılaşmasalar da Qur’an ayəsi (Əhzab, 36) nazil olduqdan sonra buna razılaşdılar.

(Radduş-Şubuhəət həvlən-Nəbi, İməd əş-Şərbini, səh 256)

**Səkkizinci məsələ:** Zeyd ibn Harisə ilə Zeynəbin (Allah hər ikisindən razı olsun) **boşanma səbəbi**nə gəldikdə isə, Zeyd öz seçimi və istəyi ilə Zeynəbi boşayır. Zeyd zövcəsini boşamaq üçün Peyğəmbərin yanına məsləhət almağa gəldikdə Peyğəmbər (Allahın Ona salavatı və salamı olsun) ona: **«Zövcəsini yanında saxlamasını və Allahdan qorxmasını»** məsləhət görür. Lakin, Allah vəhy yoluyla öz Elçisinə bildirmişdi ki, Zeyd öz zövcəsini boşayacaq və Zeynəb Peyğəmbərin zövcəsi (həyat yoldaşı)

olacaq. Peyğəmbər bu xəbəri insanlara bildirmir və fitnə olacağından ehtiyatlanarkən bu ayə nazil oldu:

**«Bir zaman Allahın nemət verdiyi və sənin özünün nemət verdiyin kəsə (Zeyd ibn Harisəyə): "Zövcəni yanında saxla, Allahdan qorx!"– deyirdin. Allahın aşkar edəcəyi şeyi ürəyində gizli saxlayır və insanlardan çəkinirdin. Halbuki əslində qorxmalı olduğun məhz Allahdır. Zeyd zövcəsini boşadıqda səni onunla evləndirdik ki, oğulluqları övrətlərini boşadıqları zaman o qadınlarla evlənməkdə möminlərə heç bir sıxıntı olmasın. Allahın əmri mütləq yerinə yetəcəkdir.»** (Əhzab, 37)

(Daha ətraflı bax, Cəmiul-Bəyən, İbn Cərir ət-Təbəri, 22/11; Fəthul-Bari, 8/524)

**Doqquzuncu məsələ:** Başqa qadınların çox olmasına baxmayaraq Peyğəmbərin Zeynəblə evlənməsinin hikməti barədə alimlər deyirlər: Bu, şəriətin bir hökmüdür ki, möminlərə öz (həqiqi övladları olmayan) oğulluqlarından boşanan qadınlarla evlənməkdəki sıxıntını aradan götürülsün.

**Onuncu məsələ:** Ayədə keçən «çəkinmək və ya qorxmaq» isə Peyğəmbərin həyasına dəlalət edir. O vaxt ki, Allah Ona Zeynəblə evlənəcəyi barədə xəbər vermişdi, Peyğəmbər utanmış və insanların: «Peyğəmbər öz oğulluğunun zövcəsi ilə evləndi» deməl追ərindən həya etmişdi. Allah isə Peyğəmbərin utanmaması üçün, üstəlik də bundan sonra möminlərə doğma olmayan oğulluqlarının boşadığı zövcələrinə evlənməyə icazə vermişdi. Beləcə, Allah bu sıxıntını aradan qaldırmışdır. Allahın Peyğəmbərə təskinlik verməsi bu ayədədir: **«Allahın aşkar edəcəyi şeyi ürəyində gizli saxlayır və insanlardan çəkinirdin.**

**Halbuki əslində qorxmalı olduğun məhz Allahdır. Zeyd zövcəsini boşadıqda səni onunla evləndirdik»** (Əhzab, 37)

Allahın bu evlilik əmri gerçəkləşməli idi və bu evlilik möminlərə də bu məsələdə yol göstərmiş oldu. Elə həmin ayənin sonu da buna dəlalət edir: **«Allahın əmri mütləq yerinə yetəcəkdir.»**(Əhzab, 37)

**On birinci məsələ:** Möminlər həqiqi məhrəmlərini (evlənilməsi qadağan olan qadınları) isə bu ayəyə əsasən bilmişdilər:

**«Sizə analarınız, qızlarınız, bacılarınız, bibiləriniz, xalalarınız, qardaş qızları, bacı qızları, sizi əmizdirən süd analarınız, süd bacılarınız, arvadlarınızın anaları, yaxınlıq etdiyiniz qadınlarınızın himayənizdə olan ögey qızları, – yox əgər o qadınlarla yaxınlıq etməmişsinizsə, onda bu (ögey qızlarınızla evlənməyiniz) sizə günah deyildir, – öz belinizdən gələn oğullarınızın arvadları ilə evlənmək və iki bacını birlikdə almaq haram edildi. Olub-keçənlər isə artıq keçmişdir. Həqiqətən, Allah Bağışlayandır, Rəhmlidir.»**(ən-Nisa, 23)

Bu ayəyə diqqət yetirsək məhrəm (evlənilməsi qadağan olan) qadınlardan «öz belinizdən gələn oğullarınızın (boşadıqları) arvadları ilə evlənmək» qadağan edilmişdir, **lakin, öz belindən gəlməyən, doğma oğul olmayan oğulların (boşadıqları) qadınlarla evlənməkdən danışılmayıb.** Həmin məsələyə Əhzab surəsi 37-ci ayədə aydınlıq gətirilmişdir. (Artıq bu barədə ayə qeyd olundu)

Həmçinin, Allah Rəsulu (Allahın Ona salavatı və salamı olsun) Zeydə Zeynəbi boşanmaq fikrindən əl çəkməsini

məsləhət görsə də, Allahın istədiyi baş verdi və Peyğəmbərin Zeynəblə evlənməsi gerçəkləşdi. Bu da Onu göstərir ki, Peyğəmbər Allahın əmri ilə Zeynəblə evlənmişdir.

**On ikinci məsələ:** Həmçinin, alimlər deyirlər ki, Əhzab surəsindəki bu ayələr Peyğəmbərin (Allahın Ona salavatı və salamı olsun) sadiqliyinə, doğruluğuna dəlalət edir.

Həmçinin, alimlər deyirlər ki, əgər Allahın Ona Zeynəblə evlənməsini əmr etməmişdən əvvəl Peyğəmbərin belə bir niyyəti olsaydı, Allah bunu Qurani-Kərimdə mütləq ortaya çıxarardı. Necə ki, Əhzab surəsi 37-ci ayədə Peyğəmbərin utanması qeyd olunmuşdur. Peyğəmbərin bunu gizlətməməsi Onun doğruluğuna, sadiqliyinə dəlalət edir.

Abdur-Rahmən əs-Sidi demişdir: Bu hekayənin faydalarından:

*«Həqiqətən də, Allahın Elçisi (Allahın Ona salavatı və salamı olsun) açıq-aydın şəkildə haqqı çatdırmış, Ona vəhy olunan heç nəyi gizlətməmiş və insanlara bəyan etmişdir. Hətta, bu məsələləri belə bəyan etmişdir. Hansı ki, bu ayədə onun qınanması vardır. Bu, ona dəlalət edir ki, Allahın Elçisi (Allahın Ona salavatı və salamı olsun) yalnız Ona vəhy olunanı danışır və Özünün şəninə ucaltmır.»* (Təfsirus-Sədi, 1/665)

Həmçinin, əl-Ğuneyman demişdir:

*«Peyğəmbərin (Allahın Ona salavatı və salamı olsun) sadiqliyi barədə düşünən kimsəyə bu ayə ən böyük dəlillərdən biridir. Bu ayədə Allah Onun nəfsində yaranan vəziyyətlə əlaqəli olaraq insanlardan utanması barədə xəbər verir. Yalançıların əksinə olaraq O, Allahın*

*buyurduğu kimi Özünün qınanmasını insanlara çatdırmışdır. Halbuki, yalançılar öz əleyhinə görünə biləcək hər şeydən çəkinərlər. Bu ayə kimi başqa bir ayə də* ***«O qaşqabağını töküb üzünü yana çevirdi»****(Abəsə, 1) ayəsidir ki, buna bənzər ayələr Quranda var, hansı ki, hamısı Peyğəmbərin sadiqliyinə (doğruluğuna) dəlalət edir.»*

(Səhih Buxarinin «Tövhid» kitabının şərhi, 320; Ğuneyman)

Beləcə, bu dəlillərdən sonra Allahın Peyğəmbərinə böhtan atanların niyyətlərinin əksi olaraq, yalnız Peyğəmbərin sadiqliyi, doğruluğu, ümmətə əmanəti çatdırması ortaya çıxır, biz müsəlmanların isə dinimizə olan yəqinliyimiz artır. Yalançıları, böhtançıları ifşa edən, doğruları, sadiqləri Ucaldan Allaha həmd olsun. On dörd əsrdir ki, Allahın Peyğəmbərini ləkələmək istəyənləri Allah daim pərişan etmişdir. Allah bu rəhmət Peyğəmbərini (Allahın Ona salavatı və salamı olsun) aləmlərə rəhmət və bu dinin müəllimi olaraq göndərmişdir. Hər bir müsəlman bacardığı qədər dinini öyrənməli və İslama qarşı hiylə quranların şübhələrindən özünü qorumağa çalışmalıdır.

Sonda həmd olsun Aləmlərin Rəbbi olan Allaha!

## *ATEISTLƏRİN ŞÜBHƏSİNƏ CAVAB:*

## HEYVANLARIN ACI ÇƏKMƏSİ NƏYƏ LAZIMDIR?

Həmd olsun aləmlərin Rəbbi olan Allaha, Allahın salamı və salavatı olsun peyğəmbərimiz Muhəmmədə, onun ailəsinə və səhabələrinə. Şahidlik edirəm ki, Allahdan başqa ibadətə layiq olan haqq məbud yoxdur, təkdir və şəriki yoxdur və şahidlik edirəm ki, Muhəmməd Onun qulu və elçisidir.

Bundan sonra:

Ateistlərin **«şər probleminə»** (the problem of evil) nəzər yetirdikdə heyvanların ağrı hiss etməsi probleminin gündəmə gəlməsində elə də böyük canfəşanlıq görülməsə də, Darvin fikrinin biologiya elmindəki rolu, insanın (canlılar arasındakı) sülalə üstünlüyünün inkarı, ekologiya inqilabı və qərb insanının əhilləşdirilmiş heyvanlara qayğısının artması və bu heyvanları (it, pişik və s.) ailə üzvlərindən biri hesab etmələrindən sonra «heyvanların ağrı çəkmə problemi» daha da qabardılaraq ateist mübahisəsinin – Kamil Rəhməti və Kamil Qüdrəti olmayan Allahsız aləm – fikrinə dəstək vermək üçün mühüm amil kimi ateistlər tərəfindən diqqətə alındı.

Ateistlərin bu barədə şübhəsi belədir: Heyvanların ağrı və əziyyət çəkmələrini nə ilə izah edək? Onlar səbəbsiz yerə niyə ağrı çəkirlər? Onlar ki, insan kimi bəlaya səbr etməklə imtahan olunmurlar? Nə də onlar buna görə dünyada qarşılıq görmürlər, nə bu əziyyətlə şəxsiyyətlərini inkişaf etdirmirlər axı?

**CAVAB:** Bunu beş aspektdən cavablaya bilərik:

**Birincisi:** İslam etiqadına görə heyvanların canı insanın canı ilə əvəzlənə biləcək bir funksiyada deyil. Həm də heyvanların yaranmasında hikmət ya birbaşa insanın xidmətinə verilmək (istər ətindən yemək, südündən və yunundan faydalanmaq olsun) ya da dolayısı yolla insanların xidmətində (istər də ümumi təbiət müvazinətinin qorunması üçün) olmaqdır.

Bütün heyvanlar insan üçün (insana xidmət və insanın onlardan faydalanması üçün) yaranmışdır. Allah buyurmuşdur: **«Yer üzündə olanların hamısını sizə görə xəlq etmişdir.»** (əl-Bəqara, 29) (1)

Həmçinin, buyurmuşdur: **«Atları, qatırları və uzunqulaqları sizə həm minik, həm də zinət olsun deyə Allah yaratdı. O, sizin hələ bilmədiyiniz bir çox şeyləri də yaradır.»** (ən-Nəhl, 8)

Başqa bir ayədə isə: **«Bəzilərini minəsiniz, bəzilərindən də yeyəsiniz deyə, heyvanları sizin üçün yaradan Allahdır.»** (əl-Ğafir, 79)

Həmçinin: **«Həqiqətən, ev heyvanlarında da sizin üçün ibrət var. Biz onların bətnində olandan sizlərə içirdirik. Sizin üçün onlarda başqa faydalar da var. Üstəlik onlardan yeyirsiniz də. Siz həm o heyvanlarla, həm də gəmilərlə daşınırsınız.»** (əl-Muminun, 21, 22)

**İkincisi:** Bizim heyvanların psixikasını bilməyimiz olduqca məhduddur. Bu da heyvanların idrakına yanaşmanın zahiri dəyərləndirmə ilə edildiyi üçündür.

**Üçüncüsü:** Heyvanların sinir birləşmələri insana nisbətdə böyük şəkildə bir-birindən fərqlənir. (2)

**Dördüncüsü:** Heyvanlar əzaları və canları ilə ağrını hiss edirlər, necə ki, heyvana bir əziyyət toxunduqda bu onun zahiri halı olur. Həmçinin, heyvanlarla yaxşı davranmaq və əziyyət verməkdən çəkinmək barədə Peyğəmbərin hədisləri də buna dəlalət edir. Bu hədislərdən birində deyilir:

***«Allah hər şeydə yaxşılıq yazmışdır. Heyvanı öldürdüyünüz zaman gözəl şəkildə (əziyyət vermədən) öldürün. Kəsdiyiniz zaman gözəl şəkildə kəsin. Qoy sizdən biri (heyvan kəsmək istəsə) bıçağını itiləsin və heyvanı rahatlatlatsın.»*** (Muslim)

Heyvanları kəsdikdə onların ağrı çəkməməsi və canının tez çıxması üçün boyun nahiyəsindən olan iri damarlar kəsilir. Bu iti bıçaqla edilir ki, ağrı müddəti daha az olsun. Yuxarıda qeyd etdiyimiz hədis dəlalət edir ki, İslam dini heyvanların əzab-əziyyət verməyin əleyhinədir. Hətta, bu şərəfli din bir heyvanı kəsərkən başqa heyvana bıçağı göstərməməyi, heyvanı qorxutmamağı, hədisdə deyildiyi kimi «heyvanı rahatlatmağı» əmr etmişdir.

İnsan necə zənn edə bilər ki, heyvanların çəkdiyi ağrı əbəs yerədir? Allahın Elçisi (Allahın Ona salavatı və salamı olsun) ümmətinə xəbər vermişdir ki: ***Uca Allah bir əxlaqsız qadınının günahlarını yalnız bir səbəbə görə bağışlamışdır. Bu da o qadının (susuz qalmış) bir itə su verməsinə görə olmuşdu.***(Buxari rəvayət edib). Həmçinin, Peyğəmbər (Allahın Ona salavatı və salamı olsun) xəbər vermişdir ki, ***bir qadın bir pişiyə görə cəhənnəmə düşür. Ona görə ki, o qadın pişiyi nə yedizdirib, nə də (həbs edərək) imkan verib ki, yerdəki canlılardan yeyib qidalansın.*** (Buxarinin rəvayət edib). Allah Elçisi (Allahın

Ona salavatı və salamı olsun) buyurmuşdur: **«Hər bir canlıda (canlıya yaxşılıq etməkdə) savab vardır.»**(Buxari)

Deməli, heyvanlar ağrı çəkirlər. Lakin, bu ağrının az və ya çox olmasından danışacağıq. Bu isə Dekartın heyvanların ağrı çəkməsinin avtomatik əks reaksiya olub həqiqi ağrı olmadığı barədə təqlidi təsəvvürünün əksidir. (3)

Sonra deyirik ki, ot yeyən heyvanlar ot yeməsilə özlərinə lazım olan qidanı təmin edirlər. Yəni, otların yaranma qayələrindən biri də bəzi heyvanların qidalanmasıdır. Heyvanların otla qidalanmasını normal qəbul ediriksə, onda ətyeyən heyvanların ət yeməsini də normal qarşılamalıyıq. Onda bir heyvanın digərini yeməsi zamanı baş verən ağrının həqiqətini tam bilmədiyimiz üçün bunu Allahın Rəhmətinə zidd olduğunu deyə bilmərik. Çünki, insan həqiqətini bilmədiyi bir şeyi dəlil gətirə bilməz. Bu məqamda başqa sual çıxır: Görəsən yırtıcı heyvanlar ov etməyi haradan və necə öyrənirlər? Görəsən heyvanlar bu ov etməyi sonradan öyrənir, yoxsa, bu onların fitrətində mövcud bir haldır? Xatırlatma üçün deyək ki, bu heyvanlara ov etmək bacarığını fitri şəkildə verən Yaradan (Allah), onların bu təbii qidalanması zamanı qurbanlarının çəkdikləri ağrıları da azaltmağa və ya bizim bilmədiyimiz səviyyəyə endirməyə də Qadirdir.

**Beşincisi:** İnsan hissiyyatının qeyri-bəşəri varlıqlarla müqayisəsi zamanı açıq-aydın səhv müqayisələrə yol verilir. (4) Həmçinin, biz deyə bilmərik ki, heyvanların ağrı çəkməsi bizim ağrı çəkməmiz kimidir. Təəssüflər olsun ki, insanın ətraf mühitdə olanlara bəşəri zəka və hissiyyat nisbət etmək istəyi ətraf mühiti anlamaqda problemlərə səbəb olur.

O zaman heyvanların çəkdiyi ağrılardan danışmaq, bu mövzunu Allahın Ədaləti və Rəhmətiylə düzgün əlaqələndirə bilmək üçün söhbətimizi bu tərzdə qurmaq mümkündür:

— Allah var.— Qurani Kərim də Allaha aid edilən Uca İsm və Sifətlər var.

Sual belədir: Qeyd etdiyimiz bu iki məsələ və heyvanların ağrı çəkməsini necə cəm edə bilərik?

Bu suala cavab vermək üçün (ateistlərə misal olaraq) bu fərziyyələri irəli sürmək olar:

**1) «Allah Rəhmlilərin ən Mərhəmətlisidir.»** (əl-Ə`raf, 151; Yusuf, 64; 92; əl-Ənbiyə, 83)

**2)** Allah heyvanları yaratmış və insana heyvanla yaxşı davranmağı əmr etmişdir.

**3)** İslam dinində heyvanlarla yaxşı davranmağın əmr edilməsi dəlildir ki, Allah heyvanların hislərinə qarşı Rəhmlidir və Allah heyvanlara əziyyət toxunmasını qəsd etməmişdir.

**4)** Bizim aləmimizdə heyvanlar ağrı hiss edirlər. (Lakin, bu ağrı az, yoxsa, çoxdur?)

**5)** Qiyamət günü heyvanlara Cənnət qarşılığı verilməyəcəkdir. Çünki, heyvanlar həm əməllərinə görə məsuliyyət, həm də dini öhdəliklər daşımırlar.

Bu fərziyyəyə əsasən, əgər Allah mövcuddursa, bu məsələni belə təsəvvür etmək mümkündür:

**6)** Allahın heyvanların ağrı hissini insanların ağrı hissindən daha yüngül etməsi mümkündür;

**Məntiqi cəhətdən:** *«Allah heyvanların ağrı hissiyyatını insanların ağrı hissiyyatından daha aşağı səviyyədə etmişdir»* deməyimiz nə bir ziddiyyətli, nə də əqli cəhətdən mümkün olmayan bir söz deyil.

**Elmi cəhətdən:** Şəkk yoxdur ki, biz heyvanların ağrı hiss etməsinin həqiqətini bilmirik. Baxmayaraq ki, heyvanların zahirən ağrı hiss etdiklərini anlayırıq. Elm bu gün bizə bəzi dəlilləri göstərir ki, heyvanların ağrı hissiyyatı insanın hissiyyatından daha aşağıdır. Bu aşağıda qeyd edəcəyimiz iki nöqtədə zahir olur:

**Birincisi: Canlı varlıqlardan sinir sisteminin quruluşu:**

**a)** Heyvanların cərrahiyyəsilə aşkar edilmişdir ki, heyvanların mərkəzi sinir sistemində böyük fərqlər var. məsələn; qurdlarda olan sinir sistemi sinir liflərinə bağlanmış düyünlər şəklindədir. Digər sinir quruluşlarından geniş şəkildə fərqlənən bu sinir sisteminin tikanlı sinirləri uzun bir ip kimi birləşdirən böyük bir beyini var ki, onun da yüzdə qırx faizini beyin qabığı təşkil edir. (5)

**b)** Heyvanlarda sinir sisteminin olması zəruri deyil. Çünki, heyvanlara əziyyət üz verdikdə buna qarşılıq olaraq şərti şəkildə ağrı çəkmə halı baş verir və ya buna qarşılıq vermə nisbətində ağrı çəkmiş olurlar. Bəzən isə əziyyətə qarşılıq vermə mücərrəd olaraq əzələ dartılması şəklində baş verir. Xüsusən də əgər sinir sistemi düyünlü deyilsə və ya bədən üzvlərinin hər tərəfinə uzanmırsa. Necə ki, bir çox heyvanların bir-birini ovlaması böyük ağrıya səbəb olmur. Heyvanların davranışları üzrə məşhur mütəxəssis Jane Goodall'a görə yırtıcı heyvanların ov etmələrinin

müşahidəsindən əldə edilən təcrübələr göstərir ki, yırtıcı öz canlı ovunu ovladığı zaman mənzərə nə qədər qorxunc görünsə belə qurbanlar çox tez müddətdə ölürlər və çox ağrı hiss etmirlər.(6) «Akula balığının hücumu» kitabının müəllifi deyir: «Akula balığının (ov üzərinə) hücumu zamanı zəruri deyil ki, ovunu pis bir şəkildə yaralasın. Mümkündür ki, akulanın əti qoparmağı ağrısız və yumşaq şəkildə baş versin. Necə ki, cərrahın kəsici alətiylə bu baş verir. Akulanın qurbanlarından dörddə birinin (ovunun) bəsit ağrı yaşadıqlarının və ya ağrı yaşamadıqları müşahidə olunmuşdur. Onlardan çoxu isə başlarına təhlükəli bir hal gəldiyindən xəbərsiz olmuşlar. (7)

**İkincisi: Canlı varlıqların ağrını dərk etmələri (anlamaları):**

Canlı varlıqların ağrı təcrübəsi bir çox mülahizələrə görə müxtəlifdir:

– Heyvanların özünü görmək təcrübəsi yoxdur (person – first perspective on their experiences). Ona görə də heyvanların həyatı boyunca davamlı dərk etdikləri ağrı hissiyyatı daşımaları insanda şəkk yaradır.

– İdrak problemi ilə əlaqədar olan fəlsəfi araşdırmalar (consciousness) ittifaq ediblər ki, mövcud canlılarda olan idrak təbiəti eyni deyildir. Burada yalnız bir çox məfhumlar və idrak dərəcələri var. (8)

– Heyvanlar ağrı təcrübəsini üst-üstə toplamaq gücünə malik deyillər. Çünki, öz ağrıları barəsində düşünə bilmirlər. Ona görə də heyvanlar insanların yaşadığı ağrı təcrübəsini yaşamırlar. Onların unutqanlıq təbiəti onların keçmiş ağrılarının indiki zamanla üst-üstə yığılmasından qoruyur. Başqa ibarə ilə desək: keçmişlə indiki zaman

heyvan üçün eynidir. İnsan isə keçmiş ağrısını xatırlamaqla yanaşı, indiki ağrılarını keçmişlə müqayisə edir ki, bu digərindən daha böyükdür. Heyvanda isə zaman təsəvvürü olmur.

Biz heyvanın ağrı hiss etməsini inkar etmirik. Lakin, heyvanın üst-üstə yığılan vaxtın idrakını, anlamasını izah edirik. Hansı ki, bu heyvanın ağrı çəkməsi əksər ağrıları idrakının təbiətinə, sinir sisteminə və psixoloji sisteminə qayıdır.

– Ağrı hissi idraka qaytarılmalıdır, (kor-koranə) hiss etməyə deyil. Çünki, ağrı hiss etmək fizioloji quruluşdan çox psixoloji quruluşa daha yaxındır. (9) Buna bir çox döyüş, müharibə meydanları şahidlik edir. Məsələn; çox olur ki, döyüşçü (döyüş vaxtı) ağrı hissiyyatını itirir, amma, başqa adi hallarda bu (hansısa yaradan dolayı əmələ gələn ağrı) daha çox hiss olunur. (10)

**Bura qədər keçən mülahizələrə əsasən bunları demək olar:**

1) Təcrübənin davam etməsi canlı varlığın ağrını dərk etməsinin əsas ünsürüdür.

2) Heyvanlar (ağrı) təcrübəsinin davamlılığını itirirlər.

3) Ona görə də heyvanlar bizim yaşadığımız kimi ağrını yaşamırlar. (11)

**Əxlaqi cəhətdən isə:** Heyvanın ağrı çəkməsini öyrəndikdə dörd məsələyə nəzər yetirmək lazımdır:

**Birincisi:** Heyvanlar etmədikləri cinayətə görə ağrı çəkdikləri kimi, etmədikləri fəzilətlərin qarşılığında

təbiətdəki nemətlərdən qarşılıqsız faydalanırlar. Onu da qeyd edək ki, heyvanların həyatının əksər hissəsi əziyyət çəkmədən əldə etdikləri xeyirlərdən faydalanmaq içində keçir.

**İkincisi:** Etiraz edən şəxs haradan bilir ki, Uca Allahın bu canlılara ağrılarının qarşılığını vermir? Məgər o Allahın heyvanlara verdiyi bütün xeyirləri bilirmi? Məgər o heyvanlara verilən nemətləri heyvanlara toxunan əzab ilə müqayisə etməklə ağrının müsibətlərdən əlavə bir şey olduğunumu başa düşür? Məgər artıq ona aydın olub ki, uca Allah hər bəladan sonra heyvana bunun əvəzinə bir qarşılıq vermir? Bir şeyi bilməmək o şeyin olmaması demək deyil! Həmçinin, bir şeyin elmindən qafil qalmaq nəyisə inkar etmək üçün hüccət deyil. Məsələni qaytarmağın gərəkdiyi əsas – İslami təsəvvürlə yanaşsaq – bu ayəyə uyğun olmalıdır: **«Mərhəmətim hər şeyi əhatə edir»** (əl-Ə`raf, 156)

**Üçüncüsü:** Heyvanlara toxunan iztirabın zahiri qiymətsiz və əbəs yerdədir – demək doğru deyil. Çünki, bu ağrıların çoxu heyvanın bədəninin qorunmasına xidmət edir. Məsələn; heyvanın aclıq ağrısını hiss etməsi onu qida axtarmağa sarı hərəkət etdirir, bu zaman baş verən aclıq ağrısı onu əziyyət və həlak səbəblərindən xəbərdar edir. Ona görə də bu növ əziyyət bu baxımdan heyvanın həyatda qorunma səbəblərindəndir.

**Dördüncüsü:** Bütünlüklə salamat qalmaq bəzən cüzi hissələrdən qurban verməyi gərəkdirir. Bu amil, təbiət nizamının qorunması üçün təbiət fərdləri arasında yardımlaşmanı gərəkdirir ki, heyvanların ölümü heyvan növünün qalması üçün bir yola çevrilsin. (12)

Ətyeyən heyvanların yaşaması üçün müəyyən zəif, gücsüz, bəzən də xəstə heyvanlar bu heyvanların qurbanına çevrilir. Həmçinin, digər canlılar da təbiətdə müəyyən qurbanlar verməklə həyatlarını davam etdirirlər. Bu bir-birini tamamlama ilə növlər qorunur, heyvanlar aləminin yer üzündə mövcudluğu davam edir. Bu ağrıları inkar etmək, bu ağrılar niyə var? — demək, belə asan sualları vermək isə bu aspektdən yanaşası olsaq, *«heyvanlar aləmi mövcud olmasın»* kimi bir əks mənaya da yozula bilər. Çünki, sualı verən təsəvvür etmək istəmir ki, heyvanlar aləmində müəyyən mübarizə olmasa, nə ot yeyən heyvanların, nə də ətyeyən heyvanların qalması mümkün olar. Belə sualları isə çox zaman sadəcə bu əzəmətli ehtişamda yaranmış aləmin əzəmətli hikmətlərindən cüzi bir hissəsini belə anlamaq istəməyən, həqiqətə dar çərçivədən baxan insanlar verirlər.

**Qeydlər və istinadlar:**

(1) Əlavə dəlillər üçün bax: (ən-Nəhl, 8; əl-Ğafir 79: əl-Muminun, 21-22)

(2) Michael, J. Murray, Nature Red in Tooth and Claw: theism and the problem of animal suffering (Oxford; New York: Oxford University Press, 2008), p. 42.

(3) Rene Descartes, A Discourse on Method, trans. John Veitch (London: Dent, 1957), pp. 44ff.

(4) Bu, «anthropopathism» adlanır. İki yunan sözündən törəyən bu söz: «insan və məşəqqət» sözlərinin birgə işlədilməsilə ərsəyə gəlib.

(5) (Daha ətraflı bax: C.Stephen Layman, Letters to Doubting Thomas: A Case for the Existence of good, p. 17)

(6) (Daha ətraflı bax: Hugo van Lasix and Jane Goodall, Innocent Killers (Boston: Houghton Mifflin, 1971), p. 13.

(7) H. David Baldrige, Shark Attack (New York: Berkeley Medallion Books, 1975), p. 222.

(8) Michael J. Murray, Nature Red in Tooth and Claw, p.52.

(9) Gilbert Ryle, The Concept of Mind (New York: Barnes and Noble, 1949), p. 203.

(10) Peter Harrison, "Teodicy and Animal Pain", in Philosophy, Volunteering. 64, No. 247 (Jan, 1989), 86.

(11) Ibid, please. 91.

(12) Hubert S. Box, The Problem of Evil, pp. 50-53.

(13) Bu yazımızdakı mühüm mənbələrdən biri də dr. Səmimi Amirinin «Muşkilətuş-Şər va Vucudullah» kitabıdır.

## ALLAH NİYƏ BƏZİ İNSANLARIN DUASINI QƏBUL ETMİR?

**Birincisi;** Allah imtahan edir və lakin O imtahan olunmur. Sınağa çəkir, sınağa çəkilmir. O kəs ki, Allahı imtahan etmək üçün Allahdan istəyir (dua edir) artıq Allahın əmrinə müxalif olmuşdur, belə bir halda o necə duasının qəbul olunmasını istəyir?

**İkincisi;** Allah bir çox insanların duasını qəbul etmişdir. Bu, həm özümüzdə, həm də başqalarında şahidi olduğumuz bir məsələdir.

Doğru sual isə belə qoyulmalıdır: ***«Görəsən mənim duamın qəbul olunmasına mane olan səbəb nədir?»***

Bu, insanı öz nəfsinə qayıtmağa, öz gizli xətalarını axtarmağa, öz halını düzəltməyə, Allaha yaxınlaşmaqda daha çox çalışmağa gətirib çıxarır ki, bununla da Allahın bizim üçün seçdiyinin bizim özümüz üçün seçdiyimizdən daha xeyirli olmasına qane oluruq.

**Üçüncüsü;** Bizim Yaradanın olması barədə qəti əqli dəlillərimiz var ki, bu dəlillər Onun Hikmətinin və Elminin kamilliyinə dəlalət edir. Ona görə də bəzi insanların duasının qəbul olunmaması bu qüvvətli dəlillərlə qarşı-qarşıya gəldiyi zaman, ağıllı insanlara gərəkir ki, daha qüvvətli olanı önə çəksinlər, problemə dözüm göstərsinlər və məsələni daha aydın hüccətə görə anlasınlar. Bu məsələ fitri və mövcud olan bir şeydir.

**Dördüncüsü:** Duaya cavabın gecikməsindəki hikməti axtarmaq;

Çünki, insanın elminin məhdud olması insanın fikirlərinin və təmənnalarının məhdud olmasına gətirib çıxarır. O cümlədən, neçə-neçə dualarımız var ki, qəbul olmasına mane olunmuş, lakin, sonradan bunun bizim üçün xeyirli olan tərəfi aydın olmuşdur.

Qul bilməlidir ki, duanın qəbul olunması bir neçə növdür. Ya Allah qulun duasına qarşılıq verərək onun istəyini həqiqətə çevirər, ya o dua vasitəsilə ondan bir şərri uzaqlaşdırar, ya da onu Qiyamət günü Allaha daha çox ehtiyacı olduğu günə saxlayar. Həqiqətən də insan gələcək barədə nəyin daha xeyirli olduğunu tam bilmir.

**Beşincisi;** İbnul-Qayyim (rahiməhullah) demişdir:

***«Dua və sığınmalar silah kimidir. Silah da onunla vurana görə silahdır, yalnız silah olmasına görə deyil. O vaxt ki, silah tam və problemsiz olur, o silahın istifadəçisi də qüvvətli (işini bilən) olarsa, maneə aradan qalxarsa, bu zaman həmin silah düşməni sarsıdar. Nə vaxt ki, bu üç şeydən biri olmazsa, (silahın) təsiri ortadan qalxar.»*** ("Dərd və Dəva" kitabı, səh. 26)

**Altıncısı:** Bu məsələdən danışıldığı zaman bu məsələyə aid bütün dəlillər gətirilməli və dəlillərin bəzisinə baxıb, bəzisini tərk etməməliyik. Necə ki, Allah buyurmuşdur: **«Mənə dua edin, Mən də sizin duanızı qəbul edim.»** Həmçinin, O buyurmuşdur: **«Biz sizi mütləq sınağa çəkəcəyik.»** Hər kim ki, ayədəki ***«dua»***sözünün anlamında Allahın bəşər övladını sınağa çəkmək sünnəsinə son qoymağı istəyərsə, artıq o, bəzi dəlilləri götürmüş, bəzi dəlilləri isə tərk etmişdir.

O cümlədən, səhih bir hədisdə gəlmişdir ki, ***«Sizdən biri tələsmədikcə onun duasına cavab verilər. Sizdən biri***

***(tələsərək) deyər ki, dua etdim, duam qəbul olunmadı.»*** (Buxari, Muslim)

Bu dəlil də duanın qəbul olması şərti üçün mühüm bir məsələni bəyan edir ki, o da tələsməməkdir.

**Yeddincisi:** Bəzi insanlar haram yeyir, haram içir, haram geyinir, sonra da deyir ki, "mənim duam qəbul olunmadı". Ümumiyyətlə, haram yemək duanın qəbul olunmasına maneələrdən biridir. Hədislərdən birində Peyğəmbər (Allahın Ona salavatı və sslamı olsun) buyurmuşdur:

***«Bir kəs (Haqq yolunda) uzun səfərə çıxar, saçları dağılmış, toza torpağa batmış bir halda əllərini səmaya uzadaraq: Ya Rəbbi, ya Rəbbi! deyə dua edər. Halbuki, yediyi haram, içdiyi haram, geydiyi haram (xülasə) özü haramla qidalanmış olarsa, belə bir kəsin duası necə qəbul edilər?»***

(Muslim, Zəkat, 19; Tirmizi, Təfsir, 3; Əhməd ibni Hənbəl, 2/328)

İnsan dua etdikdə haram, günah, günaha təşviq və ya mümkünsüz bir şey də istəməli deyil.

Həmçinin, günahlara dalmaq, asiliklər etmək də duanın qəbul olmasına maneələrdən biridir.

Həmçinin, qulun qəlbinin zəif olması və onun Allaha yönəlməsinin zəif olması da duanın qəbul olunmasına meneə olan səbəblərdəndir.

Lakin, ateistlərin duanın qəbul olmamasını Allahın inkar edilməsinə səbəb kimi göstərmək iddialarına gəldikdə onlara deyirik ki: *«Əgər fərz etsəniz ki, Uca Allah duanı*

*qəbul etmir – bu heç də Allahın olmaması anlamına gəlmir!»*

Biz artıq duanın qəbul olunmamasının səbəblərindən və hikmətlərindən danışdıq. Odur ki, insan duasının qəbul olmaması halında birinci baxmalıdır ki, Allahla özü arasında olan əlaqəyə (duanın qəbul olunmasına) günahlar və s. ilə bir xələl gətiribmi? Sonra hikmətlərə və başqa səbəblərə baxmalıdır. Bir insanın duasının qəbul olunmadığı üçün birbaşa Allahı ittiham etməsi və bu məsələlərə diqqət yetirməməsi o şəxsin haqdan uzaqlaşmasına və Allah haqqında pis zənninə dəlalət edir. Belə pis haldan Allaha sığınırıq!

# ISLAMI DÖYÜŞ MƏFHUMU BARƏDƏ YALNIŞ BAXIŞLAR

## (ateist şübhəsinə cavab)

Bu mövzu qeyri-müsəlmanlar üçün ən çox həssaslıq təşkil edən mövzulardan biridir. Bu qısa məqamda mövzuya aid hər şeyi cəm etmək mümkün deyildir. Sadəcə bəzi mühüm metodiki işarələr vardır ki, onları qeyd etmək istərdik. Bu işarələr dinə qarşı şübhə yayanların İslamda döyüş, cihad barədə bəzi yanlışlarına və təhriflərinə aiddir. Bunlardan:

**Birincisi: Onlar cihad barədə olan təsəvvürlərini İslama nisbət edilən bəzi müasir terror və ya döyüş camaatlarının üzərində qururlar.** Məsələyə bu cür yanaşmaq nə elmi tərz, nə də elmi yanaşma deyildir. Doğru olan isə bu dəstələrin özlərinin İslama mühakimə olunmasıdır. Yəni, onların döyüş yolundakı əməlləri Qurana və Peyğəmbərin (Allahın Ona salavatı və salamı olsun) yoluna ərz olunmalıdır. Bu əməllərdən Qurana və Peyğəmbərin yoluna hansı uyğun gələrsə, o doğrudur, hansı buna müxalif olarsa, o əməl İslama deyil, onu özündən çıxaran kimsəyə və o yanlışla əməl edənin özünə nisbət olunmalıdır.

Bu məqamda şübhə yayanlara bir sual ünvanlayırıq: Görəsən onlar ateist olan kommunistlərin terrorist və cinayətkar əməllərini ateizmə nisbət edirlərmi? Yoxsa, müsəlmandan başqasından söhbət gedəndə hökm verməyin meyarları dəyişir?

**İkincisi: Onlar İslamın döyüş əhkamlarında olan rəhmət və yumşaqlıq tərəflərini bilmir, ya da özlərini bilməməzliyə vururlar.**

Misal olaraq; Quran və hədislərə əsaslanan İslam qanununda (döyüş vaxtı) qadın və uşaqları öldürməkçün hədəfə almağın qadağan olunması barədə açıq-aydın dəlil vardır.

Bu barədə rəvayətdə deyilir ki; döyüşlərdən birində bir ölmüş qadın tapıldı. Bundan sonra ***Peyğəmbər (döyüşdə) qadın və uşaqların öldürülməsini qadağan etdi.*** (Səhih əl-Buxari, 3014; Səhihi Muslim, 3/1364)

Bu, o demək deyil ki, öncədən belə hallar baş verirdi. Sadəcə Peyğəmbər təsadüfən baş verən belə bir halın ümumiyyətlə təkrarlanmaması üçün birdəfəlik insanlara döyüşdə qadın və uşaqların qətl edilməsini qadağan etdi.

Həmçinin, bu qanunda müsəlmanlara qarşı döyüşənlərin küfrdən əl çəkdikləri təqdirdə onlarla döyüşdən əl çəkmək barədə açıq-aydın dəlil vardır.

Döyüşlərdən birində Usamə ibn Zeyd döyüş meydanında əlinə keçən düşməni tam zərərsizləşdirir və düşmən «lə iləhə illəllah» dedikdən sonra onu qətl edir. Bu barədə Peyğəmbərdən soruşmaq istəyir və artıq Peyğəmbərə bu barədə sual vermək istədikdə Bəşir bu hadisə barədə Peyğəmbərə xəbər vermişdi. Usamə ibn Zeyd etdiyini Peyğəmbərə bildirdikdə Peyğəmbər (Allahın Ona salavatı və salamı olsun) ona deyir: ***Ey Usamə, o «lə iləhə illəllah» dedikdən sonra onu öldürdünmü?*** (Usamə) deyir: Ey Allahın Elçisi, o, özünü qorumaq üçün bunu dedi. Sonra dedi ki: Peyğəmbər bu sualı o qədər təkrar etdi ki, (bu sözləri eşitməməkçün) təmənna etdim ki, bu vaxta kimi İslamı qəbul etməmiş olaydım.» (Buxari, 6872; Muslim, 1/97)

Həmçinin, bu hədisdə o fayda da var ki, İslamda insanın zahirinə görə hökm verilir və küfrü tərk edən insandan bu, qəbul edilməlidir, qəlbləri bilmək isə Allahın ixtiyarındadır.

Həmçinin, həmin səhabə Peyğəmbərin tənbehindən sonra döyüş meydanında necə bir xətaya yol verdiyini dərk etdi və hətta o sözləri eşitməməkçün kaş ki, o hadisə baş verən gündən sonra müsəlman olmağını təmənna etmişdi. Üstəlik də, onu narahat edən dinə bilməyərək zidd əməl etməsi idi. Kaş ki, hər kəs dinə zidd əməl edəndə bunu dərk edəydi.

Həmçinin, İslam qanununda kafirlərin – və ya kitab əhlinin – cizyə vergisi ödəmək qarşılığında dinlərinə toxunulmadığı barədə açıq-aydın dəlil var. (Tövbə surəsi, 29-cu ayə, Səhih əl-Buxari, 3159; Səhihi Muslim, 1731)

O cümlədən də, bu qanunda hər kəsə bir döyüş sövdələşməsini pozmaq, əhdə xəyanət etmək haramdır. Bu barədə hədisdə Peyğəmbər (Allahın Ona salavatı və salamı olsun) buyurmuşdur: ***«Hər kimin bir qövmlə arasında bir sövdələşmə (əhd-peyman) olarsa, o sövdələşmənin vaxtı bitməyincə o əhdi pozmasın…»*** (Tirmizi, 4/143)

Bu qanunda əsirlərə yemək vermək təriflənmişdir. Uca Allah bu barədə buyurur:

**«Onlar özlərinin istədikləri şeylərdən kasıba, yetimə və əsirə də verərlər.»** (əl-İnsan, 8) bu barədə başqa hədislər də çoxdur.

Bu qanunda düşmənlərin cəsədlərinə işkəncə verməyi, vandallıq etməyi qadağan (haram) edən açıq-aydın dəlil vardır. Peyğəmbər (Allahın Ona salavatı və salamı olsun) buyurmuşdur:

*«Ölmüş cəsədlərə işgəncə verməyin.»* (Sahih Muslim, 1731)

O cümlədən də, bu İslam qanununda müsəlmanlara qarşı döyüşənlərdən kiminsə qəbul etməsə belə İslamı eşitmək üçün (müsəlmanların yanına) gəldiyi zaman ona aman verilməsi, sonra isə əmin olacağı yerə çatdırılmasının gərəkdiyi barədə açıq-aydın dəlil vardır! Bu barədə Quran ayəsi belədir:

**«Əgər müşriklərdən biri səndən aman diləsə, ona aman ver ki, Allahın sözünü eşitsin. Sonra onu özünün xatircəm olduğu yerə çatdır. Çünki, onlar haqqı bilməyən bir qövmdür.»** (Tövbə 6-cı ayə)

Bütün bunların hamısı döyüşdə uca mənalar və yüksək əxlaqlardandır ki, qeyri-müsəlmanlarda bunun misli yoxdur.

**Üçüncüsü: Onlar keçmiş və müasir tarixdə qeyri-müsəlmanların əllərilə öldürülən milyonlarla insanları unudurlar.** Əgər onlar bu qədər insanların öldürüldüyü döyüşlərdə iştirak edən ordulara, dinlərə və dövlətlərə bu prizmadan yanaşsaydılar (yəni, müsəlmanları ittiham etdikləri kimi onları da ittiham etsəydilər), müsəlmanlardan danışmamışdan əvvəl öz xəcalətlərindən susardılar.

Sonra bu üç nöqtədən danışdıqdan sonra deyirik ki, İslamda olan döyüş səbəblərilə başqalarındakı döyüş səbəbləri çox fərqlidir. Allahın nazil etdiyi din uğrunda döyüşmək və onu müdafiə etməklə, hansısa batil bir dinin uğrunda döyüşmək və ya batil ideologiyalar uğrunda döyüşmək çox fərqlidir.

İslamda döyüşməyə təhrik edən amil kafirləri öldürmək deyil, nə də onları yox etmək deyil, nə də onları ələ keçirib

zülm etmək, həddi aşmaq deyil, əslində buna təhrik edən başlıca amil Allahın dinini yaymaq, insanları oddan xilas etmək, onları qurtarmaq və azad şəkildə dini seçməklə zəiflərin üzərinə müsəllət olmuş zülmkarlardan təmizləməkdir. Amma, İslam tarixində bu əsaslara əks olan bəzi misallara gəldikdə bu hallar bu əsasları batil etmir, sadəcə bu uca əsaslara müxalif olanların üzərinə məzəmmət olunur.

**Bir şübhəyə cavab:**

Bəzi ateistlər iddia edirlər ki, radikal qruplaşmalardan olan İŞİD terror təşkilatı guya həqiqi İslamı təmsil edir. Buna isə onların törətdikləri əməlləri misal çəkirlər. Bu sərsəm şübhə ilə yalnız dindən təməl anlayışı olmayanları aldatmaq mümkündür.

**Birincisi:** İŞİD'din mətbuatın gündəmindən düşdüyü, hədsiz dərəcədə zəiflədiyi, işğal etdiyi əraziləri itirdiyi, həqiqi simasının açıldığı və Qərb dairələrilə güclü bağlarının ifşa olunduğu bu dönəmdə bəlkə də bu iddiaya sağlam məntiqli insanlardan kiminsə inanacağını təsəvvür etmək bir qədər çətindir. Lakin, İŞİD'in müsəlmanları gözdən salmaq üçün düşünülmüş ən məkrli planlardan olduğunu nəzərə alıb, qısa da olsa bu məsələyə toxunmağı lazımlı gördük.

**İkincisi:** Bu şübhə yalnız İŞİD'çilərin əməllərinə diqqəti çəkir, əqidələrinin İslamla uyğun olub olmadığına deyil; Çünki, ağıllı bir müsəlman rahat şəkildə görə bilər ki, işidçiləri dəstəkləyən heç bir İslam alimi olmadı. Bu da o deməkdir ki, İslama görə Peyğəmbərin varisləri sayılan İslam alimləri terrorçuları yaxşı tanıyırlar və onların İslamdan uzaq olmalarını bəyan etməklə dünyaya lazımlı mesajı artıq vermişlər. İŞİD'çilər və oranı idarə edən etiqad

mənsubları Əli ibn Əbu Talibin özlərilə vuruşduğu xəvaric etiqadını daşıyırlar. Onlara görə İŞİD ərazisinə hicrət etməyənlər kafir idilər. Dünyadakı bütün müsəlmanların onlara tabe olmadığı təqdirdə kafir elan etmişdilər. Təkfirdə (kafir çıxartmada) xeyli irəli getmişdilər. Bir çox etiqadi məsələlərdə əhli sünnədən uzaqlaşmışdılar. Müsəlman ölkələrini və hakimlərini də kafir hesab edirdilər. Lakin, bununla yanaşı İsrail ilə olan sərhədlərindən İsrailə bir güllə də atmamışdılar.

**Üçüncüsü:** İslami cəzaların tətbiqində də çox canfəşanlıq edirdilər. Hətta, elmsizlikdən dolayı bu məsələdə çox şiddətə və hikmətsizliklərə yol verirdilər. O cümlədən də, cəzalarda yeniliklərə yol verməkdən də çəkinmirdilər. Bəzi insanlar isə elə bilirlər ki, İŞİD'in tətbiq etdiyi cəzalar tam İslama uyğundur və ya hamısı o verilən cəzalara layiqdirlər. Üstəlik də verilən cəzaların sayı, tətbiqi və cəmiyyətə təqdimi guya doğru şəkildə yerinə yetirilmişdir. Halbuki, bu cəzaların İslami qaydaları aşmasının əsas işi İslamofobiyaya xidmət edirdi. Bu barədə (İslami cəzalar barədə) sərbəst bir yazıda daha ətraflı danışacağıq Allahın izniylə.

**Dördüncüsü:** İslam dəvəti Allahı sevdirmək və Allahdan qorxutmaq üzərində qurulduğu halda, İŞİD'in dəvəti yalnız qorxu üzərində qurulmuşdu.

**Beşincisi:** İşidçilər əhli sünnədən olan qadınları da cariyə (döyüşdə əsir düşən düşmən qadınları) kimi götürürdülər. Çünki, onlarının ərlərini müsəlman görmürdülər.

**Altıncısı:** Onlar həqiqi İslamın əminamanlıq verdiyi kimsələri tanımır, istədikləri vaxt öldürə bilirdilər. Halbuki, bu barədə yuxarıda ayə qeyd etmişdik (Tövbə, 6).

**Yeddincisi:** İŞİD necə həqiqi İslamı təmsil edə bilər ki, İslam tarixini yaxşı oxuyan hər kəs istər Raşidi xəlifələr dövründə, istər Əməvilər dövründə, istər Abbasilər, istər Məmlukilər dövründə, istər də Eyyubilər dövründə və s. çoxsaylı xəvaric fikirli insanların üsyanlarının baş verməsinin şahidi ola bilər ki, belə inqilabları heç zaman normal, islami elmə bağlı müsəlman təbəqə dəstəkləməmişdir.

**Səkkizincisi:** İŞİD'in kimə xidmət etdiyi əvvəldən şübhə doğururdu. Çünki, İŞİD öz xalqını zülmdən müdafiə edən qruplarla da (o qrupların doğru və səhv olmasından danışmırıq hələ) savaşırdı. İsraillə sərhədi ola-ola onlara da bir güllə atmırdı. Arabir özünü guya bəzi şirk edənlərlə döyüşürmüş kimi göstərib həqiqi simasını gizlədirdi. Lakin, çox keçmədən dərdlərinin İslam olmadığı ortaya çıxdı. Qərbdən gələn döyüşçülərin çoxluğu, amerikan silahları, amerikanın nələri və nələri çox şey deyirdi insana. Bunları görə-görə "İŞİD əsil İslamdır" deyənlərə yalnız təəccüblənmək qalır.

**Doqquzuncusu:** Həqiqi İslamın Peyğəmbəri hətta ikiüzlü münafiqləri tanısa belə onları öldürmürdü ki, insanlar düşünməsinlər ki, Məhəmməd peyğəmbər öz silahdaşlarını qətl edir. Lakin, İŞİD'çilər onlara kiçik bir müxaliflik edən müsəlmanı "casus" damğası ilə rahatlıqla öldürə bilirdilər. Həqiqi İslam bu ayəyə əməl etməyi əmr edir:

**«Allahın mərhəməti sayəsində sən onlarla mülayim rəftar etdin. Əgər sən kobud və daş qəlbli olsaydın, onlar hökmən sənin ətrafından dağılışardılar.»** (Ali İmran, 159) İşidçilər bu ayənin əksinə əməl etdilər və müdrik alim İbn Kəsirin (Allah ona rəhmət etsin) əsrlər öncə dediyi baş verdi. O belə demişdi: *«Əgər xəvariclər yer üzündə güclənsələr bütün yer üzündə fəsad törədərlər.*

*(Özlərinə qarşı olan) Nə bir uşaq, nə bir kişi, nə bir qadını sağ buraxmazlar. Çünki, onlara görə insanlar elə korlanıblar ki, onları yalnız kütləvi qətl təmizləyə bilər.»* (əl-Bidayə vən-Nihayə, ibn Kəsir, 10/584-585)

Bu barədə daha geniş danışmaq olar. Lakin, bu qədərini kifayət hesab edirik və sonda, aləmlərin Rəbbi Allaha həmd edirik.

## DİNİNƏ GÖRƏ MÜSƏLMAN QADINA MƏZLUM DEYƏNLƏRƏ CAVAB

Həmd olsun aləmlərin Rəbbi olan Allaha, Allahın salamı və salavatı olsun peyğəmbərimiz Muhəmmədə, onun ailəsinə və səhabələrinə. Şahidlik edirəm ki, Allahdan başqa ibadətə layiq olan haqq məbud yoxdur, təkdir və şəriki yoxdur və şahidlik edirəm ki, Muhəmməd Onun qulu və elçisidir. Bundan sonra:

Bu barədə danışanlar İslam şəriətindən hikmətini anlamadıqları hökmləri, o cümlədən bəzi müsəlmanların yanlış adətlərini qadının məzlum olmasına misal çəkməyə çalışır, cahilcəsinə və təhrifə yol verərək şəriətə tənə etmək üçün bu kimi şeyləri şəriətə nisbət edirlər.

Bu məzlumiyyəti göstərmək üçün qadına mirasdan düşən payı misal çəkərək deyirlər ki, niyə qadına düşən miras bir kişiyə düşən mirasın yarısı qədərdir? Bu şübhəyə bir neçə nahiyədən cabab vardır:

**Birincisi:** Mirasın bir neçə halı var. Bu hallara əsasən ola bilər ki, qadına kişiyə düşən miras payından daha çox pay düşsün. Elə də ola bilər ki, qadınla kişiyə eyni qədər miras payı düşsün. Elə hal da ola bilər ki, qadına miras düşsün, lakin, kişiyə pay düşməsin. Elə hal da ola bilər ki, qadına kişidən az miras payı düşsün. Məsələn; əgər bir qadın öldükdə əri və bir qızı qalarsa, bu halda qız ərdən daha çox miras payına sahib olur. Əgər oğul ölərsə, ölən oğulun atası, anası və uşaqları qalarsa, (uşaqları qalmasa belə) bu zaman ata və ananın miras payı (qadın və kişi fərqinə baxmayaraq) eyni olar. Bu barədə Qurandakı ayə belədir: **«onun valideynlərinin hər birinə qoyub getdiyi malının altıda bir hissəsi çatır.»** (ən-Nisa, 11-ci ayə) baxmayaraq ki, indi qeyd edəcəyimiz Quran ayəsinin bir

hissəsi də eyni ayənin içində yer alır: **«kişiyə, iki qadının payı qədər pay düşür.»** (ən-Nisa, 11-ci ayə)

Lakin, ayənin bu hissəsini şübhə gətirənlər mirasdakı müxtəlif halları qeyd etmirlər və ya qəsdən bunu edirlər. Həmçinin, qadınla kişinin mirasda eyniləşdirən ayələrdən biri də bu ayədir:

**«Əgər vəfat etmiş kişinin və ya qadının valideyni və övladı yoxdursa, eyni anadan bir qardaşı və ya bir bacısı varsa, onda onların hər birinə mirasın altıda bir hissəsi düşür. Əgər onlar sayca bundan artıq olsalar, mirasın üçdə birinə şərikdirlər.»** (ən-Nisa, 12-ci ayə)

Bu hal bir anaları eyni olan (ögey olmayan) qardaşlara aiddir.

***İkincisi:*** Kişi bəzi hallarda qadının iki mislində miras payı alsa da, kişi qadınla evlənərkən ona mehr ödəməklə əmr olunmuşdur. Hətta, həyat yoldaşı olan qadın zəngin olsa belə kişi ömrünün axırına kimi qadını maddi cəhətdən təmin etməklə əmr olunmuşdur. Məgər bundan sonra kişi üçün bu miras çox görülərək qadına ikiqat miras istənilməlidirmi?

***Üçüncüsü:*** Bu bölgü ilə razılaşmamağın kökü isə qadınla kişi arasındakı hər şeydə mütləq bərabərliyə qərar verməkdə və bunu yaxşı hesab etməkdədir. Bu bərabərlik isə hər iki tərəfin təbiətinə müxalifdir. O cümlədən də bu adilliyə ziddir. Halbuki, biz İslamın hökmlərində qadının təbiətinə müxalif olmadıqca və ya qadına uyğun olmayan bir hal olmadıqca əsas götürülən şeyin bərabərlik olduğunu görürük. Biz görə bilərik ki, İslam dini qadının qızılla və bər-bəzəklə bəzənməyə olan qadınlıq ehtiyacından dolayı qadına bu haqqı verir, kişini isə bundan məhrum edir.

Həmçinin, biz Quranda və hədislərdə vacib olduğu təqdirdə kişilərdən döyüşməyi tərk edənlərə şiddətli töhmət və cəza vəd edildiyini görsək də, bunun qadınlara aid olmadığını da görürük. Buxarinin *«Səhih»* əsərində rəvayət olunur ki, möminlərin anası Aişə (radıyəllahu ənhə) demişdir:

***«Peyğəmbərdən döyüşə çıxmaq üçün icazə istədim. Peyğəmbər buyurdu: Sizin döyüşünüz həcc etməkdir.»*** (Səhihul-Buxari, 2875)

İbn Battal (rahiməhullah) demişdir:

*«Aişənin hədisi dəlalət edir ki, döyüşmək qadınlara vacib deyildir. Lakin, «sizin cihadınız həcdir» kəlamında qadınların könüllü döyüşə qatıla bilməyəcəkləri qəsd olunmur. Qəsd olunan odur ki, döyüş qadınlara (kişilərə olduğu kimi) vacib deyildir.»* (Səhihul-Buxarinin şərhi, 5/75)

Amma, qadınlarla kişilərin mütləq şəkildə istisnasız bir bərabərliyə çağıranların əgər içində olduqları hala baxarsansa, görərsən ki, onlar bütün nahiyələrdən öz iddialarına sadiq deyillər. Məsələn; (müxtəlif demokratik ölkələrdə) dövlət rəhbərliyinin kürsülərində olan qadınların sayı kişilərlə müqayisə olunmur, əksinə, az qala bəzilərində çox az sayda olur. Görəsən, bu ona görədir ki, onlar biliblər ki, kişi cinsi bu iş (siyasət) üçün daha bacarıqlıdır? Yoxsa, bu ona görədir ki, dünyaya göstərdikləri "dəyərlər" özlərinin hökmə olan şəhvətləri qarşısında tab gətirə bilmir? Yoxsa, onların "cinslərin bərabərlik hüquqları" iddialarının əsası qondarmadır?

Başqa bir tərəfdən isə əgər biz *"qadının İslamda məzlum olmasını"* iddia edənlərin kəlamını tənqidi və ümumi nöqteyi nəzərdən keçirsək onların danışıqlarına xələl

gətirən əsassız məqamları və onların bu məsələdə necə böyük təhrifə yol verdiklərini görərik. Bunlardan:

***Birincisi:*** Onlar bəzi İslama nisbət olunanların qadına zülm etdikləri (qeyri islami) adətləri İslami hökmlərlə qarışdırırlar.

Məsələn; O zaman ki, qadının üzərində söz sahibi olan qohumu qadını sevmədiyi birinə ərə getməyə məcbur edir, onlar bunu İslama nisbət edirlər. Çünki, bunu edən müsəlman şəxsdir. Doğru olan isə: bu əməli İslam dini qadağan etmişdir. Səhih bir hədisdə Peyğəmbərdən rəvayət olunur ki, o buyurdu: ***«Dul qadının fikri öyrənilmədikcə o evləndirilməz, bakirə qadının isə özündən icazə alınmadıqca o evləndirilməz. – dedilər: Ey Allahın Elçisi! Onun icazəsi necə olur? Dedi ki: susmasıyla.»***

(Səhih əl-Buxari, 5136; Səhihi Muslim, 1419)

***İkincisi:*** Onlar İslamın qadına verdiyi qədir-qiymət və hörmət nahiyələrini qeyd etmirlər.

Hansı ki, bu cür hörmət heç bir yerdə, heç bir zamanda və başqa bir qanunda yoxdur! Bu nahiyə çox böyük hörmət edilən ananın haqqında daha aydın biruzə verir. Hətta, Quran oxuyan bir kimsə görə bilər ki, həqiqətən də ananın haqqından böyük haqq yalnız Allahın və Elçisinin haqqıdır. Quranda anaya edilən yaxşılığın tövhid etiqadıyla birgə qeyd olunmasını görə bilərik.

Uca Allah buyurmuşdur: **«Rəbbin yalnız Ona ibadət etməyi və ata-ana ilə yaxşı davranmağı buyurmuşdur.»** (əl-İsra, 23) O cümlədən də, valideyinə təşəkkür etməyin Quranda Allaha şükür etməklə birgə

gəldiyini görə bilərsən: **«Mənə və valideynlərinə şükür et!»** (Loğman, 14)

Buxari «Səhih» əsərində Əbu Hureyrədən (radıyəllahu ənhu) nəql edir ki, bir kişi Allah Elçisinin (salləllahu aleyhi va səlləm) yanına gələrək deyir:

***– Ey Allahın Elçisi! İnsanlardan hansı daha çox yaxşılıq edilməyə haqlıdır?– Dedi: Anan.– Dedim: Sonra kim?– Dedi: Anan.– Dedim: Sonra kim?– Dedi: Anan.– Dedim: Sonra kim?– Dedi: Sonra atan.***

(Səhih əl-Buxari, 5971)

***Üçüncüsü:*** Onlar İslamda qadına aid olan yüngülləşdirilmiş xüsusi hökmləri qeyd etmirlər, hansı ki, aradakı cins fərqindən dolayı eyni hökmlər kişilər üçün ağırlaşdırılmışdır (şiddətli edilmişdir). Məsələn; Qadına qızıl taxmaq icazəli, kişiyə isə haramdır. Qadına ipək geyinmək icazəli, kişiyə isə haramdır. Kişiyə həyat yoldaşının maddi xərclərini davamlı şəkildə ödəmək vacibdir, qadına isə bu vacib deyildir. Kişiyə məscidə camaat namazlarına gəlmək (üstün rəyə görə) vacibdir, qadına isə bu vacib deyildir. Qeyri-müsəlman kişilərdən cizyə vergisi götürülür, qeyri-müsəlman qadınlardan isə bu vergi götürülmür.

İbnul-Qeyyim «Əhkəmu əhliz-Zimmə» kitabında demişdir:

*«Uşağa, qadına və dəliyə cizyə vergisi yoxdur. Bu dörd imamın və tərəfdarlarının yoludur.»*

İbnul-Munzir demişdir: *«Başqa alimlərdən bunun əksini dediklərini bilmirəm.»*

Əbu Muhəmməd «əl-Muğni» kitabında demişdir: *«Elm əhli arasında bu məsələdə müxalif rəy bilmirik.»*(Əhkəmu əhliz-Zimmə, ibnul-Qeyyim, 1/149; əl-Muğni, Əbu Muhəmməd ibn Qudamə, 9/338; əl-İcma, ibnul-Munzir, səh 62)

***Dördüncüsü:*** Onlar qadın haqqında Allahın qanunlarından uzaqlaşmağın nəticəsində yaranan bir çox pis hallardan qafil qalırlar.

Misal olaraq; hər il qeyri qanuni əlaqələr səbəbilə baş tutan abort əməliyyatlarında milyonlarla körpələr qətl edilmirmi? Məgər o uşaqların da yaşamaq haqqı yoxdurmu? Elə isə hansı günahlarına görə öldürülürlər?!…

## ŞƏRİƏTDƏKİ CƏZALAR BARƏDƏ ATILAN ŞÜBHƏLƏRƏ CAVAB:

Dəyərli oxucu! Bu yazımızda İslam şəriətində olan cəza metodlarına edilən bəzi etirazlara cavab vermək istərdik. Bu zəif şübhəni dəf etmək üçün cinayətlərə səbəb olan amilləri qısaca təhlil etmək, sonra isə İslam dininin cəmiyyətlərdəki cinayətlərin qarşısını almasını izah edən amilləri qeyd etmək bəs edir.

Mövzumuz – Allahın iznilə – bu istiqamətlərdə davam edəcəkdir:

*1) Cəmiyyətləri cinayətlərə aparan əsas amillər.*

*2) Bu problemlərin İslami həll yolları.*

*3) İslamda cinayətləri yüngülləşdirən hallar nələrdir?*

*4) Daşqalaq, riddət cəzaları və oğrunun əlinin kəsilməsi.*

*5) İslami cəzaların bəzi hikmətləri.*

İndi isə keçək birinci mövzuya:

### Cəmiyyətləri cinayətə aparan əsas amillər:

**Birincisi: <u>Psixoloji amillər</u>:**

– Bəzi insanlar müxtəlif səbəblərə görə bir qism insanları sevmirlər və bu nifrətlərini qan tökməklə, insan qətli ilə söndürməyə çalışırlar. Bəzən bu qism istisna insanlara müxtəlif islah metodlarının da faydası olmur. Bu, onların düşüncəsində olan nifrət düyününə görədir. Bu qism insanları ya müalicə etmək, ya da cəmiyyəti onlardan

təmizləmək labüddür. Buna onlarla qadınlara təcavüz etdikdən sonra onları öldürən azğın insanları misal çəkmək olar. Hətta, biz bu misalı verdikdən sonra oxucu özü bu qəbildən olan daha çox misallar çəkə bilər.

– Bəzi psixoloji pozğunluğu olanlar isə cinsi baxımdan digər normal fitrətli insanların yoluna müxaliflik edərək azğın nəfsini yalnız cinayət törətməklə dinləndirir, kiçik uşaqlara təcavüz edir, normal evliliklə kifayətlənmir, cəmiyyətdə əxlaqsızlığı yayır, üstəlik də bəziləri ictimai yerlərdə pozğun davranışlar edərək dörd şahid və daha çox adamın görəcəyi şəkildə bu işləri görürlər.

– Bəzi insanlar da psixoloji cəhətdən mal, pul yığmaq dərdini böyüdərək hətta, başqalarının malını hiylə ilə ələ keçirmək, quldurluq etmək, insanları qorxutmaq bahasına belə olsa, müxtəlif hiylələrə əl ataraq haqsız yerə insanların malını ələ keçirirlər.

**İslam dininin bu cür problemli insanların müalicəsi üçün göstərdiyi yollar:**

**Birincisi:** İnsan haqlarını dərk etmək və şəxsi məsuliyyətini anlamaq üçün İslami imanla tərbiyələndirmək metodu.

**İkincisi:** Allahın razılığını qazanmaq istəyərək İslam şəriətinə əməl edənləri Allah qatında olan böyük savaba rəğbətləndirməklə haqq və ədalətə, xeyirdə davamlı olmağa, hər cürə zülm və şərdən uzaq olmağa çağırmaq.

**Üçüncüsü:** Allahın Qiyamət günü həddini aşan zalımlara, əmr və qadağalarına müxalif olanlara əzab diyarında hazırladığı əzabla qorxutmaq.

**Dördüncüsü:** Şiddətli ağır cəza; O zaman ki, tərbiyə, islah, rəğbətləndirmə və qorxutma vəsilələri fayda vermir, cəmiyyət üçün təhlükəyə çevrilmiş o insanlar bu son vasitə ilə islah edilirlər. Çünki, onlar artıq cəmiyyət üçün bir təhlükəyə çevrilmişlər.

Cəmiyyətdə əminamanlığın, sabitliyin təmin edilməsi isə İslam şəriətinin əsas məqsədlərindəndir.

Bu səbəbdən də ağır cinayətlər edən insanlardan bəzilərinin haqq etdiyi təqdirdə cəmiyyət önündə (bir qrup insanların önündə) cəzasını alması bu prossesi müşahidə edənlərin və qeyrilərinin nəfsində bu çirkin cinayətlərdən uzaqlaşmağa rəğbət əmələ gətirir, bəzi çirkin əməllər barədə düşünənləri də o əməllərdən uzaqlaşdırır.

**Cəmiyyətlərdə cinayətə aparan əsas amillərdən:**

**İkincisi:** Azğın ictimai mühitlər; Hansı ki, o cəmiyyətlərin fərdlərində günah işlərə dalmaq barədə meyllər inkişaf edir.

**Üçüncüsü:** Bəzi günahkar insanlara günah etməyi asanlaşdıran zəruri hallar; hansı ki, düşünürlər ki, bu əməlləri etməklə ola bilsin ki, bəzi zəruri işləri həll olsun və ya bəzi ehtiyacları bu vasitə ilə ödəniləcəkdir.

**Dördüncüsü:** Dünyanın bəzi ölkələrində cinayət barədə olan qanunların yaxşı işləməməsi, baş verən cinayətlərə nəzarətin olmaması və s.

**Beşincisi:** Dünyanın bəzi ölkələrində qanunların yumşaq olması nəticəsində cinayətkarların fəallaşması və s.

### *İslamın bu problemə təqdim etdiyi çözüm yolu:*

İslam şəriəti hədd cəzalarını həyata keçirməmişdən əvvəl cəmiyyəti bir-birinə dayaq olan dörd qala ilə əhatələmişdir. Bu qalaların məqsədi müsəlman cəmiyyəti cinayətlərə düşməkdən qorumaqdır.

**Birinci qala:** İctimai-fərdi qanunlar qalası; hansı ki, hər fərdin maddi və mənəvi ehtiyaclarını qarşılayır, onun daxilindəki sıxıntı meydana gətirən zərurətləri Allahın yaratdığı insan fitrətinə uyğun şəkildə dəf edir. Beləcə, İslam qanunu ictimai ədaləti həyata keçirir, (zina etməyə deyil) evlənməyə rəğbətləndirir, evlənməyin vəsilələrini və səbəblərini asanlaşdırılmasını əmr edir. İslam, cəmiyyətin bütün fərdləri üçün öz bacarıq və məharətləri çərçivəsində dünyəvi yarış meydanlarında zülm və düşmənçiliyə yol vermədən şərəfli yarış fürsətlərini hazırlayır. Dolanışıq üçün olan ticarət işi kimi.

**İkinci qala:** Müsəlmanların tərbiyə qalası; bu yolla müsəlmanları elmi və nəzəri baxımdan şərəfli əxlaqlar, fəzilətli davranışlar, haqqa və məsuliyyətə ehtiram üzərinə tərbiyələndirmək, onları bu şərəfli, fəzilətli əxlaqlardan zövq almaq, bu gözəl xislətləri yaxşı hesab etmək və sevmək üzərə tərbiyələndirmək və bunun əksi olan pis əxlaqlardan qəti şəkildə uzaqlaşdırmaq.

**Üçüncü qala:** Allahın əmr və qadağalarına müxalif olanlara axirət aləmində olacaq əzabı ilə xəbərdarlıq və qorxutma qalası; hansı ki, Allah bu əmr və qadağaları qullarına nazil etmiş və bunu tətbiq etməyi əmr etmişdir.

**Dördüncü qala:** Allaha haqqıyla ibadət etmək qalası; belə müsəlman Allahın ona nəzarət etdiyini, gördüyünü düşünür və onun ruhu maddi təsirlərdən uca bir yüksəlişə nail olur,

o maddiyyat ki, insanı Allahın yolundan azğınlıq və günah girdabına salır.

Bütün bu yollara baxmayaraq, cəmiyyətlərdə istisna və azğınlıq hallar olur deyə cinayətlərin qarşısını tam almaq olmur. Lakin, bu bir həqiqətdir ki, oğrunun əlinin kəsildiyi ölkələrdə oğurluq halları daha az baş verir. Başqa cəzalar da bunun kimidir.

İslam dini cinayətlərlə nəticələnən azğınlıqların və əxlaqi pozğunluqların baş vermə səbəblərindən agah bir din olduğundan dolayı, bu hallardan daha yaxşı uzaqlaşdıran, zahiri isə şiddətli görünən qınaq olan cəzalarla gəlmişdir.

Bu cəzaları heç kim özbaşına yerinə yetirə bilməz. Bu İslami cəzaları yalnız müsəlmanların rəhbəri ölkəsində haqq-ədalət prinsipi ilə yerinə yetirir, bu zaman imkanlı və kasıb arasında fərq qoyulmur. Bununla da özbaşınalığın, xaosun qarşısı alınır, müsəlman cəmiyyəti davamlı və hüzurlu bir əminamanlıq içərisində yaşayır. Cinayətkarlıq və cinayət barədə düşünməyin dayağı beləcə kəsilir.

Bu şiddətli cəzaların hökm olaraq olmasına baxmayaraq, İslam cəmiyyətində bu hökmlər nadir hallarda yerinə yetirilir. Həmçinin, şəriətdə cəzalardan yüngülləşdirici hallar da mövcuddur ki, bu barədə də – Allahın izniylə – söhbət açacağıq.

İslamın bu əzəmətli hökmlərində bizim üçün böyük ibrət vardır ki, cinayətkar və cinayət törətmək istəyənlərin bu cəzaları gördükdə bu əməllərdən tamamilə uzaqlaşmaları halı olduğu halda, bu cəzaların tətbiq olunmadığı yerlərdə cinayətlərin geniş yayılması halı baş verir. Hansı ki, yüzdə, mində bir oğrunun əlinin kəsilməsinə ürəyi yananlar cinayətin yayılma amillərini bilmədikləri üçün bu

təfəkkürlə çoxlu sayda günahsızların ölümünə səbəb olan bir düşüncəyə razılaşmış olurlar. O zaman ki, bir insan qatilinə (qəsdli şəkildə qətl törədən şəxs) qisas hökmü tətbiq olunmur, onda insanların gözündə insan öldürmək adi bir şey olur. Elə bu ilahi hökmü «Qisas hökmünü» əhəmiyyətsiz hesab etmək bu gün cəmiyyətlərdə insan qətli hallarının başlıca yayılma səbəblərindəndir. Halbuki, bir insan başqa birini qəsdli şəkildə öldürmək istədikdə bilsə ki, əvəzində onun özünü öldürəcəklər, böyük ehtimalla qorxusundan haqlı və ya haqsız yerə gedib kimisə öldürməz. Çünki, insan biləndə ki, dövlət onu qoruyur, onun yaxınını öldürən insan layiqli cəzasını aldı, bu insandakı intiqam hislərini də boğur. İslamın uca hökmlərinin hikmətini anlamayanlar hələ bilmirlər ki, qətl halı daim qisasla bitmir. Uca İslam şəriəti ədalətli olduğundan qəsdsiz şəkildə kiminsə ölümünə səbəb olanları da nəzərə almışdır. Bu hal isbat olunduğu təqdirdə diyət cəriməsi ödənilir.

O zaman ki, islam ölkələri cinayətkarlığa qarşı olan şiddətli cəzaların tətbiqini tərk etdilər, o ölkələrdə yumşalma nəticəsində cinayət halları və ağrı-acılar artdı.

## İslamda cinayətləri yüngülləşdirən hallar nələrdir?

Cinayətləri güngülləşdirən hallar ümumi və xüsusi hallara bölünür.

Ümumi hallardan; müsəlmanlar arasında ümumi hala çevrilmiş fitnələr vaxtı iki tərəf arasında baş verən qətllərdə xüsusi hökm vardır. Çünki, burada qətlə səbəb olan amillər fərdi deyil, kütləvi amillərdir. Qurani-Kərimdə də Hucurat surəsində (Hucurat, 9) belə halda iki müsəlman tərəfi barışdırmaq əmr olunmuşdur.

İslamda cinayəti yüngülləşdirən ümumi hallardan biri də ümumi qıtlıq vaxtı baş verən oğurluq hallarıdır. Belə halda əl kəsilmə cəzası oğurluğa şiddətli ehtiyac yaranması şübhəsilə aradan qaldırılır.

**Cinayətləri yüngülləşdirən xüsusi hallara gəldikdə:**

**1)** Cinayətkarın əqli durumuna fikir verməк, əgər ağılı olmazsa (dəli olarsa), o cinayətə görə məsuliyyət daşımır.

**2)** Cinayətkarın qətli istəyərək törəməsinə fikir vermək: Əgər qətlin düşmənçilik qəbilindən baş verməsi isbat olunmazsa, bu «Qisas» hökmünün tətbiq olunmasına maneə və cinayəti yüngülləşdirən hal hesab olunar.

**3)** Özünü müdafiə edərkən qətlin baş verməsi.

**4)** Qətl törətməyə məcbur edilmək.

**5)** Zina edənin subay olması və s.

Bununla yanaşı cinayəti yüngülləşdirən başqa hallar da vardır, lakin, bu qədərilə kifayətlənirik.

## Daşqalaq, riddət cəzaları və oğrunun əlinin kəsilməsi:

Şəriət cəzaları barəsində olan mübahisələrin çoxusu daşqalaq cəzası və mürtəddin (dinindən dönən şəxsin) cəzası ilə bağlıdır.

**1) Daşqalaq cəzası:** Müsəlmanlardan bəziləri İslamda evli (ailəli) zinakarın daşqalaq cəzasına düçar edilməsini inkar edir və bu cəzanın vəhşilik olduğunu iddia edirlər. Quranda bunun qeyd olunmadığını iddia edərək bunu inkar edirlər. Xüsusən də Nur surəsində daşqalaq deyil şallaq cəzası

varid olmuşdur. Halbuki, onlar unudurlar ki, şallaq cəzası evli zinakara aid deyil, subay zinakara aiddir. Həmçinin, onlar bunun bəzi Quran ayələrinə müxalif olduğunu iddia edirlər.

Vəhşiliyə gəldikdə; rəcm (daşqalaq) bir cəzadır, “qarşılıq” deyil. Cəzaların əsas qayəsindən biri də qınaqdır. Allah Qurani-Kərimdə Allaha və Elçisinə qarşı müharibə edən və yer üzündə fəsad törətməyə səy göstərən (quldurluq edən və s) kimsələrə qarşı şiddətli qınaq olan cəza əmr etmişdir, hansı ki, bu əl və ayaqların çarpaz şəkildə kəsilməsidir. Lakin, bu cəzanı daşqalaq hökmündə vəhşilik olduğunu iddia edən bir çoxları qəbul edirlər.

Cəzaların təqdir olunması Allahın Elminə və Hikmətinə tabedir. Biz müsəlmanlar bunu özümüzdən icad etməmişik. Bu, yalnız Peyğəmbərdən gələn səhih, sabit xəbərlərin təsdiqlənməsilədir.

Əslində isə, Allaha inanan bir kimsə belə deməliydi: Evli bir kimsənin zina etməsi necə də çirkindir! Çünki, Allah bunu edənə şiddətli daşqalaq cəzası təqdir etmişdir. Bu isə bu əməlin necə çirkin bir günah olmasına dəlalət edir.

Amma, daşqalaq cəzasının Quranda gəlməməsini əsas gətirməklə bu cəzanı inkar etmək Peyğəmbərin (Allahın Ona salavatı və salamı olsun) və Onun yoluna tabe olanların yoluna uyğun deyildir. Peyğəmbərin qəti Sünnəsində varid olmuşdur ki, o öz zamanında evli (ailəli) zinakarları daşqalaq etmişdir. Bu rəvayətlər mötəbər yollarla, mütəvatir şəkildə nəql olunmuşdur ki, hədis elminin qaydalarını və bu rəvayətlərin mötəbərliyini bilən kimsənin bunu inkar etməsi mümkün deyildir.

Hətta, Əhli Sünnə bu daşqalaq cəzası üzərində icma etmişdir.

İbn Abdul-Bərr (rahiməhullah) demişdir:

*«Amma, xəvaric və mötəzilələrdən olan bidət əhli istər subay, istər də evli zinakarlara daşqalaq cəzasının tətbiqini icazəli görmürlər. Onlara görə zinakarların cəzası şallaqlanmadır. Subay və evli onlara görə eynidir.*

*Bu barədə olan rəyləri Peyğəmbərin yoluna və möminlərin yoluna (sünnəsinə) müxalifdir. Allahın Peyğəmbəri (salləllahu aleyhi va səlləm) və Ondan sonra da xəlifələri daşqalaq cəzasını tətbiq etmişlər. Dünyadakı rəy və hədis əhlindən olan müsəlman alimləri bunun üzərində ittifaq etmişlər.»* (ət-Təmhid limə fil-Muvatta minəl-Məani vəl-Əsəəniyd, 23/121)

İbn Qudamə əl-Məqdisi (rahiməhullah) demişdir: *«Evli (həyat yoldaşı olan) zinakar kimsənin daşqalaq olunmasının vacib olması elm əhlinin ümumunun rəyidir. Bu rəyə xəvariclərdən başqa müxalif olan bilmirik.»*(əl-Muğni, 12/309. T. Turki.)

İbn Battal demişdir: *«Peyğəmbərdən sabit olmuşdur ki, o (zinakarın) daşqalaq olunmasını əmr etmiş və (zinakar) daşqalaq edilmişdir. Məgər Əlinin (radıyəllahu ənhu) sözünü görmürsənmi?* ***«Biz Peyğəmbərin yoluna uyğun daşqalaq etdik, Ömər ibnil-Xəttab da daşqalaq etmişdir.»*** *Deməli, daşqalaq Peyğəmbərin sünnəti, raşidi xəlifələrin feili və böyük alimlərin ittifaqıyla sabitdir. Onlardan: Malik ibn Ənəs Mədinə əhlindən, Şam əhlindən Əvzəi, İraq əhlinin camaatından əs-Səuri, əş-Şafi, Əhməd, İshaq və Əbus-Sovru (misal çəkmək olar). Xəvaric və*

*mötəzilələr "daşqalaq Quranda yoxdur" deyib daşqalağı inkar etdilər.»*(Şərhu ibn Bəttal, 8/431)

Daşqalaq ayəsi Quranda mövcud olan, yazısı nəsx olunub hökmü qalan ayələrdəndir. Bu səhih rəvayətlərlə də sabitdir:

Buxari və Muslim ibn Abbasdan rəvayət edir ki: Ömər ibn əl-Xəttab minbərə çıxdı və insanlara cümə xütbəsi verdi. Onun – Allah ondan razı olsun – dediklərindən bunlar da var idi: ***«Həqiqətən də Allah Məhəmmədi – Allahın Ona salavatı və salamı olsun – haqq ilə göndərmişdir. Allah Ona Quranı nazil etmişdir. Allahın nazil etdiyindən «daşqalaq» ayəsi də vardı. Biz bu ayəni oxumuş, anlamış və dərk etmişdik. Peyğəmbər daşqalaq etmiş, biz də ondan sonra daşqalaq etmişik. Qorxuram ki, uzun zaman keçdikdən sonra kimsə çıxıb deyər ki: Vallahi biz daşqalaq ayəsini Quranda tapmırıq. Beləcə, Allahın endirdiyi fərzi tərk etməklə yollarını azarlar. Daşqalaq ayəsi evli olanlardan istər kişi, istər qadın olsun, – (zina) isbat olunarsa, (qadın zinadan) hamilə qalarsa və ya (zinakar əməlini) etiraf edərsə – Qurani Kərimdə zina edənlərin üzərinə haqdır.»*** (Buxari, 6830 və Muslim, 1691)

Bu ayə barədə və ayənin təsdiqi barədə yalnız Ömər ibnil-Xəttabın (Allah ondan razı olsun) rəvayəti deyil, başqa səhabələrdən də nəqllər vardır. Səhabələrdən bir toplumdan da bu barədə rəvayətlər var.

Əli ibn Əbu Talibin (radıyəllahu ənhu) də bu barədə sözünü İmam Əhməd rəvayət etmişdir.

İbn Macəh də Aişədən (radıyəllahu ənhu) bu ayəni təsdiqləməsini rəvayət etmişdir. (Bax, İbn Məcəh, 1944)

Hafiz ibn Həcər də «Fəthul-Bari»də Ubey ibn Kəb'dən və Zeyd ibn Sabitdən yaxşı isnadla daşqalaq ayəsini təsdiq etmələrini (Allah onlardan razı olsun) nəql etmişdir.

Usulul-Fiqh alimləri daşqalaq ayəsindən «Nəsx» babında danışmış və bu ayənin ləfzi silinib hökmü qalan ayələrdən olduğunu qeyd etmişlər. Ona görə də Quranda ayə kimi yazılmayıb…sonra isə bunun səbəbini izah edərkən deyir: *«Çünki, bu ayənin oxunuşu (tilavəti) nəsx olunduqda (hökmü qalsa belə) Qurandan sayılmamış və Qurana yazılması icazəli olmamışdı.»* (bax: Əl-Muntəqi, Şərhul-Muvatta, 1560 nömrəli hədis)

Onu da qeyd edək ki, bu cəza zinakarın öz günahını etiraf etdiyi təqdirdə həyata keçirilir. Baxmayaraq ki, İslam dini günahları örtməyə çağırır. Yəni, Allahın bir insanın günahını örtdüyü təqdirdə kiminsə günahına şahidlik edən dörd nəfər tapılmırsa, o cəza tətbiq edilmir. Bu da İslam dininin bəndələrə rəhmət olmasındandır. Adətən zinaya bir iki şahid tapılır. Cəmiyyətlərdə zina geniş yayılsa da, dörd şahidin tapılması çox nadir hallarda olur. Buna baxmayaraq, İslam düşmənləri nadir hallarda günahı tam isbat olunan şəxslərə tətbiq olunan bu cəzanı elə şişirdir və elə **"ürəyiyanan"** görünürlər ki, heç müsəlman ölkələrində qeyri-müsəlmanların atdığı raket zərbələrində ölən minlərlə günahsız uşaqlarçün və aciz insanlarçün belə narahat olmurlar.

Dedik ki, günah örtülərsə, gizli qalarsa, bu cəza tətbiq olunmur. Lakin, insan həmin günahdan peşman olaraq tövbə etməli, bir daha bu əmələ qayıtmamalıdır. Rəvayətlərdən birində də varib olub ki, Peyğəmbərin yanına bir nəfər gəlir və şiddətlə israr edir ki, o zina etdiyi üçün ona daşqalaq cəzası verilsin. Peyğəmbər onun günahını örtmək üçün müxtəlif üzürlər axtarsa da, suallar

versə də, o şəxs məhz israr etdikdən sonra onun daşqalaq edilməsini əmr edir.

Bu cəza yalnız evli zinakarlara aiddir. Subay zinakarlara isə Nur surəsi 2-ci ayəyə əsasən 100 şallaq vurulur. (Cumhur alimləri mötəbər hədislərə əsasən zinakarın əlavə bir il də qaldığı yerdən sürgün ediləcəyini demişlər.) Bu isə onların zina ehtimalının daha çox olmasına görə təyin edilmişdir ki, bu da şəriətin adilliyindəndir. Evli kimsə Allahın rəhmətiylə zinadan qorunduğu halda zina yoluna baş vurmasıyla Allahın qəzəbini qazanır.

Həmçinin, daşqalaq cəzası başqa insanları bu çirkin əməldən çəkindirir, üstəlik də onun günahının kəffarəsi (təmizlənməsi) olur. Bu heç də demək deyil ki, daşqalaq olunan bir müsəlman cəhənnəmə düşür. Bu, sadəcə onun təmizlənməsi üçün bu dünyada verilən cəzadır ki, artıq axirət dünyasında onun bu günaha görə çəkəcəyi əzab qalmır.

## İkincisi: Mürtədin (dindən çıxanın) cəzası:

Bu cəzaya edilən ən əsas etiraz bu cəzanın **«Dində məcburiyyət yoxdur»** (əl-Bəqara, 256) ayəsinə zidd olması iddiasıdır. Həqiqətdə isə bu ayə heç bir müsəlman aliminə gizli qalmamışdı. O alimlər ki, riddət cəzasının dindən çıxanlara aid edilməsində icma etmişlər. İbn Qudamə əl-Məqdisi demişdir:

**«Alimlər mürtədlərin (dindən çıxanların) qətl edilməsi barədə icma etmişlər.»** (əl-Muğni, 12/264)

Burada alimlərin bu ayəyə mövqeləri barədə üç ehtimalımız ortaya çıxır.

*– Ya onların heç biri bu ayənin mənasını anlamayıblar.– Ya onlar anlayıblar, biliblər, lakin, gizlədiblər və əksini bildiriblər.– Ya da onlar ayənin təfsirindən mürtədin qətli söhbətinə ziddiyyət təşkil etməyən mənanı bilmişlər.*

Heç bir şəkk yoxdur ki, üçüncü ehtimal doğrudur. Əgər bu hər müsəlmanın razı qalacağı ehtimaldırsa, bəs onda gör İslam alimləri necə düşünməliydilər?!

Alimlər bu məsələdən qafil olmamışlar. Təfsirçilərin imamı ibn Cərir ət-Təbəri (rahiməhullah) demişdir:

*«Müsəlmanların hamısı Peyğəmbərlərindən nəql etmişlər ki, O bir qövmü – Ərəb müşriklərindən olan bütpərəstləri, haqq din olan dindən küfrə çıxanları və bunun kimilərini – İslamı qəbul etməyə məcbur etmişdir və onlardan yalnız İslamı qəbul etmələrini tələb etmişdir. Həm də hökm vermişdi ki, İslamı qəbul etməsələr öldürüləcəklər. Həmçinin, (Peyğəmbər) başqalarını İslamı məcburən qəbul etdirməyi tərk etmişdi ki, bu da cizyə (vergisi) verməyi qəbul etmələrilə və batil dinlərində qalmalarına icazə verməsiylə olmuşdu. Bunlar kitab əhli (xristian və yəhudilər və s) və onlara bənzəyənlərdirlər. Bununla da (Peyğəmbər) «Dində məcburiyyət yoxdur» (əl-Bəqərə, 256) ayəsinin mənasını bəyan etmişdir. Yəni: İslam hökmünə razı olaraq cizyə (canbahası) vergisi ödəməyi qəbul edənlərin heç birinə dini qəbul etdirmək üçün məcburiyyət yoxdur.»*(Təbərinin təfsiri, 4/554; Aləmil-Kutub nəşr evi)

İbn Kəsir (rahiməhullah) də təfsirində demişdir:

*«Alimlərdən bir çoxu bunun (cizyə vergisinin) kitab əhlinə (xristian və yəhudilərə) aid olduğunu demişlər.»*(Təfsirul-Quranil-Azim, ibn Kəsir, 1/687, Taybə nəşr evi)

Bu hökmün quranda olmadığını deyənlərə isə deyirik ki, bu hökmün Quranda olmaması şərt deyildir. Çünki, bu cəza hökmü barədə bir çox mötəbər hədislər də vardır. Peyğəmbərin (Allahın Ona salavatı və salamı olsun) mötəbər hədisi İslamda vəhyə tabe olan məsdər hesab olunur. Çünki, Peyğəmbərin sözü barədə Allah buyurmuşdur: **«O, öz istəyi ilə danışmır. Bu, ona təlqin edilən bir vəhydir.»** (ən-Nəcm, 3-4)

**«Peyğəmbər sizə nə verirsə, onu götürün, nəyi də qadağan edirsə, ondan çəkinin.»** (əl-Həşr, 7)

– Həmçinin, bu cəza hökmünün sabit olması barədə İslam alimlərinin icması da vardır. İslam alimlərinin icması da hüccət sayılır.

Onu da qeyd edək ki, mürtədə tövbə etmək fürsəti verilir. O, tövbə edər, küfrdən qayıdarsa, canını qurtarmış olar.

– Mürtədə müsəlman alimlərilə danışıb şübhələrini və fikirlərini ərz etməsi üçün üç ay vaxt verilir. Yəni, mürtəd oldu deyərək dərhal qətl edilmir. Ona rəhmli davranılır və tövbə etməsinə fürsət verilir.

– Mürtəd hökmünü açıq-aydın dəlil olduqda yalnız hakim və ya onun naibi verə bilər.

– İslam dini etiqad azadlığını qoruduğu kimi əsli (kökü) küfr üzərində olan şəxsə (xristiana, yəhudiyə və s. ) deyil, əvvəl iman gətirən olub sonradan dindən çıxana bu cəzanı tətbiq edir.

– Mürtədin müsəlman cəmiyyətində mövcud olmasının da bir çox zərərləri vardır.

## Üçüncüsü: Oğrunun əlinin kəsilməsi:

Oğurluq törədənin əllərinin kəsilməsi barəsində bunun insanlığa zidd olduğunu deyənlər özləri də bilmədən öz sözlərini təkzib edirlər. Məsələn; belə ittiham edənlərdən birinin içində bütün dəyərli məlumatları olan kompyuter cihazı və ya mühüm nömrələr, məlumatlar olan telefonu və ya bütün sənədləri və pulları olan pul kisəsi oğurlanarsa, onların danışıqları, lənət və qarğışları, əl kəsməkdən o yana keçən nifrətlərini ortaya çıxan gördükdə bir daha bu oğurluq cəzasının necə hikmətli bir cəza olduğunu anlaya bilərsiniz. Həmin anda o insanlardan soruşsanız ki, sizə bu böyük zərəri vuran oğrunun əllərinin biləkdən kəsilməsinə razısınızmı? – O dəhşətli stresdəki insanların cavabını indi siz təsəvvür edin. Halbuki, İslam dini əfv etməyə də rəğbətləndirmişdir. Əl kəsmə halları nadir hallarda tətbiq edilsə də, bu tətbiq kütlənin qarşısında, ələxsus da ehtiyacdan dolayı deyil, adətən oğurluğa adət etmiş, nəsihətin faydası olmayan kimsələrə edilir.

Çünki, oğurluq etmək insana həm maddi, həm də mənəvi zərər vurmaqdır. Alimlərdən Əli ibn Nasir əl-Fəqihini «Şərh əs-Sunnə» kitabını şərh edərkən belə deyərkən eşitdim: *«Bu əl kəsmə cəzası yüzdə bir, mində bir tətbiq olunan cəza olsa da İslam düşmənləri bu cəzanın hikmətini anlamırlar.»*

Oğurluğa görə türmədə cəza çəkən insan türmədən çıxandan sonra oğurluq etdiyi əllərlə yenə oğurluq edə bilir. Lakin, Allah oğurluğa adət etmiş əlləri kəsməyi əmr etməklə başqa oğruların qəlbinə xof salaraq buyurur:

**«Etdikləri əməlin əvəzində Allahın cəzası olaraq oğru kişinin və oğru qadının əllərini kəsin! Allah Qüdrətlidir, Müdrikdir.»** (əl-Maidə, 38)

İslam şəriəti oğrunun əlinin kəsilməsi üçün cəza tətbiq olunmamışdan öncə dəqiqlik olsun deyə şiddətli, çətin şərtlər qoymuşdur.

*– Oğurluq edən üç gümüş dirhəm məbləğindən az (və ya dörddə bir qızıl dinar, bizim indiki pulla təxminən 80 manat edir) bir şey oğurlayarsa, onun əli kəsilmir.*

*– Həmçinin, oğrunun əlinin kəsilməsi üçün başqa şərtlər də mövcud olmalıdır. Bunlardan:*

*– Oğurluq sübut edilməlidir. Ya iki adil şahid buna şahidlik etməli, ya da oğru özü iki dəfə oğurluğunu etiraf etməlidir.*

*– Həmçinin, oğurluq qorunulan bir yerdə və gizli şəkildə baş verməlidir.*

*– Oğurluq mal dəyərli mal olmalıdır, donuz əti, içki (araq) və musiqi alətləri kimi şeylər deyil.*

*– Həmçinin, malı oğurlanan kimsə malını tələb etməzsə, bu cəza tətbiq olunmur.*

Bu şərtlər barədə İslam alimləri danışmışlar. Əgər bu şərtlər varsa, oğurluq edənin əlinin kəsilməsi hakimə və ya onun köməkçisinə vacib olur.

İslamda oğrunun cəzası qeyri İslami cəzalara nisbətdə cinayətin qarşısını almaqda və bu qəbildən olan cinayətkarları azaltmaqda praktiki cəhətdən də ən əlverişlidir. Artıq dünyada bilinən bir həqiqətdir ki, ən az oğurluq halları məhz oğrulara qarşı bu cəzanın tətbiq edildiyi İslam ölkələrində baş verir.

Mühüm bir məsələni də qeyd edək ki, oğrunun əlinin kəsilməsi cəzası ortada şübhə varsa, tətbiq edilmir. Bu da İslamda tətbiq edilən «Şübhələrin mövcudluğu hədd cəzalarını uzaqlaşdırır.» qaydasına əsasəndir. Artıq qeyd etmişdik ki, bu cəzaların tətbiqini çətinləşdirmək üçün şəriətdə dəqiq qaydalar, şərtlər qoyulmuşdur. Çünki, bu cəzalar insanlığa və cəmiyyətə qarşı deyil, məhz cinayətkarlara qarşı qoyulmuşdur.

Təəccüb doğuran ziddiyyətlərdən biri də odur ki, İslamın cinayətlərdən daha çox uzaqlaşdırma təsiri olan hikmətli və cinayətin növünə uyğun olan cəza tədbirlərini tənqid edən hüquq adamları, psixoloqlar, ictimai şəxslər və s. adamlar bir il ərzində milyonlarla əllərin arasından kəsilən bir oğru əlinə görə və ya iki-üç oğru əlinə görə (hansı ki, bu cəza başqa oğrulara ibrət olur) emosional və şəfqət dolu çıxışlar edirlər, heç o şəxslərin nədənsə günahsız yerə öldürülən minlərlə insanlara insanlıq şəfqətləri tutmur. Amma, öz həyat yoldaşı ola-ola başqa qadınlarla zina edib yoldaşına xəyanət edən, özü də bu zinanı dörddən çox şahidin qarşısında aşkaranə şəkildə edən şəxsə görə yenə onların insanlıq şəfqətləri və mərhəmət hisləri baş qaldırır. Halbuki, bu da nadir hallarda baş verən cəzadır. Çünki, zinaya dörd şahid tapmaq olduqca çətindir. Bunun kimi digər cəzaların tətbiqi də şəriətdə çətinləşdirilmişdir.

## İslami cəzaların bəzi hikmətləri:

Hörmətli oxucu! Artıq yazı əsnasında bəzi hikmətlərə toxunduq. Burada isə bəzi ümumi hikmətləri qeyd edəcəyik.

**1)** İslam dini insanların islahı üçün olan müxtəlif bir-birini tamamlayan islahatların məcmusudur. Bu məcmuda olan şəriət cəzaları bu islahatların, islah metodlarının sadəcə bir

hissəsidir və bu cəzalar İslami baxışa aid olan islah metodları arasında üstünlük təşkil etmir.

**2)** Şəriətin təsdiqlədiyi cəzalar insanlıq üçün bir rəhmətdir. Bu cəzalar özbaşınalıqdan uzaq şəkildə, yalnız rəsmi rəkildə yerinə yetirilə bilər, İslam dini bu cəzaların tətbiqi üçün çətin şərtlər ortaya qoymuşdur.

**3)** Cəmiyyətlərdə bu şəri cəzaların tətbiq edilməməsi böyük fəsadları cəlb edir. Bu fəsadlardan özbaşınalığın, xaosun yayılmasından dolayı sülh və əminamanlığın pozulmasını, insanların qorxu içində yaşamasını qeyd etmək olar. Halbuki, bu cəzalar insanları deyil, cinayətkarları (insanların yolunu kəsən quldurları, xalqın malını oğurlayan oğruları, uşaq və qadınlara təcavüz edən manyakları, zinakarları, başqalarına çirkin iftira, böhtan atanları və s.) qorxu içində saxlayır.

**4)** İslam qanununda şəriət cəzalarının tətbiqi heç də insan hüquqlarının aşağılanması və insan hörmətinə toxunulması deyildir. Uca Allah insanı şərəfli yaratmış və buyurmuşdur: **«Biz Adəm oğullarını hörmətli etdik» və ayənin sonunda buyurur: «onları yaratdıqlarımızın çoxundan xeyli üstün etdik.»** (əl-İsra, 70)

**5)** İslam şəriətindəki cəzaların məqsədləri vardır, bu məqsədlərin iki ən mühüm olanı: İnsani davranışların yaxşılaşdırılması və cəmiyyəti cinayətlərdən qorumaq.

Ona görə də insan bu cəzaların cinayətlərin növünə, azğınlıq və həddi aşmaq dərəcəsinə görə necə dəyişdiyini görürdükcə bir daha bu şəri cəzaların ilahi əmrlər olduğundan yəqin olur. Bu məqamda bizi təəccübləndirən isə İslam düşmənləri deyil, çünki, onlar düşmən olduqları üçün düşmənlik edirlər. Bizi təəccübləndirən bu şübhələrə

aldanan müsəlman övladlarıdır ki, dinlərindən bu qədər qafil olduqları üçün onlara təəcüblənir və onları qınayırıq. Allahdan hər birimizə hidayət və sabitlik diləyirəm!

**İstifadə edilmiş ədəbiyyat:**


1) Səhih əl-Buxari. Məhəmməd ibn İsmail əl-Buxari.

2) Səhihu Muslim, Muslim ibn əl-Həccəc ən-Niysəburi.

3) Sunəni ibn Macəh. Əbu Abdullah Muhəmməd əl-Qəzvini.

4) ət-Təmhid limə fil-Muvatta minəl-Məani vəl-Əsəniyd. Yusuf ibn Abdullah əl-Əndəlusi.

5) əl-Muntəqa Şərhul-Muvatta. Əbul-Valid Bəəci.

6) Təfsirul-Quranil-Azim, ibn Kəsir. Beyrut nəşri.

7) Cəəmiul-Bəyən an tə’vili əəy əl-Qurən, ibn Cərir ət-Tabəri.

8) əl-Muğni, İbn Qudəmə.

9) Səhih əl-Buxarinin şərhi, ibn Battal.

10) Şərh əs-Sunnə, əl-Bərbəhəri. Mədinə.

11) Movsuatul-Bəyən (Bəyan ensiklopediyası) Misir nəşri.

12) Əcnihətul-Məkr əs-Sələsə, əl-Meydani, Ciddə nəşri.

13) Əs-Səbiğat, Əhməd Yusuf Seyyid. Mədinə nəşri.

# QURANDA HƏR ŞEY YAZILIBMI?

Dəyərli oxucu! Günümüzdə bəzi şəriət və İslam inkarçıları müxtəlif şübhələr yaymaqla məşğuldurlar. Onların şübhələrinin əsas qayələrindən biri də müsəlmanların ilahi elm məsdərlərini etibarsızlaşdırmaq və müsəlmanları dinləri barədə şəkk-şübhədə saxlamaqdır. Bildiyimiz kimi Quran İslam dininin birinci əsas mənbəsidir. Quran barədə gətirilən şübhələrdən biri də «Quranda hər şeyin yazıldığı deyilir, lakin, quranda filan, filan şeylərdən heç danışılmayıb» demələridir. Birbaşa keçirik mövzumuza:

**Birinci məsələ:** Bu iki ayənin mənası Qurana aiddirmi?
«Biz Kitabı sənə hər şey üçün bir izah, müsəlmanlara da doğru yol göstəricisi, mərhəmət və müjdə olaraq nazil etdik.» (Nəhl, 89)

Bu ayənin mənası Qurana aiddir.

«Biz Kitabda heç bir şeyi nəzərdən qaçırmadıq. » (əl-Ənam, 38)

Bu ayənin mənası isə Lövhi-Məhfuza aiddir.

Lakin, şəriət inkarçıları və bəzi İslamı sevməyənlər bu ayələrin mənasını insanlara təhrif edilmiş şəkildə göstərməyə çalışırlar. Göründüyü kimi hər şeyin yazıldığı kitab Quran deyil, lövhi məhfuzdur. Bəs Quranda hər şey necə izah edilmişdir? Bu məsələyə aşağıda toxunacağıq Allahın izniylə. Lakin gəlin əvvəlcə Lövhi-məhfuzun mənasını qısa şəkildə izah edək.

**İkinci məsələ:** Lövhi məhfuz nədir?
Lövhi Məhfuz: Elə bir kitabdır ki, Uca Allah o kitabda məxluqların yaranmadan öncə bütün qədərini yazmışdır. Uca Allah Quranda buyurmuşdur: «Qeybin açarları Onun

yanındadır, Onları yalnız O bilir. O, quruda və dənizdə nələr olduğunu bilir. Onun xəbəri olmadan yerə düşən bir yarpaq belə yoxdur. Yerin qaranlıqlarında elə bir toxum, elə bir yaş və elə bir quru şey yoxdur ki, açıq-aydın Yazıda (Lövhi-Məhfuzda) olmasın.» (əl-Ənam, 59)

Başqa ayədə Uca Allah buyurur: «Bəli, bu şanlı Qurandır. O, mühafizə edilən lövhədədir.(yəni, Quran Lövhi məhfuzda da yazılmışdır.)» (əl-Buruc, 21-22)

Başqa ayədə Uca Allah buyurur: «Yer üzündə elə bir canlı yoxdur ki, onun ruzisini Allah verməsin. Allah onların qərar tutduqları yeri də, qorunub saxlanıldıqları yeri də bilir. Bunların hamısı açıq-aydın Yazıdadır (Lövhi-məhfuzdadır).» (Hud, 6)

Deməli, hər şeyin yazıldığı kitab deyəndə birinci olaraq «Lövhi Məhfuz» kitabı ağıla gəlməlidir. Bu məna, yəni hər şey haqqında elmin yazılı olduğu kitabın Lövhi Məhfuzda olması Qurani-Kərimdə bir çox ayələrdə təsdiqlənir. (Əlavə ayələr üçün bax, Fatir, 11/əl-Həcc, 70/ ən-Nəml, 75./əl-Hədid 22./Taha, 51-52/)

Bu ayələrdə də hər şeydən məlumat yazılan, hətta, baş verməddən öncə bütün hadisələrin yazıldığı kitabdan bəhs edilir ki, bu kitab Quran deyil, səmada olan Lövhi-Məhfuzdur. Qurana gəldikdə isə yuxarıda ən birinci qeyd etdiyimiz ən-Nəhl surəsi 89-cu ayədə Quranda hər şeyin yazıldığı deyilmir, əksinə, «Quranın hər şey üçün bir izah olduğu» deyilir.

**Üçüncü məsələ:** Elə isə gəlin görək Quranı təfsir edən bəzi alimlər bu ayə barədə (yəni, ən-Nəhl, 89-cu ayə, artıq əvvəldə qeyd olundu) nə demişlər?!

İbn Cərir ət-Tabəri (Allah ona rəhmət etsin) bu ayənin təfsirində demişdir: «Ey Məhəmməd, biz sənə bu Quranda insanların halal və haramdan, savab və cəzadan bilməsi gərəkən hər şeyi izah etdik.» (ət-Tabəri, Cəəmiul-Bəyən, 14/333)

Təfsirul-Cəlaleyndə deyilir: «(Quran) İnsanların şəriətdən məsələlərindən ehtiyacları olan hər şeyə (bəyandır). (Təfsirul-Cəlaleyn, səh 358)

İbn Rəcəb (Allah ona rəhmət etsin) demişdir: Allah Quranda bu ümmətin halal və haramdan ehtiyacı olan hər şeydən xəbər vermişdir.» (Təfsiru ibn Racəb əl-Hənbəli, 1/615)

Peyğəmbərin səhabəsi Əbu Zərr (Allah ondan razı olsun) demişdir:
«Allah Elçisi (Allahın Ona salavatı və salamı olsun) bizi tərk etdiyi zaman (vəfat etdiyi zaman) hətta havada qanadlarını tərpədən quşdan belə bir elm (məlumat) vermişdi.»
Sonra (Əbu Zərr) dedi: Allah Elçisi (Allahın Ona salavatı bə salamı olsun) buyurdu: «Cənnətə yaxınlaşdıran və cəhənnəmdən uzaqlaşdıran elə bir şey yoxdur ki, sizə bəyan edilməsin.» (Silsilətus-Sahiha, 1803)

İbn Kəsir isə (Allah ona rəhmət etsin) bu ayənin təfsirində alimlərin sözlərini bir araya cəm edərək İbn Məsud və Mücahidin sözlərini qeyd etdikdən sonra deyir:
«Quran hər bir elmin, keçmiş xəbərlərin və gələcək elmlərin faydalı olanlarından, hər bir halal və haramdan, insanların dinləri, dünyaları, yaşayışları və axirətləri barəsində ehtiyacları olan hər şeydən xəbır vermişdir.» (İbn Kəsir, Təfsirul-Quranil-Azim, 4/510)

Ona görə də bəzi alimlər demişlər ki, Qurani-Kərim bütün elmlərə işarə etmişdir. Lakin, Qurani-Kərim nə bütün elmlərin qaydalarının yazıldığı kitab deyil, nə də Quranın Allahdan nazil olmasının məqsədi məqsədi heç bu deyildir. Onda əvvəla gərək Qurani-Kərim cildlərlə yazılmış və insanların oxuyub başa çıxa bilməyəcəyi bir kitab olaydı. Hansı ki, bu Quranın göndərilmə qayəsinə ziddir. Allah Qurani-Kərimin elə lap əvvəlində buyurmuşdur:
«Bu, qətiyyən şübhə doğurmayan, müttəqilərə doğru yol göstərən bir Kitabdır.» (əl-Bəqərə, 2)

Elə bu müttəqilərə doğru yol göstərən kitabda halal, haram, savab, cəza, dünya və axirət üçün insanların ehtiyacı olan hər şeydən xəbər verilmiş və ya işarə edilmişdir.
Məlum olduğu kimi hər bir kitabın müqəddiməsi o kitabın nə barədə yazıldığından və məqsədindən xəbər verir. Bu kitabın müqəddiməsində isə Quranın Allaha inanıb ondan qorxanlar üçün doğru yol göstərən bir kitab olduğu deyilir. Deməli, Allaha inanan bir kimsənin bilməsi gərəkən ümumi məlumatlar Quranda vardır. Bu məlumatların təfsilatı və ya xırdalıqları isə Peyğəmbərin (Allahın Ona salavatı və salamı olsun) hədislərində gəlmişdir. Çünki, Quranda namazı necə qılacağımızın təfsilatı yazılmamışdır. Lakin, namaz qılın deyə əmr olunmuşdur.

Bunun kimi zəkat verin deyə əmr olunsa da, zəkatı necə verməyin gərəkdiyi barədə təfsilat (ətraflı məlumat) hədislərdə gəlmişdir.

Deməli, Quran ümumi hökmləri, haramı və halalı, dünya və axirət üçün insana faydalı olan ümumi məsələlərin elmindən bəhs etmişdir. Sonra isə yenə Quranın tən ortasındakı İsra surəsində belə deyilir: «Həqiqətən, bu Quran insanları ən doğru yola yönəldir» (əl-İsra, 9) Deməli, insanların doğru yola yönəlməsi üçün Quranda ümumi lazım olan məlumatlar vardır, təfsilat məlumatları isə

Peyğəmbərin hədislərindədir. Quranı qəbul edən, hədisləri də qəbul etməlidir. Çünki, hədislər Quranın ümumi mənasının xüsusi izahıdır.

Quranın axırlarında isə belə deyilir: «Həqiqətən, bu, haqqı batildən ayırd edən bir kəlamdır.» (ət-Tariq, 13)
Bütün bu mənalar quranın qayəsinə uyğundur. Quran həm doğru yolu göstərir, həm xeyirlə şəri, haqla batili ayırd edir, bəm də möminlərə mərhəmət və müjdədir.(bax, ən-Nəhl surəsi 89, ən əvvəldə qeyd etdiyimiz ayə)

**Dördüncü məsələ:** İnsanlar niyə lövhi məhfuzla Quranı qarışdırırlar?

Bəli, Quran ayələrinin təfsirinə, təfsir elminə fikir verməməkdən qaynaqlanır. Lakin, bura qədər keçənlərdən aydın oldu ki, Quran ayrıdır, Lövhi Məhfuz ayrıdır. Gəlmiş, keçmiş və gəlıcək hər şeyin yazıldığı kitab Lövhi Məhfuzdur. İnsanları doğru yola yönəltmək, insanların dünya və axirəti üçün ehtiyac duyulan ən mühüm ümumi məlumatlar isə Quranda vardır.

**Beşinci məsələ: Bir şübhəyə cavab:**
Əgər hər şey lövhi- məhfuzda yazılıbsa, onda əməl etməyə nə ehtiyac var?
Cavab: Bu sualı bu gün bəzi insanlar verdiyi halda, bilmək lazımdır ki, bu sualı ilk dəfə bu dinin müəlliminə onun səhabələri vermişdilər.
Əlidən (Allah ondan razı olsun) rəvayət olunur ki, Peyğəmbər bir cənazədə idi. Əlinə yerdən bir şey alıb onunla (torpaq üzərində) cizgi (xətt) çəkərək dedi: «Sizdən elə biri yoxdur ki, onun Cəhənnəmdəki və Cənnətdəki yeri bilinməsin.»

Dedilər: Ey Allahın Elçisi! O zaman bizə yazılanla kifayətlənib (yaxşı) əməl etməyi tərk edəkmi?
Dedi: Siz əməl edin. Çünki, hər kəs nə üçün yaranıbsa, o (yol) onun üçün asanlaşar. Hər kim səadət əhlindən olarsa, ona səadət əhlinin yolu asanlaşar. Hər kim də bədbəxtlik əhlindəndirsə, ona həmin (yol) asanlaşar. Sonra isə bu ayəni oxudu: Kim haqqını verir və Allahdan qorxursa, və ən gözəl olanı (lə ilahə illəllahı) təsdiq edirsə, Biz onu ən asan olana nail edəcəyik.» (əl-Leyl, 5-7) Buxari, 4949 və 2647)

Deməli, insanın oturub deməsi ki, «mənim taleyim yazılıb, onsuz da əməl etmək faydasızdır» — bunu deyən insan böyük bir yanlışa yol verir və bir neçə məsələdən qafil qalır:

**Birincisi;** O qafil qalır ki, Allah o qədər əzəmətli və qüdrətlidir ki, onun əvvəlcədən edəcəyi əməlləri bilir və bunu yazmışdır. Uca Allah buyurmuşdur: «Həqiqətən də, Allah hər şeyi bilir.» (Ənfal, 75)
«Heç kəs sabah nə qazanacağını bilə bilməz; heç kəs harada öləcəyini də bilməz. Allah isə, şübhəsiz ki, Biləndir, Xəbərdardır.» (Loğman, 34)

**İkincisi:** Allah onu hansısa əməli etməyə məcbur etmir.
«Başınıza gələn hər bir müsibət öz əllərinizlə qazandığınız günahlar üzündəndir. Allah günahların çoxunu bağışlayır.» (Şura, 30)
Həyatda əksər şeylər insanın ixtiyarındadır. İnsanın nəyi yeyib nəyi içəcəyi, nəyi geyinəcəyi, hara gedib kiminlə oturacağı, nəyi oxuyacağı, nəyi dinləyəcəyi, nə vaxt yatacağı və s. bir çox gündəlik görülən işlər öz ixtiyarındadır. Bəzi şeylər vardır ki, insanın ixtiyarında deyil. Məsələn; insanın doğulması və ölməsi öz ixtiyarında deyil. İnsan istədiyi vaxt dünyaya gəlmədiyi kimi öz öləcəyi vaxtı da bilmir.

**Üçüncüsü:** Allah hər şeyi qədərlə yaratmışdır və bu qəzavü qədərə iman gətirmək imanın şərtlərindən biridir. Məhz elə insan sınaq imtahanındadır. Bu dünya əməl dünyasıdır. Allahın bizə əməl etməyə fürsət verməsi də dəlalət edir ki, insan özü xoşbəxtliyin və bədbəxtliyin yolunu seçir və Allah insanı bu yolu seçməyə məcbur etmir. Lakin, necə olur ki, Allah əvvəlcədən hər şeyi bilir və yazmışdır? İnsan öz düşüncə çərçivəsinə görə hadisələri və ətrafını dərk edir. Allah isə hər şeyə Qadirdir. Bu kainatı Yaradan hər şeyə qadir olan bir qüvvə olmalıdır. Məntiq də bunu deyir. İnsanın beyni çox şeyi qavramır. Allahı insanla müqayisə etmək olmaz. İnsan zəifdir, Allah isə hər şeyə Qadirdir. Allahın hər şeyi əvvəlcədən bilməsi və yazması da yalnız Ona məxsusdur. Ona görə də Yaradanla yaradılan müqayisə olunmaz. Məxluqla (yaradılanla) məxluq (yaradılan) müayisə oluna bilər. Allah misli olmayan Xaliqdir (Yaradandır). Allah bu barədə Quranda buyurmuşdur: «Onun heç bir bənzəri yoxdur.»
(Şura, 11) Əgər Allahın bənzəri yoxdursa, Onun hər şeyi əvvəlcədən bilməsində də bənzəri yoxdur. Onun hər şeyi bilməsi sonsuz Qüdrəti və Əzəmətinə layiqdir. Bu bənzərsiz, tayı-bərabəri olmayan Allah hər şeyi əvvəlcədən bilməklə kiminsə həyatdakı ixtiyarını və seçim hüququnu əlindən almır.

**Dördüncüsü:** Bəzi insanlar qəzavü-qədəri hüccət gətirib deyirlər: «Əgər Allah istəsəydi biz yolumuzu azmazdıq.» Lakin, bu doğru deyil. Buna əqidə elmində «əl-ihticəc bil-qadər» (qədəri hüccət gətirmək) deyilir. Beləcə bu sözü deyənlər günahlara dalır və özlərinə zülm edir, axirətlərini ziyana salırlar. Halbuki, onlar öz dünya mənfəətləri olan işlərdə oturub gözləmirlər. Dünyanı qazanmağa çalışırlar.
Allah insanı azmağa məcbur etmir. İnsan özü özünü azğınlığa salır. Zatən əgər əmələ ehtiyac olmasaydı, Allah dünyanı yaratmazdı və bu dünya həyatı və ölüm haqqında belə deməzdi. «Əməl baxımından hansınızın daha yaxşı

olduğunuzu sınamaq üçün ölümü və həyatı yaradan Odur. O, Qüdrətlidir, Bağışlayandır.» (Mulk, 2) Bu mövzu ilə əlaqəli başqa bir yazıda daha ətraflı danışmaq mümkündür.

**Altıncı məsələ:** Qurani Kərimdə bütün elmlərə işarə vardırmı?

Artıq bu barədə yuxarıda alimlərin sözlərini qeyd edərkən danışdıq və daha müxtəsər olanı xatırladaraq deyək ki, Qurani-Kərimdə insanların dünya və axirətləri üçün ehtiyacları olan hər bir faydalı elmə işarə edilmişdir.

Bu suala cavab olaraq yuxarıda təfsir alimlərindən ibn Kəsirin sözünü oxumaq kifayət edir:

Təkrar olsa da bir də oxuyaq, çünki, bu barədə deyilmiş ən gözəl və əhatəli izahlardan biridir:

«Quran hər bir elmin, keçmiş xəbərlərin və gələcək elmlərin faydalı olanlarından, hər bir halal və haramdan, insanların dinləri, dünyaları, yaşayışları və axirətləri barəsində ehtiyacları olan hər şeydən xəbər vermişdir.» (İbn Kəsir, Təfsirul-Quranil-Azim, 4/510)

Sonda Həmd olsun aləmlərin Rəbbi Allaha və Allahın Salavatı və Salamı, onun Peyğəmbəri, səhabələri və ailəsinin üzərinə olsun!

**İstifadə edilmiş ədəbiyyat:**

1 — Qurani kərim.

2 — əs-Sahih, Muhəmməd əl-Buxari.

3 — Cəmiul-Bəyən, İbn Cərir ət-Təbəri.

4 — Təfsirul-Cəlaleyn. əs-Suyuti.

5 — Təfsiru ibn Racəb, İbn Rəcəb.

6 — Silsilatus-Sahiha, şeyx Albani.

7 — əl-Aqidətut-Tahaviyyə. İbn Əbil-İzz.

# İSLAM ƏQİDƏSİ MÜSƏLMANLARIN GERİ QALMA SƏBƏBLƏRİNDƏNDİRMİ?

Bəzi şübhə əhli iddia edirlər ki, İslam əqidəsi qatıdır və müsəlmanların inkişafının qarşısını alır. Çünki, İslam əqidəsi onların gündəlik həyatlarına təsir edir. Beləcə təcrid edən qatı əqidələrinə tutunmaq ucbatından İslam ümməti xəstə, şikəst bir topluma çevrilərək bəşər mədəniyyətinin son sıralarında qalıblar.

**Bu şübhənin cavabı bu nahiyələrdən veriləcəkdir:**
**1)** *İnsan ağılı necə düşünə bilər ki, əzəmətli bir imperiya qurmuş müsəlmanlar təcrid olunmuş qatı bir əqidəyə sahibdirlər.*
**2)** *Milyonlarla insanın təhrik olmadan İslamı qəbul etməsi, habelə İslamın dünyanın hər tərəfində yayılması İslam əqidəsinin yüksəkliyinə dəlalət edir.*
**3)** *Qərbin mütəfəkkir və fəlsəfəçilərindən adil olanları İslam əqidəsinin yüksəkliyinə, məqsədlərinin şərəfliliyinə, müdrik qayələrinə və bəşər övladının ehtiyaclarının ödənilməsinə tamamilə kifayət etdiyinə şahidlik edirlər.*
**4)** *Əlimizdə olan Quran onların iddialarının əksi olaraq yer üzündə gəzib dolanmağa, dünyaya baxmağa, düşünməyə, diqqət yetirməyə, ağıl işlətməyə rəğbətləndirir.*
**5)** *İslam tənbəllik və arxayınlıq dini deyil, əməl etmək, çalışqanlıq və peşəkarlıq dinidir.*

**Birincisi: Nə zaman ki, müsəlmanlar öz əqidələrinə (xurafatlara deyil, həqiqi islam etiqadına) sarıldılar, inkişaf etdilər. Nə zaman ki, müsəlmanlar İslam etiqadına laqeyd yanaşdılar, gerilədilər.**

Şəkk yoxdur ki, bu şübhəni gətirənlər müsəlmanların genişmiqyaslı fəthlərini və böyük bir dövlət qurmalarını inkar etmirlər. Əgər müsəlmanlar şikəstliyə və ölümə

aparan qatı əqidələrə inanırdılarsa, necə oldu ki, onlar böyük bir dövlət qurdular və uzun əsrlər bu dövləti qoruyub saxladılar?! Bizlərə heç də gizli deyildir ki, bir imperatorluğu qurmaq onun üzərində qurulacağı müəyyən qaydaları, əsasları və o dövlətin qorunacağı vasitələri gərəkdirir. Görəsən ölüm və şikəstlik gətirən qatı etiqadla müsəlmanlar buna necə nail oldular? Yalnız ərəblər deyil, **Osmanlılar** İslamla necə izzətləndilər? Osmanlı imperiyasının ərazisi 1683-cü ildə 5.200.000 $km^2$ qədər idi.

Osmanlı dövləti yeddi əsrə yaxın bir müddətdə dünyanın ən güclü dövləti idi. Elə bu inkişaf məhz İslam ideologiyası ilə əlaqəli deyildimi? **Ümumiyyətlə, inkişaf ideologiya ilə əlaqədardır.** Əgər inkişafa, irəliyə aparan bir ideologiya tətbiq olunmayacaqsa, kitablarda qalacaqsa, o zaman o fikir daşıyıcılarının mövcudluğu və zəifliyi o ideologiya ilə əlaqələndirilə bilməz. Çünki, fikir mənsubları artıq o ideologiyadan, o etiqaddan uzaqlaşmışlar.

Yəni, xülasə onu demək istəyirik ki, inkişaf anlayışı heç də dinsiz cəmiyyətlərlə əlaqəli deyil, nə də dindar cəmiyyətlərlə. Dedik ki, inkişaf ideologiya ilə əlaqədardır. Fikir versək təhsilə, elmə önəm verən cəmiyyətlər inkişaf edirlər. Bu inkişaf edən cəmiyyət dindar da ola bilər, qeyri-dindar da ola bilər. İnkişaf edən cəmiyyət bütpərəst, ateist və ya dindar ola bilər. Din mənəviyyatla bağlı olan amildir. Cəmiyyətlər inkişaf üzərə daim bir-biriylə yarışır. Müsəlmanlar tarixin böyük bir kəsimini daim elmdə, texnikada öndə olmuşlar. Bu amil də bizə çox şeydən xəbər verir. Diqqətlə düşünsək, tarixdə gah irəlidə olan, gah geriləyən xalqların, mədəniyyətlərin şahidi ola bilərik. Bu amili yalnız İslamla bağlamaq doğru deyildir.

Halbuki, İslam mənsubları dünyada mövcudluğunun 14 əsrinin yalnız sonuncu əsrində bir qədər geriləmişlər.

(Bunun səbəbləri çox olsa da, bu səbəblərin əsaslarından biri ölkələrin müsəlman ölkələrinə qarşı «parçala, hökm et» siyasətini yürütmələri və müsəlmanlara qarşı birləşmələridir) Qalan 13 əsrdə müsəlmanların elmi-texniki inkişaf səviyyəsindən danışmağa bəzi insanlar nədənsə cürət etmirlər.

Görəsən, İslam əqidəsinin müsəlmanın həyatının bütün nahiyələrində tam şəkildə hökmranlıq etməsi özü-özlüyündə eyib sayılırmı? Təbii ki, yox. Çünki, bu vəsfin özü əxlaq elminə, ədəb qanunlarına da şamildir. Həmçinin, İslam həyat tərzi olan bir dindir. Onların yalnız İslamı bu cür hədəfə alıb qınamaları önəmli deyildir.

Bir daha yuxarıdakı söhbətə qayıdaq; **Səlcuq imperiyasına** gəldikdə bu dövlət böyük İslam dövləti idi və artıq 1080-cı ildə ərazisi 39.000.000 $km^2$ qədər idi. Bundan əvvəl isə **Əməvilər** və **Abbasilər** dövləti yaxın şərqi, ətrafını, orta Asiyadan bir hissəni, Avropanın bir hissəsini özündə ehtiva edən böyük dövlətlər idilər ki, zamanında dünyanın çox mühüm elm və mədəniyyət mərkəzləri və şəhərləri bu dövlətlərdə cəm olmuşdu. Bu dövlətlərin ərazisi indiki bəzi böyük ölkələr kimi boş sahələri deyil, çoxlu şəhərlər və insanlar olan əraziləri əhatə edirdi.

Ərəblər minlərlə illər qəbiləçilik şəraitində yaşamışlar, qısa müddət sonra isə — İslamın fəziləti sayəsində — bir-birinə çox sıx bağlı və qüvvətli əlaqələri olan bir ümmətə çevrildilər. Beləcə, güclü bir inkişaf edərək tarix boyu çox geniş, böyük, bənzərsiz bir imperatorluq qurdular və bunu uzun əsrlər boyu qorudular.

Ərəblər (İslamdan əvvəl) belə bir ayrılıq, uzaqlıq halında ikən, qısa bir müddət ərzində böyük ictimai şəhər

mədəniyyətinə, ağılasığmaz dərəcədə yüksək inkişaf səviyyəsinə çatmış ölkələrə qalib gəldilər. O ölkələr ki, möhkəm əsaslara və yüksək dəyərlərə malik idilər. Məgər üstün olmayan bir qüvvə qısa bir zaman bu qədər qüvvətlənərək özündən qat-qat qüvvətli olan ölkələri hansı qüvvə ilə öz təsiri altına aldı? Məgər bu cür inkişafa tənbəlliyə, hərəkətsizliyə aparan bir etiqad stimul verə bilərdimi? Deməli, İslamın ilk dövründəki insanlar həqiqi İslam etiqadını daha yaxşı mənimsədikləri və tətbiq etdikləri üçün böyük inkişafa nail olmuşdular. O zaman ki, bu etiqaddan uzaqlaşdılar geriləməyə başladılar.

**Deməli, bu nəticə hasil olur ki**, müsəlmanların geriləmələrinin səbəbi İslam etiqadı deyil, əksinə, bu etiqaddan qafil qalmaqdır.

Bir də onu qeyd etmək yerinə düşər ki, təkcə sonuncu İslam xilafəti olan Osmanlılara qalib gəlmək üçün dünyadakı ölkələrin necə sıx ittifaqa girdiyini, tarixdə bu zəmində nələr baş verdiyini nəzərdən keçirsək, həmin dövrdən bu günə kimi o ölkələrin müsəlmanların inkişafına mane olan məkrli planları, müsəlmanlara olan kinləri, daim müsəlman ölkələrində daxili iğtişaşlar salmaları, «sülh məqsədiylə» bitmək bilməyən müharibə ocaqları yaratmaları heç kəsdən gizli qalmaz, necə ki, bu çoxumuza gizli deyildir. Heç kimsə «ortada görünməyən» və müsəlmanlara qarşı qurulmuş ideoliji müharibədən danışmır nədənsə! Bu ideoloji müharibəni aparanların sırf İslamı və müsəlmanları hədəf seçməklərində əsas amil də onların bilmələridir ki, əgər müsəlmanlar öz dinlərinə, İslam əqidəsinə qayıtsalar, bu onları inkişaf etdirəcək, əsrlərlə dünyada liderlik etmiş müsəlmanları öz əvvəlki hallarına qaytaracaq. İslam düşmənlərinin ən çox qorxduğu da məhz elə müsəlmanların bu əzmkar etiqada geri dönmələridir.

**İkincisi: Milyonlarla insanın islamı təhrik edilmədən qəbul etməsi İslam əqidəsinin yüksəkliyinə dəlalət edir.**
Öz dinlərinə (xristyanlıq, yəhudilik kimi) dəvət edənlərə böyük pullar xərcləyən və imkanlı şəxsləri də öz dinlərinə çağıran missionerlərə böyük məbləğlər sərf etməkdə dünyanın hər tərəfində bu işdə bir-biriylə yarışan millətlərə — heç bir maddi və mənəvi təhrik olmadan — İslamın üstünlük qazanaraq yayılması, yüzlərlə milyon insanın bu dini (İslamı təhriksiz) qəbul etməsi, görəsən bütün bunlar həyatda yarış qabiliyyəti olmayan qatılıq və hərəkətsizlik, şikəstlik və ölüm gətirən təlimlərin nəticəsidirmi?

Əgər onlar bəsirətsiz şəkildə və dəqiqləşdirmədən desələr ki: İslamı qəbul edən tayfalar pislə yaxşını ayırd edə bilməyəcək dərəcədə mədəniyyəti olan millətlərdəndir, onda deyirik ki, onda avropalılar barəsində nə düşünürsünüz? Avropa millətlərindən minlərlə insan İslamı qəbul etmişdir.

**Üçüncüsü: Qərb mütəfəkkirlərindən ədalətli olanları İslamın öndə olmasına şahidlik edirlər.**
Doğurdan da Qərb mütəfəkkirlərindən ədalətli olanları İslamın üstünlüyünü bilir və İslama lazımi qiyməti verməyə çalışırlar. Onlardan böyük mütəfəkkir və fəlsəfəçi tayfası vardır ki, onlar İslamın yüksək inanclarına, sağlam dayaqlarına, şərəfli məqsədlərinə və dünyadakı insanların ruhi və maddi ehtiyaclarına tam şəkildə kifayət etdiyinə şahidlik edirlər. Onlardan Carlyle, Geothe, Lamartine, Bernard Shaw, Sédillot, Gustave Le Bon, Jaroudi kimi bir çoxlarını misal çəkmək olar.

Maurice Bucaille Quranı Ərəb dilində incələməyə başladıqda dəhşətə gəlir ki, «On dörd əsr müddətində heç bir dini kitabda olmasını təsəvvür edə bilmədiyi elmi

həqiqətlər və işarələr Quran kitabında mövcuddur.» O həmçinin demişdir: ***«Quran ayələrindən elə bir ayə yoxdur ki, onda müasir elmin metodlarına zidd olan bir işarə olsun.»*** *(Movsuatu bəyənil-İsləm, Şubuhəət həvlə əl-Aqidətil-İsləmiyyə, səh 8).*
Jaroudi demişdir: ***«Quran alimlərin hörmətini uca tutur və elm öyrənməyə rəğbətləndirir.»****(Eyni mənbə, səh 8).*
O həmçinin vurğulamışdır ki: ***«Müsəlmanlar bütün elm sahələrində böyük bir elmi inkişafın əsasını qoymuşlar.» Həmçinin, demişdir: «İslam əvvəllər olduğu kimi gələcəkdə də islah və inkişaf üçün böyük bir ruhi qüvvədir.»*** *(Eyni mənbə, səh 8).*
Həmçinin, Jaroudi hesab edir ki, ***«Müsəlman qadının İslamdakı halı bir qadının ən nümunəvi halıdır. İslam dini qadına zülmü aradan qaldırmışdır, haqlarda və öhdəliklərdə kişi ilə qadını bir etmişdir. Qadının özünü və onun hörmətini qorumuşdur. Sonra deyir: «İslam iqtisadiyyatının əsasları vardır: daxili paylaşmadakı müvazinətin olması və ehtikarlığın (monopoliyanın) haram olması, şəxsi mülkiyyətin fərdin və camaatın xeyrinə olması. Bazar isə əsas məqsəd deyil, sadəcə vəsilədir»*** *(eyni mənbə, səh 8).*
Markus Volland deyir: ***«İslamda İslami cəmiyyətlərin mövcudluğunda əsaslandırılmış elə bir şey yoxdur ki, müasir anlayışlarla iqtisadiyyatı tətbiq etməkdən aciz buraxsın. İslam öz həqiqətində bununla möminləri müsbət vəziyyət üzərində hərəkətləndirir.»***
Amerikalı Şahzadə Charles vurğulayır ki, ***«Problem təkcə Qərb dünyasının İslamın təbiətini böyük həcmdə yanlış anlamasında deyil, burada qərbin İslam barəsində böyük həcmdə qafil qaldığı qərbi üstələyən İslam mədəniyyəti və əsasları vardır.»***
Şərqşünas Leo Poland Wiess deyir: ***«Müsəlmanların ictimai və mədəni geriləməyə düçar olmalarında mühüm bir səbəb vardır, o da İslam ruhundan uzaqlaşmalarıdır.»***

Fransız şərqşünas Domenique Chevallier vurğulayır ki, ***«İslamın qüvvəsi əxlaqi proqrama malik olduğu üçün (dünyada) yerini tapmışdır.»***
Hoffmann deyir: ***«İslam şiddətli şəkildə insanların eyiblərini araşdırmağı qadağan edir. Lakin, eyni zamanda şiddətlə savadlanmağa və əlavə biliklər əldə etməyə rəğbətləndirir. Quran kitabı da bir çox ayələrində ağıldan, fikir və düşüncədən yararlanmağa dəvət edir.»*** *(əl-Munsifinə lil-İsləm fil-Ğarb, səh 221)*
Bunun kimi bir çox qərbli alim və mütəfəkkirlər vardır ki, onlar İslam mədəniyyətinin və qanunlarının üstünlüyünə diqqət çəkmişlər.

**Dördüncüsü: Quran şübhə əhlinin dediklərinin əksini bildirir.**
Əgər onlar bundan sonra da inkar etməkdə israr etsələr, bilsinlər ki, Qurani-Kərim bunları özündə ehtiva edir, istəsələr Quranı açıb bu uca mənaları oxuya bilərlər. Bu mənalar müsəlmana dünyaya nəzər yetirməyi, düşünməyi və elm yollarına tutunmağı əmr edir.

**«Məgər onlar Quran barəsində düşünmürlərmi?»** *(ən-Nisa, 82)*
**«Həqiqətən də, göylərin və yerin yaradılmasında, gecə ilə gündüzün bir-birilə əvəz olunmasında, insanlara fayda verən şeylərlə yüklənmiş halda dənizdə üzən gəmilərdə, Allahın göydən endirdiyi, onunla da ölmüş torpağı diriltdiyi suda, Onun bütün heyvanatı yer üzünə yaymasında, küləklərin istiqamətinin dəyişdirilməsində və göylə yer arasında ram edilmiş buludlarda, başa düşən insanlar üçün dəlillər vardır.»** *(əl-Bəqərə, 164)*
**«Məgər onlar dəvənin necə yaradıldığını görmürlər? Göyün necə yüksəldiyini görmürlər? Dağların necə**

**sancıldığını görmürlər? Yerin necə döşədildiyini görmürlər?»** *(əl-Ğaşiyə, 17-20)*
**«Məgər onlar yer üzündə gəzib dolaşmırlarmı ki, zalımların aqibətini qəlbi ilə düşünüb, qulaqları ilə eşitsinlər? Çünki əslində maddi gözlər deyil, kökslərdəki qəlb kor olur.»** *(əl-Həcc, 46)*
**«Qurunun və dənizin qaranlıqlarında yolu tapa biləsiniz deyə sizin üçün ulduzları yaradan Odur. Artıq Biz ayələri bilən bir qövmə izah etdik.»** *(əl-Ənam, 97)*
**«Yeri döşəyən, orada möhkəm dağlar, çaylar yaradan və bütün meyvələrdən cüt-cüt yetişdirən də Odur. O, gündüzü gecə ilə örtüb bürüyür. Həqiqətən də, bunda dərin düşünən adamlar üçün dəlillər vardır.»** *(ər-Rad, 3)*

İslamdakı inanclar hərətsizlik, donuqluq kimi pis mənaya yozulmaz və bu pis anlamda dəyişilməzliyə nisbət olunmur. İslamdakı inanclar sabitdir desək daha doğru olar. O anlamda ki, bu doğru (dinə əlavələrdən uzaq olan) inanclar ağıl və məntiqlə çatışmaya girmək mənasına yozulmur. Əksinə, İslam inancları sabitliyi ilə seçilir. Bu sabitlik müsbət anlamdadır, mənfi anlamda deyildir.

İslamda ibadətlər, inanclar sabit və dəyişilməzdir. Bununla bərabər İslam şəriəti insanların məkanını, şəraitini və zamanını nəzərə almışdır. İslamdakı ibadət və hökmlərdə insanların zəruri halları da nəzərə alınmışdır.

Biz Qurani-Kərimin necə dində əlavələr və təhriflər etməyə, Allahın adından yalan uydurmağa qarşı olduğunun şahidi ola bilərik. Allah Quranda buyurur: **«Vay o şəxslərin halına ki, onlar öz əlləri ilə kitab yazır, sonra da: "Bu, Allah tərəfindəndir!"– deyirlər ki, onunla cüzi miqdarda pul əldə edə bilsinlər. Öz əlləri ilə**

**yazdıqlarına görə vay onların halına! Qazandıqları şeyə görə vay onların halına!»** *(əl-Bəqərə, 79)*
Həmçinin, Allah Quranda elm sahiblərinin dərəcəsinin yüksəldiyini bildirir: **«Allah sizdən iman gətirənlərin və özlərinə elm verilmiş kimsələrin dərəcələrini ucaldar.»** *(əl-Mucadilə, 13)*

**Beşincisi: İslam dini işləmək və çalışqanlıq dinidir, arxayınlıq və tənbəllik dini deyil.**
İslam dini qazanmağa, insanlara möhtac olmamağa, işləməyə, aktiv olmağa çağırmışdır.

Allah Quranda buyurur: **«Digərləriniz Allahın mərhəmətindən ruzi (qazanc) əldə etmək məqsədilə müxtəlif yerlərə səfərə çıxacaq… »** *(Muzzəmmil, 21)*
Başqa ayədə buyurur: **«Namaz başa çatdıqdan sonra yer üzünə dağılıb Allahın lütfünü axtarın (ruzi qazanın) və Allahı çox zikr edin ki, bəlkə nicat tapasınız.»** *(Cümə, 10)*
Başqa ayədə Allah buyurur: **«Dünyadakı nəsibini də unutma.»** *(əl-Qasas, 77)*
Baxın, Allah hətta, öz Peyğəmbərinə belə dünya işləri barədə göstəriş verir: **«İşlərini qurtaran kimi Allah yolunda çalış!»** *(Şərh, 7)*
Başqa ayədə belə buyurur: **«Gündüzü isə ruzi qazanmaq vaxtı etdik.»** *(Nəbə, 11).* Qurani-Kərim işləmək üçün ən yaxşı vaxtın gündüz çağı olduğunu da bu ayə ilə bildirmişdir.
Bu barədə ayələr çoxdur. İnsanları çalışqanlığa, işləməyə yönəltməkdə, rəğbətləndirməkdə İslam kimi bir din yoxdur.

Peyğəmbərin sünnəsinə (hədislərinə) gəldikdə də yenə işləməyə, çalışmağa rəğbətləndirən, işləyənləri xeyirlə müjdələyən neçə-neçə hədislər vardır. Bu hədislərdən:

«Sizlərdən birinin öz qazancıyla yediyi yeməkdən daha xeyirlisi yoxdur. Davud peyğəmbər də öz əlinin qazancından yeyərdi.» (Səhih əl-Buxari, 1966)

Başqa hədisdə deyilir: «Allah sizdən birinin bir iş gördükdə o işi yaxşı bacarmasını Sevər» (Silsilətus-Sahihə, 1113)

Hətta, Məhəmməd Peyğəmbər (Allahın Ona salavatı və salamı olsun) nəinki, ümməti işləməyə, halal ruzi qazanmağa sövq etmişdir, hətta, ümmətinin ən yaxşı iş vaxtının bərəkətli, keyfiyyətli olması üçün dua edərək demişdir: «Ey Allahım! Ümmətimin səhər vaxtını bərəkətli et!» (ət-Tirmizi) Bu dua səhər vaxtı görülən bütün işlərə aiddir.

O Peyğəmbər hətta, işçinin əməkhaqqısı barədə indiyə kimi dünyada deyilməyən əmri demişdir: «(pul, ücrət müqabilində işləyən) İşçinin haqqını təri qurumamışdan öncə verin.» (Sünən ibn Macəh, 2434)

İslam dini o qədər əzəmətli dindir ki, insanın özünü dolandırmağa gücü çatdığı təqdirdə insanlara əl açmaqdan şiddətlə çəkindirmiş, insanın ruhunu izzətli olmağa öyrətmişdir. Hətta, Məhəmməd Peyğəmbər öz əshabını o qədər izzətli tərbiyə edirdi ki, miniyin belindən düşən bir qamçını həmin şəxsin başqalarına ağız açmadan, yardım istəmədən özünün götürməsinin gərəkdiyini öyrədirdi. O, hər bir fürsətdə insanları həm izzətli olmağa, həm də aktiv olmağa, rəğbətləndirirdi.

Muhəmməd Peyğəmbər özü müxtəlif işlər görmüş, əshabına işlərində yardım etmiş, hətta, xidmət olunanlardan olmağa razı olmayaraq ev işlərində ailəsinə belə yardım etmişdir. O, ticarətlə məşğul olmuş, az yaşlarında çobanlıq

da etmişdir. O xidmətçilərə də yardım etmişdir. Bu sözləriylə isə insanları işləməyə rəğbətləndirmişdir: «Sizdən birinin belində odun şələsi daşıması onun başqalarından (yardım) istəməsindən daha xeyirlidir. (başqasına möhtac olduqda) ya ona nə isə verər, ya da verməz.» (Buxari, Muslim)

İslam dini insanın bir peşə sahibi olmasına da rəğbətləndirmişdir. Çünki, hətta, peyğəmbərlərin həyatına baxdıqda onların da özlərinə məxsus peşələrinin olduğunu görürük. Bəzisi dülgər, bəzisi bənna, bəzisi dəmirçi və s. peşələrə sahib olmuşlar.

İslam dini bütünlüklə süstlükdən (hərəkətsizlikdən, yorğunluğa aparmaqdan) uzaqdır. Süstləşmiş, tənbəlləşmiş insanlar qətiyyən İslamı və təlimlərini ifadə edə bilməzlər. Əgər İslam süstlük, tənbəllik dini olsaydı, onda müsəlmanlar böyük imperiyaları diz çökdürə bilməz və dünyanın böyük bir qismini fəth edə bilməz, nə mədəniyyət qura bilər, nə şəhərlər tikə bilər, nə gəmi limanları sala bilər, dini və dünyəvi elmlərdə nəaliyyətlər əldə edə bilməz, nə də bəşəriyyətə elmləri, sənayeləri, şəhərsalma qaydalarını öyrədə bilməzdilər.

## ƏRƏBİN DİNİ? YOXSA, BÜTÜN DÜNYANIN DİNİ?

Son zamanlar ateist, deist və bəzilərinin dilinə düşmüş «ərəbin dini» ifadəsinə münasibət bildirmək istədik. Bəziləri «Ərəbin dini üçün bunları edirsiniz», bəziləri isə «İslam ərəbin dinidir, bizim yox» və s. kimi ifadələr işlədirlər. Bu yazımızı belə sözlər işlədənlərə həsr etmişik ki, onlara həqiqətin heç də elə olmadığını izah edək.

### Birinci məsələ: Din yalnız ərəblər üçünmü gəlib?

Bəzi insanlar İslama qarşı danışmaq istədikdə İslamı «ərəbin dini» kimi vəsf edir, İslamın bütün bəşəriyyətə (insanlara və cinlərə) göndərilən sonuncu səmavi din olduğunu inkar edir, Məhəmməd Peyğəmbərin (Allahın Ona salavatı və salamı olsun) də ərəb olduğu üçün başqa xalqların qəbul edə biləcəyi bir peyğəmbər olduğunu inkar edirlər. Onlar unudurlar ki, bütün bəşəriyyətə göndərilmiş peyğəmbər insan olduğundan dolayı onun da başqa insanlar kimi doğulduğu, böyüyüb boya başa çatdığı yer mütləq olmalı idi. Belə halda insanı doğulduğu yerə nisbət edərək — o yalnız o yerin Peyğəmbəridir demək haqsızlıqdır. O baxımdan ki, Uca Allah Məhəmməd Peyğəmbərin Quranda bütün bəşər övladına göndərildiyini deyir. «De: "Ey insanlar! Şübhəsiz ki, mən sizin hamınız üçün Allahın elçisiyəm.» (əl-Əraf, 158)

Ayədə keçən «**sizin hamınız üçün**» sözü açıq-aydın Muhəmməd Peyğəmbərin ərəb və qeyri ərəb bütün insanlara göndərildiyinə dəlildir. Çünki, ayənin başlanğıcı «ey ərəblər» olaraq deyil, «**ey insanlar**» xitabı ilə başlayır. Bu xitab isə bütün insanlara şamildir. Belə bir xitab heç bir şəkk yeri qoymur. Çünki, ayənin növbətli hissəsi «sizin hamınız üçün Allahın Elçisiyəm» cümləsiylə tamamlanır!

Həmçinin, Uca Allah Qurani-Kərimdə buyurmuşdur: «Biz səni bütün insanlara müjdə verən və xəbərdarlıq edən bir peyğəmbər kimi göndərdik. Lakin, insanların çoxu bunu bilmir.» (Səba, 28)

Bu ayə də bundan öncəki ayə kimi Muhəmməd peyğəmbərin bütün insanlığa göndərildiyinə dəlalət edir. Elə ona görə də ateistlər və bu şübhəni gətirən insanların çoxusu bunu bilmirlər. Sonuncu peyğəmbərin bütün insanlara deyil, yalnız ərəblərə gəldiyini deyənlər də bu ayədəki «Lakin, insanların çoxu bunu bilmir» cümləsinin mənasına daxildirlər. Deməli, Allah bir daha təkidlə vurğulayır ki, belə düşünən insanlar çoxdur. Lakin, bu Onu bütün insanlara göndərilən peyğəmbər olmaqdan çıxarmır. O yalnız ərəblərə deyil, bütün insanlığa göndərilmişdir. İnsanların çoxu isə bunu bilmirlər.

Başqa bir ayədə isə belə buyurmuşdur: «De: Allah mənimlə sizin aranızda şahiddir. Bu Quran mənə vəhy olundu ki, onunla sizi və onun çatacağı hər kəsi xəbərdar edim.» (əl-Ənam, 19)

Bu son ayədə də «onun çatacağı hər kəsi xəbərdar edim» cümləsi hər şeyi izah edir.

Bu ayələr ona dəlalət edir ki, Muhəmməd Peyğəmbər bütün insanlara Peyğəmbər olaraq göndərilmişdir. O yalnız ərəblərin peyğəmbəri deyildir. Əgər onun peyğəmbərliyini Allah təsdiqləyirsə və onu bütün bəşəriyyətə son peyğəmbər olaraq göndərmişdirsə, bizim bunu başa düşmək istəməməyimiz yalnız öz əleyhimizədir. Əgər ateist oxucu bunu bir dindar fikri kimi qəbul edirsə, yazımızı sona kimi oxuyarsa, görə bilər ki, bu dinə «ərəbin dini» demək nə elmi, nə də məntiqi cəhətdən doğru deyildir.

Üstəlik də ədalətdən deyildir. Ateistləri bilmirik, amma, Quran müsəlmanlara bu əxlaqı öyrədir: «Danışdığınız zaman ədalətli söz danışın.» (əl-Ənam, 152)

Elə isə bu yazını sona kimi oxuyub qərarı özünüz verin.

**İkinci məsələ: Nəyə görə İslam sonuncu dindir?**

Hər şeyin bir sonu olduğu kimi inkişaf edən, dəyişən bəşər övladına dünyanın sonuna kimi təhrifdən qorunmuş, özündən əvvəlki dinlərin təhriflərini göstərən, bütün peyğəmbərlərin təbliğ etdiyi təkAllahlıq inancından uzaq düşən, batil inancları dinlərinə salıb dinlərini təhrif edənlərə və bütün insanlığa doğru yol göstərəcək olan bir dinə zəruri ehtiyac vardı. Məhz ateistlərin və qeyrilərinin başqa dinlərlə İslamı müqayisə etmələri doğru deyildir. Daha aydın bir ifadə ilə desək, yəni, təməlindən təhrif olunmuş dinləri İslam kimi təməli sabit bir dinlə müqayisə etmək doğru deyildir. İslamın sonuncu din olmasının məqsədlərindən biri də məhz insanlığı dinlərin təhriflərindən uzaqlaşdırıb Allahla bəndə arasındakı həqiqi olması gərəkən rabitəni öyrətməkdir. Biz insan düşüncəsinin dəyişdiyini, inkişaf səviyyəsinin, adi kompyuterin belə dəyişdiyini bilə-bilə deyə bilmərik ki, xristianlıq və ya yəhudilik dini var idisə İslama nə ehtiyac var idi? Bu təməlindən yanlış bir fikirdir. Əksinə, İslamın dinlərdəki təhriflərə qarşı olmasını ilk öncə cəmiyyətlərin elmi və hərtərəfli (xeyirə doğru) tərəqqisini istəyən kimsələr dəstəkləməlidirlər. İslamdan öncəki peyğəmbərlər də insanların dinə etdikləri təhrifləri aradan qaldırmaq işini görürdülər. İslamın son və tamamlayıcı din olmasını elə əvvəlki peyğəmbərlərin təsdiqlənməsi də göstərir. Əvvəlki peyğəmbərlər isə yalnız ərəb olmamışlar.

Amma **İslamın sonuncu din olmasının bir çox hikmətləri var.** Bu hikmətlərdən:

**a)** Bu dinin peyğəmbəri sonuncu peyğəmbərdir. Allah Quranda bu barədə buyurmuşdur: «Muhəmməd aranızdakı kişilərdən heç birinin atası deyildir. Lakin o, Allahın Elçisi və peyğəmbərlərin sonuncusudur. Allah hər şeyi bilir.» (əl-Əhzab, 40)

**b)** İslam bütün peyğəmbərlərin dini olmuşdur; Hər bir Peyğəmbər tək Allaha ibadət etməyə, Ona heç bir şeyi şərik qoşmamağa, Allaha təslim olmağa dəvət etmişlər. Qurani-Kərim bu həqiqəti belə bəyan edir:

«İnsanlar tək bir ümmət idi. Allah onlara müjdə verən və qorxudan peyğəmbərlər göndərdi» (əl-Bəqərə, 213)

**c)** Bütün peyğəmbərlər İslama (tək Allaha təslimiyyətə, ibadətə) dəvət etmişlər:

«Allah Adəmi, Nuhu, İbrahimin nəslini və İmranın nəslini seçib aləmlərdən üstün etdi.» (Ali İmran, 33)

«İbrahim nə yəhudi, nə də nəsrani idi. O, ancaq hənif bir müsəlman idi və müşriklərdən deyildi.» (Ali İmran, 67)

Hətta, İsa peyğəmbər də İbrahim və başqa peyğəmbərlər kimi İslam üzərə olmasını, müsəlman olmasını etiraf etmiş, həvariləri də İsa peyğəmbərə fəxrlə müsəlman olduqlarını bildirmişlər:

«İsa onlardakı küfrü hiss etdikdə dedi: "Allah yolunda kimlər mənə yardımçı olacaq?" Həvarilər dedilər: "Bizik

Allahın dininin yardımçıları! Biz Allaha iman gətirdik. Sən də şahid ol ki, biz müsəlmanlarıq!» (Ali İmran, 52)

Xülasə, bütün Peyğəmbərlərin dini İslam olmuşdur, Allaha tam təslimiyyət anlamında olan İslam sözü heç də bəşəriyyət üçün yeni bir şey olmamışdır. Ona görə də peyğəmbərlər İslam ilə üstünlük və fəzilətlilik qazanmışdılar. Allah buyurur: «İsmaili, Əlyəsəni, Yunusu və Lutu da. Hamısını aləmlərdən üstün etdik.» (əl-Ənam, 86)

**d)** İslam dini özündən əvvəl göndərilmiş səmavi dinlərin təhrif olunmamış halını təsdiqləyir. Necə ki, Tövrat və İncilin təhrif olunmamış halını təsdiqləyir: «Həqiqətən, Kitab əhlindən elələri də var ki, Allaha müti olaraq həm Allaha, həm sizə nazil edilənə, həm də özlərinə nazil edilənə iman gətirir, Allahın ayələrini ucuz qiymətə satmırlar.» (Ali İmran, 199) diqqət yetirsək, bu ayə də dini təhrif edib onu ucuz tutanlara işarə edir.

**e)** Allah qatında din yalnız İslamdır. Allah buyurmuşdur: «Həqiqətən, Allah yanında qəbul olunan din, İslamdır! Kitab verilənlər ancaq özlərinə elm gəldikdən sonra aralarındakı zülm və həsəd üzündən ixtilafa düşdülər. Kim Allahın ayələrini inkar edərsə, bilsin ki, Allah tez haqq-hesab çəkəndir.» (Ali İmran, 19)

Ayədən də göründüyü kimi xristianlıq və yəhudilik dinləri təhrif olunduğu üçün Allah İslamı son din olaraq göndərdi, Qiyamətə kimi əmr və qadağalarını bu dinlə tamamladı və bu dindən razı qaldı. Bu barədə Allah buyurmuşdur: «Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi tamamladım və bir din olaraq sizin üçün İslamı bəyənib seçdim.» (əl-Maidə, 2)

Başqa ayədə Allah buyurmuşdur: «İslamdan başqa bir din axtaran şəxsdən, o din heç vaxt qəbul olunmaz və o, axirətdə ziyana uğrayanlardan olar.» (Ali İmran, 85)

İslamdan başqa din ona görə qəbul olunmayacaq ki, kitab və Peyğəmbər göndərilmiş dinlərin (xristian və yəhudilər kimi) din xadimləri dinlərini təhrif etdilər, kitablarını dünya malı üçün təhrif edib dəyişdilər.

Allah bu barədə buyurur: «Vay o şəxslərin halına ki, onlar öz əlləri ilə kitab yazır, sonra da: "Bu, Allah tərəfindəndir!"– deyirlər ki, onunla cüzi miqdarda pul əldə edə bilsinlər. Öz əlləri ilə yazdıqlarına görə vay onların halına! Qazandıqları şeyə görə vay onların halına!» (əl-Bəqərə, 79)

Qurani-Kərim isə təhrifdən uzaqdır. Allah bu barədə buyurmuşdur: «Şübhəsiz ki, Zikri Biz nazil etdik, əlbəttə, Biz də onu qoruyacağıq.» (əl-Hicr, 9)

**f)** İslam politeizm (təkAllahlılıq, tövhid) dinidir. Bunu «İslam» sözünün mənasından da (yəni, Allaha tam təslim olmaq) anlamaq mümkündür. Başqa dinlərə baxsaq, təkAllahlılıq anlayışı onlarda əvvəl olsa da sonradan təhrif olunmuşdur (Xristianlıq və yəhudilik kimi). Xristianlar Məryəm oğlu İsanı ilahiləşdirdilər, Yəhudilər isə Uzeyr Allahın oğludur dedilər, mələklər də qızlarıdır dedilər. Yalnız İslam dini dünyada təkAllahlılıq inancını bu gün də saf, təmiz şəkildə öz məsdərlərində qorumuşdur. İslamda ən böyük günah Allaha ibadətdə Ona şərik, ortaq qoşmaqdır.

**g)** Qurani-Kərimdə ixtilaf yoxdur və bu barədə olan bütün şübhələrin bir-bir cavabı verilmişdir. Allah buyurur:

«Məgər onlar Quran barəsində düşünmürlərmi? Əgər o, Allahdan başqası tərəfindən olsaydı, əlbəttə, onda çoxlu ziddiyyət tapardılar.» (ən-Nisa, 82)

**h)** İslam orta dindir. Nə ifratçılıq, nə də təfritçilik yandaşı deyildir. Uca Allah Quranda buyurmuşdur:

«Beləliklə Biz sizi orta bir ümmət etdik ki, siz insanlara şahid olasınız, peyğəmbər də sizə şahid olsun.» (əl-Bəqərə, 143)

**i)** İslam dini fitrət dinidir və insanın fitrətindən olan hiss və duyğularıyla ahəngdarlıq əks etdirir. Allah Quranda buyurmuşdur: «Sən bir hənif kimi üzünü dinə tərəf çevir! Allahın insanlara – xəlq etdiyi şüurlu məxluq kimi verdiyi fitrət budur. Allahın yaratdığını heç cür dəyişdirmək olmaz. Doğru din budur, lakin insanların çoxu bunu bilmir.» (ər-Rum, 30)

**j)** Sonuncu din Qiyamətə qədər bəs edir. (əl-Maidə, 2) ayəsi də (yuxarıda qeyd etdiyimiz ayə) buna dəlalət edir.

**Üçüncü məsələ: İslamdakı iman qardaşlığı ərəblə əcəmi eyniləşdirir.**

Allah Quranda bütün möminləri qardaş adlandıraraq buyurmuşdur:

«Möminlər, həqiqətən də qardaşdırlar.» (Hucurat, 10)

Ərəbin əcəmə (ərəb olmayana) heç bir üstünlüyü yoxdur. İslama görə üstünlük təqvadadır. Yəni, Allahdan daha çox qorxmaqdadır ki, belə insan özünü və ətrafını daha çox

islah etməklə məşğul olur. Ona görə də Allah Quranda buyurmuşdur:

«Şübhəsiz ki, Allah yanında ən hörmətli olanınız Ondan ən çox qorxanınızdır.» (əl-Hucurat, 13)

Ona görə də İslam dini insanları qardaş edir, qəlbləri birləşdirir.

**Dördüncü məsələ: İslam dini insanlar arasında millət ayrıseçkiliyini, qəbiləpərəstliyi, qövmiyyətçiliyi təbliğ etməyi və bu barədə ifrat təəssübkeşlik etməyi qadağan etmişdir.**

Bununla yanaşı orta din olan İslam dini müsəlmana düşmənini tanımağı və daim düşməndən ehtiyatını gözləməyi öyrədir.

Allah Qurani-Kərimdə xalqları nə üçün yaratdığını bəyan etmişdir:

«Ey insanlar! Biz sizi kişi və qadından yaratdıq. Sonra bir-birinizi tanıyasınız deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Şübhəsiz ki, Allah yanında ən hörmətli olanınız Ondan ən çox qorxanınızdır. Həqiqətən, Allah Biləndir, Xəbərdardır.» (əl-Hucurat, 13)

Bu həqiqəti unudan bəzi insanlar isə Allahın haqq dininə «Ərəbin dini» deməkdən həya etmirlər. Allah belə insanları hidayət etsin! Bu qəbilə təəssübkeşliyini çəkməyin qadağan olması həqiqətini bilmək isə insanın öz xalqını, millətini normal şəkildə sevməsinə, torpaqlarını qorumasına zidd deyil. Vətən sevgisi təbii bir sevgidir və İslam dini fitrətdən

olan təbii sevgiləri təsdiqləyir. İslam bu qədər orta dindir. Lakin, 14 əsrdir ki, ağdəriliylə qaradərili zəncinin arasında insanlıq fərqi qoymayan, ümumbəşəri insanlıq dəyərlərini qoruyan İslam dininə bəziləri «ərəbin dini» deyir, lakin, hələ yalnız yaxın onilliklərdə bu fərqi (ağdərili ilə qaradərili fərqini) aradan qaldıran ingilis, fransız və s. qərblilərə "ideal insan» kimi baxanlara təəccüblənməmək olmur. Yetmiş il bundan əvvələ kimi qaradərililəri vəhşicəsinə qətl edən qərblilərin «yüksək mədəniyyətli» Allahsız dininə nə ad vermək olar? Onlar bu gün də Afrikadakı kasıb xalqların torpağının ağası, onları soyub talamaq və ucuz işçi qüvvəsi kimi işlətməklə müstəmləkəçilik siyasətini davam etdirən, dinlərinə heyran olduğunuz «yüksək mədəniyyət» sahibləridirlər.

**Beşinci məsələ: Din yalnız ərəblər üçün gəlmişdisə, onda nə üçün Quranda ərəbləri tənqid edən ayələr mövcuddur?**

Heç İslam dinini dar çərçivəyə məhdudlaşdırmaq istəyənlər, İslamın bütün bəşər övladına xitab etdiyini həzm etməyənlər İslam dininə «Ərəbin dini» deyərkən bu sual barədə düşündülərmi? Əgər Quran ərəbi təmizə çıxartmaq, ərəbi hegomon etmək istəyirdisə, onda nə üçün onlar barədə şiddətli tənqidlər edərək bəzi ərəblərin pis halından bəhs edirdi? Məgər bu tənqid Quranın ilahi vəhy olmasına dəlalət etmirmi? Heç bir məqamda millətçiliyi, qövmiyyətçiliyi önə çəkməyən İslam dini görəsən niyə daim Allaha qulluğu, təkAllahlığı önə çəkirdi? Bu barədə heç düşündünüzmü? İndi qeyd edəcəyimiz ayə bütün ərəblərə aid deyil, bədəvi ərəblərə aiddir. Bununla yanaşı onlardan iman gətirənləri dində çox böyük sadiqlik nümayiş etdirirdilər. Uca Allah Qurani-Kərimdə buyurur:

«Bədəvilər kafirlik və münafiqlik baxımından daha betər, Allahın Öz Elçisinə nazil etdiyi qanunları bilməməyə daha meyllidirlər. Allah Biləndir, Müdrikdir. Bədəvilərdən eləsi də var ki, Allah yolunda xərclədiyini itki sayır və sizə bir bədbəxtlik üz verməsini gözləyir. Bədbəxtlik onların öz başlarına gələcək. Allah Eşidəndir, Biləndir. Bədəvilərdən eləsi də vardır ki, Allaha və Axirət gününə inanır, xərclədiyini Allah yanında yaxınlıq və Peyğəmbərin dualarına nail olmaq üçün vasitə sayır. Həqiqətən də, bu, onlar üçün yaxınlaşmağa bir vasitədir. Allah onları Öz mərhəmətinə qovuşduracaqdır. Həqiqətən, Allah Bağışlayandır, Rəhmlidir.» (ət-Tövbə, 97-99)

Gördüyünüz kimi Allah bədəvi ərəbləri barədə üç ayənin ikisini şiddətli tənqid şəklində nazil etmişdir. Əgər Qurani-Kərim Ərəb milliyyətçiliyinə xidmət etsəydi, Quranda belə ayələr əsla yer almazdı.

Ona görə də Allah qatında üstünlük ərəb olmaqda deyil, Allah qorxusundadır. Ona görə də Uca Allah buyurmuşdur: «Şübhəsiz ki, Allah yanında ən hörmətli olanınız Ondan ən çox qorxanınızdır.» (əl-Hucurat, 13)

Lakin, bu qeydlə yanaşı, mühüm bir qeyd də lazımdır ki, məhz İslamın həmin dövrdə ərəblərə gəlməsi onların həmin dövrdə fitrətlərinin, mənəviyyatlarının salamat qalması və dəyişməməsi ilə də əlaqəli idi. Onlar bir şeyə inandıqları zaman da tam ayrı bir səmimiyyətlə inanırdılar. Çünki, fitrətləri salamat qalmışdı. Həmin dövrün xalqlarında isə demək olar ki, fitrət pozulmuş və müxtəlif mədəniyyətlərlə tanış olmuş, dəyişilmiş və insanın saflığını dəyişəcək məlumatlara yiyələnmişdilər. İslamın fitrət dini olması da mütləq fitrətlərə uyğun olmasıyla gerçəkləşməli idi. Ona görə də Allah buyurmuşdu:

«Allahın insanlara – xəlq etdiyi şüurlu məxluq kimi verdiyi fitrət budur.» (ər-Rum, 30)

Həmçinin, İbrahim Peyğəmbərin də duası var idi ki, onun soyundan olanlar, Məkkə əhli namaz qılan, ibadət əhli olsun. İbrahim peyğəmbərin duası da qəbul olmuş, ondan sonra əmələ gələn bütpərəstlik yenidən aradan qalxmışdı.

«Ey Rəbbimiz! İkimizi də Sənə təslim olacaq, nəslimizdən də Sənə təslim olan bir ümmət et. Bizə ibadət qaydalarını göstər və bizim tövbələrimizi qəbul et! Həqiqətən, Sən tövbələri qəbul edənsən, Rəhmlisən!» (əl-Bəqərə, 128)

Növbətli ayədə isə İbrahim peyəmbərin bu istəyi açıq şəkildə ifadə olunur:

«Ey Rəbbimiz! Onların içərisindən özlərinə elə bir elçi (peyğəmbər) göndər ki, Sənin ayələrini onlara oxusun, Kitabı və hikməti onlara öyrətsin və onları günahlardan təmizləsin! Həqiqətən, Sən Qüdrətlisən, Müdriksən!”» (əl-Bəqərə, 129)

Allah da onun duasını qəbul etmiş və Muhəmməd peyğəmbəri ərəb soyundan son peyğəmbər etmişdi.

Başqa bir duasında isə İbrahim peyğəmbər belə dua etmişdi:

«Bir zaman İbrahim dedi: “Ey Rəbbim! Buranı (Məkkəni) təhlükəsiz bir şəhər et, onun əhalisinə, – onlardan Allaha və Axirət gününə iman gətirənlərə – hər növ məhsullardan ruzi ver!” Allah dedi: “Mən kafir olanlara bir qədər zövq almağa izin verərəm, sonra da onları Cəhənnəm əzabına

giriftar edərəm. Ora necə də pis dönüş yeridir!"» (əl-Bəqərə, 126)

**Altıncı məsələ: İslam nəyə görə ərəblərə gəldi? Quran başqa dildə olsaydı nə olardı?**

Sonuncu din olan İslamın müqəddəs kitabının Ərəb dilində olması və sonuncu Peyğəmbərin ərəblərin içindən çıxmasının bəzi hikmətləri vardır.

**a)** Əvvəla, bilməliyik ki, ən çox peyğəmbərlər yəhudilərə gəlmişdi. Lakin, elə ki, son peyğəmbər ərəblərə gəldi, yəhudilər onu öz aralarından gözlədikləri üçün qəbul etmədilər. Həqiqətən də yəhudilər bir peyğəmbər gözləyirdilər, lakin, o tövrat və incildə vəsf edilən peyğəmbərin əlamətləri özündə ehtiva edən Muhəmməd peyğəmbəri (Allahın Ona salavatı və salamaı oçsun) yəhudi olmadığı üçün qəbul etmədilər. Məhəmməd və Əhməd sözləri hər ikisi eyni köklü sözlərdir ki, «təriflənmiş» anlamını verir. Allah Quranda hər iki ism olan ayələri nazil etmişdir. Allah yəhudilərin Məhəmməd peyğəmbərə etdikləri paxıllıq barədə belə buyurur:

«Bir zaman Məryəm oğlu İsa demişdi: "Ey İsrail oğulları! Həqiqətən, mən Allahın sizə göndərdiyi, məndən əvvəl nazil edilmiş Tövratı təsdiqləyən və məndən sonra gələcək Əhməd adlı peyğəmbərlə sizi müjdələyən bir elçisiyəm!" Allahın elçisi (Muhəmməd) onlara açıq-aydın dəlillər gətirdikdə onlar: "Bu, aşkar bir sehrdir!"– dedilər. İslama dəvət edildiyi halda, Allaha qarşı yalan uydurandan daha zalım kim ola bilər? Allah zalım adamları doğru yola yönəltməz.» (əs-Saf, 6-7)

Yəhudilər son peyğəmbərin əlamətlərini bilsələr də Onu qəbul etmədilər və inadkarlıq etdilər: Quranda bu belə vəsf edilir:

«Kitab verdiyimiz şəxslər onu öz oğullarını tanıdıqları kimi tanıyırlar. Həqiqətən də, onlardan bir dəstə haqqı bilə-bilə gizlədir.» (əl-Bəqərə, 146)

Beləcə, son peyğəmbərin ərəb olması yəhudilər üçün də bir imtahan oldu. Onlar isə bu imtahandan üzüağ çıxmadılar və paxıllıqdan dolayı haqqı qəbul etmədilər. Allah Quranda bu barədə buyurur: «Onlara Allah tərəfindən özlərində olanı təsdiqləyən bir Kitab (Quran) gəldikdə onu inkar etdilər. Halbuki əvvəllər kafirlər üzərində qələbə diləyirdilər. Onlara tanıdıqları peyğəmbər gəldikdə isə onu inkar etdilər.» (əl-Bəqərə, 89)

Sizi inandırım ki, əgər son peyğəmbər yəhudilərə gəlsəydi, onda Allahı inkar edənlər bunu da bir bəhanə edərdilər. Allah isə hər şeydən Xəbərdardır və qullarına nəyin daha uyğun olduğunu daha yaxşı Bilir!

**b)** Həmçinin, Ərəb dili çox zəngin bir dildir. İlahi kəlamın ərəbcə nazil edilməsinin hikmətlərindən biri də bu dildə incə məqamların və incə ifadələrin daha dəqiq ifadə edilməsinin mümkünlüyüdür. Həm də Quran dili ərəb şairlərinə də meydan oxuyur və onları heyran edirdi. Uca Allah Qurani-Kərimdə buyurmuşdur: «Həqiqətən, Biz onu ərəbcə Quran olaraq nazil etdik ki, başa düşə biləsiniz.» (Yusuf, 2)

Sizi inandırım ki, əgər Quran kitabı başqa dildə olsaydı və sonuncu Peyğəmbər ərəb olmasaydı, yenə də imansız ateistlər olacaq, yenə də din inkar olunacaqdı. Allah

Qurani-Kərimdə buyurur: «Əgər Biz onu yad bir dildə Quran etsəydik, onlar deyərdilər: “Nə üçün onun ayələri müfəssəl izah edilməmişdir? Yad dil və ərəb peyğəmbər?!” De: “O, iman gətirənlərə doğru yol göstəricisi və şəfadır”. İman gətirməyənlərin isə qulaqlarında tıxac vardır. Onlar ona qarşı kordurlar. Onlar sanki uzaq bir yerdən çağırılırlar.» (Fussilət, 44)

Həmçinin, ərəb dili o qədər zəngin dildir ki, bu dildə on iki milyon söz olduğu bilinməkdədir. Başqa dillərdən nə rus, ingilis, nə fransız, nə alman dili, nə də qeyrisində bu qədər söz ehtiyatı olan ikinci bir dil yoxdur. Həmçinin, başqa dillərdə yüz ildən bir, bir çox sözlər təzələnir və bir çox sözlər itib gedirsə də, ərəb dilindəki sözlər əsrlərdir ki, qədim lüğətlərdə saxlanılır və ədəbi dildə də istifadə olunur. Həmçinin, ərəb dilində çox incə məqamları və incə hisləri ifadə etmək də mümkündür. Təbii ki, sonuncu ilahi kitab yalnız belə bir əsrarəngiz dildə nazil ola bilərdi. Bu halda Quran ən anlaşılan və insan fitrətinə ən uyğun bir dildə insanlara çatdırılacaqdı.

Ona görə də Allah Quranda buyurmuşdu: «Həqiqətən, Biz onu ərəbcə Quran olaraq nazil etdik ki, başa düşə biləsiniz.» (Yusuf, 2)

**c)** Yuxarıda İslamın fitrət dini olmasından bəhs etmiş və Ərəblərin də fitrətinin saf qalmasından danışmışdıq. Mərd, cəsur, dözümlü və qonaqpərvər insanlar həmin dövrdə İslamın dünyaya yayılması üçün ən münasib insanlar idilər. Onlar köçəri həyat şəraitində yaşamağa uyğunlaşmış, uzun səfərlərə öyrəşmiş insanlar idilər ki, məhz belə insanlar dini uzaq məsafələr qət edərək İslamı dünyaya yaymağı bacaracaqdılar. Qurani-Kərimin xitabı da məhz fitrətə uyğun bir xitab idi. Həmçinin, bu xitab ən aşağı bir qövmə xitab edirdi ki, insanlara dinlərindən heç bir qaranlıq

məsələ qalmasın. Ona görə də heç qəribə deyil ki, bu gün bizim din barədə düşündüyümüz bir çox sualları bədəvi ərəblər gəlib peyğəmbərdən soruşmuşlar.

**d)** Həmçinin, İslamın gəldiyi bölgə olan yaxın Şərq bəşər tarixinin ən qaynar bölgəsi idi ki, bu məntəqə vasitəsilə İslam bütün dünyaya yayılacaqdı.

**e)** İslam dini insanı kamilləşdirən bir dindir. Ona görə də həmin dövrdə çox pis vəziyyətdə olan ərəbləri İslam dini qat-qat yaxşı dəyərlərə malik edərək islah edəcək və ümumbəşəri bir dinin xidmətçilərinə çevirəcəkdi.

**f)** Hər bir peyğəmbər öz qövmündə olan möcüzəylə gəldiyi kimi Muhəmməd peyğəmbər (Allahın Ona salavatı və salamı olsun) də öz qövmünün inkişaf etdiyi sahəyə uyğun möcüzəylə gəlmişdi. Onun möcüzəsi Quran idi. İsa peyğəmbərin tibb elminin inkişaf etdiyi bir cəmiyyətdə ölüləri diriltməsi, Musa peyğəmbərin sehrbazlığın yayıldığı bir cəmiyyətdə qeyri adi və müxtəlif möcüzələr göstərərək sehrbazları aciz qoyması və s. kimi Muhəmməd peyğəmbərin qövmündə də şeir, ədəbiyyat, bəlağətli danışıq inkişaf etmişdi və Quran onları aciz qoyaraq ən inkişaf etdikləri sahədə olanlara böyük bir mesaj verdi ki, bu həqiqətən də Allahın kəlamıdır. Həmin dövrdə ərəb dilinin incəliklərinə bələd olan şairlər heyrətdə qaldılar ki, bu kitab nə bəşər sözünə bənzəyir, nə şeirə, nə sehrə və s. bu da Quranın seçildiyi ecazkarlıq idi. Amma, Muhəmməd peyğəmbərin digər möcüzələrinə gəldikdə bu barədə sərbəst bir yazıda danışmaq daha məqsədəuyğundur.

**Yeddinci məsələ: Ərəb olmaq hələ müsəlman olmaq demək deyil.**

Günümüzün ərəbləri çox dəyişiblər. Üstəlik də dindən çox uzaqlaşıblar. Bu həqiqəti məncə dindar olmayanlar da bilirlər. Çox gözəl… Onda görəsən onların ərəb deyəndə «müsəlman belə etdi, müsəlman elə etdi» deməléri insafdandırmı? Bir məfhuma qiymət vermək üçün o məfhumun əsaslarına baxmaq lazımdır. Sonradan həmin məfhuma nisbət olunanlarla o məfhumun əsasları (əgər o məfhumun əsasları sabit və dəyişilməzdirsə) dəyişilmir. Başqa bir amil isə bizim xalqın əksərinin dünyada on altıdan çox Ərəb ölkəsinin olduğunu bilməmələridir ki, onlar ölkəmizə gələn ərəb turistlərin hamısının ərəbistandan gəldiyini zənn edirlər. Bu korkoranə və cahilanə yanaşma tərzi bəzi ateistlərdə də müşahidə olunur. Bunu isə ölkələrinə getdiyin zaman dindən olduqca uzaq, ərəbcə danışmağa adam tapa bilmədiyin, ingiliscə danışmağın dəb olduğu dubay turistlərini bizə misal çəkib «bu da müsəlmanlar» deyən ağzıgöyçəklərin danışığından sezə bilərsiniz. Ərəblərin təmizliyi də dinə əməl etmələri kimi hansı ölkədən gəlmələrinə görə dəyişir. Bu barədə başqa bir yazıda daha geniş danışmaq mümkündür. Xülasə, dinimiz təmizliyi əmr etdiyi halda kimsə ona əməl etmirsə, şəxslər dinə xələl gətirmir. Çünki, müsəlmanlar bu dinə əməl etdikcə inkişaf etmiş, əməl etmədikcə isə geri qalmışlar. Lakin, bəzi insanların dinin özünə, əsaslarına baxmadan vaxtilə o dinə dəvət etmiş, indi isə özü dinə əməl etməkdə zəifləyən (ərəb) insanlar barədə həddən artıq «nümunəvilik gözləntisi» etmələri bir yana, üstəlik, onların hərəkətləriylə dinə qiymət vermələri bir növ savadsızlıq və cahillikdir. Çünki, bir insan əgər dinə müxalif əməllər edirsə, birincisi, bilməliyik ki, o insan dini təmsil edə bilməz. Əgər o dini təmsil edə bilməzsə, deməli «nümunə» də ola bilməz. Elə bu məsələnin ikinci qəribə tərəfi də odur ki, bəziləri

«dindən uzaqlaşmış insanları dinə qiymət vermək meyarı etməkdə» həddi aşmışlar. Bir misal verək; məktəb və universitetlərdə bir çox fizika müəllimləri var. Onlar bir növ fizika elmini təmsil edən insanlardırlar. Lakin, biz onlardan hansınınsa və ya bəzilərinin savadsız, elmi əsası olmayan danışıqlarını və bəzi hərəkətlərini əsas gətirərək deyə bilmərik ki, «fizika elmi pis elmdir». Əksinə biz əsaslarına baxdıqda fizika elminin necə faydalı bir elm olduğunu biləcəyik. Onda nə üçün bunu dünyəvi elmin mənsublarına tətbiq etmir, amma, dinin mənsublarına tətbiq edirik. İslam və ərəblərin əməllərini müqayisə etmək də bunun kimidir. Bunu birdəfəlik beynimizə həkk etməliyik ki, ərəb demək İslam demək deyil. Onda gərək misirdəki və başqa yerlərdəki 17 milyon Qibti ərəb xristianlarını da gərək İslama nisbət edək. Axı onlar da ərəbdirlər. Axı onlar da sabah ölkəmizə istirahətə gələ bilərlər. Hələ biz qərbliləşmiş və dindən tamamilə uzaqlaşmış ərəblərdən və onların sayından danışmırıq. Sonda belə nəticə çıxır ki, ərəb olmaq hələ müsəlman olmaq deyil. Belə olduqda bu insanlara baxıb İslam dininə qiymət vermək doğru deyil. Əksinə, bir şeyə qiymət vermək üçün o şeyin əsaslarına baxmaq lazımdır.

**• Bir şübhəyə cavab:**

Əz-Zuxruf surəsi 44-cü ayəni gətirənlər iddia edirlər ki, bu ayə «Ərəbin dini» sözünə dəlildir və onu göstərir ki, bu Quran İslam dini yalnız ərəblərə aiddir. Ayə belədir: «Doğrusu, bu Quran sənin üçün və sənin xalqın üçün bir şərəfdir. Siz sorğu-suala tutulacaqsınız.» (əz-Zuxruf, 44)

**Cavab**: Ayədən də göründüyü kimi burada Quranın ərəblərə bir şərəf olduğuna işarə edilir. Zatən, Quran hansı dildə göndərilsəydi, o dilə mənsub olan xalq bunu sevinclə xatırlayardı.

Əksinə, Qurani-Kərimdən bir çox dəlillər bu dinin və bu dinin elçisinin bütün bəşəriyyətə göndərildiyinə dəlalət edir. Ona görə də Allah buyurmuşdur:

**1)** «Səni də aləmlərə ancaq bir rəhmət olaraq göndərdik.» (əl-Ənbiya, 107)

**2)** Başqa ayədə buyurur: «De: Ey insanlar! Şübhəsiz ki, mən sizin hamınız üçün Allahın Elçisiyəm.» (əl-Əraf, 158)

**3)** Başqa ayədə də bu həqiqət təsdiqlənir: «Bu Quran mənə vəhy olundu ki, onunla sizi və onun çatacağı hər kəsi xəbərdar edim.» (əl-Ənam, 19)

Qeyd olunan üç ayə bir-birini, yəni eyni mənanı təsdiqlədiyi kimi şübhə kimi gətirilən ayə də bu ayələrə zidd deyildir. Bu ayəni şübhə kimi gətirənlər təlbis (haqqa batil donu geyindirmək) edirlər. Bu ayə nə Quranın sırf ərəblərə aid olduğunu deyir, nə də qeyd etdiyimiz ayələrə zidd deyil. Bir kitabın öz əhlinə şərəf olmaqla yanaşı başqalarına da öyüd-nəsihət olması məntiqi cəhətdən də qəbulolunandır. Onda görəsən Quranda səhf tutmaq istəyənlər özlərinin Qurana səhf baxışlarını düzəltsələr yaxşı olmazdımı?

**• Daha bir şübhənin cavabı:**

Bəziləri deyir ki, bu ayə də Peyğəmbərlərin ancaq öz qövmünə gəldiyinə dəlildir: «Biz hər bir elçini ancaq öz xalqının dilində danışan göndərdik ki, haqqı onlara bəyan etsin.» (İbrahim, 4)

**Cavab:** Allah bir çox peyğəmbərləri yalnız öz qövmünə göndərmişdir. Lakin, o peyğəmbərlərə kitab verməmişdir. Həmçinin, bu ayədə qəsd olunan peyğəmbərlər yalnız öz qövmlərinə göndərilmişdilər. Peyğəmbərlərdən az bir qisminə isə kitab və şəriət verilmişdir. Şəriət verilməyən Peyğəmbərlər özündən əvvəl şəriət və kitab verilən peyğəmbərin şəriəti ilə əməl etməli idilər. Bu da əsasən öz qövmünə göndərilən peyğəmbərlərin tabe olduqları yol idi. Amma, Musa və İsa kimi yeni şəriət və kitabla göndərilən iki ayrı peyğəmbər eyni millətdən olsalar da şəriətləri, kitabları, millətləri və zamanları fərqli idi. Ona görə də şəriət hökmləri də fərqli idi. Muhəmməd Peyğəmbərin də şəriəti, kitabı, milliyyəti və göndərildiyi zamanı fərqli idi. Həm də ondan sonra peyğəmbər gəlməyəcəkdi. Ona görə də Muhəmməd peyğəmbərin peyğəmbərliyi Allah tərəfindən daha fərqli edildi. Bu peyğəmbərliyin bütün peyğəmbərlərdən fərqli cəhətləri var: bunlardan:

**1)** Məhəmməd peyğəmbər sonuncu peyğəmbərdir. Bunu da bu Quran ayəsi təsdiqləyir:

«Lakin o, Allahın Elçisi və peyğəmbərlərin sonuncusudur.» (əl-Əhzab, 40)

**2)** Muhəmməd peyğəmbər təkcə öz qövmünə deyil, bütün insanlara göndərilmişdir. Buna da dəlil Quranın bu ayəsidir:

«Biz səni bütün insanlara müjdə verən və xəbərdarlıq edən bir peyğəmbər kimi göndərdik. Lakin insanların çoxu bunu bilmir.» (Səba, 28)

Başqa ayədə Allah buyurur:

«Aləmləri xəbərdar etməsindən ötrü Öz quluna Furqanı (Quranı) nazil edən Allah necə də xeyirxahdır!» (Furqan, 1)

Bir az sonra qeyd edəcəyimiz ayə isə açıq aydın dəlildir ki, bu şübhəni gətirənlər Quranın əsil muradını başa düşməyiblər, halbuki, peyğəmbərlərin çoxunun öz qövmünə göndərilməsilə, sonuncu peyğəmbərin bütün insanlara göndərilməsi əqli cəhətdən zidd olmadığı kimi, şəri baxımdan da zidd deyildir. Əksinə, ağıl onu gərəkdirir ki, əgər bir peyğəmbər sonuncu olacaqsa, bu peyğəmbərlik bütün insanlığa uyğun orta xitab etməli, üstəlik də onun şəriəti Qiyamətə kimi insanlara kifayət etməlidir. Diqqətlə yanaşsaq, görərik ki, həqiqətən də Muhəmməd peyğəmbərin peyğəmbərliyi bu xüsusiyyəti özündə daşıyır. Dediyimiz açıq-aydın ayə isə budur: «De: “Ey insanlar! Şübhəsiz ki, mən sizin hamınız üçün Allahın elçisiyəm.» (əl-Əraf, 158)

Bu barədə hədisdə peyğəmbər buyurur: «Bir peyğəmbər göndərildikdə o xüsusi olaraq öz qövmünə göndərilirdi. Mən isə bütün insanlara (elçi) göndərilmişəm.» (Buxari, kitəbut-təyəmmum, 328)

Müslimdəki ləfzdə isə bu əlavə vardır: «Mən bütün qırmızı və qaralara (qırmızıdərililər və qaradərililər daxil olmaqla bütün insanlara) göndərildim.» (Muslim, kitəbus-Saləh, 521)

Bu barədə olan hədislərdən biri də budur:

Əbu Hureyrədən rəvayət olunur ki, Allah Elçisi buyurdu: «Muhəmmədin canı əlində olana and olsun ki, yəhudi və xristian ümmətindən hər kim ki, mənim barəmdə eşidib mənim göndərildiyimə iman gətirmədən ölərsə, o kimsə

cəhənnəm sakinlərindən olar.» (Muslim, 153) Bu hədis də Muhəmməd peyğəmbərin bütün insanlara göndərilməsinin dəlillərindəndir.

Allah başqa bir ayədə buyurmuşdur:

«Ey insanlar! Peyğəmbər sizə Rəbbinizdən gələn haqqı çatdırdı. Elə isə iman gətirin! Bu sizin üçün xeyirli olar.» (ən-Nisa, 170) Bu ayə də sırf ərəblərə deyil, bütün insanlara xitab edir.

İslam dini bütün insanları bir, vahid ümmət hesab edir. Allah Quranda buyurur: «Ey elçilər! Halal nemətlərdən yeyin və yaxşı işlər görün! Mən, həqiqətən, sizin nə etdiklərinizi bilirəm! Həqiqətən, bu, vahid bir din olaraq sizin dininizdir. Mən də sizin Rəbbinizəm. Elə isə Məndən qorxun.» (əl-Muminun, 51-52)

Peyğəmbərlər arasında vahid bir din də yalnız bu dinin İslami əsaslara söykəndiyi zaman təsəvvür oluna bilər. Çünki, Allah qatında din yalnız İslamdır. O, İslam ki, təkAllahlılığa dəvət edir, bütün peyğəmbərlər müxtəlif millətlərdən olsalar da onlardan hər biri «Allaha təslim olmaq» olan İslama dəvət etmişlər. Belə olduqda bu əzəmətli din necə ümumbəşəri bir din olmasın?

Bu ayəyə əsasən ərəblər cahiliyyə dönəmində ümmət deyildilər. Əksinə, dağınıq qəbilələr halında idilər. Onları birləşdirən İslam olmuşdu. Bütün bəşəriyyətin dini olan İslam artıq bir çox millətləri öz ətrafında birləşdirmiş və ilk dövrlərdən ümumbəşəri mövqedən çıxış etmişdir.

**3)** Muhəmməd peyğəmbər insanlara və hətta cinlərə belə peyğəmbər göndərilmişdir. Qurani-Kərimdəki «əl-Cinn» surəsi də buna dəlildir.

**4)** Muhəmməd Peyğəmbərin dövründəki ölkə və imperiya rəhbərlərinə göndərdiyi İslama dəvət məktubları, başqa millətləri də İslama dəvət etməsi İslamın ümumbəşər bir din olduğuna, Muhəmməd peyğəmbərin də yalnız ərəblərə deyil, bütün insanlara göndərildiyinə dəlalət edir.

Sonda belə bir nəticəyə gəlmək olur ki, İslama «ərəbin dini» deyənlərin Allahın dinindən xəbərləri yoxdur. Uca Allah buyurur:

«Göyləri və yeri yaradan Allaha şəkk etməkmi olar? O, günahlarınızı bağışlamaq və sizə müəyyən vaxta qədər möhlət vermək üçün sizi iman gətirməyə çağırır» (İbrahim, 10)

# GÜNAH ANLAYIŞINI İNKAR EDƏNLƏR

Bu problem də ateizmdəki şər problemi (the problem of evil) anlayışının gətirdiyi qəribə bir məsələdir. Ateistlər dində olan günah anlayışını o qədər şişirdirlər ki, bunun da ən mühüm amillərindən biri insanı dini bağlılıqdan və dini şüurdan uzaqlaşdırmaq və bir növ ateist kimi düşündürməkdir.

Günah anlayışını inkar etməkdə ateizmin hədəfləri aydındır:

Bu hədəflərdən bunları qeyd edə bilərik:

– Nəfsin istəklərinə tam sərbəstlik vermək.

– Hətta, bəzən cəmiyyətdə abır-həyaya zidd olan bir əməli insanın rahatlıqla edəcək səviyyəyə gəlməsi.

– İnsanları tədricən ateist düşüncəsinə yönəltmək.

Bu məfhum daha çox "beş günlük dünyadır, yeyin, için, kef eləyin deyənlərin" daha çox xoşuna gələn bir ateizm məsələsidir. Bu şübhəyə daha çox əvvəldən dini bağlılıqları olmayıb, dindən tam uzaq olan insanlar deyil, dinə meyli olan və ya dinə müəyyən dərəcədə bağlı olan insanları cəlb etmək də əsas hədəflərdəndir.

Günah anlayışını inkar etmək bir növ dinlə əlaqəli hər şeyi inkar etməkdən qaynaqlanır. Yoxsa, ateist biri günah anlayışını inkar etməklə özünü bəzi suallarla qarşı-qarşıya qoyur. İnsan əməllərindən hansı dərəcədə məsuliyyət daşıyır? İnsanın əməllərinə məsuliyyəti kim təyin edir? İnsan hər istədiyini edərsə, dünyanın sonu gəlməzmi? Bütün insanların pis və yaxşı əməli öz nəfsinə, kefinə və

havasına görə təyin etməsi yaxşıdırmı? Görəsən, milyonlarla fikir sahibinin hərəsinin öz günah anlayışı yoxdurmu? Ateistin günah anlayışını kim tənzim edir? Biri bir əməli öz ağlına görə günah görür, digəri isə görmür, niyə? Deməli, ateizmdə nəyin günah, nəyin yaxşı, nəyin pis olduğu insanların nəfsinə, havasına tərk olunur. Bu kimi sualları çoxaltmaq olar. Lakin, ateistlərin bu çaşqınlığına baxmayaraq, İslamda əsas günahlar aydındır və günahlar Quran və hədislərdə bəyan edilmişdir. Şəriətin təməl qaydaları isə o qədər aydındır ki, hansısa yeni bir əməlin İslama uyğun olub olmadığını çox asanlıqla ayırd etmək mümkündür.

Günahı küçümsəmək, günahı adi bir hal kimi qəbul etmək bəşər övladını həlaka aparan səbəblərdəndir.

Ona görə də Muhəmməd peyğəmbər (Allahın Ona salavatı və salamı olsun) buyurmuşdur:

***«Həqiqətən, insanlara əvvəlki peyğəmbərlikdən gəlib çatan sözlərdən biri də belədir:***

***«Əgər utanmırsansa, istədiyini et.»***

(Buxari 6120; Əbu Davud 4797)

Ateist düşüncəsinin problemlərindən biri də azadlıq şüarı adı altında insanı həyaya və əxlaqa zidd əməllərə təhrik etməsidir. Təbii ki, belə bir düşüncə «günah anlayışı» ilə mübarizə aparmalıdır. Yoxsa, bir ateist nəyə görə bacı və qardaşın evliliyi barəsində danışıb bunu normal hesab etsin ki?

Həmçinin, hansısa ateist niyə sosial şəbəkədə müəyyən “şərtlərlə” bacı və qardaşın evliliyinə və s… münasibətlərə

normal baxdığını bildirsin ki? Ateistlərin çoxu bunu inkar etsə də, praktiki müşahidə olunan onların fəallarından kifayət qədər bu fikri deyənlərin mövcud olduğu üçün onlara deyirik ki, ola bilər ki, bu gün sən zəif ateist olduğun üçün bu fikirlə razı deyilsən. Lakin, ateist alimlərinin təsdiqlədiyi fikirlərlə tanış olduqca belə bir şəxsin ateizmin bir gərəyi kimi bu fikirləri qəbul edəcəyi heç də uzaq bir ehtimal deyildir. Sizcə bu "şərtlər" ateizmin günah və əxlaq anlayışına hücumlarından biri deyilmi? Məgər azadlıq deyildikdə niyə bəzi insanlarda bütün sərhədləri aşmaq kimi bir fikir formalaşmalıdır? Məgər azadlıq bütün sərhədləri aşmaqdırmı? Bu ifrat azadlıq rəğbəti isə məhz ateizmdə əxlaq problemlərini ortaya çıxarır, sonda isə cəmiyyətlərdəki əxlaq anlayışları ilə çaxnaşmaya gətirib çıxarır.

Günah etdiyi zaman onu heç kimin görməyəcəyini düşünən insanın halı başını torpağa salmış dəvəquşunun halına bənzəyir. O elə bilir ki, hər şey normaldır və ya onu heç kim görmür.

**Allah bizi görür və mələkləri bizə nəzarət edir:**

Təsəvvür edin ki, insan gizlində istədiyi əməli edir və elə bilir ki, onu görən yoxdur. Otaqda tək qaldıqda düşünür ki, artıq məni heç kim görmür və istədiyimi edə bilərəm. Ateist müasir bir kəşf olan gizli kameralaralar və s. metodlarla insanı başqa bir insanın izlənilməsini normal qəbul etsə də, Aləmlərin Rəbbinin ondan xəbərsiz olduğunu düşünür! Çox qəribədir! Elə deyilmi?

**«Yoxsa elə hesab edirdiniz ki, sizi əbəs yerə yaratmışıq və siz heç vaxt Bizə qaytarılmayacaqsınız?»** (əl-Muminun, 115)

Amma, Allahdan qorxan kimsə, hər yerdə əməllərini Görən biri olduğunu bilən kimsə təklikdə belə həyaya zidd əməllər etməkdən utanar, çəkinər, onun hər əməlinin qarşılığını verəcək Rəbbi olduğunu bilər. **«Bəlkə insan özbaşına qoyulacağını güman edir?»** (İnsan, 36)

O müsəlman bilir ki, mələklər onun etdiyi ən kiçik əməlləri belə yazırlar:

**«Həqiqətən, sizin üstünüzdə nəzarətçilər vardır – çox möhtərəm, əməllərinizi yazanlar. Onlar sizin nə etdiklərinizi bilirlər.»** (əl-İnfitar, 10 -12)

O bilir ki, Qiyamət günü bütün əməlləri haqq- hesab olunacaq və o həmin günü əsla unutmur:

**«Hər kəsin kitabı qarşısına qoyulacaq və sən günahkarların orada yazılmış olanlardan qorxduqlarını görəcəksən. Onlar deyəcəklər: "Vay halımıza! Bu necə bir kitab imiş! O nə bir kiçik, nə də bir böyük günahı buraxmadan hamısını sayıb yazmışdır!" Onlar etdikləri əməlləri öz qarşılarında görəcəklər. Rəbbin heç kəsə haqsızlıq etməz!»** (əl-Kəhf, 49)

Müsəlman şəxs bilir ki: **«Kim günah qazanarsa, onu ancaq özünün əleyhinə qazanmış olar.»** (ən-Nisa, 111)

Həm də bilir ki, heç kimə başqasının günah yükü yüklənməz.

**«Hər kəsin qazandığı günah yalnız öz əleyhinədir. Heç bir günahkar başqasının günahını daşımaz.»**(əl-Ənam, 164)

İslamdakı günahlardan tövbə etməkçün insan yalnız Allaha yönəlir. Xristianlıqda isə keşişin yanına getməli və onu Allahla arasında vasitə etməlidir ki, Allah onu bağışlasın. Təhrif olunmuş dinlərdəki günah anlayışından danışmaq fikrimiz yoxdur. Biz son və təhrif olunmamış, bütün insanlara xitab edən, qorunmuş İslam dini açısından məsələyə yanaşır və bir ateistin, o cümlədən də deistin nəfsi və şəhvani istəklərini rahat şəkildə yerinə yetirməsi üçün günah anlayışını necə inkar etməsini müşahidə edirik. İslam dini bütün yaxşı əməlləri əmr edir, pislikləri isə qadağan edir:

**«O peyğəmbər onlara yaxşı işlər görməyi buyurar, pis əməlləri isə qadağan edər, onlara pak şeyləri halal, murdar şeyləri isə haram edər.»** (əl-Əraf, 157)

Həqiqi iman sahibi olub dinində qüvvətli olan bir insanın bu şübhəyə düşməsi imkansızdır. Çünki, Allahla arasında olan əzəmətli rabitə, islah edilmiş bir qəlb, dinin haqq olması barədə tam yəqinlik, Uca Allahın Qüdrət və Əzəmətini dərk etmək belə bir insanı bu və digər azdırıcı fikirlərdən qoruyur. Uca Allah Quranda buyurur:

**«Allah iman gətirənləri dünya həyatında da, axirətdə də möhkəm sözlə sabit saxlayar»** (İbrahim, 27)

Ayədəki möhkəm sabit söz *«Lə iləhə illəllah»* kəlməsidir ki, onun mənasını dərk edib həyatında yaşayan insanı bu dünyasında sabit saxlayar. Hətta, insanı qəbir sıxıntısında da sabit saxlayar. (bax, İbn Kəsirə, son ayənin təfsirinə)

Başqa bir ayədə Allah buyurur:

**«Qoy elm verilən kəslər, bu Kitabın Rəbbin tərəfindən göndərilmiş həqiqət olduğunu bilsinlər ki, ona**

**inansınlar və qəlbləri ona bağlansın. Şübhəsiz ki, Allah iman gətirənləri doğru yola yönəldər.»** (əl-Həcc, 54)

Lakin, İslamda olub İslamın məqsədini anlamayan insanlar yalnız belə şübhələrə düşə bilərlər.

Elə isə günah anlayışını problemli görmək bir insanda necə baş verir?

Fikrimizi belə izah edək: Dinə (müəyyən dərəcədə) əməl edən bəzi insanlarda etdikləri günah səbəbindən bəzən özünə və dinə qarşı ikrah hissi meydana gəlir və ya bəzi günahlarda davamlılıq halı yaranır. Beləcə, işin əvvəli bu pis halı inkar etməklə başlayır, sonra birdəfəlik günahdan qurtulma cəhdləri olur, sonra isə uğursuzluqla üzləşdikdə vəziyyət ümidsizliyə və uğursuzluğa çevrilir. Sonra isə bu cür insanlar İslam əqidəsindən bixəbər olmalarından dolayı bu ümidsizlik və uğursuzluq halını başqa bir səbəblə əlaqələndirməklə aradan qaldırmağa çalışır və sonda bu halı "Allahın onların günah etməsinə mane olmaması" ilə izah edirlər. Beləcə, özlərini deyil, Allahı qınamış olurlar ki, bu haldan Allaha sığınırıq.

Halbuki, Allah Elçisi (Allahın Ona salavatı və salamı olsun) insanların günahlar qarşısında zəif olmalarını ümmətinə izah etmişdir və bilməliyik ki, bu təbii bir haldır. Əgər günahlar cəzbedicilik və ləzzət fitnəsiylə bəzənməsəydi, insan onunla imtahan olunmazdı. Ona görə də Muhəmməd peyğəmbər (Allahın Ona salavatı və salamı olsun) buyurmuşdur:

***«Cəhənnəmin ətrafı şəhvətlərlə örtülmüşdür, Cənnətin ətrafı isə nəfsə ağır gələn şeylərlə örtülmüşdür.»*** (əl-Buxari, 6487)

Şəhvət, ehtiras, tamahkarlıq və s. hislər insanı günahlara, dünyaya aludəçiliyə aparır və axirəti unutdurur. O axirət ki, hər birimizin son mənzilimizdir. İnsanın günahlar və şəhvətlər qarşısında zəif olması onu aldatmalı deyil. Allah buyurur:

**«Allah sizin tövbələrinizi qəbul etmək istədiyi halda, ehtiraslara qapılanlar sizi çox kənara meyl etməyə (haqdan uzaqlaşmağa) yönəldərlər. Allah sizin üçün şəriət hökmlərini yüngülləşdirmək istəyir, çünki insan zəif yaradılmışdır.»** (ən-Nisa, 27-28)

Dedik ki, insanın günahlar önündə zəif olması təbii bir haldır. Bu isə Allahın bizə əvvəlcədən ixtiyar verməsiylə ziddiyyət təşkil etmir. Yəni, əgər günah seçimini özümüz ediriksə, Allahı niyə qınayırıq? Məgər biz etdiyimiz günaha özümüz cavabdeh deyilikmi? Nəyə görə öz günahımıza başqa müqəssir axtarmalıyıq? Axı bu hansı düşüncə tərzidir? Məgər bu ədalətdəndirmi? Əgər bir insana hər hansı bir əməli etmək üçün ixtiyar və seçim haqqı verilibsə, onu xətaya düşməsi gözlənilən bir haldır. İnsan günah etməsəydi mələklərdən olardı.

Amma, çox insan elə bilir ki, mələk yaradılışı etibarilə insandan üstündür. Dərhal İslamı ittiham etmək istədikdə bir İslami həqiqətin onlara meydan oxuduğunu görüb heyrətə gəlirlər. Əgər görə bilsələr… O da bu sualın cavabıdır;

**Əgər mələklər günah etmirlərsə, biz niyə mələk olaraq yaradılmadıq və ya biz niyə günah edirik?** Qısa cavab odur ki:

İnsana ixtiyar verilib, mələyə isə yox. İnsanın əməl dairəsi daha genişdir. Yəni, insan öz ixtiyarı ilə etdiyi əməllər

nəticəsində mələkdən yüksək də ola bilər, heyvandan aşağı da ola bilər. Mələklər isə yalnız Allaha itaət və ibadət etmək işini görürlər. Uca Allah buyurur:

**«O mələklər Allahın onlara verdiyi əmrlərə heç vaxt asi olmazlar və özlərinə buyurulanları yerinə yetirərlər.»** (ət-Təhrim, 6)

O cümlədən də bu dünya qarşılıq dünyası deyil, əməl dünyasıdır. Əməllərin qarşılığı o biri dünyadadır. Bu iki məsələ çox mühüm məsələdir ki, bunları qarışdırmaq olmaz.

Qəribə olan isə budur ki, insana əməlləri etməkçün seçim və ixtiyar verildiyi halda insan öz günahını özü seçir, sonra mən "buna məcbur edildim" bəhanəsini gətirirərək Allahı qınayır, mələklər isə heç ibadətdən, itaətdən başqa işləri olmadığı halda Allaha asilik etmir, Allahı nədəsə ittiham etmirlər. Elə bu məqamdan öz Yaradanına nankorluq edərək özlərini deyil Allahı qınayanların ziddiyyəti aydın görünür. Allah biz insanları heç nəyə məcbur etmir, əksinə, Allah bizi əməllərimizdə ixtiyar sahibi, seçim sahibi etmişdir.

Əbu Hureyrədən rəvayət olunan hədisdə deyilir: Allahın Elçisi (Allahın Ona salavatı və salamı olsun) buyurdu: ***«Canım əlində olan Allaha and olsun ki, əgər siz günah etməsəydiniz, Allah sizi aradan götürər və yerinizə günah edən bir qövm gələr ki, onlar Allahdan bağışlanma diləyərlər, Allah da onları bağışlayar.»*** (Muslim, 2749)

İbrət günah etməkdə deyil, hər kəs günaha yol verir. Allahın qoruduğundan başqa məsum (günahsız) insan yoxdur. Hansısa müsəlmanın günaha düşməsinin onun öz zəifliyinə və ya dininə və ya Allahın qədərlərinə

qəzəblənməsinə səbəb olması doğru deyil. Əksinə, həqiqi ibrət bir kimsənin günah anında günahı xatırlayıb günahdan uzaqlaşmasında və ya günahdan sonra peşman olaraq tövbə etməsindədir.

Uca Allah Quranda buyurmuşdur:

**«O kəslər ki, bir pis iş gördükdə, yaxud özlərinə zülm etdikdə Allahı xatırlayıb günahlarının bağışlanmasını diləyərlər, – günahları Allahdan başqa kim bağışlaya bilər? – onlar bilə-bilə etdiklərinə görə israr etməzlər.»** (Ali İmran, 135)

Ona görə də insanın düşdüyü hansı günah olursa olsun, Allah o günahı bağışlamağa Qadirdir. Nə qədər ki, bu günah ən böyük günah olan Allaha şərik qoşmaq və ya küfr etmək deyildir. Allah Qurani-Kərimdə buyurmuşdur:

**«Şübhəsiz ki, Allah Özünə şərik qoşulmasını bağışlamaz, bundan başqa daha kiçik günahları isə istədiyi kimsəyə bağışlayar. Allaha şərik qoşan kəs iftira atmaqla böyük bir günah etmiş olur.»** (ən-Nisa, 48)

**Təkrar günaha yol verən insan nə etməlidir?**

Əgər bir insan günahından dolayı Allaha tam səmimi şəkildə tövbə edibsə, sonra nəfsinin zəifliyindən dolayı yenə bu günaha yol veribsə, insan yenə tövbə qapısına yönəlməli, Allahdan bağışlanma diləməlidir. İnsan “mən artıq günaha bulaşmışam” deyib, nəfsinə, şeytanına təslim olmamalıdır. Əksinə, qüvvətli iradə və əzmkarlıq nümayiş etdirərək günaha son qoymağa çalışmalıdır.

Allahın Elçisi (Allahın Ona salavatı və salamı olsun) məsələni bizə ətraflı şəkildə izah edərək demişdir:

***«Bir qul günah edər və deyər: Ey Rəbbim! Mən bir günah etdim, mənim bu günahımı bağışla. Rəbbi belə deyər: Qulum onun günahlarını bağışlayan və günaha görə hesaba çəkən (yəni: istədiyi zaman günahın cəzasını verən və bunu gecikdirməyən) bir Rəbbi olduğunu bildi. – Sonra (Rəbbi) onu bağışlayar. Sonra Allahın istədiyi qədər bir müddət yaşadı, başqa bir günaha yol verdi və dedi: Ey Rəbbim, mən başqa bir günah etdim, mənim bu günahımı bağışla! Rəbbi isə belə deyər: Qulum onun günahlarını bağışlayan və günaha görə hesaba çəkən bir Rəbbi olduğunu bildi. – Sonra Rəbbi onu bağışlayar. Sonra Allahın istədiyi qədər bir müddət yaşadı, başqa bir günaha yol verdi və dedi: Ey Rəbbim, mən başqa bir günah etdim, mənim bu günahımı bağışla! Rəbbi isə belə deyər: Qulum onun günahlarını bağışlayan və günaha görə hesaba çəkən bir Rəbbi olduğunu bildi. Qulumu bağışladım. Qoy istədiyini etsin.»*** (Buxari, 7507; Muslim, 2758)

Yəni, Allah: bəndəm nə qədər ki, əməlinə peşman olacaq və məndən səmimi şəkildə bağışlanma diləyəcək, onu bağışlayacağam. – deyir. (Bu cür şəxs həmin günaha bir daha qayıtmamağa niyyət edən kimsədir. Hətta, bundan sonra ona nəfsi və ya şəhvəti qalib gəlsə belə) Çünki, o insan öz Rəbbinin qüdrətini və hesaba çəkməsini səmimi şəkildə etiraf edir, Allahdan qorxur, Allahın onu gecikmədən cəzasını verə biləcəyini bilir, bu cür şəxs günaha da qəsdən qayıtmır, əksinə, günaha dönməməkçün nəfsiylə mübarizə aparır.

Ona görə də maraqlı və başqa bir mənanın şahidi oluruq ki, o da Muhəmməd peyğəmbərin (Allahın Ona salavatı və

salamı olsun) Allah və Elçisinin sevgisinin günahkar müsəlmanların qəlbindən çıxdığına şahidlik etməməsidir. Ona görə də hədislərdən birində bir günahkar barəsində: «Ona lənət etməyin. çünki, o Allahı və Elçisini sevir.» – demişdir. Aşağıda bu barədə danışacağıq – Allahın izniylə.

Bəli, günahkar bir insanın Allah və Peyğəmbərini sevməsində bir ziddiyyət yoxdur. Həmçinin, insanın imanı artır və azalır. İnsanın günaha düşməsinin sözsüz ki, insana təsiri olur. Lakin, bir insanın günaha düşməsi insandan o günahı (şəriətdən haram olması zəruri bilinən) halal görməsi baş vermədikcə müsəlmanın imanının aradan qalxmasına səbəb olmur, onun Allah və Elçisini sevməməsi anlamına gəlmir. Neçə-neçə insanlar vardır ki, Allahı və Elçisini sevmələrinə baxmayaraq bədənlərinin şəhvətlərə çatması asanlaşmışdır.

Əgər dininə əməl edən bir müsəlman bu mənaları hiss edərsə, Allaha and olsun ki, bütün insanlara, hətta, günahkar müsəlmanlara qarşı da təvazökar olar, onları alçaltmaz. Əksinə, onlara və özünə hidayət arzulayar ki, əgər bir gün bu dinə əməl edən müsəlman günaha dalarsa, özünə şəfqətlə yanaşsın və yuxarıda qeyd etdiyimiz kimi (bu günah əmələ) qəzəblənməkdə həddi aşıb sərhədləri keçməsin.

Buxarinin Sahih əsərində Ömər ibnil-Xəttabdan (Allah ondan razı olsun) rəvayət olunur:

Peyğəmbərin zamanında Abdullah adında bir kişi vardı. O, peyğəmbəri güldürərdi (yəni, ona olan sevgisindən dolayı ona baş vermiş hadisələri və gülməli söhbətləri danışardı). Peyğəmbər onu şərab içdiyinə görə qamçılatdırmışdı. (Yəni, Peyğəmbərin bu şəxsə olan sevgisi onun pis əməlinə görə cəzalandırılmasına maneə törətməmişdi). Bir gün yenə

o (şərab içdiyi üçün) gətirilir və peyğəmbər onun qamçılanmasını əmr edir. Bu əsnada oradakı camaatdan biri dedi: «Allahım! Bu (şərab içənə) lənət et!» Bu zaman peyğəmbər buyurdu: «Ona lənət oxumayın! Allaha and olsun ki, o, Allahı və Onun Elçisini sevir.» (Sahih əl-Buxari, 6398)

Yəni, onun Allah və Elçisini sevdiyini bilirəm.

Deməli, əgər bu bir neçə dəfə şərab içən müsəlman şəxsin halıdırsa, onda görəsən başqa günahları edən və ya pis əmələ dalan bir müsəlmanın halı necə olar?

Qoy günah edənlər, tövbə etdikdən sonra yenidən günaha qayıdanlar Allahın Rəhmətindən ümidlərini üzməsinlər və Allahın bu ayəsini oxusunlar:

**«Qullarıma mənim bu sözümü de: "Ey Mənim özlərinə qarşı həddi aşmış qullarım! Allahın rəhmindən ümidinizi üzməyin. Şübhəsiz ki, Allah bütün günahları bağışlayır. O, həqiqətən, Bağışlayandır, Rəhmlidir!"»** (əz-Zumər, 53)

Lakin, bu məqamda mühüm bir qeyd də budur ki, insan Allahın rəhmətinə arxayınlaşıb günahlara dalmaqdan çəkinməlidir. Çünki, Allahın əzabı da şiddətlidir. İslam ümməti orta ümmətdir. Ona görə də müsəlman Rəbbinin rəhmətinə ümid etdiyi kimi, Onun əzabından da qorxmalıdır. Eyni zamanda qul öz Rəbbini sevməlidir. Allahın Rəhimli olması o demək deyil ki, insan bundan istifadə edə bilər və günah edib onsuz "da tövbə edəcəm" fikriylə yenidən günaha qayıdacaq. Aşağıda tövbənin dörd şərtindən danışacağıq ki, bundan biri də həmin əmələ (günaha) peşman olmaqdır. Bundan biri də o günaha bir daha qayıtmamaq əzmilə tövbə etməkdir.

Az öncə qeyd etdiyimiz ayə günahkar insanlar üçün bir müjdədir. Görün Allah günahdan səmimi tövbə edib birdəfəlik xilas olmaq istəyənləri necə təsəlli edir? Lakin, insan Rəbbinin rəhmətindən qafil qalarsa, artıq "günahı onu həlak etdi" düşüncəsinə və ya "Allah onu bağışlamaz" kimi təhlükəli fikirlərə düşərsə, ona "onsuz da günah bataqlığında batırsan", "bu qısa dünyanı istədiyin əyləncə və ləzzət içində keçir" və s. vəsvəsələr gəlməyə başlayar. Belə fikirlərə əyilmək insanın İslam əqidəsindən qafil olmasını göstərir. Əqidəli bir müsəlman dinində yəqin olar və İslam əqidəsindən qafil olmaz.

Bəzi dindar kimsələrin günah anlayışında bu problemə düşməsinin səbəblərindən:

– Günahlar etməkdə və ya təkrarən günahlara yol vermək halına şəxsiyyətin mane olmasında həddən ziyadə nümunəviliyin təsəvvür edilməsi.

– Bu məsələdə nəfsə şiddətli davranmaq və həddi aşmaq bəzən günaha düşdükdə əks nəticələr verir.

– Allahın rəhmətindən ümüdünü üzmək. Halbuki, bu küfrün növlərindən biridir.

– Günahın dərəcələrindən xəbərsiz olmaq. Böyük günahlarla kiçik günahları fərqləndirə bilməmək.

– Şəriət elmi və insan psixologiyası barədə məlumatın azlığı, həmçinin, nəfsi təmizləmək və onunla necə müamilə etmək barədə ixtisas kitablarını mütaliə etməmək.

**Günahdan qurtulmağın yolları:**

**1)** Öncə bil ki, günaha düşmək insanın təbiətindəndir. Lakin, əsas problem insanın günahdan qayıtmaq istəməməsi, nəsihətə qulaq asmaması, moizə edildikdə təsirlənməməsidir. İnsanın məsum (günahsız) olması mümkün deyil, lakin, insanın günahdan bacardığı qədər qorunması mümkündür. Allah Elçisi (Allahın İna salavatı və salamı olsun) buyurmuşdur: ***«Hər bir Adəm övladı (insan) xəta edir. Ən yaxşı xəta edənlər isə çoxlu tövbə edənlərdir.»*** (ət-Tirmizi, 2499; ibn Macəh, 4251; Əhməd, 3/198; əl-Hakim, 4/272)

**2)** Tövbəni şərtlərinə uyğun etmək; tövbənin şərtləri: Səmimi olmaq, peşman olmaq, bir daha o əmələ qayıtmamağa əzm etmək, bir də əgər qul haqqı varsa, o haqqı ödəmək.

**3)** Allaha israrla yalvarıb dua etmək ki, səni bu günahdan qurtarsın və doğru yola yönəltsin.

**4)** Pis dostlardan və günah olan yerlərdən uzaq olmaq lazımdır. Çünki, bu pis dostlar və günah olan yerlər insanı tövbə etdikdən sonra yenidən günaha salan amillərdir. Uca Allah Quranda buyurur: ***«Səhər və axşam çağı Rəbbinin Üzünü diləyərək Ona dua edənlərlə birlikdə özünü səbirli apar.» ayənin sonunda isə deyir: «Qəlbini Bizi anmaqdan xəbərsiz etdiyimiz, nəfsinin istəklərinə uyan və işləri səmərəsiz olan bir kimsəyə itaət etmə!»*** (əl-Kəhf, 28)

Ona görə də Allah Elçisi buyurmuştur: ***«Kişi öz dostunun dinindədir. Elə isə sizdən biri kiminlə dostluq etdiyinə baxsın.»*** (Əbu Davud, 4833; ət-Tirmizi, 2378)

**5)** Saleh dostlarla birgə olmaq, xeyiri xatırladan, xeyirə rəğbətləndirən insanlarla dostluq etmək.

**6)** Tövbədə səmimi və əzmkar olmaq, bir də o günaha qayıtmamaq niyyətilə tövbə etmək ki, belə edilən tövbə uzun müddət əzmkar mübarizədən sonra yenidən nəfsin zəifliyindən dolayı pozularsa, yenidən günaha qayıdan kimsə yenə eyni qayda ilə tövbə etməlidir.

Həsən əl-Bəsri'yə (Allah ona rəhmət etsin) deyildi: *«İnsan günah edir, sonra tövbə edir. Sonra (yenə) günah edir, sonra tövbə edir. Sonra (yenə) günah edir, sonra tövbə edir. Bu nə vaxta qədər belə davam edəcək?!*

*O dedi: «Bunun (tövbədə davamlı olmağı) yalnız möminlərin əxlaqından olduğunu bilirəm.»*

(İmam Əhməd, «Zühd» əsəri)

Qeyd: «Bu o kimsələrin (möminlərin) halıdır ki, günaha qayıtmaq arzusu olmadan şeytanın azdırması ilə günaha qayıdıqdan sonra tövbənin şərtlərinə uyğun şəkildə tövbə edərlər.»

Allah Elçisi (Allahın Ona salavatı və salamı olsun) buyurmuşdur: ***«Günahdan tövbə edən sanki, o günahı etməmiş kimidir.»*** (Sahih İbn Macəh, 3427)

**7)** İnsan günahın bu fünyadakı və axirətdəki zərərləri barədə düşünməlidir.

**8)** İnsan düşünməlidir ki, o insanlardan gizli günah etsə də, əməlini heç nədən gizlədə bilməyəcəyi Allah onu Görür, onun halını Bilir, ona nəzarət edir və Allah ona şah damarından da yaxındır.

Son olaraq ətrafınızda bu fikirdə olanlara, «günah olmasın, ancaq ləzzət olsun, kef olsun» deyənlərin halına, əxlaqına, əməllərinə baxmaqla onların əslində nə istədiklərini anlaya bilərsiniz.

**«Onlara: "Yer üzündə fəsad törətməyin!"– deyildiyi zaman: "Biz ki, ancaq xeyirxahlıq edənlərik!"– deyirlər. Sözsüz ki, onlar fəsad törədənlərdir, amma bunu başa düşmürlər.»** (əl-Bəqara, 11-12)

**İstifadə edilmiş mənbələr:**


1 – Qurani Kərim.

2 – Səhih əl-Buxari. Muhəmməd ibn İsmail əl-Buxari.

3 – Səhihu Muslim, Muslim obnil-Həccac ən-Niysaburi.

4 – Sunəni Əbu Davud, Suleyman ibn Əş'as əs-Sicistani.

5 – Sunən ət-Tirmizi, Muhəmməd ibn İsa ət-Tirmizi.

6 – Sunən bn Macəh. Əbu Abdullah Muhəmməd ibn Yəzid əl-Qəzvini.

7 – Zühd kitabı, İmam Əhməd ibn Hənbəl.

8 – Təfsirul-Quranil-Azim, İbn Kəsir.

9 – Usus ğaibəh 25 məsələh fi muşkilətiş-şərr. Əhməd Həsən.

## ALLAH NİYƏ KAFİRLƏRİ VƏ ZALIMLARI DƏRHAL CƏZALANDIRMIR?

Bəzi insanlar sual verirlər ki, görəsən, Allah kafirləri niyə dərhal cəzalandırmır? Axı onlar müsəlmanları öldürür, zalımlıq edir, yer üzündə fitnə-fəsad yayırlar! Görəsən, bu zülmlərin qarşısını alan olacaqmı? O zalımların bəlası dərhal gəlsə, olmazmı?

İnsanlar buna bənzər bir çox suallar verirlər.

**Əvvəlcə** bildirək ki, sualın qısa cavabı aşağıdakı ayədədir: **«Zalımların etdikləri əməllərdən Allahın xəbərsiz olduğunu sanma. Allah sadəcə onları cəzalandırmağı gözlərin bərələ qalacağı günə saxlayır.»** *(İbrahim, 42).* Əgər Allah hər zalıma dərhal cəza versəydi, yer üzündə insan qalmazdı. Allah insanları bu dünyada sınağa çəkdiyi üçün, zalımlar da öz zülmlərini artırırlar.

Lakin, yuxarıda qeyd etdiyimiz ayədə işarə edildiyi kimi nə üçün Allah onların cəzasını gecikdirir? — sualına gəldikdə isə, bunun bir neçə hikməti vardır. Bunlardan:

**Birincisi:** Allah Bağışlayan və Rəhimli olduğu üçün cəzanı gecikdirir ki, bəlkə qullar tövbə edib Allaha qayıdalar. Uca Allah Quranda buyurur:

**«Rəbbin Bağışlayandır, mərhəmət sahibidir. Əgər Allah onları qazandıqları günahlara görə cəzalandırsaydı, onların əzabını tezləşdirərdi. Lakin onların öz vaxtı vardır. Əzab gələcəyi vaxt onlar heç bir sığınacaq tapa bilməyəcəklər.»** *(ək-Kəhf, 58).*

İmam ət-Təbəri demişdir: Allah öz peyğəmbərinə deyir ki, ey Muhəmməd, qulları günahlarına tövbə etdikləri təqdirdə Rəbbi onları öz əfvi ilə örtəcəkdir. ***«….Mərhəmət sahibidir. Əgər Allah onları qazandıqları günahlara görə cəzalandırsaydı…»*** Bu Allahın ayələrindən üz döndərənlər əgər bununla öz günahları onlara xəbər verilsəydi (xatırladılsaydı), ***«Onların əzabları tezləşərdi» Lakin, Allah öz yaratdıqlarına qarşı Rəhmli olduğu üçün onlar ölənədək və son mənzilə gedənədək bunu etmir.»*** *(Cəəmiul-Bəyən an tə'vili əəy əl-Quran, 18/52)*

**İkincisi:** Allahın Uca sifətlərindən biri də Həlimlikdir. Onun ismlərindən biri də əl-Həlimdir. Ona görə də O cəza verməyə tələsmir. Əksinə, qullarını ehmal etmədən onlara möhlət verir. O istəyərsə, onları cəzalandırmağı bəşər övladının etdiyi kimi dərhal edər. Lakin, Allah yaratdıqlarına bənzəməz.

**a)** Muhəmməd əl-Əmin əş-Şinqiti deyir: «Əgər Allah onları qazandıqları günahlara görə cəzalandırsaydı, onların əzabını tezləşdirərdi.» ayəsində bəyan edilir ki, əgər Allah insanları küfr və asiliklər kimi qazandıqları günahlara görə dərhal cəzalandırsaydı, onların törətdikləri əməllərinin çirkinliyinə görə əzablarını tezləşdirərdi. Lakin, O Həlim olduğu üçün əzab verməkdə tələsmir. O, möhlət versə də ehmal etmir.» (Ədvaul-Bəyan, 4/164)

**b)** Həmçinin, o Allahın bu ayəsi «Əgər Allah insanları hər etdikləri zülmə görə cəzalandırsaydı, yer üzündə heç bir canlını sağ qoymazdı. Lakin, Allah onlara müəyyən vaxta qədər möhlət verir. Onların əcəlinin çatdığı an bircə saat belə nə yubanar, nə də tezləşə bilər.» (ən-Nəhl, 61) barədə demişdir:

Uca Allah bu ayəti-şərifdə deyir ki, əgər O, yaratdıqlarına əzab verməyə tələssəydi, yer üzündə olanların hamısını

həlak edərdi. Lakin, O Həlim olduğu üçün əzab verməyə tələsmir. Çünki, tələsmək fürsəti əldən verməkdən qorxan birinin halıdır. Göylərin və yerin Rəbbi isə bir şeyi etmək istədikdə onu fövtə verməz (əldən çıxarmaz).

Allah bu mənanı bu ayədən qeyri yerlərdə də qeyd etmişdir. Necə ki, Fatir surəsinin sonunda buyurur: **«Əgər Allah insanları etdikləri günahlara görə dərhal cəzalandırsaydı, yer üzündə bir canlını belə sağ buraxmazdı.»** *(Fatir, 45)*
Bu ayədə isə: **«Lakin, Allah onlara müəyyən vaxtadək möhlət verir.»** — deyə işarə edərək bildirmişdir ki, Allah möhlət verir, lakin unutmur.

**Üçüncüsü:** Heç bir şəkk yoxdur ki, Axirətdə kafirlərin əzabı baş verəcəkdir. Lakin, bu cəzanın gecikməsi o deməkdir ki, hələ Allahın onlara təyin etdiyi cəzanın vaxtı gəlməmişdir, hansı ki, bu Qiyamət günü baş verəcəkdir. Uca Allah buyurmuşdur:

**«Əgər Rəbbin tərəfindən əzəldən bir Söz olmasaydı, aralarında dərhal hökm verilərdi. Həqiqətən, onlar Quran barəsində də şübhə doğuran şəkk içindədirlər.»** *(Hud, 110).*

Həmçinin, buyurmuşdur: **«Əgər Rəbbin tərəfindən əvvəlcədən vəd edilmiş Söz və müəyyən edilmiş bir vaxt olmasaydı, əzab onları dərhal yaxalayardı.»** *(Ta-ha, 129).*

Başqa bir ayədə: **«Rəbbin Bağışlayandır, mərhəmət sahibidir. Əgər Allah onları qazandıqları günahlara görə cəzalandırsaydı, onların əzabını tezləşdirərdi. Lakin, onların öz vaxtı vardır. Əzab gələcəyi vaxt onlar heç bir sığınacaq tapa bilməyəcəklər.»** *(əl-Kəhf, 58).*

Həmçinin: **«Zalımların etdikləri əməllərdən Allahın xəbərsiz olduğunu sanma. Allah sadəcə onları cəzalandırmağı gözlərin bərələ qalacağı günə saxlayır.»** *(İbrahim, 42).*

**a)** Bəğavi təfsirində demişdir:
«Əgər Rəbbin tərəfindən əvvəlcədən vəd edilmiş Söz və müəyyən edilmiş bir vaxt olmasaydı…», Buradakı «Söz» — ün mənası: Onlara əzabın gecikməsi barədə hökmdür. Yəni, əgər onlara əzabın gecikməsi barədə hökm və müəyyən edilmiş bir vaxt olmasaydı… Bu (müəyyən edilmiş vaxt) isə Qiyamətdir.

«Bu dərhal baş verərdi» : Yəni, keçmiş əsrlərdə yaşayan kafirlərə dərhal əzab gəldiyi kimi bu əzab onlara dərhal gələrdi. (Təfsirul-Bəğavi, 5/302)

**b)** İbn Kəsir (Allah ona rəhmət etsin) demişdir:
«Əgər Rəbbindən, müəyyən bir vaxtadək Söz verilmiş olmasaydı» Yəni, əgər Allah tərəfindən qullara onların haqq-hesabının diriliş gününə gecikdirilməsi olmasaydı, dünyada ikən onların əzabı dərhal verilərdi.» (Təfsiru ibn Kəsir, 7/195)

**c)** Abdur-Rahmən əs-Sədi demişdir:
«Əgər Rəbbin tərəfindən əvvəlcədən vəd edilmiş Söz olmasaydı…» bu, onların gecikdirilməsi və onlara əzab verilməsində tələsilməməsilədir.

«Aralarında dərhal hökm verilərdi.» ləfzi zalımın cəzanı haqq etməsilədir, lakin, Uca Allahın hikməti onların arasında veriləsi hökmü Qiyamət gününə qədər gecikdirilməsini gərəkdirmişdir. (Təfsirus-Sədi, səh 390)

**d)** Əmin əş-Şinqiti demişdir: Uca Allah «Əzab gələcəyi vaxt onlar heç bir sığınacaq tapa bilməyəcəklər.» ayəsində: bəyan etmişdir ki, hazırkı halda onlara əzab verməsə də onlardan qafil deyil və nə də onlara əzabını tərk etmir, əksinə, onların nə gecikəcək, nə də önə çəkiləcək əzabı dadacaqları bir vaxtı təyin edir.» (Ədvaul-Bəyan, 4/164-165)

**Dördüncüsü:** O kəs ki, Rəbbinin nemətinə qarşı nankorluq edər, onun Rəhmətinə nail olmaq istəməz, küfründə və inadında israr edərsə, o zaman onun əzabının gecikməsi onun üçün əzabın artırılması olar ki, o bu halda günahları çoxalmış, (günahları) onu əhatə etmiş, üzürxahlıq edə bilməyəcəyi, hüccətinin aradan qalxdığı halda əl-Muntəqim və əl-Aziz olan Rəbbiylə qarşılaşar. Uca Allah buyurmuşdur:

**«Allahın Öz elçilərinə verdiyi vədə xilaf çıxacağını sanma. Həqiqətən, Allah Qüdrətlidir, intiqam almağa Qadirdir.»** *(İbrahim, 47).*

Həmçinin, O buyurmuşdur: **«Kafirlər elə güman etməsinlər ki, Bizim onlara möhlət verməyimiz xeyirlərinədir. Biz onlara ona görə möhlət veririk ki, günahlarını daha da artırsınlar. Onlar üçün alçaldıcı bir əzab hazırlanmışdır.»** *(Ali İmran, 178).*

Həmçinin: **«Odur ki, onlardan ötrü əzab diləməyə tələsmə. Biz onların günlərini bir-bir sayırıq.»** *(Məryəm, 84)* — deyə buyurmuşdur.

**a)** İmam ət-Təbəri demişdir: bu ayənin təfsiri «Biz onlara ona görə möhlət veririk ki, günahlarını daha da artırsınlar.» (Ali İmran, 178)

Biz onların əcəllərini gecikdirir, ömrünü uzadırıq ki, günahları çoxalsın. Onlar asiliklər edirlər, beləcə günahları daha da çoxalır.

«Onlar üçün alçaldıcı bir əzab hazırlanmışdır.» yəni, deyir ki: O kəslər ki, Allaha və Elçisinə qarşı küfr etdilər, onlara axirətdə alçaldıcı, zəlil edici bir əzab vardır. (Cə'miul-Bəyən an tə' vili əəy əl-Qurən, Təbəri, 7/423)

**b)** İbn Cərir ət-Tabəri həmçinin demişdir:

O cümlədən də bu ayə: «Odur ki, onlardan ötrü əzab diləməyə tələsmə. Biz onların günlərini bir-bir sayırıq.» (Məryəm, 84)
barəsində deyir ki: Ey Muhəmməd, sən bu kafirlərin əzaba düçar olması və həlak olmasını istəməkdə tələsmə!

«Biz onların günlərini bir-bir sayırıq.» yəni, deyir ki: Biz yalnız onların günahlarının çoxalması üçün onların həlaka uğramasını gecikdiririk. Biz onların bütün əməllərini hesablayır və sayırıq. Hətta, onların nəfəslərini belə, onların bütün əməllərinin qarşılığının verilməsi üçün sayırıq. Biz onların həlak edilmələrinin gecikdirilməsini onlar üçün bir xeyir istədiyimizdən dolayı tərk etmirik.» (Eyni mənbə: 18/252)

Elə isə ey bu qorxulu vədi alan kimsə! Ey bu qədər zülmlərin şahidi olan, qəlbi sıxıntıda olan və zalımlardan intiqam almaq hissi ilə coşub daşan kimsə! Bil ki, qaçmağa bir yer olmadığı halda Uca Allah (haqdan) qaçan günahkara günahına görə haqq etdiyi cəzanı verəcək və onun bir qaçış yolu qalmayacaq!

Buxari (4686) və Muslimdə (2583) Əbi Musə'dən rəvayət olunur ki: Allah Elçisi (Ona və ailəsinə Allahın salavatı və salamı olsun) buyurdu:

«Allah zalımın ömrünü uzadar, əgər onu hesaba çəkərsə, Allahdan qurtula bilməzlər.»

**• Bir şübhə və onun cavabı:**

**Allah niyə kafirləri küfr üzərində davamlı edir? Allah niyə onları hidayət etmir?**

**Cavab:** Hər kəsə öz tutduğu yolun əməli asanlaşdırılar, möminə İslam, kafirə isə küfr yolu.

Allah heç kimə haqsız şəkildə meyl etməz, heç kimi zülm ilə axirətdə digərindən üstün tutmaz. Allah kafirlərlə etdiyi ədalətli müamiləni müsəlmanlarla da edir. O, heç kimə zülm etmir. İslamda cəza əməlin cinsinə görədir. Hidayətə layiq olmayan hidayət olunmur. Haqq yoluna yönəlməyə layiq olanı Allah hidayət edər. Uca Allah buyurur: «Doğru yolla gedənlərə gəldikdə isə, Allah onların hidayətini artırar və onları təqvalı olmağa müvəffəq edər.» (Muhəmməd, 17)

Allah möminlərin doğru yol olaraq seçdikləri eyni yolda hidayətlərini, doğruluqlarını artırar. Həmçinin, Allah elçilərin xəbərləri gəlmiş, sonra isə təkəbbür və inadkarlıq göstərib azmış kimsələr barəsində buyurmuşdur:

«İman gətirdikdən, Peyğəmbərin həqiqi peyğəmbər olduğuna şahid olduqdan və özlərinə aydın dəlillər gəldikdən sonra kafir olan adamları Allah necə doğru yola

yönəldər? Allah zalım adamları doğru yola yönəltməz.» (Ali İmran, 86)

Bu o deməkdir ki, bütün qeyri müsəlmanlar özləri küfr yolunu seçirlər. Sadəcə onlar buna layiq olduqları üçün bu Allahın iradəsi və icazəsiylə baş verir. Buna görə də belə bir şər Allaha nisbət olunmur O kəslər ki, onlara haqq gəlib çatdı və İslamın haqq olduğunu dəlilləriylə bildilər, bundan sonra bilə-bilə yollarını azdılar, Allah onlar barəsində deyir: «Onların qəlblərində xəstəlik vardır və Allah da onların xəstəliyini artırmışdır. Yalan söylədiklərinə görə də ağrılı-acılı bir əzab çəkəcəklər.» (əl-Bəqərə, 10)

Həmçinin, Allah buyurmuşdur: «Allahı unudan, buna görə də Allahın onları özlərinə unutdurduğu kəslər kimi olmayın! Onlar fasiqlərdir.» (əl-Həşr, 19)

Həmçinin, buyurmuşdur: «Əgər Allah onlarda bir xeyir olduğunu bilsəydi, əlbəttə, onlara eşitdirərdi. Əgər onlara eşitdirsəydi belə, yenə də üz çevirərək dönərdilər.» (əl-Ənfal, 23)

Məhz elə bu məqamda, bu dəlillərdən sonra biz bu ayəni daha yaxşı anlaya bilərik: «Allah istədiyi kimsəni belə azdırır, istədiyini də doğru yola yönəldir.» (əl-Muddəssir, 31)

Ona görə də hidayət olunan hər bir kəsin mütləq şəkildə Allahın hidayəti ilə doğru yola yönəlməsi labüddür. Bu ayə də həmin mənaya dəlalət edir: «Şübhəsiz ki, doğru yola yönəltmək Bizə aiddir.» (əl-Leyl, 12)

O cümlədən də, qulun hidayət üzərində sabit qalması, hidayətinin artması da Allahın qulu buna müvəffəq etməsi və qulun Allaha dua etməsilədir.

Bunun əksi isə: elə bir azdırılma yoxdur ki, onda Allahın istəyi və ədaləti olmasın. Əgər Allah istəsəydi ki, insanlar azmasın, bunu edərdi. Lakin, bu zaman ona iman etməyin heç bir qiyməti olmazdı. Eləcə də onların iradə (seçim, ixtiyar) azadlığı və imtahan hikməti aradan qalxmış olardı.

**Bəzi insanlarda bu şübhələrin əmələ gəlmə amillərindən:**

— Bilərəkdən, öz iradəsi və öz azad seçimiylə küfrə düşənlər (dindən çıxanlar) barəsində həddən artıq nümunəvilik fikriylə yaxşı zəndə olmaq.

— Kafirlərə cəhənnəm əzabı verilməsinə həddən artıq «ürəyiyananlıq etmək» və «kövrəklik» etmək.

— Allahın Ədalətinin mənasını bilməmək və bu məsələdə həqiqi iman güvənliyinin olmaması.

— Şəriət elminin azlığı, Quranı, ayələrini az tədəbbür etmək və ayələr barədə düşünmək.

— Duanın faydası haqqında az düşünmək.

**İstifadə edilmiş mənbələr:**

**1** — Qurani-Kərim.
**2** — Cəamiul-Bəyən an tə'vili əəy əl-Quran, ibn Cərir ət-Tabəri.
**3** — Təfsirul-Quranil-Azim, İbn Kəsir.
**4** — Məalimut-Tənzil fi təfsiril-Quran, Bəğavi.
**5** — Ədvaul-Bəyən fi İydaahil-Qur'əni bil-Qur' ən, Muhəmməd əl-Əmin əş-Şinqiti.
**6** — Teysirul-Kərimur-Rahmən fi təfsiri Kələmil-Mənnən, Abdur-Tahmən əs-Si'di
**7** — Səhih əl-Buxari, Muhəmməd ibn İsməil əl-Buxari.
**8** — Səhihi Muslim, Muslim ibn əl-Həccac ən-Niysaburi.
**9** — Usus Ğaibəh, 25 məs'ələh fi muşkilətiş-Şərr. Əhməd Həsən.
**10** — Şərhu əl-Aqidətut-Tahaviyyə, ibn Əbil-İzz əd-Diməşqi. Təhqiq: Şueyb əl-Arnavut və Abdullah ət-Turki.

## O DÜNYADAN KİM GƏLİB Kİ? – SUALINA CAVAB.

Bəzi insanlar belə deyirlər: «O dünyadan kim gəlib ki, biz də inanaq?!»

Biz isə onların bu sualına aşağıdakı bəndlərlə cavab veririk:

**Birinci: İnsanın bir şeyi görməməsi, o şeyin mövcud olmamasına dəlalət etmir;** Havanı gözlə görmədiyimiz kimi…. İnsanların beynini görmədiyimiz kimi…. Mikrobu böyüdücü cihazın köməyi olmadan adi gözlə görmədiyimiz kimi….
Bunu həm elm, həm də ağıl qəbul edir. Eləcə də bu qaydaya əsasən biz cənnəti, cəhənnəmi görməsək də, artıq Allahın bu yerləri yaratdığına inanırıq. Mikrobun mövcudluğunu hər birimiz təsdiqləyirik. Lakin, mikrobun bu əsrdə elmə bəlli olması o demək deyil ki, mikrob bu əsrdə var və başqa əsrlərdə olmayıb!… Əksinə, mikrob bundan əvvəlki əsrlərdə də mövcud olmuşdur. Bunun kimi də başqa gözlə görmədiyimiz və sonradan varlığı isbat edilən şeyləri də buna misal çəkmək olar.

**İkinci: O dünyaya olan ehtiyac;** Heç kim bu dünyada istəmir ki, əbədi həyatı olmasın. Hər kəs qayğısız və firavan yaşamağı, əbədi yaşamağı, heç ölməməyi arzulayır. Heç kəs qocalmaq istəmir. Qocalsa da ölmək istəmir. Əslində sağlam düşüncəli hər bir insan axirət aləmini, haqq ədalət aləmini arzulayır. Bu dünyada zülmə, haqsızlığa məruz qalmış insanların öz haqlarını almadan, yaxşılıq edənlərin mükafatlanmadan, pislik edənlərin də öz cəzasını çəkmədən bu dünyadan köçməsini, başqa bir aləmdə də bu ədalətin baş tutmayacağını demək sadəcə bir iddiadır. **Elə bir insan yoxdur ki, əbədi yaşamağı, ölməməyi və firavan yaşamağı arzulamasın!** Bu arzu isə əslində

cənnətdə gerçəkləşəcəkdir. Yəni, o insanlar özləri də bilmədən cənnəti arzulayırlar. Cənnətə daxil olan bir də oradan əbədi çıxmaz və naz-nemətlər içində firavan yaşayar. Cənnətdə qocalmaq, ölüm, ağrı-əzab yoxdur. Hətta, orada yorğunluq da olmayacaqdır! Allah biz insanların fitrətini elə yaradıb ki, biz bəzən özümüz də bilmədən cənnəti arzulayır və elə xəyallar qururuq ki, bu yalnız cənnətdə mümkündür! Lakin, heç bu barədə düşünmürük.

**Üçüncü**: **Əslində ordan (o dünyadan) bu dünyaya kimsə gəlmir! Lakin, bu dünyadan kimsə o dünyaya gedir;** Bu, ümumi bir haldır. Allah insanların belə suallar verəcəklərini bildiyi üçün son peyğəmbərinə o dünyanı, cənnəti və cəhənnəmi göstərmişdir. Bu normalda baş verməyən hal olduğu üçün bizə nisbətdə möcüzə hesab edilir. Lakin, bu o demək deyil ki, insanların əksəriyyəti o dünyanı görməlidirlər. Zatən bu vacib olsaydı, onda bu imtahan dünyasının bir mənası olmazdı. Bu vacib olmayan halı Allah möcüzə ilə gerçəkləşdirmiş, qullarından bəzilərini öldükdən sonra diriltmiş, bəzilərini illərlə yuxuya verib sonra ayıltmış, bəzisinə isə o dünyanı göstərmişdir. Sonuncu Peyğəmbərə cənnəti və cəhənnəmi göstərdiyi kimi. Allah bizdən həqiqi iman sahiblərini bu yolla ayırd edir. Allahın Peyğəmbərinə o dünyanı göstərməsi əslində iman əhlinə kifayət edir və bu Allahın hər şeyə Qadir olmasına dəlalət edir. Lakin, Peyğəmbər o dünyanı görsə də, inananlar və inanmayanlar oldu. Əgər inanmayanlar o dünyanı görən bir insanın, yəni, Peyğəmbərin zamanında olubsa, onda bu günümüzdə də belə insanların olması təbiidir. Dediyimiz kimi insan bu dünyadan o dünyaya gedir, lakin, ordan bu dünyaya gəlmir. İnsan ruhlar aləmindən ana bətninə, oradan da dünya həyatına keçid edir. Heç kiminsə bu dünyadan ana bətninə qayıtdığını

görmüsünüzmü?! Onda niyə ölən insanın yenidən dirilməsi istənilsin ki?!! "O dünyadan kim gəlib?" — deyənlər "orada kim doğulub gəlib və ya kim gedib gəlib?" deyə dəqiq bir sual versələr, birinci sualın cavabında oradan kiminsə doğulub gəlməsi mümkünsüzdür. Çünki, insan bu dünyada doğulur, öldükdən sonra o dünyaya, yəni, axirət həyatına gedir. İkinci suala isə cavabı isə odur ki, Muhəmməd Peyğəmbər o dünyaya gedib gəlib və o dünyada gördüklərini ətraflı şəkildə danışmışdır. Lakin, bunun baş verməsi hər bir dövrdə vacib deyildir.

Uca Allah Qurani-Kərimdə buyurur:

«Axirət vədi gəlib yetişdiyi zaman sizin hamınızı məhşərə gətirəcəyik!» (əl-İsra, 104)

«Odun üzərində dayandırıldıqları vaxt onların: "Kaş ki, bizi dünyaya qaytaraydılar! Onda biz Rəbbimizin ayələrini yalan saymayıb möminlərdən olardıq"– dediklərini görəydin!» (əl-Ənam, 27)

Son ayədən də göründüyü kimi bu gün Allahı inkar edib öz şəhvəti ilə yaşamaq istəyənlər min cürə bəhanə axtarsalar belə, "o dünyadan kim gəlib" desələr belə, o dünyaya getdikdə əzabın qorxusundan bu dünyaya qayıtmaq və yaxşı əməllər etmək istəyəcəklər. Lakin, artıq o zaman çox gec olacaqdır. Ona görə də gec olmadan tövbə etmək və Allahdan bağışlanma istəmək lazımdır.

**Dördüncü: Ölüm gerçəyi;** İnsan mütləq öləcəkdir. İnsan özünün öləcəyini qətiyyətlə bildiyi halda ölümdən sonrakı həyata, o dünyaya hazırlıq görməməsi özü ağıla ziddir. Çünki, əgər bir insan bilsə ki, səfərə çıxmalıdır, istər istəməz, bu səfərə hazırlaşır və tədarük görür. Səfər çətin olduqca isə daha çox tədarük görülür. Bizə çətin bir səfərə çıxacağını dəqiq bilə-bilə bu səfərə heç bir hazırlıq görməyən bir insan barədə sual verilərsə, çoxumuz o insanın ağılında qüsur olmaqda ittiham edərik. Lakin, nədənsə, axirət səfərinə, ölümə və ya bəzilərinin təbirincə desək "o dünyaya" gedəcəyini dəqiq bilən bir insan bu səfərə heç bir hazırlıq görmür.

**Beşinci: Allah Muhəmməd Peyğəmbərə o dünyanı (cənnəti, cəhənnməmi, səmanın yeddi qatını və s.) göstərmişdir;**

Allah Muhəmməd Peyğəmbəri İsra gecəsi göy üzünün yüksəkliklərinə (merac səfərinə) qaldırmış, ona səma aləmini, cənnəti, cəhənnəmi və «o dünyadakı» çox şeyi göstərmişdir. O Məhəmməd Peyğəmbər ki, artıq uşaq yaşlarından bütün Qureyşlilərin sevgisini qazanmış, doğru danışmağı ilə məşhur olmuş və hətta «Muhəmmədul-Əmin» adını qazanmışdı. Bütün ömrü boyu doğru danışan, bir dəfə yalan danışdığına şahidlik edilməyən bir şəxs Allah Elçisi olduğunu dedikdə artıq onu yalanlayanlar oldu. Bu da insanların təbii halıdır. İnananlar da olur, inanmayanlar da… «Axirət günü var, yenidən dirilmək var, etdiyimiz əməllərə görə Allah qarşısında cavab verəcəyik» dedikdə, inananlar da oldu, inkar edənlər də. Xülasə, onu deyirik ki, Allah Öz peyğəmbərini merac səfərinə qaldırmış və ona o dünyanı, cənnəti, cəhənnəmi göstərmişdir.

Allah bunu Qurani-Kərimdə təsdiqləmişdir. İsra surəsində belə buyurulur:

«Dəlillərimizdən bəzisini ona (Peyğəmbərə) göstərmək üçün Öz qulunu gecə vaxtı Məscidul-Haramdan ətrafına xeyir-bərəkət verdiyimiz Məscidul-Əqsaya aparan Allah pak və müqəddəsdir. Həqiqətən, O, Eşidəndir, Görəndir.» (əl-İsra, 1)

**Altıncı: Sonda isə gəlin Qurani-Kərimdə o dünyadan kim gəlib deyənlərə verilən bəzi cavabları oxuyaq:**
«Məgər insan onu nütfədən yaratdığımızı görmür? Budur, o indi açıq-aşkar mübahisə edir. O Bizə bir məsəl çəkdi, lakin yaradılışını unutdu. O dedi: “Çürümüş sümükləri kim dirildə bilər?” De: “Onları ilk dəfə yaradan Özü onları dirildəcəkdir. O, hər bir məxluquna yaxşı bələddir.» (Yasin, 77-79)

«Yoxsa onların ağılları bunu onlara əmr edir? Yaxud onlar azğın adamlardır? Yoxsa onlar: “Bunu özündən uydurdun!”– deyirlər. Xeyr, onlar iman gətirmirlər. Əgər doğru söyləyirlərsə, qoy ona (Qurana) bənzər bir kəlam gətirsinlər. Bəlkə onlar öz-özünə yaranıblar? Yaxud onlar yaradanlardır? Yoxsa onlar göyləri və yeri yaradıblar? Xeyr, onlar qətiyyən inanmırlar.» (Tur, 32-36)

«Onlar dedilər: “Həyat ancaq bizim dünya həyatımızdır. Kimimiz ölür, kimimiz də doğulur. Bizi öldürən ancaq zamandır”. Bu haqda onların heç bir biliyi yoxdur. Onlar ancaq zənnə qapılırlar. Bizim aydın ayələrimiz onlara oxunduğu zaman onların dəlili: “Əgər doğru deyirsinizsə, atalarımızı dirildib gətirin!”– deməkdən başqa bir şey deyildir. De: “Allah sizə həyat verir, sonra öldürür, sonra da sizi gələcəyinə heç bir şəkk-şübhə olmayan Qiyamət

günü dirildib bir yerə toplayacaqdır”. Lakin insanların çoxu bunu bilmir.

Göylərin və yerin hökmranlığı ancaq Allaha məxsusdur. O Saatın gələcəyi gün – məhz o gün yalan danışanlar ziyana uğrayacaqlar. Sən həmin gün bütün millətləri diz çökmüş görəcəksən. Hər millət öz əməl kitabına tərəf çağırılacaqdır. “Bu gün sizə etdiyiniz əməllərin əvəzi veriləcəkdir! Bu Bizim sizin əleyhinizə həqiqəti söyləyən kitabımızdır. Şübhəsiz ki, Biz sizin etdiyiniz əməlləri yazdırmışıq!”

İman gətirib yaxşı işlər görənlərə gəlincə, Rəbbi onları Öz mərhəmətinə nəsib edəcəkdir. Bu, açıq-aşkar müvəffəqiyyətdir.

Kafir olanlara gəldikdə isə, onlara deyiləcəkdir: “Məgər ayələrim sizə oxunmurdumu? Siz isə təkəbbür göstərirdiniz və günahkar adamlar idiniz. Sizə: “Allahın vədi haqdır və o Saata heç bir şəkk-şübhə yoxdur!”– deyildiyi zaman: “Biz o Saatın nə olduğunu bilmirik! Onun ancaq bir zənn olduğunu güman edirik. Biz buna əmin deyilik!”– deyirdiniz”.

Onların etdikləri pis əməllər özlərinin qarşısına çıxacaq, istehza etdikləri əzab onları bürüyəcək və onlara deyiləcəkdir: “Siz bu gününüzlə qarşılaşacağınızı unutduğunuz kimi, Biz də bu gün sizi unudacağıq. Sizin sığınacaq yeriniz Cəhənnəmdir. Sizin köməkçiləriniz də olmayacaqdır.

Bu ona görədir ki, siz Allahın ayələrini məsxərəyə qoyurdunuz və dünya həyatı sizi aldatmışdı”. Bu gün onlar

oradan çıxarılmayacaq və onlardan tövbə etmələri tələb olunmayacaqdır.

Göylərin Rəbbi, yerin Rəbbi və aləmlərin Rəbbi olan Allaha həmd olsun!

Göylərdə və yerdə böyüklük yalnız Ona məxsusdur. O, Qüdrətlidir, Müdrikdir. (Casiyə surəsi, 24-37)

# İslam çatmayıb başqa dində olanın aqibəti nə olacaq?

Bəzi insanlar sual verirlər ki, elə insanlar var ki, onlara İslam dini barəsində xəbər çatmayıbsa və ya onlar başqa dinlərin üstünlük təşkil etdiyi ölkələrdə yaşadıqları üçün başqa dinləri seçiblərsə, onların aqibəti necə olacaq? Onların da müsəlman olmaq haqları yoxdurmu? Onların da doğru yolu tapmaq və hidayət olunmaq haqları yoxdurmu? Onların kafir olmaqda günahı nədir axı?

***Bu şübhəyə cavabımız bir neçə aspektdən olacaqdır:***

**Birincisi**: Peyğəmbərimiz bu sualın kökü olan məsələyə aydınlıq gətirmişdir. Allah Elçisi (Allahın Ona salavatı və salamı olsun) bir hədisində buyurmuşdur:
«Hər bir doğulan körpə fitrət üzərində doğulur. Sonradan onu valideynləri yəhudi, xristian və ya atəşpərəst edir.» (Buxari, Muslim)

Bu hədisdə fitrət deyildiyi zaman İslam fitrəti, yəni müsəlman olaraq dünyaya gəlmək nəzərdə tutulur. Yəni, insan yaradılışı etibarilə tək Allaha yönəlmək, Onu yeganə ilah qəbul etmək və bütün batil əqidələrdən uzaqlıq üzərində olur ki, bu insanın daxilində olan təbii hislərdir. Lakin, sonradan valideynləri o körpəni başqa yollara yönəldirlər. Bu o demək deyil ki, valideynlər insanı başqa yollara yönəltdiyi zaman o uşaqların yenidən həqiqət axtarışları olmur. Bu barədə aşağıda bir neçə nahiyədən təfsilat veriləcəkdir.

**İkincisi**: Allahu Təala başqa dinləri seçənlərə ixtiyar vermiş və İslamla tanış olmağı asanlaşdırmışdır. Hansı ki, İslamın şöhrəti və İslam barəsində olan xəbərlər onlardan gizli qalmır. İslamın bütün dünyaya yayılması nəticəsində İslamla tanışlıq asanlaşmış və hər il başqa dinlərin mənsublarından yüzlərlə insanlar İslamı haqq dini olaraq seçir və İslama dönürlər. Bu da onu göstərir ki, həqiqəti istəyən, haqqı axtaran və bu axtarışda səmimi olan insanlar onu tapa bilirlər.

**Üçüncüsü**: Allahın Rəhmətindən və Ədalətindəndir ki, O, İslam dəvəti çatmayan kəslərə odla əzab verməz. Allah Qiyamət günü uzaq diyarlarda yaşayıb İslamdan xəbəri olmadan fitrət üzərində ölən kimsələrı, Əbu Hüreyrədən gələn hədisə əsasən (Allah onları yenidən diriltdiyi zaman) ciddi bir sınaqdan keçirəcək və onlar üçün bir elçi göndərəcək. Əgər onlar həmin elçiyə tabe olsalar, cənnət əhlindən olacaqlar, yox əgər onlar həmin elçiyə tabe olmasalar, Allah onları cəhənnəmə daxil edəcəkdir.
Fitrət deyildikdə qəsd edilən məna isə insanın anadangəlmə təbii hisslərinin, sağlam emosiyalarının üzərində olması, bir sözlə Allahın yaratdığı kimi saf, təmiz və dəyişilməmiş insanı təfəkkürə malik olmasıdır ki, bu cür dəyişilməmiş fitrətdə olan insanın nəfsi Allahın varlığını qəbul edir və Ona ibadət etməyə meyilli olur.

**Dördüncüsü**: Allah Elçisi Muhəmməd peyğəmbər ümmətinə xəbər vermişdir ki, Onun peyğəmbərliyi barədə xəbərin çatdığı kimsə onu qəbul etməzsə, o kimsə cəhənnəmə düşəcəkdir. Çünki, Muhəmməd Allahın son peyğəmbərdir. Müslimdə gələn hədisdə Əbu Hüreyrədən rəvayət olunur ki, Peyğəmbər (Allahın ona salavatı və salamı olsun) belə buyurmuşdur:

«Muhəmmədin canı əlində olan Allaha and olsun ki, bu (inanclı) ümmətdən, yəhudi və ya xristian (və ya başqa dindən) olsun, hər kimə mənə göndərilənin xəbəri gəlib çatar və o da ona inanmadan ölərsə, o kimsə cəhənnəm sakinlərindən olar.» (Muslim, 153)

**Beşincisi**: Bəzi insanların İslam və müsəlman sözlərini düzgün anlamaması onları çox mühüm bir məsələdə yanlışa salır. Bu yalnışlıq onların "Cənnətə ancaq müsəlmanlar girəcək, bəs o birilərinin günahı nədir?" – deməléridir. Halbuki bu onların qafil qaldıqları mühüm məsələdir. Onların qəfləti, Muhəmməd peyğəmbərin gəlişinə kimi tək Allahlılıq inancına sahib olan, ilahi şəriətə tabe olan hər bir tövhid (təkAllahlılıq) əhlinin (istər xristian, istər də yəhudi olsun) öz peyğəmbərinin təhrif olunmayan yolu ilə gedən hər kəsin müsəlman (Allaha təslim olan) hesab olunduğunu bilməmələridir. Belə insanlar da (təkAllahlılıq inancına sahib olduqları üçün) son peyğəmbərin gəlişinə kimi təslim olmuşlardan, yəni müsəlmanlardan sayılırdılar.

Qurani-Kərim bu həqiqəti belə açıqlayır: «Şübhəsiz ki, möminlərin, yəhudi, nəsrani (xristian) və sabiilərdən Allaha və Axirət gününə iman gətirənlərin və yaxşı iş görənlərin mükafatı öz Rəbbi yanındadır. Onlara heç bir qorxu yoxdur və onlar kədərlənməyəcəklər.» (əl-Bəqərə, 62).

Bu hal Muhəmməd peyğəmbərin gəlişinə kimi davam etmişdir. Həmin vəsflərdə olan təkAllahlılıq inancının sahibləri də Allaha təslim olan müsəlman hökmünə daxil olurdular. Lakin, Muhəmməd peyğəmbərin gəlişindən sonra onlara bu sonuncu peyğəmbərə inanmaq lazım idi. Məhz bu dövrdən sonra isə həqiqi müsəlmanlar bu peyğəmbərin ümməti sayılır. Həmin dövrdə və ondan sonra da bugünki xristian və yəhudilərə İslam təbliği çatsa da onlar bunu qəbul etmədilər. Hətta, yəhudilər Mədinə

şəhərində də var idilər. Bu da o deməkdir ki, yəhudilər İslamdan xəbərsiz deyildilər. Lakin, az bir qismi istisna olmaqla İslamı qəbul etmədilər. Əksinə, müsəlmanlara xəyanət etdilər.

Eləcə də həmin dövrdə olan xristianlara da İslam barədə məlumatlar çatdıqda onu qəbul etmədilər. Bundan sonrakı dövrlərdə isə xristianlar nəinki İslamı qəbul etdilər, əksinə, İslama və müsəlmanlara qarşı dəfələrlə xaç yürüşləri etdilər. Bu isə o deməkdir ki, bu gün dünyanın sayca ən çox mənsubu olan bir dinin nümayəndələri heç də ateistlərin dediyi kimi İslamdan xəbərsiz deyillər. Yəhudilər və bir çox dinin mənsubları da onlar kimi İslamdan və İslam Peyğəmbərinin dəvətindən xəbərsiz deyillər.

**Altıncısı**: Əgər sual verilsə ki, nəyə görə yer üzünün əksəriyyəti müsəlman deyil? Cavabında deyərik ki, çünki, onlar küfrü İslamdan üstün tutmuşlar. Avropada İslam düşmənçiliyini yayan xristianlar, Arakanda müsəlmanları qətl edən bütpərəstlər, Azərbaycanda xocalı soyqırımını edən ermənilər və s. məhz küfrü İslamdan bilə-bilə üstün tutmuşlar.

Biz artıq İslam dəvəti çatmayanların üzürlü olduğunu bəyan etdik. Lakin, bəs görəsən öz ölkələrində İslam haqqında oxuyanlar, İslamın haqq səsini eşidərək İslamla tanış olanlar, öz vətəndaşlarından minlərlə insanın ata-baba dinlərini tərk edib müsəlman olmalarının şahidi olanlar, Quran ayələrini eşidib peyğəmbərin sadiqliyinin və Quranın doğru olmasının və Quranın möcüzəvi dəlillərindən agah olanlar, İslam düşmənlərinin şübhələrini darmadağın edən elmi dialoqlara şahidi olan, bununla da İslamı bir din kimi qəbul etməyənlər haqqında bəs nə deyək?! Əksinə, bu cür milyonlarla sayda insan müsəlman olmağı bilərəkdən özlərinə yaraşdırmamış, öz düzəltdikləri

xaça ibadət, yonduqları bütə sitayiş, saxladıqları inəyə ibadət, yaxud başqa dinlərə itaət etməyi seçmişlər.

İslamın haqq olmasının dəlilləri açıq-aydındır. Sağlam fitrət və sağlam ağıl da İslamın haqq olmasına dəlalət edir. Sağlam fitrət tək Allaha ibadətdən başqa ibadətlərin yanlış olmasına dəlalət etsə də insanların çoxu bundan üz döndərir. Allah İslamı göndərməklə insanlara haqqı bəyan etsə də, o insanlar bilə-bilə küfr yolunu seçmişlər.

**Yeddincisi**: Atalarının üzərində olduğu küfrü təqlid edən və bu küfr yol üzərində ölənlərə gəldikdə isə İslam alimlərindən ibnul-Qeyyim bu barədə belə demişdir:
«Haqqı bilməyə və öyrənməyə imkanı çatan, lakin, bunu etməyən kimsə ilə, haqqı bilməyə və öyrənməyə imkanı olmayan təqlidçilərin arasında fərq qoyulmalıdır.

Bu iki qism insanın biri (haqqı öyrənməyə) imkanı çatıb üz döndərən, özünə vacib olana qarşı laqeyd yanaşandır. Öyrənməkdən və bilməkdən aciz qalan kimsəyə gəldikdə isə, hansı ki, öyrənməyə imkanı çatmır,

**onlar da iki qismdirlər:**

**Birincisi qism**; Doğru yolda olmaq istəyib xeyirdən təsirlənən, xeyiri sevən, lakin, (İslama, bu xeyirə) onu yönləndirən olmadığı üçün buna əli çatmayan, nə də bunu tələb edə bilməyən kimsə ki, belə bir kəsin halı fətrət əhlinin və (İslami) dəvətin çatmadığı kimsənin halı kimidir. (Red. yəni, üzürlüdür, onların da digər üzürlü kimsələrin imtahanından nəsibi vardır)

**İkinci qism**; (Haqdan) üz döndərən, (haqqı) istəməyən, özü üçün (küfrdən) başqa yolu doğru görməyən kimsədir. Elə

isə, birincisi deyir: Ey Rəbbim, əgər mən öz üzərində olduğum dindən daha xeyirlisini olduğunu bilsəydim həmin dini seçərdim. İkincisi isə öz halından razıdır, ona başqası təsir edə bilmir, nə də özünə küfrdən başqa yol axtarmır, belə birinin acizliyi və ya imkanı çatması arasında bir fərq qoyulmur. Baxmayaraq ki, birinci misaldakı şəxs də, bu da hər ikisi acizdirlər. Birincinin halı isə fətrət dövründə (doğru olan) dini axtarıb tapa bilməyən kəsin halı kimidir ki, o bütün səylərini göstərdikdən sonra acizlik və bilməməzlik halında qalır. İkincinin halı isə haqqı axtarmayab şirk üzərində ölənin halı kimidir.»
(İbnul-Qeyyim, Tariqul-Hicrateyn, səh 678)

Elə isə bu məsələnin necə dəqiq olduğunu, Allahın necə Rəhmli və Ədalətli olması barəsində gəlin düşünək. Allah Qiyamət günü öz qullarına zülm etməz, onlara Rəhmli və ədalətli davranar. O həqiqətən də hər şeyə Qadirdir.

**Səkkizincisi: İndi isə gəlin bu şübhənin batil olduğunu göstərən bəzi Quran ayələrini oxuyaq:**

«Allah bir qövmü doğru yola yönəltdikdən sonra uzaqlaşmaları zəruri olan şeylərdən onları xəbərdar etməyincə onları həmin yoldan azdırmaz. Həqiqətən, Allah hər şeyi bilir.» (Tövbə, 115)
«Biz müjdə verən və qorxudan elçilər göndərdik ki, insanların elçilərdən sonra Allaha qarşı bir bəhanəsi olmasın. Allah Qüdrətlidir, Müdrikdir.» (Nisa, 165)
Lakin, təəssüflər olsun ki, insanların bəhanələri bitmək-tükənmək bilmir.

«Allah deyəcək: "Ey cin və insan tayfası! Məgər sizə öz içərinizdən ayələrimi xəbər verən və bu gününüzlə qarşılaşacağınız barədə sizə xəbərdarlıq edən elçilər gəlmədimi?" Onlar deyəcəklər: "Biz öz əleyhimizə şahidlik

edirik!" Onları dünya həyatı aldatdı və onlar kafir olduqları barədə özlərinə qarşı şəhadət verdilər. (Anam, 130)
Xülasə odur ki, Muhəmməd peyğəmbərə qədər hər bir qövmə peyğəmbər göndərilirdi. Muhəmməd peyğəmbərin gəlişindən sonra isə İslam bütün dünyaya yayıldı və İslam bütün şəriətləri tamamladı. Müasir dünyada İslamın daxil olmadığı, İslam dəvətinin çatmadığı ölkələr barmaqla sayıla bilər. Onlara da məqalədə izah olunduğu kimi Allahın ədalətli hökmü təcəlli edəcək və onlara zülm olunmayacaqdır!

# "İMAN ZƏKALILAR ÜÇÜN DEYİL" DEYƏNLƏRƏ CAVAB.

Yaxın gələcəkdə müsəlman alimlərinin müasir elmdəki yeri barədə də bir yazı hazırlayacağıq Allahın izniylə. Lakin, hələlik, gəlin bu şübhəyə cavab verək. Bəziləri deyirlər ki, *"**Allaha inanmaq zəkalı alimlər üçün deyil**."*Bunu deyərkən elə bilirlər ki, sanki, onlar həqiqətin və haqqın yeganə təmsilçiləridirlər. Həmçinin, onlar elə hesab edirlər ki, onlar kimi düşünməyən insanlar onlardan aşağı səviyyədədirlər.

İndi isə sizə parlaq zəkası olmasında ixtilaf olmayan bəzi **dünyəvi elm adamlarını, alimləri, onların Allahın varlığı barəsində dedikləri sözləri misal çəkərək bu iddianın batil olduğunu göstərəcəyik**.

Zənnimizcə bu parlaq zəkalı alimlərin sözləri cavab olaraq kifayət edəcəkdir. Baxmayaraq ki, bu iddiaya əslən dəlil yoxdur. Həmçinin, biz etiqad edirik ki, haqq kişilərə görə tanınmır. Kişilər haqqa görə tanınırlar. Həmçinin də haqq haqqa görə tanınır. Elə isə gəlin bəzi parlaq zəkalı şəxslərin Allah barədə sözlərini oxuyaq:

**1 –Albert Einstein:**(1879-1955) Təbiət elminə görə ölümündən sonra Nobel mükafatçısı – Noble Laurate in Physics. Onun nəzəriyyəsi nisbi olduğundan dolayı ölümündən sonra bu mükafata layiq görülmüşdür. O, müasir Fizika elminin qurucularından biri hesab olunur. Məncə onu çoxumuz yaxşı tanıyırıq və çox tanıtmağa lüzum görmürəm. Keçək onun Allah barədə bəzi sözlərinə:

«İnsan hər dəfə təbiətin sirlərini öyrəndikcə, Allaha olan təzimi (Onu Uca hesab etməsi) və ehtiramı çoxalır!» (Mənbə: Einstein, as cited in brian, 1996, 119)

Həmçinin, Eynşteyn demişdir:

«Hər dəfə elm öyrəndikcə Allaha olan inancım daha da artdı.» (Mənbə: Einstein, as Cited in Holf, 1997)

**2 – Max Plank:**(1858-1947) O, 1918-ci ildə Fizika üzərə «Elementary Quanta» nəzəriyyəsinin qurulması və inkişaf etdirilməsindəki gördüyü işlərinə görə Nobel mükafatına layiq görülmüşdür. Müasir Fizika elminin qurucularından, nisbi nəzəriyyənin inkişaf etdirənlərdən biri, 20-ci əsrin ən mühüm nəzəriyyələrindən birinin «Quantum Theory» banisi, üstəlik də «Electromagnetic Radiation» nəzəriyyəsinin inkişaf etdirənlərdəndir. O, həm də «Quantum Mechanics» nəzəriyyəsinin qurucularından biridir:

Max Plank 1937-ci ilin may ayında «Din və Elm» adı altında etdiyi məşhur mühazirəsində belə yazmışdı:

«Din və Elm, bunların hər ikisi də öz məzmununda Allaha imanı gərəkli edir. Daha da dəqiq desək, Dinin əvvəlində Allah dayanır, ikinci isə (elm barədə) bütün düşüncələrin sonunda yenə Allah dayanır.»

(Mənbə: Max Plank, Religion and Naturvissenchaft, Leipzig, JohannAmbrosius Barth Verlag, 1958, 27)

Həmçinin, Max Plank 1932-ci ildə ən məşhur kitablarından biri olan «Where is cience going?» kitabında demişdir:

«Dinlə elm arasında həqiqi bir ziddiyyətin olması mümkün deyildir. Çünki, bu iki şeyin biri digərini tamamlayır.»

(Mənbə: Plank, 1977, 169)

«Max Plank ölümdən sonrakı həyata da inanırdı, O, bu həyatın fövqündə olan başqa bir həyata inanırdı. Elə bir əbədi həyat ki, biz onu özümüzə sığınacaq və qurtuluş edə bilərik.»

(Mənbə: Plank, as Cited in HeilBorn, 1986, 197)

**3 – Erwin Schroedinger:**(1887-1961).

O, 1933-cü ildə Fizika üzrə atom nəzəriyyəsi sahəsində yeni aktiv formalar tapdığı üçün Nobel mükafatına layiq görülmüşdür.

(For the Discovery of Productive Forms of Atomic Theory). Həmçinin, o «Maddələrin dalğaları» nəzəriyyəsində «Wave Theory if Matter» və «Quantum Mexanics» nəzəriyyələrində və başqa elmi mövzularda öz elmi səylərini göstərmişdir. O, dalğalar mexanikasının banisidir. Almaniya, Amerika və s. universitetlərində Təbiət müəllimi olmuşdur.

Erwin Schroedinger maddəçiliyi inkar etmiş (yəni, maddənin yeganə həqiqət olması nəzəriyyəsini inkar etmiş), o iqrar etmişdir ki, insanın idrakı maddədən tamamilə fərqlidir və belə demişdir:

«İnsan idrakının Fizika baxımından izahı mümkün deyil. Çünki, idrakın özü əsl olan bir şeydir ki, o başqa bir (əsl olmayan) şeylə izah oluna bilməz.»

(Mənbə: Schroedinger, 1984, 334)

Onun müasir elmdə oynanılan oyunlar barədə də maraqlı sözləri var.

**4 – Werner Heisenberg:** (1901-1976)

O, 1932-ci ildə Fizika elmi sahəsində hidrogen elektron formullarının (Allotrpic forms of Hidrogen) kəşfinə aparan kvantum mexanikası üzrə Nobel mükafatına layiq görülmüşdür. Bundan öncə isə o 1927-ci ildə öz adı ilə əlaqəli olan təyin edilməzlik (Principle of Uncertainty of İndeterminacy) qaydasının əsasını qoymuşdur. Onun sözlərindən bəziləri:

Təbii elmlər kubokunun zahirinə baxsan bu səni ateizmə aparacaq, lakin, (az sonra) bu kubokun dərinliyində Allahın səni gözlədiyini görəcəksən! (Yəni, müasir elmi ateizmə yönləndirmək cəhdləri olsa da, elmi düzgün öyrənən kimsə elmin özünün Allahın varlığına şahid olduğunu görəcəkdir).

(Mənbə: Heisenberg, as cited in Hildebrand, 1988, 10)

Həmçinin, o belə demişdir:

«O zaman ki, yolu təyin etmək üçün əsaslar qalmır, dəyərlərin miqyası itir, bununla birgə əməllərin və ağrıların da mənası itir. Bu isə yalnız pessimizmə və ümidsizliyə

aparır. Deməli, din dəyərlər nizamının qurucusudur, dəyərlər nizamı isə həyatın mənasıdır.»

(Mənbə: Heisenberg, 1974, 219)

**5 – Guglielmo Marconi:**(1937-1974)

Uğurlu məftilsiz teleqraf ixtirasına görə 1909-cu ildə Nobel mükafatına layiq görülmüşdür. Marconi həmçinin, radionun ixtiraçısıdır. Bu kəşf müasir dövrümüzdə elektron əlaqələrin mümkünlüyünə aparıb çıxaran bir inqilaba səbəb oldu.

Onun sözlərindən bəzilərini qeyd edək:

«Hər dəfə təbiət qüvvələriylə çalışdığım zaman Allahın verdiyi yaxşılıqla insanlara yaxşılıq etdim. Hər dəfə əzəmətli həqiqətə hər şeyin Əbədi Qəyyum olan Yaradana gedib hər dəfə əzəmətli həqiqətə yaxınlaşdıqca, daha çox hiss edirdim ki, «elm adlanan şey» (hansı ki, mənə ağrı verir və məni məşğul edir) insanları biri-birinə yardım etməyi hədəf seçən Əzəmətli İlahi iradəni ifadə edir, hansı ki, yaxşılığı anlamalı və istəyərək etməlidirlər.»

(Marconi, as cited İn Mario Cristina, Marconi, 1955, 246)

Həmçinin, demişdir: «Məftilsiz cihaz (radio) boşluğa mesaj göndərə bilir. Dua edərkən də insan əbədi aləmə (Allaha) gizli dalğlar göndərə bilir. Bu dalğalar Allah qarşısında öz hədəfinə çatır.»

(Mənbə: Marconi, as cited in Popov, 1992, 298)

**6 – Charles Darwin:** (1809-1882)

Təkamül nəzəriyyəsinin banisi. Darwin yazmışdı ki, o bu əzəmətli əsrarəngiz kainatın kor-koranə təsadüf və ya sadəcə bir ehtiyac nəticəsində yarandığını düşünməyin mümkünsüz olduğundan dolayı böyük bir təhlükə ilə qarşı-qarşıyadır. Ona görə də məcbur oluram ki, bu ağıllı kainatın ilk yaranma səbəbinə baxım. Ona görə də mənə «inanclı insan» deyilməsini haqq edirəm.

( Mənbə: The Language if God, Francis Collins, 99)

Darwin 1879-cu ildə, ölümündən 3 il əvvəl yazmışdı ki:

«O, Allahı inkar mənasında heç vaxt ateist olmamışdır.»

(Mənbə: Darwin as cited in Bowden, 1988, 273)

**7 – Sir Isaac Newton:**(1642-1729)

O, klassik təbiət elminin banisidir. Onun sözlərindən bəzilərini qeyd edək:

«Günəşin, planet və ulduzların əsrarəngiz dəqiq nizamının ərsəyə gəlməsi yalnız Qüdrətli, (hər şeyi hökmündə saxlayan) Hökmdar olan bir Yaradanın tərəfindən mümkündür. O hər şeyə hökm edir.»

(Mənbə: Newton, 1687, principia)

O həmçinin demişdir: «Məgər bütün quşların heyvanların və insanın (daxili orqanların yerləri istisna olmaqla – qəlbin sol tərəfdə olması və s.kimi) zahiri orqanlarının eyni vəsfdə

olması təsadüf nəticəsində mümkün ola bilərmi? məsələn; üzün hər iki tərəfində çox deyil, yalnız iki gözün olması, çox deyil, yalnız iki qulağın olması, çox deyil, yalnız iki nəfəs dəliyi olan bir burunun olması, ya da iki qol və ya iki qanad və ya iki qıçın olması təsadüfidirmi?!

Məgər (varlıqlar arasındakı) bu zahiri bərabərlik bizi yalnız Hər Şeyə Qadir olan Hökmdara və Nəzarət Edənə tərəf yönəltmirmi?!»

(Mənbə: Liməzə ləstu mulhidən? Kerim Ferhat, səh 300)

**8 – Nicolaus Copernicus:**(1473-1543)

O, məşhur astronom, astronomiya elmində böyük xidmətləri olmuş şəxsiyyət, «Heliocentric cosmology» günəşin mərkəz olması nəzəriyyəsini ilk irəli sürən şəxsdir.

Onun sözlərindən:

«Allahın əzəmətli feillərini tanımaq, Onun hökmran Olan qüvvəsi və hikmətini anlamaq, insanı bihuş edən əsrarəngiz qanunlar qoymasına şükür etmək və ona minnətdarlıq etmək üçün Onun (Yaradanın) bütün bu feilləri bizə təkidlə bir razı qalınan və məqbul yolu göstərir ki, O da (Yaradan) Uca Rəbbə ibadət etməkdir. Hansı ki, O Rəbbi tanımamaq mümkün ola bilməz ki, Onu tanımaq kimi qane edici ola bilsin!…»

(Mənbə: Copernicus, as cited in neff 1952, 191-192 and in Hubbard, 1905)

**9 – Sir Francis Bacon:**(1561-1626)

O demişdir: «Bu bir həqiqətdir. Az bir fəlsəfə ola bilsin ki, insanı ateizmə aparsın. Lakin, fəlsəfədə dərinə getmək yenidən ağılları dinə qaytarır.»

(Bacon, 1875, 64)

# Müasir dövrdə müsəlman alimlərin nəaliyyətləri

Müasir dövrdə müsəlman gənclərin şübhəyə salınaraq özlərinin “alim və araşdırmaçı yetişdirməkdən yoxsun bir ümmətə” nisbət olunmaları onlara qarşı oynanılan oyunlardan və hiylələrdən biridir. Müxtəlif elm sahələrində müsəlmanlar daim böyük uğurlar əldə etmişlər. Elə bu dövrdə də dəyərli müsəlman alimləri və araşdırmaçıları mövcuddur. O alimlər və araşdırmaçılar ki, onların vəsiləsilə elmdə çiçəklənmə, inkişaf və yeniliklər baş verir.

Belə şübhələrlə barışmaq isə bir müsəlmanın daxilində “məğlubiyyət” toxumunu səpməyə, o cümlədən də dinin “geriləmə səbəbi” olduğunu iddia edən və dinin elmlə ayaqlaşmadığını deyən hər çağırışı qəbul etməyə gətirib çıxarır.

Nəsrani və ateist səhifələrindən bu tipli çıxışları çox görmək olar ki, bu təbliğat nəticəsində çoxları dəyərli müsəlman alimlərindən bixəbər qalır, haqlarında xoş xatirələr olan elm adamları müsəlmanlardan gizli qalır. O alimlər ki, müasir elmə xidmətlər etmiş, elmi töhfələr vermiş, elmi ilə seçilmişlər. Bilmək lazımdır ki, belə şəxslər çoxdur. Onlardan bəzilərini bu kiçik yazıda qeyd etmək istərdik:

**1 – Sherif el-Safty:**

Yaponiyanın təbii fəlakətdən xilas olmasında mühüm addım atan şəxs.

Sherif el-Safty 1968-ci ildə anadan olmuşdur. Misirli müsəlman professordur. Elmdə təbiət çirklənməsi sahəsinə

böyük maraq göstərir. Özünün kimya ixtisasından dolayı Yaponiyaya köçmüşdür. O, Beynəlxalq maddələr elmləri institutunun (National İnstitute for Materials Science) üzvüdür. Elə oradaca nanometrik materiallar elmləri üzrə araşdırma heyətinin rəhbəridir. O, kimya elmi sahəsində 20-dən çox elmi kəşfin müəllifidir. Onun elminin dünyamiqyaslı faydalarından biri Yaponiyanın Fokoşima şəhərində baş vermiş nüvə faciəsinin zərərlərinin elmi şəkildə aradan qaldırılmasında müstəsna rol oynamışdır.

https://youtu.be/FQ9XlNey9BE

O, nano texnikasından istifadə etməklə bioloji və nüvə çirklənməsinin, şüalanmanın qarşısını ən az zərərlə alınması, mühüm tövsiyələri ilə Yapon xalqının bu böyük nüvə fəlakətinin zərərlərindən qurtulmasında böyük rol oynamışdır.

**2 – Osama O. Awad el-Karem:**

Sudanlı müsəlman professordur. 1953-cü ildə anadan olmuşdur. Fizika elmi və nano texnikası üzrə mütəxəssisdir. Doktorantura təhsilini Britaniyanın «Reading» universitetində 1982-ci ildə başa vurmuşdur. Amerika və Britaniya universitetlərində bir çox mühazirələr vermişdir. 200-dən çox elmi məqalənin müəllifidir. Amerika xarici işlər nazirliyinin elmi işlər üzrə şöbəsinin elmi məsləhətçisi olmaqla elmi dairələrdə böyük nüfuz qazanmışdır. Onun nanotexnologiya və s. elmi mövzularda bir çox faydalı elmi araşdırmaları vardır.

**3 –Aziz Sancar:** O, Kimya elmi üzrə Nobel mükafatçısıdır. 1946-cı ildə Türkiyədə anadan olmuşdur. O, Şimali Amerikada yerləşən Karolina universitetində seçilən alimlərdəndir. Doktorantura dərəcəsinə Amerikanın Texas ştatında (University of Texas at Dallas) nail olmuşdur. 1984-cü ildə (NSF Presidential Young İnvestigator Award) ən kiçik araşdırmaçı mükafatına layiq görülmüşdür. 1995-ci ildə isə Bir Merit Avard mükafatına layiq görülmüşdür. 2004-cü ildə Amerika elm və fənlər Akademiyasının mükafatına layiq görülmüşdür. 2006-cı ildə Türkiyə Elmlər Akademiyasının mükafatına layiq görülmüşdür. 2007, 2009, 2014 və 2016-cı illərdə də elmi fəaliyyətinə görə müxtəlif mükafatlara layiq görülmüşdür. Hal-hazırda Karolina universitetində təqaüdçü müəllimdir. Bu da onun Nobel mükafatı aldığı zaman etdiyi çıxışın video linkidir:

https://youtu.be/x1s7izASC3w

**4 – Oussama Khatib:**

Suriyanın Hələb şəhərindən olan müsəlman alim 1950-ci ildə anadan olmuşdur. Fransaya səfər edərək «Montellier» Universitetində təhsil alaraq elektrik mühəndisliyi ixtisasına yiyələnmişdir. Sonra magistr pilləsinə yiyələnmiş, sonra «Automatic control» sahəsində elmini artırmış, sonra isə «Elektron qanunlar» sahəsində doktorantura işini müdafiə etmişdir. Sonra isə Amerikaya səfər edərək Stanford universitetinin kompüter elmləri sahəsində müştərək müəllim kimi (1981-89-cu illər) fəaliyyət göstərir. O, İndonesia, İtaliya, Fransa və

isveçrənin müxtəlif universitetlərində ziyarətçi müəllimdir. Öz ixtisası üzrə bir çox yüksək vəzifələrdə də çalışmışdır.

Professor Oussama Khatibin ən səmərəli və məşhur işlərindən biri 90-cı illərdə «**Romeo və Juliet**» adlı iki robot qolları düzəltməsi olmuşdur. Bu robot qollar tikiş, ütüləmək və süpürmək kimi ev işlərini eyni vaxtda etmək qabiliyyətinə malik idilər. Bu onun robotlar sahəsinə uğurlu və əhəmiyyətli başlanğıcı işi olmuşdur.

90-cı illərdən sonra isə professor Oussama Khatibin yeni məşhur robotu olan **ASİMO** robot sahəsində yeni uğuru olur. Bu robot insan kimi yıxılmadan pilləkənləri rahat çıxıb düşə bilirdi.

2016-cı ildə isə insanın dala bilmədiyi dənizin dərinliklərinə dala bilən insanabənzər Ocean One 1 robotunu icad edir.

O həmçinin, **PR2** robotunun qurucularındandır.

## 5 – Kamal Youcef Toumi:

1954-cü il təvəllüdlü əl-Cəzairli mexanika alimi həm də Quranı dəqiq təcvidlə oxumağı bacarır və bu sahədə gözəl qiraəti, səlis təcvidi ilə tanınmışdır. O, müasir dünyada dinin elmlə uzlaşdığını göstərən nümunəvi dünyəvi müsəlman alimlərdəndir. Əl-Cəzairli mexanika alimi Professor Kamal Youcefin robot sahəsində səmərəli işləri vardır.

Amerikanın Ohaya vilayətinin Cincinnati universitetini 1979-cu ildə bitirmişdir. Magistr təhsilindən sonra

Amerikanın Kambridc şəhərində elmi araşdırmalarının başlanğıcı olan texnologiya üzrə Massachusetts institunu oxuyuraraq magistr və doktorantura pillələrini tamamlayır.

Onun 90-cı illərdə gördüyü ən bariz işlərdən biri dünyada ən sürətli yazı yazan robotu icad etməsi idi ki, bu robot əvvəlki robotlardan on dəfə sürətli yazı yazır, bir saniyədə 1300 sətir (və ya 10 metr) yazı yaza bilirdi. Həmçinin, o Samsung şirkəti üçün işıq skayneri cihazının düzəldir. Bu ixtirası onu həndəsə mexanikası sahəsində ilkin fərqlənmələrindən biri olur ki, bu, onu roboteka elmi, dinamiki dizayn və «mechatronics» sahəsində dövrün qabaqcıl mütəxəssislərindən birinə çevirir. Hələ tələbəlik illərində (doktoranturada) dəniz dərinliklərinin kəşfi üçün iki balıq robot icad etmişdi.

Professor Kamal Youcef Amerika, Avropa, Yaponiya, Cənubi Koreya, Sinqapur, Finlandiya, Hindistan, Çin kimi ölkələrdə onlarla dünyamiqyaslı şirkətlərin elmi məsləhətçisidir. O 25-dən çox ixtiranın müəllifidir. O elmə verdiyi töhfələrlə yanaşı imanlı bir şəxsiyyətdir.

Bu linkdən Kamal Youcefin gözəl Quran tilavətini dinləyə bilərsiniz:

https://youtu.be/DYfuenVedZ0

**6 – Ahmed Zewail:** (1946-2016)

O, 1946-cı ildə Misirdə anadan olmuşdur. 1999-cu ildə kimya elminin femtochemistry sahəsi üzrə Nobel mükafatına layiq görülmüşdür. İskəndəriyyə şəhərində universitetin elmlər fakultəsinin bakalavr mərhələsini

tamamladıqdan sonra işıq elmi üzrə magistr işini yazır. Sonra isə Amerikanın Pensilvaniya universitetində Lazer elmi üzrə doktorantura işini yazır. Sonra isə Kaliforniya universitetində elmi araşdırmaçı kimi çalışır. O, bir çox elmi dərəcələrə, fərqlənmələrə və mükafatlara layiq görülmüşdür. Həmçinin, o bir çox kitabların və elmi məqalələrin də müəllifidir. Lazer sahəsində etdiyi ixtira isə bir çox alimlərin önündə yeni bir qapı kimi yol açmışdı.

**7 – Wissam Barbara:**

Cəmiyyətdə bəzən müsəlman qadının hicabına bəzi insanların etiraz etdiyini, hicabın guya elmə mane olduğunu iddia etmələrini və s. safsataları eşidirik. Bu ən qəribə sözlərdəndir. Bu cür sözlər “saqqallı kəsdən elm alınmaz” sözünə bənzəyir. Elmin saqqalıllarla nə əlaqəsi? Halbuki, qərb alimlərinin çoxu saqqallı olmuşdur.

əl-Cəzairli gənc alim xanım Wissam Barbara dəridəki dərin yanıqların, hətta, qədim yanıqların əlacını ixtira etmişdir. O, əl-Cəzairdə aptekçilik və kimyaçılıq sahəsində ən kiçik mühəndis adı ilə məşhurdur. O, hələ 22 yaşını keçməmiş bu sahədə diplomu var idi. Onun şöhrəti cicatoop adlı dərmanın ixtirası ilə bağlıdır. Bu dərman hətta 3-cü dərəcəli yanıqlara belə faydalı olur, hətta, üzərindən otuz və ya qırx il keçmiş yanıqların belə müalicə edərək bir ay müddətində dərini böyük həcmdə öz təravətinə və canlılığına qaytarır. Bu prosses bədəndə heç bir cərrahiyyə işi görülmədən və ya bədənin başqa sağlam dəri nahiyəsindən istifadə edilmədən sadəcə kremin yanıq dəriyə sürtülməsilə baş verir. Bu niqablı müsəlman xanımın kəşf etdiyi dərman artıq elmi və təcrübi baxımdan dünyada öz effektini sübut etmiş və tanınmışdır.

**8 – Rachid Yazami:**

Onu elektron cihazlarınıza elektrik verdiyiniz zaman xatırlayacaqsınız. 1953-cü ildə Məğribin Fas şəhərində anadan olmuşdur. Riyaziyyat elmləri üzrə bakalavrın 1961-cildə doğma ölkəsi Məğribdə tamamlamış, bir il də Rabat şəhərində təhsilini davam etdirmiş, sonra Fransanın «Grenoble institute of Technology» adlı texnologiya universitetini oxumuşdur. Doktorantura təhsilini də orada başa vurmuşdur. O, Fransanın milli elmi araşdırmalar mərkəzinin rəhbəri olmuşdur.

Professor Rashid Yazami 50-dən çox ixtiranın, 200-dən çox elmi araşdırma və elmi məqalənin müəllifidir. O, 2014-cü ildə (Həndəsə sahəsində Nobel mükafatına bərabər olan) Charlz Derber mükafatına layiq görülmüşdür.

O, bu gün bütün hazır batareyalı elektron cihazlarda mövcud olan batareyanın halından xəbər verən elektron kartı ixtira etmişdir. Bu elektron (the smart battery) kart bütün elektrik maşınlarında və elektrik cihazlarında mövcuddur.

**9 – Jackie Yi-Ru Ying:**

Bura qədər qeyd etdiyimiz alim və araşdırmaçıların hamısı əvvəldən İslamda olan şəxsiyyətlərdir. Bu dəfə 36 yaşında İslamı qəbul etmiş əslən Sinqapurun müsəlman qadın alimdən bəhs edəcəyik.

O, 1966-cı ildə Tayvanın Taybey şəhərində anadan olmuşdur. Bu müsəlman qadın dünyada nanotexnologiya üzrə ən məşhur mütəxəssis alimlərdən biridir. O, taxdığı

hicabıyla dinin elmə zidd olmadığını və maneə olmadığını bir daha sübut edərək elm sahəsində uğurlarını davam etdirməkdədir. O, dünyanın ən yaxşı 100 mühəndisi arasında seçilən 8 qadından biridir. Hələ 25 yaşında ikən doktora adını almış, 35 yaşında isə professor olmuşdur. 2003-cü ildən biologiya və nanotexnologiya institutunun müdirəsidir. Onun rəhbərlik etdiyi elmi mərkəzdə 160 alim və araşdırmaçı vardır ki, onlar birbaşa xanım Jackie Ying'in göstərişləri və nəzarəti ilə fəaliyyət göstərirlər. Onun nəzarətində elmi mərkəz 505-dən çox elmi ixtira və elmi kəşfə təqdimatı irəli sürmüşdür. Onun şəxsi olaraq 150 ixtirası və kəşf qeydiyyatına alınması üçün təqdim olunmuş elmi işi, 340-dan çox elmi yazısı var. 2015-ci ildə yarım milyon dollar dəyəri olan «Mustafa» mükafatına layiq görülmüşdür.

**10 –el-Mahdi A. el-Khammas:**

Dünyada, xüsusən də Amerikada orqan plantasiyası üzrə ən məşhur mütəxəssislərdən biri (xüsusən də ciyər, böyrək və mədəaltı vəzi) cərrah professor Mehdi Xamməsdir. O, 60-cı illərdə Liviyanın Zabiyə şəhərində anadan olmuşdur. Benqazidəki Ərəb Tibbi universitetini oxumuşdur, sonra isə ümumi cərrahlıq üzrə «Gar-Younis» universitetini bitirmişdir. Sonra isə ABŞ-ın Ohayo ştatının «Kolumbs» universitetindən məzun olmuşdur. Amerikada son illərdə ardıcıl olaraq onun ismi dəfələrlə ən yaxşı cərrah həkimlərin siyahısında göstərilir. 2008-ci ildə xidmətlərinə görə Liviya həkimləri cəmiyyətinin təşəbbüsü ilə «Enjaz» mükafatına layiq görülmüşdür. O, eyni zamanda orqan plantasiyası üzrə Liviya milli tibbi mərkəzində müdürün birinci məsləhətçisidir.

**(Mənbə**:İncəzət muslimin fi asril-hədis kitabı**ndan ixtisar)**

# AXİRƏTƏ NƏ ÜÇÜN İNANMALIYIQ?

Axirət həyatı, ölümdən sonrakı həyat daim insanları düşündürmüşdür. İnsanlar üçün heç bir zaman həyatın bu dünya ilə bitəcəyinə inanmaq asan olmamışdır. Ateizm fikrini seçən insanlar belə daimi tərəddüd və şəkk-şübhə içində "bəlkə möminlər doğru deyirlər" deyə – tez-tez düşünə bilirlər. Möminlərin isə, ölümdən sonrakı həyata inanmaqda bir problemləri yoxdur.

*Gəlin daha da mövzuya yaxınlaşaq.*

Axirət gününə inanmaq, müxtəsər olaraq, ölümdən sonrakı həyata, insanın əməllərinin qarşılığını görəcəyinə, haqq-hesab olunacağına, yaxşı ilə pisin ayırd edilərək hər kəsin öz layiqli mənzilinə gedəcəyinə inanmaq anlamındadır. İnsan öldükdə dəfn edilir, sonra isə, qəbrində sorğu sual olunur. O, qəbrində Rəbbi, dini və peyğəmbəri barəsində sorğu sual olunur. Əgər sual verilən kimsə Allaha inanmayan, Allaha şərik qoşan və ya ateist biri olarsa, bu suallara cavab verə bilməyəcək. Hər dəfə ona sual verildikdə: "ha, ha, bilmirəm" deyəcək (Əbu Davud, 4753; Əhməd, 18063; Sahihul-Cami, 1676) və cavabı bilsə də cavab verə bilməyəcək. Onu yoxdan Yaradan Allahı inkar etdiyi üçün Uca Yaradanın qəzəbinə tuş gələrək dünyanın sonu gələnə kimi qəbrində əzab olunacaqdır. Sonra isə, əbədi cəhənnəm əzabına daxil ediləcəkdir.

Əgər bu sualların verildiyi şəxs mömin kimsə olarsa, o, bərzəx həyatında nemətlər içində olar, sonra yenidən dirildilib cənnətə daxil edilər.

Həmçinin, bilməliyik ki, axirətə inanmaq İslamda imanın altı şərtindən biridir. Axirətə inanmayan kimsə müsəlman hesab olunmur.

Allah bizə hər şeyi göstərməmişdir, lakin, bildirdiyi mühüm şeylərə işarətlər və dəlillər qoymuşdur. Əgər biz Allahın bizə vəd etdiyi hər şeyi görsəydik, onda imtahan həyatının mənası olmazdı. Allah buyurur:

**«Özündən başqa məbud olmayan Allah, baş verəcəyinə şübhə edilməyən Qiyamət günü sizi mütləq bir yerə toplayacaqdır. Verdiyi xəbərdə Allahdan daha doğru söyləyən kim ola bilər?»** (ən-Nisa, 87)

Həmçinin, xristianlıqda və yəhudilikdə də axirət inancı olsa da, onlar dinlərini təhrif etdiklərindən dolayı sonuncu din olan İslam dini Axirət barədə bir çox təfsilatlı məlumatları vermişdir. Həmçinin, bu həqiqəti (bədənlərin öldükdən sonra dirilməsini) yalnız Muhəmməd peyğəmbərin mükəmməl şəkildə izah etdiyini bəzi fəlsəfə alimləri vurğulamışlar. (Şərhu Aqidətut-Tahaviyyə, səh 457)

Bununla belə ateistlərdən qabaq ölümdən sonrakı həyatı inkar edənlərdən olan fəlsəfə əhlinin ən məşhur şübhələrinə dr. Ğalib Avaci özünün «əl-Həyətul-Əxirah» kitabında ətraflı cavab vermişdir. Daha ətraflı məlumat almaq istəyənlər üç cildlik həmin kitabın birinci cildinə müraciət edə bilərlər.

**Lakin, xülasə olaraq, axirəti, ölümdən sonrakı dirilişi inkar etməyin səbəblərini belə analiz etmək olar:**

1. Yalnız dünya həyatına razı olmaq, oyun əyləncədən, ləzzətdən başqa bir şey barədə düşünməmək.

2. Küfrə və şirkə düşmək. Çünki, Axirəti yalnız Allaha inananlar təsdiqləyir.
3. Allah, din haqqında lazımi məlumatları olmayanlar: «**Onlar: "Allah insana heç bir şey nazil etməmişdir"– deməklə Allahı layiqincə qiymətləndirmədilər.**» (əl-Ənam, 91)
4. Ancaq öz gördüyünə inanmaq, gözü ilə görmədiyi hər şeyi inkar etmək. Halbuki, bu, müasir elmə və sağlam ağıla da ziddir. Gözlə görünməsə də, var olan varlıqları və məfhumları elm də təsdiqləyir.
5. Allah haqqında elmi olmadan inadkarcasına mübahisə etmək: «**İnsanlar içərisində eləsi də vardır ki, heç bir biliyi, doğru yol göstəricisi və nur saçan bir kitabı olmadan Allah haqqında mübahisə edir.**» (əl-Həcc, 8)
6. Özlərinə verilmiş ağıl nemətini düzgün işlətməyənlər: «**Onlar deyəcəklər: "Əgər biz dinləsəydik və ya anlasaydıq alov şölələri saçan od sakinlərinin içində olmazdıq!"**» (Mulk, 10)
7. Günahlara rahatca dalmaq, küfr, şirk, nifaqla qəlblərinin örtülməsi: «**Həqiqətən, kafirləri qorxutsan da, qorxutmasan da, onlar üçün fərqi yoxdur, iman gətirməzlər.Allah onların qəlblərini və qulaqlarını möhürləmiş, gözlərinə də pərdə çəkmişdir. Onlar üçün böyük bir əzab vardır.**» (əl-Bəqərə, 6-7)

*Bu ümumi bilgilərdən sonra keçək mövzummuzun təfsilatlı hissəsinə.*

**Mövzumuz bu məsələlərdən ibarət olacaqdır:**

1) Axirətin mümkünlüyü və zəruriliyi.

2) Axirətə olan ehtiyacımız.

3) Axirətə imana digər əqli dəlillər.

4) Axirətə iman Quranda.

5) Axirətə iman hədislərdə.

## BİRİNCİSİ: AXİRƏTİN MÜMKÜNLÜYÜ VƏ ZƏRURİLİYİ:

Bu mümkünlüyü bir neçə nahiyədən isbat etmək olar.

**1. Ölüm gerçəyi:** İnsan ölüm qarşısında acizdir. Ölüm bizlərə başqa bir həyatın, növbətli mərhələyə keçidin böyük bir işarəsidir. Ölüm insanın əməlinin kəsilməsi, ləzzətlərinin bitməsi və beləcə Axirət yurduna yollanmasıdır. Allah Quranda buyurur: **«Harada olursunuzsa olun, mütləq öləcəksiniz. Hətta, yüksək qalalarda olsanız belə… »** (ən-Nisa, 78) Başqa bir ayədə uca Allah buyurur: **«Hər bir kəs ölümü dadacaqdır. Lakin Qiyamət günü mükafatlarınız sizə tam veriləcəkdir»** (Ali İmran, 185)

Bugün əgər sən həyatdasansa, ölümü qəbul etməyə və ölümə hazırlaşmaya bilərsən. Amma başqalarının ölməsi sənin qarşında inkaredilməz bir həqiqət və dəlildir ki, sən də bir gün öləcəksən. Bəs nəyə görə insan bunu bildiyi halda özü-özünü aldatmalıdır? İnsanlar ölümə çarə edə bilmədikləri kimi, qocalığa da çarə edə bilmirlər. Çünki qocalıq ölümün yaxınlaşdığına işarə edir. İnsan bir az daha çox cavan görünməyə yol tapsa da, axırda yenə qocalıq dərdi yaxasından yapışır. Sonra isə, ardınca ölür ki, ağıl sahibləri bu barədə düşünməlidirlər.

**2. Zəlzələlər:** Zəlzələlər bizə qiyamətin mümkünlüyü barədə xəbər verən gerçəkliklərdən biridir. Zəlzələni yerin "kiçik Qiyaməti" də adlandırırlar. Müasir elmin və texnologiyanın bu qədər inkişaf etməsinə baxmayaraq, «zəlzələ» kəlməsi hələ də müasir insanın həyatındakı qorxulu bir kəlmə olaraq qalmaqdadır. Zəlzələ qısa saniyələr ərzində böyük bir şəhəri xarabalığa çevirə bilir. Məhz bu zəlzələlər bizə Qiyamətin mümkünlüyü barədə xəbər verir. Allah Qiyamət saatını yerin lərzəyə gəlməsi ilə vəsf etmişdir. **«Yer titrəyib lərzəyə gələcəyi zaman; Yer öz yükünü bayıra atacağı və insan: "Ona nə olub?"– deyəcəyi zaman –»**(Zəlzələ surəsi, 1-3) Başqa ayədə buyurur: **«O gün yer və dağlar titrəyəcək, dağlar səpələnən qum təpəsinə dönəcəkdir.»** (əl-Muzzəmmil, 14)

Bu misala kimsə deyə bilər ki, "biz onsuz da dünyanın dağıla biləcəyi ehtimalını qəbul edirik, biz insanın yenidən dirilməsini və ya yaranmasını qəbul etmirik."

**Belə deyənlərə cavab odur ki:**

**Birincisi:** Bu, bütün iman əhlinin təsdiqlədiyi, haqqında düşündüyü və hazırlaşdığı gerçəklikdir. Axirət inkarçılarının isə, müxtəlif fikirlərdə olduğu məsələdir. Yəni, dindarlardan heç biri dünyanın dağılacağına şəkk etmir.

**İkincisi:** Bunu qəbul edən şəxsə biz bu yazıda ölümdən sonrakı həyatın zəruriliyi və mümkünlüyü barədə müxtəlif dəlilləri təqdim edirik. Buyurub ayıra kimi oxusunlar.

**Üçüncüsü:** Gəlin ədalət naminə belə bir fərz edək; həm axirətə inananların, həm də inanmayanların dediklərinin

ayrı-ayrılıqda gerçəkləşdiyini fərz edək: (qeyd: baxmayaraq ki, biz ateistlərin fərziyəsini qəbul etmirik)

**Birinci halda:** Tutaq ki, bu fərziyyəyə əsasən ateistlərin dediyi düz çıxdı. Onda mömin kimsə heç nə itirmir, nə də cəhənnəm əzabı çəkmir buna görə. Yəni, nə ateist, nə də dindar heç nə itirmir. Nəzərə alsaq ki, ateistin dediyi müvəqqəti dünya, dindarın dediyi isə əbədi bir aləmlə bağlıdır.

**İkinci halda:** Tutaq ki, ikinci fərziyyəyə əsasən möminin dediyi axirət həyatı doğru çıxdı. Onda vay olacaq ateistin halına. Mömin cənnətə, o isə, cəhənnəmə gedəcək.

Nəticədə hər iki fərziyənin yekun nəticəsi möminin xeyrinə olacaq. Çünki, birinci fərziyədə mömin heç nə itirmir, ateist də heç nə itirmir. İkinci fərziyədə isə mömin qazanır, ateist isə, itirən tərəf olur. Xülasə, iki fərziyənin nəticəsi möminin xeyrinə tamamlanır. Bu, bizim düşünməyimizə yardımçı ola biləcək əqli bir məsəldir.

**3. Xarici fəzanın halı:** Xarici fəzanın halı da bizə axirətin mümkünlüyündən xəbər verir. Xarici fəzada, yerdən kənardan milyonlarla ulduz və planetlər bir maneəsiz, toqquşmadan hərəkət edir. Lakin, bu toqquşma mümkündür. Elm adamları da bu mümkünlüyü təsdiqləyirlər. Eyni zamanda, bu aləmin dəqiq nizamının, hərəkətdə olan göy cisimlərinin bir-biriylə toqquşmamasını və sanki, bir yüksək zəka tərəfindən idarə olunduğunu iddia edirlər. Çünki, təsadüfən yaranan bir aləmin bu qədər dəqiqlik və ahəngdarlıq içində olması təsəvvür edilməzdir. Halbuki, Allah göydə olan bu nəhəng planetlərin bir biriylə toqquşmasının və məhv olmasının qarşısını almışdır. Allah Quranda belə buyurur:

**«Həqiqətən, Allah göyləri və yeri tərpənməsinlər deyə, tutub saxlayır. Əgər tərpənsələr, Ondan başqa onları heç kəs tutub saxlaya bilməz…»** (Fatir, 41)

Axirətə inanaraq biz yəqin oluruq ki, bir gün bu nizamda olan dünya dağılacaq, məhv olacaqdır. Bu çəkdiyimiz kiçik misallar bu aləmin daha böyük sonluğa düçar olacağını göstərir. Biz bugün axirətin mümkünlüyündən danışsaq da, sabah bunu həqiqi bir şəkildə görə bilərik.

**4. Ölümdən sonrakı həyat:** Artıq müasir elm təsdiqləmişdir ki, insan bədənindəki bütün hüceyrələr on ildən bir tamamilə yenilənir. Bu da insanların orqanizmindəki mərhələ dəyişikliyinin göstəricisidir. Biz bu prossesə görə heç "insan fani oldu" demirik. İnsanın köhnə hüceyrələri ölsə də, insanın daxilindəki şəxsiyyəti ölmür, onun elmi, fikirləri, adətləri, xatirələri, arzuları hamısı olduğu kimi qalır. Bu hüceyrələrin ölməsi və ya başqa təbirlə desək: əgər insanın cisminin ölməsiylə insan fani olursa, gərək onda insanın hüceyrələri də öldükdə tam bir dəyişiklik yaransın. Lakin biz çox yaxşı bilirik ki, hüceyrələr öldükdə bu, baş vermir. Bu da, onu göstərir ki, «insan» və ya «insan həyatı» cismdən fərqli bir şeydir. Çünki, cismdə dəyişikliklər olsa da, o, qalır və dəyişilmir.

İnsan həyatı beş mərhələ keçdiyi kimi, (ruhlar aləmi, ana bətni, dünya həyatı, qəbir həyatı və yenidən diriliş) eləcə də, insan ölməsiylə növbəti mərhələ olan ölümdən sonrakı həyata qədəm qoyur və insanın bədəni ölsə də, ruhu ölmür.

Ruhu inkar edənlərə isə, deyirik ki, insan bədənində olan maddələr torpaqda və təbiətdə də var.

*Amma, sual verilsə ki, niyə insan kimi ruhu olan bir məxluq bu günə kimi ortaya çıxarmaq mümkün olmamışdır?*

**Cavab**: Çünki, ruhu və canı olan canlı məxluq yaratmaq insan peşəsi deyil. İnsan texniki vasitələr düzəldə bilir ki, bu da Allahın lütfü ilədir. İnsanların işləri bu texnikalarla rahatlaşır. Lakin, insan bir milçəyi belə yarada bilmir.

Müasir elm sübut etmişdir ki, kainatdakı səs dalğaları itmir. (daha ətraflı bax: «əl-İsləm yətəhəddə» kitabı, səh, 108) Eləcə də, mümkündür ki, insanların əməlləri itməsin və Allahın əmrinə əsasən mələklər tərəfindən qeyd olunsun. Necə ki, Axirət inancına əsasən insanın danışdığı bütün sözlər yazan, gözətçi mələklər tərəfindən qeydə alınır: **«Dediyi elə bir söz yoxdur ki, onu yazmaq üçün yanında hazır durmuş gözətçi olmasın.»** (Qaf, 18)

Bunun mümkünlüyünü müasir elm inkar etmir. Radio dalğaları bəzən radionu açdığımız zaman bir-birinə qarışır, biz bunu aydın şəkildə eşidə bilirik. Səs dalğalarının necə uzaq məsafələri qət etdiyinin əyani sübutunu biz hər gün müşahidə edə bilirik. Biz dilimizi tərpətdikdə danışır, eyni zamanda da havada səs dalğasını hərəkətə gətiririk. Eynilə də sakit bir suya kiçik daş atsan o hərəkətin nəticəsi olaraq səs dalğası eşidəcəksən. Bunun kimi əgər biz elektron zəngi bir şüşə içinə qoyub ətrafını möhkəm bağlasaq, zəngi işə saldıqda səs eşitməyəcəyik. Bağmayaraq ki, onun çalışdığını gözümüzlə görmüş olacağıq. Çünki, bu zaman səs dalğasının qarşısı kəsilmiş olur.

Artıq biz səsləri müxtəlif cür qeydə alıb birdəfəlik tarixin yaddaşına həkk edə bilirik. Bu da düşünən insanlar üçün aydın bir elmi və praktiki dəlildir ki, Allahın mələkləri də biz onları görmədən bizim söz və əməllərimizi yazıb edə bilərlər. Sonra isə, biz yenidən dirilib bu söz və əməllərə görə cavab verəcəyik.

Həmçinin, müsəlman olmayan alimlərdən məşhur almaniyalı psixoloq Schlomo Freud insanın fikirlərinin və xəyallarının itmədiyi, sanki, dünən baş vermiş bir hislər kimi alt şüurda qaldığını, bizim adi saydığımız düşüncələrin bəzən yuxuda, bəzən sayıqlama zamanı öz əksini tapdığını vurğulamışdır.

(Daha ətraflı bax: New introductory Lectures on Psycho-Analysis, London, 1949. p. 99)

Eləcə də, ta qədim zamanlardan insanlar axirət barəsində düşünmüş və bu aləmi arzulamışlar. İnsan fitrətindən olan, insanın nəfsi, havasıyla əlaqədar olmayan elə bir fikir bilirsinizmi ki, insanlar əsrlərlə bu fikir barəsində bu qədər düşünsünlər?! Həmçinin, yer üzündə sabahkı gün barədə insandan başqa düşünən canlı yoxdur. Sizcə bütün bunlar bizə mühüm bir axirət mesajı vermirmi? Əgər insanın arzuları, xəyalları, illərlə qurduğu həyatı, oğul uşağıyla əlaqəsi ölümün gəlməsiylə birdəfəlik kəsilirsə və heç bir rabitə və ya ümid yeri qalmırsa, insan torpaq olub gedirsə, onda bu qısa həyatın bir mənası olmazdı.

***Bir qədər də məsələnin psixoloji tərəfinə toxunaq:***

Müsəlman kimsə ölümdən sonra da həyatının davam etdiyinə inanır. Növbəti mərhələ üçün yaxşı əməllər hazırlayır. Müsəlman kimsənin hədəfləri aydın olur. O, Allahın əmr etdiyi kimi yaxşı insan olmağa çalışır və həyatın ölümdən sonrakı mərhələsində bunun nəticəsini görəcəyinə inanır. Ateistin isə, hədəfləri daha dar olur. Çünki, yaxşılığın və pisliyin bu dünyada qalacağlna inandığı üçün ateistdə yaxşılıq və pislik, əxlaq anlayışlarını anlamaq mümkün olmur. Çünki, əxlaq onlar üçün nisbi bir şeydir. Müsəlman üçün isə, əxlaq nəinki bu dünyada, hətta, o biri dünyada da öz səmərəsini verəcəkdir. Əxlaqları gözəl

olan insanlar o biri dünyada gecələri namazda, gündüzləri orucda keçirən kəslər qədər savab qazanacaqlar. Lakin müsəlman oruc da tutur, namaz da qılır. Bunlar hamısı Axirət savabı qazanmaq, ilk növbədə isə, Allaha ibadət etmək üçündür.

***Yuxu aləmi:*** İnsan yerində yatdığı halda yuxu görür, başqa bir aləmdə yaşadığını hiss edir və həyəcanları işlək olur, hətta, yuxuda ikən tərləyir, bəzən danışır, bəzən gülür, bəzən ağlayır, bəzən də qorxur. Yəni, insan yuxuda olduğu halda başqa aləmlərdə ola bilir. Bu da bizə bir daha axirət aləminin daha çox mümkün olduğunu göstərir. Yuxu görmək ruhun varlığına mühüm psixoloji dəlillərdən biridir. İnsanlardan heç kim yuxu gördüyünü inkar etmir. İnsan yuxuda unudulmaz anlar yaşaya və bunu ömür boyu unutmaya və daim xatırlaya bilir. Yuxu elmi qeyb aləmindən olduğundan yuxu yozumu elmi də nadir elmlərdən biridir ki, bu elmin əsası da dünyəvi deyil, məhz dinidir. Yuxu yozumu elminə əsasən insanın yuxuda gördüyü hadisələr, yaşadığı məsələlər bir rəmz, işarə kimi izah olunur və insanın gerçək həyatıyla əlaqələri ortaya çıxır. İnsan yuxuları vasitəsilə yuxu düzgün yozulduğu təqdirdə onu gələcəkdə gözləyən bəzi hadisələr barəsində məlumat əldə edir. Yuxu yozumu dəqiq edildikdə yuxuların insanın həyatı və gələcəyi ilə sıx əlaqəsi insanları çox heyrətləndirir.

**Ruh araşdırmaları** «Psychical Researches» da istər təcrübi, istər də elmi müstəvidə ölümdən sonrakı həyatı isbat edir. Bu araşdırmalara daha çox diqqət çəkən məqamlardan biri də bu araşdırmaların hansısa ruhun (bədəndə) mütləq qalıcı olmasını təsdiq etməməsidir. Həmçinin, bu araşdırmaların maraqlı tərəfləri çoxdur. Yuxu sahəsində də ruh araşdırmaları mövcuddur. Onu da qeyd edək ki, ölümdən sonrakı həyat barədə araşdırmalara psixologiya elmi daha münasibdir. Lakin, yuxarıda qeyd

etdiyimiz kimi elm müəyyən məsələlərdə «necə?» sualına cavab verməyə çalışsa da, «nə üçün?" sualına cavab verə bilmir. Çünki, hər elmin özünə məxsus sahəsi olduğu üçün, ixtisaslar öz sahəsindən kənara çıxdıqca yanlış qərarlara və fərziyyələrə dalmaq ehtimalı çoxalır.

Ruh araşdırmaları müasir psixologiya elminin şöbələrindən biridir. Hədəfi isə insanın qeyri adi xüsusiyyətlərini aşkar etməyə səy göstərməkdir. Tarixdə ilk dəfə 1882-ci ildə İngiltərədə belə bir mərkəz açılmış, 1889-cu ildə isə mərkəzin alimlərin öz fəaliyyətlərinə başlamışlar. İlk araşdırmalarını 17000 vətəndaş üzərində tətbiq etmişlər. Bu gün də bu mərkəz «Ruh araşdırmaları cəmiyyəti» adı ilə fəaliyyət göstərir. Hal-hazırda dünyanın müxtəlif yerlərində ruh araşdırmaları ilə məşğul olan bir çox mərkəzlər fəaliyyət göstərir. Bu mərkəzlər geniş araşdırmaları və təcrübələrinə əsasən sübut etmişər ki, insan bədəni öldükdən sonra onun şəxsiyyəti qəribə bir şəkildə öz mövcudluğunu davam etdirir.

(əl-İsləm yətəhəddə kitabı, səh 133)

Əgər kimsə bizə durub hansısa təbiət alimlərinin axirətdən danışmağını misal çəkmək istəsə, biz onlara deyəcəyik ki, təbiət elmləri təcrübi elmlərdir. Yəni, bu tip elmlərin səlahiyyəti «necə?» sualına cavab verməyə çalışır. Amma, «nə üçün?» sualına cavab verə bilmir. Qaldı ki, qeyb aləmindən olan axirət məsələsinə – hansı ki, bu elmlərin ixtisasına və səlahiyyətinə aid deyildir – aydınlıq gətirə bilsin.

Braun universitetində müəllim kimi çalışan prof. Doukas Axirət inancına dini etiqadla olmasa da, elmi nahiyədən inandığını bildirmişdir. Çoxsaylı elmi araşdırmaları nəticəsində o, Axirət həyatının

mövcudluğunu qəbul etmişdir. O, demişdir: *«Bizim ən zəkalı alimlərimizdən bir qismi bu məsələ ilə bağlı şahidlikləri təcrübədən keçirmişlər. Hətta, çox dərin tənqidi mövqedən hesablamalar aparmışlar. Sonda belə bir nəticəyə gəlmişlər ki, «Ruhun qalıcı olması» nəzəriyyəsi anlaşılan və baş verməsi mümkün olan bir nəzəriyyədir. Onlar hesab edirlər ki, çoxsalı isbatları yalnız bu cür izah etmək olar. Bu araşdırmaları edən böyük şəxsiyyətlərdən bunları sadalamaq olar:*

*Alfred Russel Wallace, William Crookes, Myers, Cesare Lombroso, Camille Flammarion, Sir Oliver Joseph Lodge, Righard Hogesn, Mister Henry Sidgwick, Prof. Heslop.»* (Eyni mənbə: səh 136)

**Max Plank**: (1858-1947) O, 1918-ci ildə Fizika üzərə «Elementary Quanta» nəzəriyyəsinin qurulması və inkişaf etdirilməsindəki gördüyü işlərinə görə Nobel mükafatına layiq görülmüşdür. Müasir Fizika elminin qurucularından, nisbi nəzəriyyənin inkişaf etdirənlərdən biri, 20-ci əsrin ən mühüm nəzəriyyələrindən birinin «Quantum Theory» banisi, üstəlik də «Electromagnetic Radiation» nəzəriyyəsinin inkişaf etdirənlərdəndir. O, həm də «Quantum Mechanics» nəzəriyyəsinin qurucularından biridir. Mənbələrdən birində qeyd olunur ki:

*«Max Plank ölümdən sonrakı həyata da inanırdı, O, bu həyatın fövqündə olan başqa bir həyata inanırdı. Elə bir əbədi həyat ki, biz onu özümüzə sığınacaq və qurtuluş edə bilərik.»* (Plank, as Cited in HeilBorn, 1986, 197)

Həmçinin, o, Allaha da inanırdı və bu barədə çox dəyərli sözləri də mövcuddur. Belə şəxslər barədə misalları çoxaltmaq olar. Lakin, mövzunu bir qədər müxtəsər etmək niyyətindəyik.

Ruh araşdırmaları barədə konkret bir misal çəkık. 1907-ci il, 11 mart tarixində Amerikanın «Times» qəzeti və eyni ilin Aprel ayında «American Medicine» qəzeti xəbər yayırlar ki, amerikalı cərrah həkim Duncan MacDougall bir qrup fizika mütəxəssisləriylə bərabər bir araşdırma edir. Həyatda son dəqiqələrini yaşayan (can verən) bir neçə kişi və qadın (6 nəfər) üzərində apardıqları araşdırma zamanı hər dəfə vəfat edən şəxsin ölmədən öncə olan çəkisi ilə öldükdən dərhal sonra olan çəkisi müqayisə edilir və hər dəfə orta hesabla 21 qram fərq ortaya çıxır. 21 qramı orta rəqəm kimi verdikləri üçün biz də elə qeyd etdik. Uğurlu alınan hər təcrübədə cəsəddə neçə qram fərq əmələ gəldiyi hər dəfə qeyd olunur. Sonra eyni təcrübəni 15 köpək üzərində edir və çəkidə bu cür qram fərqləri ortaya çıxmır. Lakin, köpəklərdə də bunun olduğunu, sadəcə çəkidə insandakından daha az gəldiyi üçün görünmədiyini qeyd edir. Hər bir halda həmin araşdırmaçılar insanın ruhunun olduğunu qəbul etməli olurlar.

http://antishobhat.blogspot.com/2013/02/21.html?m=1

Daha bir araşdırma isə, 1998-ci ildə Donald Carpenter adlı alim özünün «Ruhun fiziki çəkisi» adlı kitabında ruhun müəyyən bir həcminin olduğunu, hətta, köpəklərdə bu çəkinin daha az olduğunu (1,8 qram), ümumiyyətlə insan ruhunun çəkisinin bədən həcminə görə dəyişdiyini qeyd edir. (Mənbə; bax: https://youtu.be/FKJT0Fx9jAY)

Nəticə nə olursa olsun, bu barədə yenə insanın elmi, biliyi məhduddur, nəticədə ruhun var olduğunu elmi baxımdan da qəbul edirik, Uca Allah da Quranda bizə bu barədə az elm verildiyini bildirmişdir:

**«Səndən ruh haqqında soruşurlar. De: “Ruh Rəbbimin əmrindəndir. Sizə yalnız az bir bilik verilmişdir“»** (əl-İsra, 85)

## İKİNCİSİ: AXİRƏTƏ OLAN EHTİYACIMIZ.

Heç kim bu dünyada istəmir ki, əbədi həyatı olmasın. Hər kəs qayğısız və firavan yaşamağı, əbədi yaşamağı, heç ölməməyi arzulayır. Heç kəs qocalmaq istəmir. Qocalsa da, ölmək istəmir. Əslində, sağlam düşüncəli hər bir insan axirət aləmini, haqq-ədalət aləmini arzulayır. Deməli, hər bir insan bu iki şeyi arzulayır. Əbədi həyatı və firavanlığı… Bu iki şey isə, yalnız cənnətdə kamil şəkildə vardır. Deməli, hər bir insan özü də bilmədən axirət aləmini, cənnəti arzulayır.

Axirət inancı insanı müxtəlif cinayətlərdən və əxlaqa zidd əməllərdən qoruyur. Əgər biz insanlara, xüsusən də, şər əhlinə desək ki, sadəcə «bu pis əməlləri etməyin» desək, onlar buna qulaq asmayacaqlar. Bir insan bəzən etdiyi əməlin özünə, sağlamlığına zərər olduğunu bilə-bilə edirsə, onun qəlbinə bu çirkin əməl düşdükdə hansısa xarici təsirin onaköməyi olmayacaq. Lakin axirət inancı belə deyildir. Axirət inancı cinayətlərdən uzaqlaşmağı hər şəxs üçün şəxsi məsləhətə çevirir. Cinayətlərdən uzaqlaşmaq hər kəsin diqqət göstərdiyi bir məsləhət olur və hər müsəlman düşünür ki, bir gün mütləq Allahla qarşılaşacaqdır. Hər müsəlman düşünür ki, Allah onun etdiyi əməlləri görür və onu etdiyi əməllərə görə çətin bir hesaba çəkəcəkdir. Axirət inancındakı bu böyük əhəmiyyət Mathew Halos’u (17-ci əsrdə qərb aləminin böyük qazilərindən olmuşdur) belə deməyə vadar etmişdir: *«Dinin yalan olduğunu demək,*

*ictimai nizamın qalıcı olması üçün bizim çiyinlərimizdə olan bütün məsuliyyətləri heçə endirmək, batil etmək anlamına gəlir.»* (Religion without Revelation, p. 115)

Məgər bu nahiyə axirət inancının necə mühüm olduğunu göstərmirmi?! Bununla belə, hətta bir çox axirəti inkar edən ateist alimlərinin belə bu qəbildən olan etiraflarının şahidi ola bilərik ki, tarixi təcrübələrə əsasən, insanın bütün hallarda haqq-ədalət yolunu tutması və özünə nəzarət etməsi üçün axirət inancından başqa bir yolu yoxdur. Alman ateist-filosofu Kant dindəki «nəzəri doğruluğu» inkar etsə də, eyni vaxtda əxlaqi prizmadan dindəki «əməl doğruluğu»nu qəbul edirdi.

(Story of Philosophy, New York, 1954,p.279)

Ateist Folter də həmçinin deyirdi: *«İlahın və axirətin əhəmiyyəti olduqca böyükdür. Çünki bu iki şey əxlaq əsaslarını qurmaq üçün iki əsasdır.»* … Folter hesab edirdi ki, yalnız bu inanc cəmiyyətdə daha üstün əxlaq formalaşdırmaq üçün bir kəfildir. Əgər bu inanc aradan qalxarsa, yaxşı əmələ təhrik edən (əsas) amil aradan qalxar. Bu isə, ictimai nizamın çökməsiylə nəticələnər. (Windelband, History of Philisopy, p. 496)

O kəslər ki, axirət inancını xəyali fikirlər adlandırırlar, onlar gərək bu barədə düşünsünlər ki, necə ola bilər ki, "xəyali fikirlər" cəmiyyətin real həyatı üçün böyük və mühüm bir əhəmiyyət kəsb etsin?! Nəyə görə biz bu inanc olmadan sağlam bir ictimai nizam qura bilmirik? Nəyə görə bu etiqad cəmiyyətdə mövcud olmadıqda həyatımızın dəyərləri süqut edir? Görəsən "xəyali fikirlər"in cəmiyyətdə bu qədər əhəmiyyət kəsb etməsi mümkündürmü?

Həyatımızın nizamlanması və ədalətli, həqiqi əsaslar üzərində qurulması üçün Axirət inancına çox böyük ehtiyac vardır.

Sağlam fitrət və salamat ağıl Axirətə ehtiyaca dəlalət edir:

Allah bu dünyanı imtahan və sınaq olaraq yaratmışdır. İnsanın bu həyatı da, ana bətnində olduğu kimi, bir mərhələdir. Bu mərhələdən sonra başqa mərhələ gəlir ki, o da, axirət həyatıdır. Ana bətnindən əvvəlki mərhələdə isə, insan ruhlar aləmində idi ki, bu da başqa bir mərhələ idi. Heç ədalətdən olmaz ki, bir insan bu dünya mərhələsində haqsızlığa uğrasın və haqq-hesab mərhələsi olmadan, məzlumlar haqqını almadan, yaxşı ilə pis ayırd edilmədən bu həyat sona çatsın və bir daha haqq-hesab edilə bilməsinlər. Sağlam fitrət və sağlam ağıl Allaha itaət edən xeyirxah insanlarla günahkar və zülmkar insanların bir tutulmasını inkar edir.

Dünya əməl meydanıdır, axirət isə, haqq-hesab meydanı… Dünyada əməl var, cəza (qarşılıq) yoxdur. Axirətdə isə, cəza (qarşılıq, haqq-hesab) var, əməl yoxdur.

Dedik ki, dünya haqq-hesab mərhələsi deyil, ona görə də mümkündür ki, yaxşı bir insanın haqqının başqaları tərəfindən tapdandığını, zülmə uğradığını görə bilək. Hətta bu hal o şəxsin ölümünə kimi davam edə bilər və o şəxs nə intiqam ala bilər, nə də özünə yardımçı əldə edə bilər. Necə ki, bu dünyada belə hallar tez-tez baş verir. O zaman axirət aləminin olması qaçılmazdır ki, bu insanlar öz itirilmiş haqlarını əldə etsinlər və haqq-ədalət bərpa olunsun. Yaxşı insanlar dünyada etdikləri yaxşılıqların qarşılığını görsünlər, pis insanlar isə, öz pis əməllərin cəzasını çəksinlər.

Bu həqiqəti qəbul etməkdə sağlam fitrətlər və salamat ağıllar ittifaq etmişlər.

Allah da Qurani-Kərimdə bu mənaya işarə edərək buyurmuşdur:

**«Biz heç iman gətirib yaxşı işlər görənləri yer üzündə fitnə-fəsad törədənlərə tay tutarıqmı? Ya da Allahdan qorxanları günahkarlara tay tutarıqmı?»** (Sad, 28)

**«Biz heç müsəlmanları günahkarlara tay tutarıqmı? Sizə nə olub, necə hökm verirsiniz?»**(Qaləm, 35-36)

– Axirət həyatı, həmçinin, bir əxlaqi zərurətdir. Əmanətə xəyan etməyən və həmişə düz danışan bir kimsə bu gözəl əxlaqa yalnız axirətdə bunun qarşılığını görmək və Allahın razılığını qazanmaq üçün riayət edir. Həmçinin, başqa bir çox gözəl əxlaqlar axirət yurdu naminə edilir. İnsan əxlaqını gözəlləşdirərək axirət dünyasında bunun nəticəsini görmək istəyir.

Ona görə də, ateistlərdə əxlaq nisbi olduğu üçün, onlar əxlaq barədə qəribə sözlər danışırlar. Bu barədə «ateizmdə əxlaq anlayışı» mövzusuna toxunarkən ətraflı danışmışıq.

**– Peyğəmbərlər və Elçilərin diriliş və hesab günü barədə xəbər verməsi:**

Allah öz peyğəmbərlərini və elçilərini saf əqidə və sadiq dəvətlə göndərmişdir. O dəvət ki, insanların sağlam fitrəti və ağlı ilə uyğun gəlir. Allah o peyğəmbərlərə əlamətlər, nişanələr və möcüzələr də verərək onları qüvvətləndirmiş, Onun tərəfindən göndərilən elçilər olduqlarını insanlara göstərmişdir. Bütün peyğəmbərlər öz qövmlərinə insanın yenidən diriləcəyi və etdiyi əməlləri barəsində barədə haqq-

hesab olunacağı barədə məlumatlar vermiş, buna inanmağın zəruriliyini bildirmişlər. Budur, İbrahim Peyğəmbər də öz qövmünə belə demişdir: **«O Rəbb ki, məni öldürəcək, sonra dirildəcəkdir. O Rəbb ki, Haqq-hesab günü xətalarımı bağışlayacağını Ondan umuram.»** (əş-Şuara, 81)

Başqa peyğəmbərlər də bu xəbəri öz qövmlərinə vermişlər.

**– Allahın hikməti və ədaləti ölümdən sonrakı həyatı gərəkli edir:**

Allahın hikmətindəndir ki, dünya həyatından sonra başqa bir həyat yaratsın və hər bir insan etdiyi əməllərin qarşılığını görsün. Çünki, bu dünya əməl dünyasıdır. Allah bəzi əməllərin qarşılığını dünyada versə də, elə əməllər vardır ki, gizli qalır, istər yaxşı, istər də pis əməl. Allah cəzasını dünyada almayan pis əməl sahiblərinin cəzasını da, üstü açılmamış gizli yaxşılıqların mükafatını da haqq-hesab günü verəcəkdir. Dedik ki, dünya əməl məkanı, axirət isə haqq-hesab məkanıdır. Üstü açılmayan bütün cinayətlər, bütün şərlər, pisliklər həmin aləmdə çözüləcək. Uca Allah buyurur:

**«O gün (gizli qalan bütün) sirlər açılacaqdır.»** (ət-Tariq, 9)

Bu ayədən əvvəl isə, eyni surədə bu ayələr keçir:

**«Qoy insan nədən yaradıldığına bir baxsın! O, süzülüb tökülən bir mayedən yaradılmışdır.**

**Bu maye bel və köks sümükləri arasından çıxır.»**

Sonra isə, növbətli ayədə Allah buyurur:

**«Şübhəsiz ki, Allah onu dirildib qaytarmağa qadirdir.»** (ət-Tariq, 5-8)

Əgər zalım bu dünyada istədiyini edər, zülm edər və zülmünün qarşılığını görməzsə, eynilə də möminlər etdikləri yaxşılıqların qarşılığını almasalar, bu Allahın ədalətinə zidd olar. Ona görə də, bu ziddiyyət qətiyyən mümkün deyildir və Allah Özü haqq-hesab günü ədaləti bərqərar edəcəyini, zülmün və yaxşılığın qarşılığının veriləcəyini bildirmişdir:

**«O gün bütün insanları öz başçıları ilə birlikdə çağıracağıq. O zaman kitabı sağ əlinə verilən kimsələr öz kitablarını sevinclə oxuyacaq və onlara xurma çəyirdəyindəki lif qədər zülm edilməyəcəkdir.»** (əl-İsra, 71)

Odur ki, bu dünyada döyülən, söyülən, haqqı yeyilən, bu dünyada haqqını almağa aciz qalan hər kəs əmin olsun ki, o dünyada öz haqqını alacaqdır. Onların haqqından xurma çəyirdəyi üzərindəki bir nazik lif qədər də keçilməyəcək, zülm olunmayacaq. Allah öz qulları üçün bu hikmətli və ədalətli tədbiri görmüşdür!

## HƏCCƏ XƏRCLƏNƏN PULLARIN DƏRDİNİ ÇƏKƏNLƏRƏ CAVAB:

Sual belədir: *ƏsSələmu aleykum və rahmətullah.*

*Bəziləri kiminsə bir və ya daha çox həccə, yaxud ümrəyə getdiyini görsələr, dərhal etiraz edib deyirlər ki: "həccə, ümrəyə pul verincə və ərəbə pul töküncə, ondansa, uzağa getmə, elə öz ölkəndə nə qədər ehtiyaclı, kasıb var ki, onlara pul xərcləyin, onlara sədəqə verin. Buna nə cavab verərdiniz?*

**Bu şübhəyə cavabımız budur ki;**

**Birincisi:** Nədənsə bu sözləri danışanlar özləri gedib ərəb ölkələrində pul xərcləyəndə heç də bu sözlər yadlarına düşmür.

Nədənsə, Antalyada və ya Avropanın və ya dünyanın müxtəlif yerlərində istirahətə, kurorta minlərlə manatlarını xərcləyəndə bu sözlər onların yadlarına düşmür.

Nədənsə, bahalı evlərə, bahalı maşınlara, bahalı telefonlara pul xərcləyəndə bu sözlər yadlarına düşmür.

Hər kim xərcləyirsə onun öz işidir, amma nəyə görə həccə gedənlərin işinə qarışırlar? Amma, bu sadaladıqlarımızın işinə niyə qarışmırlar?!

**İkincisi:** Həcc Allahın əmridir. Allah Quranda buyurmuşdur: «Allah üçün həcc və ümrəni tam yerinə yetirin.» (əl-Bəqərə, 196)

Diqqət edin, İslam dininə görə bir müsəlmana hər il həccə getmək vacib deyildir, əslində bir müsəlmana ömründə bir

dəfə həcc etmək vacibdir. Yəni, müsəlman kimsə bir dəfə həcc edib bununla kifayətlənərsə, bu ona bəs edir və bununla da o artıq həcc vacibini yerinə yetirmiş olur. Amma, kim varlı olarsa, imkanı daxilində yenə həcc edə bilər və bu bəyənilən əməllərdən sayılır. Onsuz da hər il təkrarən həcc edənlər ümumi hacilərin heç beş faizini də təşkil etmir. Deməli, bir müqayisə ortaya çıxır ki, müsəlmanların 95 faizi ömründə bir dəfə həcc edir, lakin, bəzi insanlar bunu qınayırlar, amma, hər yay tətilində minlərlə manat pulu ölkədən xaricdə kurort zonalarına aparanlardan kimsə danışmır. Düşünə bilirsinizmi?! Bu necə absurd bir fikirdir?!

Lakin, əvvəla, təkrarən həcc edənlərin içində başqalarını da həccə göndərən, sədəqədə, kasıba yardım etməkdə öndə olanları da az deyil. Bir başqa məqam isə odur ki, həcc ayının əvvəlindən başlayaraq Qurban bayramına kimi zatən İslam dininə görə yaxşı əməlləri artırmaq çox bəyənilir, bu əməllərin içərisində kasıb insanlara sədəqə vermək və maddi yardım etmək mühüm yer tutur. Belə olduğu halda o cür insanları tanımadan hamısına belə bir ittiham etmək heç də ədalətdən olmaz.

Onu da qeyd edək ki, biz də həmçinin "həci" adı almaq üçün həcc edib özünü islah etməyən insanlara yaxşı baxmırıq.

**Üçüncüsü:** Guya həcc edəndə kimlərsə, "ərəblərə xeyir verir" deyənlər, unudurlar ki, artıq bir il ərzində ərəblərdən ölkəmizə gələn turistlərin sayı Azərbaycandan həccə gedənlərin sayından qat-qat çoxdur. Hətta, son bir ilin məlumatına görə təkcə bir gündə ölkəmizə 600 ərəb turistin daxil olduğu günlər olurdu. İndi də ölkəmizə ərəb turistlərin axını davam edir. Bu isə il ərzində ölkəmizin büdcəsinə milyonlarla dollar gəlir daxil olması deməkdir.

Onda ərəblər də gəlib ölkəmizə xeyir verməsinlər ki, bizi bəyənməyənlərə xeyir vermirik?! Bu necə düşüncədir? Məncə belə söhbətləri ancaq İslama qarşı qərəzli insanlar edə bilər. Çünki, Allah həcci bir insana ömründə bir dəfə vacib edib, amma, nədənsə hər yay kurortlara minlərlə manat pul tökənlərdən danışan yoxdur.

**Dördüncüsü:** Xüsusən də ilk dəfə həccə gedənlərdən Səudiyyə Ərəbistanının rəsmilərinin açıqlamalarına görə heç bir viza rüsumu alınmır. Nədənsə bu söhbətdə ədalətsiz mövqe tutanlar müxtəlif həcc şirkətlərinin hacılara xidməti əsas göstərərək süni qiymət artımları etmələrindən heç danışmırlar. Nəticə etibarilə həcdən yalnız ərəb deyil, yerli vətəndaşlar da gəlir əldə edir. Bunu "ərəbə xeyir verirsiniz" deyib atmaca atanlara, dinin böyük bir ayininin icrasını şişirdib "fəlakət" hesab edənlərə xatırladırıq.

**Beşincisi:** Araşdırmalara görə hacı (həcc edən şəxs) xərclərin 36 faizini (təyyarə haqqı, vasitəçilərin haqqı və bəzi rüsumlar) artıq öz ölkəsində ikən ödəyir. Təkrar həccə gedənlərin vizaya ödədikləri pul isə 3000 realdan 8000 reala kimi dəyişir. (Bu isə əsasən 800 dollar civarında olur)

Araşdırmalara görə hacı öz xərcinin 40 faizini otel-yataqxana xidmətinə, 31 faizini minik vasitəsinə, 14 faizini hədiyyələrə və 10 faizini qidaya xərcləyir. Həmçinin, qurban kəsmək, bərbər xidməti və digər xidmətlərə də pul xərcləyir.

(Mənbə: əl-Beyt əl-Xalici araşdırma mərkəzi, Gulf house, Sabah Nuuşun araşdırması. 2018.10 avqust tarixli nəşr)

Beləcə, bu cür bəhanələr və iddialar yayanların əsassız danışıqları bizə aydın olur.

Bu suala cavabdan sonra, **yeri gəlmişkən bir çoxumuzun tez-tez eşitdiyimiz daha iki məsələyə münasibət bildirmək istərdik:**

**1)** Əvvəla, guya ki, həcc vaxtı şeytana atılan daşlar pulla satılır. Bu qərəzli, yanlış və yalan məlumatdır. Həm özümüzün, həm də başqa həcc edənlərin müşahidələrinə əsasən deyə bilərik ki, bu xəbərlər əsassızdır.

***Birincisi:*** ona görə ki, yeddi və ya iyirmi bir sayda noxud boyda daşları həmin daşlıq ərazidə tapmaq çətin deyil.

***İkincisi:*** Rəsmi qurumlar tərəfindən xüsusi maşınlarla həmin daşlar yığılaraq o əraziyə səpilir ki, insanlar rahat şəkildə daşları toplaya bilsinlər.

***Üçüncüsü:*** Fərz etsək ki, kimsə gedib o ərazidə kiçik daş yığıb sonra başqalarına satmaq istəsə, bunu görən biri bu şəxsin əməlini oradakı müsəlmanlara şamil edə bilməz.

Ateistlərin belə yalan xəbərləri yayması bizi elə də təəccübləndirmir. Lakin, bizi təəccübləndirən bəzi məzhəb davası salan "dindarların" belə yalan xəbərləri yaymalarıdır.

**2) Daha bir çox soruşulan məsələ isə; Qurban bayramında kəsilən minlərlə heyvanların ətinin aqibəti barəsindədir.**

Bu sualın cavabı isə dəfələrlə qeyd edilmişdir ki, orada kəsilən heyvanların bir qismi hacilərə, digər ziyarətçilərə, ehtiyaclı kimsələrə, digər qismi isə Asiya və Afrika qitəsinin kasıb ölkələrində ehtiyacı olan müsəlmanlara paylanılması məqsədilə göndərilir. Hətta, o qurban payları Azərbaycana qədər göndərilir. Ətlərin saxlanma şəraitinə

gəldikdə isə Ərəbistan ərazisi isti olduğundan bu qurban ətləri xüsusi böyük soyuducularda saxlanılır və lazımi ünvana çatdırılır.

# ATEİSTLƏRİN ZİDDİYYƏTƏRİ

**Birincisi**: Ateist kimsə Yaradan (Xaliq) bir ilahın olmasını inkar edir. Bununla yanaşı o, kainatın müxtəlif hissələrinin yaradan olmasını qəbul edir. Yəni, "kainat özü-özünü yaradıb" — deyir. Deməli, ateistə görə "qarışıqlıq" (xaos) yaradan ola bilir, "təbiət" yaradan ola bilir, "təsadüf" yaradan ola bilir, amma, tək olan Allah Yaradan ola bilmir!?

- Ateist iddia edir ki, var olmayan şey var olan şeyi yaratdı. "İlk hüceyrə də var olmayan şeydən yarandı". Gəl indi bir şey başa düş!

- Ateist özünü ağıllı hesab edir. O, ağılı ilə də kar və ağılsız maddənin ağıllı bir məxluq yaratdığını (yəni, təbiətin insanı yaratdığını) iddia edir. Məgər bu ağıllı fikirdirmi, ey ağıllı bəndə?
-

**İkincisi**: Əgər Allah bir zalımdan intiqam alarsa, ateist deyər: «Mən belə bir intiqam alan Allaha ibadət edə bilmərəm. Çünki, haqq olan ilah gərək Rəhmli olsun.»
Əgər Allah hansısa bir zalıma möhlət verərsə, bu zaman ateist deyər ki: «Bəs sizin Allahınız bu zalıma niyə heç cəza vermir?»

**Üçüncüsü**: Ateist iddia edir ki, "mərifətə (həqiqəti tapmağa) gedən yol yalnız təcrübədədir." Hər şey ki, təcrübəyə ziddir, o boş söz və safsatadır. Lakin, o özü də bilmir ki, təcrübə yoluyla indiyə kimi təkamül fikrini təsdiq edən bir sabit nəzəriyyə belə yoxdur. Hətta, onun bu iddiası təcrübəyə də uyğun deyil. Bu sadəcə əqli iddiadan başqa bir şey deyil.
Məsələn; Ateist iddia edir ki, əsli-kökü bir balıqdan gəlir, onun əmisi oğlu da meymundan törəyib. Lakin, sübut edə

bilmir ki, bunu haradan çıxarıb? Hətta, bu ikisi (balıqla meymun) arasındakı müştərək mərhələ də qondarmadır. Bu iddia nə elmi təsdiqini tapıb, nə də əqli fərziyyə olmaqdan o yana keçmir. Yəni, ateistlər sərf edəndə əqli fərziyyələri qəbul edirlər, amma, ağılın dəlalət etdiyi ən böyük həqiqət olan və ağılla inanmağa ən çox layiq olan Allah barəsində ağıllı mövqe sərgiləmirlər.

**Dördüncüsü**: Ateist dinin zənni bir şey olduğunu, dəlillərinin isə yəqinlik üzrə olmadığını iddia edir. Lakin, özü ateist fikrinə bir yəqin, sabit dəlil gətirə bilmir.

**Beşincisi**: Ateistə desən ki, ateizmi tərk et və Allaha iman gətir! İnkarçı şəklində deyəcək ki: «Dünyada İslamdan başqa 5000 din var, mən hansına inanım?» Yaxşı, onda ey ateist, İslamı niyə təhqir edirsən? Sənə görə 5000 din yoxdurmu? Yoxsa, gözlərin İslamdan başqa din görmürmü? Bəlkə bunu bilə-bilə özünü aldadırsan?!

**Altıncısı**: Ateist deyir ki, əxlaqın əsli din deyil və əxlaq hərəyə görə dəyişir. Yəni, kimə nə xoş gəlirsə, o əxlaq sayılır. Buna baxmayaraq, əxlaqdan danışdıqda gətirdiklərinin 90%-i dindən götürülmüş olacaq. Elə isə bu iddia haradan çıxdı?

**Yeddincisi**: Ateist deyir ki, heç nə haram deyil və ya haram anlayışı yoxdur. Lakin, kimsə desə ki, ey ateist, ananla, bacınla və ya qızınla yaxınlıq et, onda haramı qəbul edir. Lakin, təəssüflər olsun ki, bizim cəmiyyətdə də bacı-qardaşı ilə yaxınlıq etməyə normal baxan ateistlər peyda olub.

**Səkkizincisi**: Ateist deyir ki: İslam oğurluğu, zinanı və yalanı haram edib. Amma, bu şeylər onun özünə qarşı törədilərsə, deyir ki, əxlaq hanı bəs?

**Doqquzuncusu**: Ateist deyir ki: "Allah yoxdur və kainatın idarə edicisi yoxdur." Baxmayaraq ki, o etiraf edir ki, onun bədənini idarə edən ağılı var. Yəni, kainatda zərrə qədər kiçik olan insan möhtəşəm bir ağılla idarə edilməyə möhtacdır, amma, bu böyüklükdə kainat nizamı ilə alimləri heyrətə salan bu böyüklükdə kainatın ağıla ehtiyacı yoxdur?! Kainatı idarə edənə də heç bir nizam-intizam işarə etmir?

**Onuncusu**: Ateist deyir ki, mən bütün azadlıqları istəyirəm, amma, İslamın təqdim etdiyi azadlıqları istəmirəm. Amma, unudur ki, onun azadlığı başqalarının azadlığı ilə yanaşı durur. Yəni, öz azadlığını istəyən başqalarının azadlıqlarına da hörmətlə yanaşmalıdır.

**On birincisi**: Ateistlər "yadplanetlilərə" inanırlar, baxmayaraq ki, "onları görməyiblər". Buna maddi dəlil də yoxdur. Axı onlar görmədiklərinə inanmırdılar!…Nə oldu görəsən, bəs bu nağıllara necə inanırlar!?

**On ikincisi**: Ateist Quranın elmə müxalif olduğunu iddia edir. Əgər ona Quranın elmi ecazkarlığından danışsan, elmin dəyişkən olduğunu deyərək bunu bütünlüklə inkar edəcək.

**On üçüncüsü**: Ateist özünə ünvanlanan: "Birdən öldükdən sonra Allahı görsən nə olacaq?" sualına fitrətinin tələbi ilə "ölümdən sonra yoxluğu" inkar etməklə cavab verir. Eyni zamanda da "ölümdən sonra həyat yoxdur" — deyir.

**On dördüncüsü**: Ateist İslamdakı çoxarvadlılığı inkar edir. Lakin, eyni zamanda bir çox qadınla zina etməyi inkar etmir. Bu əsil ziddiyyətdir.

**On beşincisi:** Ateistlər gah deyirlər ki, dinlər ancaq İbrahimin dinindən bir neçə il əvvəl meydana çıxıb, ondan

əvvəl isə guya ateizm olubmuş, gah da deyirlər ki, din ilk insanın yaranmasından bəri mövcud olmuşdur. O baxımdan ki, insanlar təbiət hadisələrini izah edə bilməyəndə qeybdəki böyük gücə sığınırdılar. İslamda isə bu məsələdə ixtilaf yoxdur. İslama görə bəşərin dini ilk insandan bu yana mövcuddur.

**On altıncısı:** Əqidəsi yalnız maddə üzərində olduğu halda ateistlərin «islamı kin-küdurət dini» kimi vəsf etmələri əsil ziddiyyətdir. Çünki, onlarda mənəviyyat meyarı yoxdur. Ona görə də mənəviyyat meyarı baxımından etdikləri bu iradlar ilk öncə özlərinin mənəviyyatsız maddi ateizm nəzəriyyələrini inkar etməyə səbəb olmalı idi.

**On yeddincisi**: Ateist deyir ki, elm Yaradanın olub olmadığını isbat edəcək. Daha çoxu isə deyir ki, isbat edib. Bunda ixtilaf ediblər. Ateist bilmir ki, bu qeybi imandır. Bu, nə maddi və təcrübi elmin həll edəcəyi iş deyil, nə də o elmlərə aid məsələ deyil. Biri var Allahın isbatı, biri də var Allahın kəşfi. Biz Allahın varlığını əqli dəlillərlə isbat edirik. O dəlillərlə ki, hər biri Allahın varlığına işarət edir. Lakin, Allahın kəşfi dedikdə onu gözlə görmək və ya maddi (təcrübi) elmlə (məsələn; Fizika elmiylə) göstərmək nəzərdə tutulur. Bu, doğru deyil və yanlış metoddur. Çünki, Fizika elminin qayda-qanunlarını qoyan Allahın özüdür, belə olduqda Fizika elmi ilə Allahı kəşf etmək mümkün deyil. Üstəlik də, Allah Fizika elmiylə məhdud deyildir. Allah bu dünyada bizə özünü göstərmək istəməyib, belə olduğu halda Fizika elmiylə Allahı kəşf etmək istəmək doğru deyildir. Çünki, sənin bu elminin alətləri kəşf etmək istədiyinin qarşısında çox cılızdır.

**On səkkizincisi**: Ey ateist! Sən insan həyatının öz-özünə yaranmasını qəbul etməyə çalışırsan və heç bir dəlilin, isbatın olmadan sən bu ehtimalı qəbul edirsən. Halbuki, Allahın varlığı iki ehtimalla məhduddur. Yəni, ya Allah

var, ya da Allah yoxdur. İnsanın ağılının qəbul etdiyi dəlillər isə Allahın olması ehtimalını yəqinliklə qəbul edir. Belə olduğu halda 50 faiz yəqinliklə qəbul edə biləcəyin bir ehtimalı trilyonda bir qədər kiçik olan və sübutu üçün heç bir dəlil olmayan ehtimalın qarşısında inkar etməyin əsil ziddiyyətdir.

**On doqquzuncusu:** Ateist mömini tənqid edib deyir ki: Quran bizi kafir adlandırır və dördayaqlı heyvanlardan betər olduğumuzu deyir. Sonra da “Bu radikallıqdır” — deyir.

Bəs necə olur ki, ateistlər özləri dini, dinin müqəddəs şüarlarını təhqir edir, dindarları alçardırlar? Məgər bu radikallıq deyilmi? Sən ey ateist! Necə özün bir şeyi deyib, sonra onun əksinə əməl edirsən?

Həmçinin, ateist Qurandakı: «Onlar dördayaqlı heyvan kimidirlər.» ayəsinə etiraz edir, lakin, Darvinin təkamül nəzəriyyəsində insanın heyvandan əmələ gəldiyi deyiləndə bunu qəbul edir. Nəyə görə Darvin sizə heyvan deyəndə qəbul edirsiniz, amma, Allah «onlar dördayaqlı heyvan kimidirlər» deyəndə qəbul etmirsiniz? Ən azından Quranda çəkilən misal (əti, südü, dərisi) faydalı heyvanlardır. Darvin isə sizi həqir meymunlara oxşadıb. Onda Darvinə də qəzəblənin! Üstəlik Quranda bir xüsusi tayfaya bu xitab edilməyib, sadəcə Allaha inanmayanlar qəsd olunub!

**İyirmincisi:** Ateist Quranda Allaha inanmayan, inadkar və təkəbbürlü imansızların «dördayaqlı heyvanlar» kimi olduqları vəsfinə qarşı çıxır, lakin, eyni zamanda əsil-kökünün balıqdan başladığını və insanın meymundan əmələ gəldiyini, donuzun insandan daha üstün olduğunu, insanın da mikrob, bakteriya, virus kimi başqa canlı varlıqlar kimi bir canlı olduğunu deyir.

**İyirmi birincisi**: Ateist iddia edir ki, Quran asan dildədir və onu hər kəs oxuyub başa düşə bilir. “Ona görə də bu Allah kəlamı ola bilməz.” Sonra isə deyir ki, əgər Quran Allah kəlamı olsaydı, o daha qəliz, daha çətin anlaşılan olardı. Bu yerdə birinci sualı veririk: Nəyə görə Allah bizə anlaşılmayan kəlam göndərsin və sonra bizə ona tabe olmağı əmr etsin?! Bu adillik olardımı heç? Lakin, həqiqətdə problem bu deyil. Problem odur ki, bu sözləri deyən ateistlər Qurandakı bəzi surələrin əvvəlində gələn rəmzi həriflər (Əlif, lam, mim. Ya sin və s.) haqqında: “Allah bu anlaşılmaz hərfləri niyə göndərib?” — deyərək ziddiyyətə düşürlər. Qeyd edək ki, həmin hərifləri hamısının izahı vardır.

**İyirmi ikincisi:** Ateist iddia edir ki, şərin mövcud olması Allahın inkar edilməsinə ən böyük dəlildir. Bəs ateist necə unudur ki, felin (şərin) mövcudluğu faili (işi görəni) lazımlı edir. Yəni (iş) varsa, fail (işi görən, təsir edən) də olmalıdır. Belə olduğu halda biz fail (işi görən) olmadan feli (görülən işi) necə təsdiqləyə bilərik?!

**İyirmi üçüncüsü**: Ateistlərin qəribə ziddiyyətli sözlərindən biri də Muhəmməd Peyğəmbər haqqındadır. Onlar gah Onun oğurluq etdiyini, gah adam öldürdüyünü və s. işlər gördüyünü iftira edir, sonra isə bir müsəlman onun cavabını verəndə deyirlər: «Əslində tarixdə adı Muhəmməd olan şəxs heç mövcud olmayıb».

Həmçinin, ateist Peyğəmbərə sehr edilməsi və Onun Aişə (Allah ondan razı olsun) ilə evliliyi barəsində danışır. O zaman ki, biz ona cavab verərək bəzi peyğəmbərlik dəlillərini göstəririk, başlayır belə deməyə: “Tarixi dəlil hesab etmirəm. Çünki, tarixi qalib gələnlər yazırlar.”

**İyirmi dördüncüsü:** Ateist sənə İslamda ixtilaf gördüyü şeyləri gətirməyə çalışar, halbuki, İslamın əslində ixtilaf yoxdur. Lakin, özü isə ateist alimlərin belə ittifaq etmədiyi fəlsəfəni irəli sürməkdən çəkinmir.

**İyirmi beşincisi:** Ateistlər deyirlər ki: dinlərin batil olmasına əsas dəlil dinlərin çox olması və ixtilaf etmələridir. Baxmayaraq ki, din inkarçıları özləri bir çox firqələrə bölünürlər.

**İyirmi altıncısı:** Ateistlər Allahın varlığına çoxsaylı aydın dəlillər olmasına baxmayaraq, Onu inkar edirlər. Lakin, varlığına bir aydın dəlil belə olmayan çoxlu varlıqları və yadplanetliləri qəbul edirlər. Bu əsil ziddiyyətdir.

**İyirmi yeddincisi:** Ateist deyir ki: İslamın batil olmasına ən böyük dəlil İslam barədə şübhələrin olmasıdır və sanki, heç ateizm barədə şübhələr yox imiş kimi danışır.
Şübhələr isə özü-özlüyündə həmişə bir şeyin batil olmasına dəlalət etmir.

İslam barəsində olan bütün şübhələrin elmi və əqli cavabı vardır. Əgər bu din bəşər övladının ixtirası olsaydı, onda bu qədər qüvvətli cavabların olması mümkünsüz olardı. Bir də ki, bu şübhələrin çoxusu pis anlayış və dini cahillik səbəbindəndir. Ona görə də hər kəsin düz anlamadığı bir şeyə etiraz etməsi və "bu şübhədir" deməsi asandır. Doğru olan isə budur ki, heç bir iddia sağlam dəlil-sübut olmadan qəbul edilmir.

**İyirmi səkkizincisi:** Ateist iddia edəndə ki, filankəs fizika üzrə alimdir və ateistdir. Biz də deyirik ki, təbiət alimlərinin çoxusu inanclı insanlardır və ateistlər inanclılardan azdır. O da deyir ki, ateizm fikirdir, nə şəxslərə, nə də çoxluğa görə deyil. Filan alim bizi

maraqlandırmır, hətta, bütün dünya iman gətirsə belə "no problem"…

**İyirmi doqquzuncusu:** Ateist iddia edir ki, ağıla hörmətlə yanaşır və öz sözünün məntiqə uyğun olduğunu deyir. Amma, həqiqətdə isə ateistin sözlərinin çoxu bunun əksini göstərir; məsələn, elə "bu aləm təsadüfən yaranmışdır" demək kimi və yaxud da hər hadisənin bir səbəbinin olmasını inkar etmələri kimi. Baxmayaraq ki, balaca uşağın əlindəki oyuncağı onun arxasından gəlib gizlicə götürsən, o balaca uşaq arxaya boylanacaq ki, görəsən mənim oyuncağımı kim götürdü?! Balaca uşaq da hər hadisənin bir səbəbinin olduğunu fitrətilə dərk etdiyi halda, ateist bu boyda aləmin, dünyanın təsadüfən, səbəbsiz yarandığını iddia edir.

**Otuzuncusu:** Ateist səmimi görsənməyə çalışıb "haqqı axtarıram və ədalətliyəm" deyir, lakin, qeyri səmimiliyinə dəlalət edən əsassız fəlsəfi sualları verməklə (o suallar ki, əslən sual kimi qoyulması doğru deyil; məsələn; Allahı kim yaradıb? Bilir ki, "Yaradanı yaratmaq" sözü doğru söz deyil və ilk yaradan özü yaradılmır.) bir daha öz niyyətini ifşa edir.
Çünki, səmimiyyət yaradılanlardakı əlamətləri görüb Yaradanı qəbul etməyi tələb edir. Onların "yaradanı kim yaradıb" sualı isə artıq birbaşa ondan əvvəlki mərtəbəni həll etməmiş növbəti mərtəbəyə keçmək cəhdidir, bu isə səmimiyyətdən xəbər vermir. Yaradanın yaradılmasına isə ehtiyac yoxdur. Çünki, biz tək yaradandan danışırıq. Tək Yaradanın isə yaradanı olmur.

## ADƏMLƏ HƏVVANIN NƏSLİ NECƏ ÇOXALIB?

## (Ateistlərin insest şübhəsinə cavab)

**1 — Adəmin özü nədən yaranmışdır?**
Adəm (əleyhissəlam) özü torpaqdan yaranmışdır. Adəm ilk insan və bəşər övladının atası hesab olunur. Uca Allah Quranda buyurmuşdur: «O, insanı ilk olaraq palçıqdan xəlq etdi.» (əs-Səcdə, 7)

Adəm (ilk insan) yarandıqdan sonra Allah ondan Həvvanı yaratmış, ikisindən (Adəm və Həvva dan) isə bütün insanları yaratmışdır. Uca Allah Quranda buyurmuşdur:

«Ey insanlar! Sizi tək bir candan xəlq edən, onun özündən zövcəsini yaradan və onlardan da bir çox kişi və qadın törədib yer üzünə yayan Rəbbinizdən qorxun!» (ən-Nisa, 1)

Həmçinin, buyurmuşdur: «Ey insanlar! Biz sizi kişi və qadından yaratdıq. Sonra bir-birinizi tanıyasınız deyə, sizi xalqlara və qəbilələrə ayırdıq.» (əl-Hucurat, 13)

Qurani-Kərimdə ilk insanın torpaqdan yarandığı bəyan edilməklə yanaşı Adəmin nəslinin də sudan (atanın mənisindən) yarandığı qeyd olunmuşdur. Bu həqiqət Quranda belə bəyan olunur:

«Həqiqətən, Biz insanı palçıq cövhərindən yaratdıq. Sonra nütfə halında möhkəm yerdə yerləşdirdik. Sonra nütfədən laxtalanmış qan yaratdıq, sonra o qandan bir parça ət yaratdıq, sonra o bir parça ətdən sümüklər yaratdıq, sonra da sümükləri ət ilə örtdük. Sonra da onu başqa bir məxluq

olaraq xəlq etdik. Yaradanların ən yaxşısı olan Allah nə qədər xeyirxahdır!» (əl-Muminun, 12-14)

**2 — Bəs görəsən Adəmlə Həvvanın nəsli necə çoxalmışdır?**

**Cavab**: Qurani-Kərim ərəb dilinin üslubuna əsasən açıq-aydın insanın Adəm və Həvvadan yarandığını bəyan edir. İnsan nəslinin də Adəm və Həvvadan çoxaldığını bildirir. (ən-Nisa, 1-ci ayə yuxarıda keçdi)
Bu barədə təfsilatlı məlumatlar isə Peyğəmbərin (Allahın Ona salavatı və salamı olsun) bəzi səhabələrindən nəql edilmişdir. Bu mövzuya aid olub Qurana müvafiq olan Bəni-İsrail xəbərləri də bu şəriətdə qəbul hökmündədir. Bu rəvayətlərə əsasən Adəmin yoldaşı Həvva hər hamiləlikdə qız və oğlan uşaqları dünyaya gətirirdi. Beləcə hər doğuşdan olan qız və oğlanlar bir-birilə evlənə bilməzdilər. Amma, başqa doğuşdan olan qız və oğlanlar bir-birilə evlənə bilərdilər.

Dahi İslam alimi İbn Cərir ət-Təbəri Suddidən rəvayət edir:

«Əbu Malikdən, o da Əbu Salehdən, o da ibn Abbasdan, o da Murrədən, o da ibn Məsuddan və peyğəmbərin bəzi səhabələrindən rəvayət olunur ki: «Hər oğlan uşağı doğulanda onunla birgə bir qız uşağı da doğulurdu. Beləcə, bir qarından (doğuşdan) olan oğlan digər qarından (doğuşdan) olan qızla evlənirdi. Həmçinin, bir qarından (doğuşdan) olan qız digər qarından (doğuşdan) olan oğlanla evlənirdi…» (İbn Cərir ət-Təbəri təfsiri, 8/322)

**Məhz bu rəy İslam alimləri arasında məşhurdur.**

Alimlər qeyd edirlər ki, ilk insanların bu cür çoxalması İslamdan əvvəlki şəriətlərə əsasəndir və bu tarixdə bəşər övladının artması üçün olan bir zərurət idi.

Həmçinin, Allahın bir haramı bir dövrə görə halal, digər dövrə görə haram etməsinin hikməti qullarını əmrə tabe olmada imtahan etməsi, müəyyən hallarda olan zərurət, qullara asanlıq gətirməsi və s. səbəblərə görədir.

Haqqında danışdığımız ilk insanın evliliyi, çoxalması da bu qəbildən olub, insanların çoxalması üçün zəruri olduğundan ilk dövrdə qeyd olunan şərtlərlə halal, zərurət aradan qalxdıqdan sonra isə haram edilmişdir. Bu da bacı-qardaş arasında qohumluq bağlarının boşanma ilə qırılmamasına, ailədən kənar digər insanlarla qohumluq əlaqələrinin qurulmasıyla insanlar arasında məhəbbətin yaranmasına və digər hikmətlərə görə haram edilmişdir.

O ki, qaldı bəşər övladının dünyada çoxalması məsələsini başqa cür izah etmək istəyənlərin "vaxtilə bir yox, bir çox Adəmlərin mövcud olması" və s. kimi iddialarına, bu iddialar Qurana ziddir və heç bir sabit elmi əsası yoxdur. *Quran isə bir çox Adəmlər fikrinin batil olduğunu göstərir.* Ortada bir Adəm və bir Həvva olmuşdur. Uca Allah Qurani-Kərimdə buyurur:
«Sizi tək bir candan xəlq edən, ünsiyyət bağlayıb rahatlıq tapsın deyə ondan onun zövcəsini yaradan Odur. Adəm övladı zövcəsini ağuşuna aldıqda o, yüngül bir yüklə yükləndi (hamilə oldu) və bir müddət onu bətnində gəzdirdi. Zövcəsi ağırlaşdığı zaman hər ikisi özlərinin Rəbbi olan Allaha: "Əgər bizə sağlam bir övlad versən, əlbəttə, şükür edənlərdən olarıq"– deyə dua etdilər.» (əl-Əraf, 189)

Bu ayə də bir daha Adəm və Həvvanın övladlarının yuxarıda qeyd olan şəkildə evlənmələrinə və insan nəslinin Adəm və Həvvadan, sonra isə onların övladlarından çoxalmasına dəlildir.

Əslində isə "çoxlu adəmlər" fikri bəzi batini firqələrindən gəlmə fikirdir ki, bu fikir əksər İslam alimlərinin qəbul etdiyi görüşə tam müxalifdir.

**3 — İslam dinində məhrəmlər (evlənilməsi haram olan yaxın qohumlar) bəyan edilmişdir:**

Uca Allah Qurani-Kərimdə həqiqi məhrəm (yaxın) qohumları bəyan edərək buyurmuşdur:

«Sizə analarınız, qızlarınız, bacılarınız, bibiləriniz, xalalarınız, qardaş qızları, bacı qızları, sizi əmizdirən süd analarınız, süd bacılarınız, arvadlarınızın anaları, yaxınlıq etdiyiniz qadınlarınızın himayənizdə olan ögey qızları, – yox əgər o qadınlarla yaxınlıq etməmişsinizsə, onda bu (ögey qızlarınızla evlənməyiniz) sizə günah deyildir, – öz belinizdən gələn oğullarınızın arvadları ilə evlənmək və iki bacını birlikdə almaq haram edildi. Olub-keçənlər isə artıq keçmişdir. Həqiqətən, Allah Bağışlayandır, Rəhmlidir.» (ən-Nisa, 23)

Onu da qeyd etmək istərdik ki, xristian və yəhudilərin kitablarındakı bəzi İslama zidd insest rəvayətləri ateistləri sevindirsə də biz onları İslamla yaxşı tanış olmağa, İslamı düzgün öyrənməyə çağırırıq. Bilsinlər ki, təhrif olunmuş kitablarla Quran eyni deyildir. Zatən elə Quran kitabının özündə həmin kitabların təhrif olunduğu qeyd olunmuşdur. Zatən insanlar Tövrat və incil kitablarını təhrif etməsəydilər, Allah yeni bir müqəddəs kitab göndərməzdi.

Sonda bir daha qeyd etmək lazımdır ki, ilk insanların çoxalması heç də ateistlərin icazəli saydıqları insest növlərinə dəlil ola bilməz. Artıq bu barədə yuxarıda ətraflı məlumat verilmişdir. Ateistlərin nəzərdə tutduqları insest növləri onların hədsiz ehtiras və ifrat azadlıq istəklərindən qaynaqlanır. Yoxsa, sağlam fitrətli və sağlam düşüncəli bir insanın "ana-oğul, ata-qız və ya bacı-qardaş evliliyinə" bəhanə axtarılmasının Adəm və Həvva ilə əlaqəsi olmamasının, bunun sırf ifrat azadlıq tərəfdarlarının və "əxlaqın nisbi olduğunu" deyənlərin başının altından çıxmasını anlaması elə də çətin bir məsələ deyildir.

**Yuxarıdakı dəlilə (Quran ayəsinə) əsasən bacı ilə evlənmək haramdır.** Ayə belə başlayır və evliliyin haramlığı ilə tamamlanır:
«Sizə analarınız, qızlarınız, bacılarınız… ilə evlənmək haram edilmişdir.» (ən n-Nisə, 23)

**Onda görəsən yuxarıda Adəmlə Həvvanın nəslinin çoxalması barəsində qeyd etdiyimiz rəvayət bu ayə ilə ziddiyyət təşkil edirmi?**

**Cavab**: Xeyr. Ziddiyyət təşkil etmir. Buna cavabımız iki aspektdən olacaqdır:

**Birincisi**: Biz yəqinliklə inanırıq ki, İslam dini Allahın bütün peyğəmbərlərə göndərdiyi yeganə dindir. Allah buyurmuşdur: «Həqiqətən də Allah qatında din yalnız İslamdır.» (Ali İmran, 19)
Baxmayaraq ki, peyğəmbərlərin müştərək dinləri İslam dinidir və dinin əsli eynidir, lakin, bu onların şəriət qanunları arasında Allahın bildiyi hikmətlərə görə bəzi əməli fərqlərin olmasına maneçilik törətmir. Ona görə də Allah buyurmuşdur: «Sizlərdən hər biriniz üçün bir şəriət və bir yol təyin etdik. Əgər Allah istəsəydi, sizi tək bir

ümmət edərdi. Lakin başqa-başqa olmanız sizə verdikləri ilə sizi imtahan etməsi üçündür.» (əl-Maidə, 48)

Əbul-Abbas Əhməd əl-Hərrani demişdir: «Allahın nazil etdiyi eyni dindir. Kitablar və peyğəmbərlər bu söz üzərində ittifaq etmişlər. Onlar yol və şəriətin, nəsix və mənsuxun (köhnə hökmü silən yeni qanun və hökmü silinmiş qanun) fərqli olmasına baxmayaraq, dinin qaydaları və dinin əsasları üzərində ittifaq etmişlər. Bu hal, eyni kitabın müxtəlif növlərinə bənzəyir. Çünki, müsəlmanlar ilk vaxtlar Qüds şəhərinə tərəf namaz qılmaqla əmr olunmuşdular. Sonra isə onlara Məkkəyə tərəf namaz qılmaq əmr olundu. **Hər iki halda da Allahdan nazil olana tabe olmuşdular.**» (əl-Cavab əs-Sahih, 2/438)
O zaman bir daha yəqin oluruq ki, Adəmin şəriətinə görə belə bir halın olması (başqa doğuşdan doğulan və əkiz olmayan bacısı ilə evlənmək) bəşər nəslinin artması üçün zəruri bir şey olduğundan və ya Allahın bildiyi başqa hikmətlərdən dolayı icazəli olmuşdur. Lakin, sonrakı peyğəmbərlərin şəriətlərində və İslam şəriətində bəşər nəslinin məsləhətinə uyğun belə bir zərurət və ya ehtiyac olmadığı üçün bu cür evlilik qadağan edilmişdir.

əl-Ayni demişdir: «Şəriət hökmləri bəndələrin yaxşılığı üçün təyin olunur, zamanın dəyişməsinə görə də dəyişilir. Heç bir şəkk yoxdur ki, (ayrı-ayrı doğuşlardan dünyaya gələn) bacılarla evlilik Adəm əleyhissalamın şəriətində icazəli idi, bununla da insanların nəsli artıb çoxaldı. Bunu (bu hökmün faydasını) heç kim inkar etmir. Sonra isə başqa (peyğəmbərin) dövründə bu hökm qüvvədən düşdü.» (Şərhu Sunəni Əbu Davud, 4/356)

**İkincisi**: Alimlər şəriətin dəlillərini və əsaslarını izləmişlər, bu ümumi dəlilləri oxuyub izləməkdən bu nəticəyə

gəlmişlər ki, həqiqətən də şəriət hökmləri bəndələrin islahı, məsləhəti üçündür. Bu, eyni zamanda da fəsadı onlardan uzaqlaşdırmaq üçündür. Elə isə Allah bir şeyi onun daha çox fəsadı özündə daşıdığı üçün haram edir və Allah bir şeyi yalnız onun bu fəsaddan uzaq olduğu üçün halal edir. Əbul-Abbas Əhməd əl-Hərrani demişdir:

«Allahu Təala bəndələrin məsləhətini təmin etmək və kamilləşdirmək, fəsadları aradan qaldırmaq və ya azaltmaq üçün elçilər göndərmişdir. Allah və Elçisinin əmr etdiyi hər bir şey insanlar xoşlamasalar belə bu əmrin məsləhəti məfsədəsinə (zərərinə), xeyiri isə zərərinə üstün gəlmişdir. (Məcmuul-Fətəva, 24/278)

İbnul-Qeyyim demişdir: «Şəriətin kökü və əsası hikmətlər üzərindədir ki, bu, dünya və axirətdə qulların yaxşılığı üçündür. Bunların hamısı adillik, rəhmət, məsləhət və hikmətdir. Elə isə, hər bir iş ki, adillikdən zülmə, rəhmətdən əksinə, məsləhətdən məfsədəyə (zərərə), hikmətdən əbəs işə çevrilirsə, o şəriətdən deyildir. Hətta bu iş şəriətə yozularaq daxil edilsə belə…»

(İləmul-Muvaqqi'in, 4/337)

Adəm əleyhissəlamın şəriətindəki oğlanın başqa qarından (doğuşdan) olan əkiz olmayan bacısıyla evlənməsi bəşər nəslinin artması və yox olub getməkdən qorunmaq kimi mühüm və zəruri bir məsləhəti gerçəkləşdirirdi. Çünki, qeyd olunan şərtlərlə birgə **belə bir evlilik olmasaydı, bəşər cinsinin bu günə gəlib çıxması mümkün olmazdı.** Amma, bu evliliyin zərərləri qeyd olunan böyük məsləhətin (xeyirin) önündə qeyd olunacaq bir şey deyildir. İbn Allən isə demişdir:

«Həvva hər dəfə doğuş etdikdə eyni doğuşdan olan uşaqlarla digər doğuşlardan olan uşaqlar bir-birinə uzaq qohum sayılırdılar. Bunun hikməti də onların evlənməsinin üzürlü (zəruri) olması idi. Beləcə, (insan) nəslinin davam etməsi zərurəti bunu icazəli etmişdi.» (Dəlilul-Fəlihin, 2/448)

Bugünki gündə insan nəslinin say azlığından dolayı davam etməməsi təhlükəsi mövcud deyildir. Ona görə də ateizmdəki İnsest (yaxın qohumların evliliyi) tərəfdarlarının Adəmlə Həvvanın nəslinin artması halını bəhanə gətirmələri əslində onların əleyhinə dəlildir. Çünki, bugünki gündə bacı və qardaşın evliliyinin mümkünlüyünü irəli sürən ateistləri nə din dəstəkləyir, nə adət, nə də sağlam ağıl.

**4 — Bəs ateistləri insest yanlışına salan nədir?**

**Cavab: Əvvəla deyək ki, "insest" yaxın (qan) qohumlarının evliliyi və ya cinsi münasibətinə deyilir.**
Ateistləri insest bataqlığına salan onların bitmək tükənmək bilməyən ifrat azadlıq şüarlarıdır ki, bu şüar onları ifrat ehtiras yollarına sürükləyir, beləcə bir ateist (bütün ateistlər bunu qəbul etməsələr də) öz bacısı və s. yaxın qohumlarıyla, hətta, nəfsi çəkəndə heyvanlarla da evlənmək və ya yaxınlıq etməklə öz çılğın nəfsinə xidmət etməkdə problem görmürlər. İş bununla da qurtarmır. Ateist üçün əxlaq nisbi olduğu üçün o cəmiyyətdəki əxlaq normalarını asanlıqla poza bilir, bir ateist ifrat azadlıq şüarlarına meyilli olduğundan dolayı onun üçün kişi ilə kişinin evlənməsi, yaxınlıq etməsi də çox normal bir hal hesab olunur. Hansısa ateist əgər etiraz edib desə ki, "şəxsən mən bu fikirlə razı deyiləm" biz ona deyəcəyik ki, ateizm inancı sənin dediyinin əksini deyir, deməli sən tam mənada ateist deyilsən. Çünki, bu gün dünyada ateizmin böyük

təbliğatçıları hesab olunan “ateist alimləri” bacı qardaş evliliyini və cinsi əlaqəsini normal görür, kişinin kişiylə yaxınlıq etməsini, hətta heyvanla yaxınlıq etməsini normal görürlər. Bu barədə onların öz sözlərindən olan nəqlləri gətirib nə dindarların, nə də oxucuların ürəyini bulandırmaq istəmirik. Biz bu nəqlləri ayrıca bir yazıda qeyd edəcəyik. Ona görərə də deyirik ki, ateistlərin Adəm və Həvvanın nəslinin çoxalmasını sitat gətirmələri dəlil deyil, bəhanədir. Ateizmin həqiqi üzü ilə tanış olan insan çox asanlıqla onların fikirlərindəki ziddiyyətlərin şahidi ola bilər.

O ki, qaldı ki, ateistlərin İslamda və başqa bir çox dinlərdə də icazəli olan əmiqızı, dayıqızı, xalaqızı və s. ilə evlənməyin icazəli olmasını bacı qardaş evliliyi ilə eyni tutmalarına, bu da onların elm iddia edib elmsiz danışmalarına dəlalət edir. Çünki, birincisi biz bu yazıda artıq elmdə sübut olunmuş yaxın qohumların evliliyi nəticəsində qanla nəsildən nəsilə (genetik) keçən xəstəliklərin daha aydın və daha təhlükəli biruzə verməsindən, xüsusən də *bacı-qardaşın birinci dərəcəli yaxın qan qohumu olduğundan*, həmçinin, bacı-qardaşın əmiqızı, dayıqızı və xalaqızı və s- dən daha yaxın qan qohumu olmasından, həmçinin, ikincilərlə evliliyinin xəstəliklərdən daha uzaq olması və s. mövzularda ətraflı danışmayacağıq. O cümlədən də, tibb alimlərinin bu barədə, belə münasibətlərin zərərləri barədə gətirdikləri şiddətli sözləri qeyd edərək mövzunu uzatmaq niyyətimiz də yoxdur.
İkincisi isə, Allahın birincilərin (bacı-qardaş) evliliyini haram edib ikincilərlə evliliyi (əmiqızı, dayıqızı, xalaqızı) halal etməsində bizim bildiyimiz və bilmədiyimiz hikmətlər vardır.

**İstifadə edilmiş mənbələr:**

1. Qurani-Kərim.

2. Təbiətinin təfsiri. İbn Cərir.
3. əl-Cavab əs-Sahih. İbn Teymiyyə.
4. Şərhu Sunəni Əbi Davud. əl-Ayni.
5. Məcmuul-Fətəva, ibn Teymiyyə.
6. İləmul-Muvaqqi’in, İbnul-Qeyyim.
7. Dəlilul-Fəlihin, ibn Allən.
8. Bu mövzuda bəzi videolardan iqtibaslar.

## İKİNCİ FƏSİL

# ATEİSTLERLƏ MÜBARİZƏYƏ AİD BƏZİ METODLAR

**1 - Ateistin dialoq əsnasındakı hiylələri və bu hiylələrin qarşısının alınması yolları:**

**2 - Ateistlə danışmaq istəyən kimsəyə bəzi tövsiyələr.**

**3 – Ateist tiplərin psixologiyası.**

**4 – Ateistlərin ziddiyyətləri.**

**5 – Ateistlə mübarizədə tərtib (ardıcıllıq)**

# Ateistin dialoq əsnasındakı hiylələri və bu hiylələrin qarşısının alınması yolları:

Əziz müsəlmanlar! Bu dəfəki yazımızda ateistlərin müsəlmanlarla dialoqu (iki nəfərin qarşılıqlı söhbəti) və daha çox şəxslə söhbəti zamanı əl atdıqları bəzi hiylələr və bu hiylələrin qarşısının alınmasından danışılacaqdır. Xüsusən də ateistlərlə dialoq qurub onların batilinin qarşısının alınmasında, bu Allahsızlıq təbliğatının qarşısına sədd çəkmək istəyən, bu mübarək mübarizədə yardımçı olmaq istəyən dəyərli müsəlmanların bu yazını oxumaları şiddətlə tövsiyə edilir. İndi isə bu praktikadan keçmiş, reallığı əks etdirən hiylələri və bu hiylələrə qarşı bəzi mühüm və təsirli hesab etdiyimiz mübarizə metodlarını təqdim edək:

1 – **Sübutların gətirilmədən hansısa fəlsəfi və ya məntiqi iddianın sabit, qəbul edilmiş bir fikir kimi təqdim edilərək ortaya atılması;**

Bu hiylə münazirələrdə işlədilən ilk hiylələrdəndir və demək olar ki, bu hiylədən istifadə etməyən ateist yoxdur. Məsələn; ateistlər deyirlər ki: «Əsas olan Allahın olmamağıdır və kim əksini deyirsə, o dəlil gətirməlidir.» Halbuki, bu açıq aydın bir don geyindirmə və aldatmadır. Çünki, əsas olan Allahın mövcudluğudur, onun mövcud olmaması barədə dəlil gətirmə cəhdləri ziddiyyətlidir və uğursuz cəhdlərdir. Elm Allahın varlığını təsdiqləyir. Hətta, dünyanın Allah olmadan yaranması barədə təqdim olunan nəzəriyyələrin hamısı elə elm tərəfindən də rədd edilmişdir. İstər big bang, istər təsadüfü yaranış, istər də başqa nəzəriyyələr fərziyyə olmaqdan o yana keçməmişdir. Belə iddia edənlər özləri də bəlkə bir maşının öz-özünə yarandığını deyən insana səfeh kimi baxarlar. Lakin, bu böyüklükdə və bu gözəllikdə aləmin öz-özünə yarandığını

iddia etmələri çox qəribə və çox ziddiyyətlidir. Belə isbat olunmamış fəlsəfi və ya məntiqi iddialarla nəinki razılaşmaq olmaz, hətta, iddia edəndən dəlil tələb etmək gərəkir. Beləsinin əsas olan şeyi əksi kimi təqdim etməsinə imkan verilməməlidir, əksinə, misal çəkdiyimiz məntiqi misala bənzər misallar çəkilərək hiylələləri boşa çıxardılmalıdır.

2 – **Terminlərin istifadəsində dərinə getmək və aydın olmayan məsələlərdən söz açmaq;**

Ateist bu hiyləli üslubu istifadə etməklə özünün ağıllı, daha məlumatlı və üstün olduğunu, qarşısındakını isə düşüncə səviyyəsinin daha aşağı olduğunu göstərmək istəyir. Bunun çarəsi isə o bu üslubu işlətdikcə hər dəfə anlaşılmaz hər terminə görə onu dayandırmaq və: filan cümlədə nə demək istəyirsən? – deyə sual verməkdir. Beləcə sən də onun qəsdini yaxşı anlamış olarsan və bir neçə yozumu olacaq ifadələrdən o söhbət uzaq olar. Bununla da onun bu hiyləsinin qarşısı alınmış olar. Həmçinin, onunla əvvəlcədən şərt kəsmək də olar ki, söhbət əsnasında bir neçə mənaya yozulacaq lüğəvi terminlərdən istifadə edilməyəcək və aydın bir dildə danışılacaqdır.

3 – **Ümumi söz və cümlələr danışmaqla söhbətdən yayınmaq;**

Bu hiylə də ateistlərin dialoq və münazirələrdə istifadə etdikləri məşhur hiylədir. Əgər ateist görsə ki, qarşısındakı müsəlman zəkalı biridir, üstəlik mövzu üzərində söhbəti davam etməyi və ya qarşıya bir məsələni şərt qoymaqla dialoq qurmağı yaxşı bacarır, bu zaman ateist özünün çıxış yolu olmadığını görür və ümumi (və aydın olmayan) söhbət etməklə mövzudan yayınmağa başlayır. Lakin, arada bir mövzuya aid bir-iki cümlə danışır ki, yayındığı hiss olunmasın. Çünki, onların əsas məqsədləri şübhələri

atmaqdır, lakin, şübhələrə tutarlı cavab verildikdə insanlara özlərini susdurulmuş, payını almış kimi hiss etdirməməkçün bu üsluba əl atırlar.

Belə hiyləylə qarşılaşmamaqçün və ya bu hiylənin qarşısını almaqçün yollardan biri də ortada söhbətin gedişatını idarə edən hakimin olmasıdır. Bu şəxsin (hakimin) rolu o olur ki, bu cür söhbətdən yayınma halları olduqda hər iki tərəfi elmi münaqişənin şərtlərinə əməl etməyə və suallara cavab verməyə çağırsın. Əgər ortada yardımçı olacaq belə bir şəxs olmazsa, onda məsləhət olunan odur ki, müsəlman dəvətçi özü ateistə xatırlatsın ki, mövzudan yayınmasın və ya onun sualına cavab versin. Bu tələbə cavab verilmədikdə müsəlman dəvətçinin haqqı çatır ki, əlavə söhbət və ya yeni mövzuya keçməkdən imtina etsin.

4 – **Müdaxilə zamanı uzunçuluq etmək;**

Ola bilsin ki, ateist dialoq əsnasında bu hiyləyə əl ataraq bezdirici və yorucu uzun bir söz yazsın və ya danışsın. Lakin, onun danışığına diqqət yetirdikdə görəcəksən ki, o bu uzun müdaxilədə bir və ya iki fikiri müdafiə edir. Bilmək lazımdır ki, ateist belə etməklə söhbəti izləyənlərə, müşahidəçilərə düşüncəsinin ("elminin") və ya təcrübəsinin gücünü göstərmək istəyir. Çünki, ilk baxışda uzun bir müdaxilə bəzilərinə hüccətin və ya danışığın qüvvətliliyi kimi görünə bilər.

Bu hiyləni yunan fəlsəfəçiləri öz münazirələrində istifadə edirdilər. Yunan filosofu Protagoras bu hiyləni işlədən tanınmışlardandır. Xüsusilə də Platonla münazirəsində bu üslubdan istifadə etmişdi.

Əgər ateist bu üslubdan istifadə edərsə, ona bildir ki, söhbəti bir və ya iki məsələni əhatə edir və o məsələlərin nə olduğunu ona bildir. Sonra onun hiyləsini insanlara bəyan

et. Onun bütün mənasız danışıqlarını bir-bir göstər və fikir əsaslarını dağıt.

5 – **Söhbəti şaxələndirmək və bir neçə mövzuda söhbət açmaq;**

Bu hiylənin məqsədi isə dialoqun ahəngdarlığını pozmaq və söhbəti şaxələndirməkdir. Xüsusən də görəndə ki, söhbət bir nöqtə üzərində davam edir – məsələn; Allahın varlığı barədə – ateist müdaxilə etdikdə bu nöqtə ilə kifayətlənmir, (bir mövzu bitməmiş, nəticə əldə olunmamış) başqa mövzulara – qəzavü-qədər, quranın mötəbərliliyi, peyğəmbərlik məsələləri və s. – söhbəti aparır ki, bununla bir mövzuda fikrini toplayaraq danışan müsəlman dəvətçini bir neçə sual barədə eyni vaxtda düşündürsün və onda çaşqınlıq meydana gəlsin. Bununla ateist rəqibinin bezginliyinə səbəb olaraq onun dialoqu tərk etməsini, bununla da sevinərək öz camaatının yanına dönüb *"müsəlmana qalib gəldim"* demək istəyir.

Bu hiyləyə aldanmamaq və qarşısını almaqçün ittifaq edilmiş məsələ üzərində danışılmalıdır. Bir mühüm qeyd də odur ki, əgər bu dialoq sosial şəbəkələrdə yazılı şəkildə gedirsə, o zaman söhbəti idarə edən müdir (və ya admin) gərək əsas mövzu ilə əlaqəli olmayan hər şeyi silsin.

6 – **Deyilən fikirləri görməməzlikdən gəlmək;**

Deyilən fikirləri görməməzlikdən gəlmək ateist üçün bir növ irəli doğru qaçmaqdır. O baxımdan ki, o yalnız öz istədiyinə cavab verir, onu cavab verməkdə çətinliyə salacaq və insanların içində utandıracaq şeylərə cavab verməyi isə tərk edir. Bu vəziyyətdə mövzu ilə əlaqəli bir məsələni tez seçir ki, zəif görünməsin. Həmçinin, özünü oxuculara, dinləyicilərə və ya münaqişə etdiyi şəxsə həmin cavab veriləsi məsələni unutmuş kimi göstərir. Sonra öz

müdaxiləsinin yalnız bir hissəsini şərh edir və sənə o söhbəti unutdurmağa çalışır.

Belə vəziyyətdə dialoq quran müsəlman gərək söhbətin əvvəlində şərt qoysun ki, söhbət əsnasında elə bir məsələ olmayacaq ki, qısa da olsa, ateist buna fikirini bildirməsin. Müsəlman özü də bu şərtə və dialoqun baş tutması üçün ittifaq olunan digər şərtlərə riayət etməlidir. Yazılı dialoqda diqqət yetiriləsi məsələlərdən isə qarşı tərəfin müdaxilə yazısını oxuyub bitirdikdən sonra ateistə də sənin müdaxilə etdiyin yazını oxumasını, oradakı fikirlər və şərtləri xatırlatmaqdır.

7 – **Qarşı tərəfi bağlamaq üçün əsas məsələlərdən uzaqlaşıb ikinci, üçüncü dərəcəli mövzulara diqqət göstərmək;**

Ateistin yalnız ikinci, üçüncü dərəcəli məsələlərdən danışması onun qarşı tərəfi problemə salmaq niyyətindən xəbər verir. Görərsən ki, həmin məsələlərə aid şübhələri yığıb hazırlamışdır. Onun bu şübhələrdən məqsədi ümumi camaatın əqidəsini silkələmək və rəqibini pis vəziyyətə salmaqdır. Xüsusən də, əgər o bilsə ki, rəqibi hədis və fiqh elmində dərin biliklərə malik deyil, bu hiyləyə əl ata bilər.

Burada bilmək lazımdır ki, ümumiyyətlə ateistlə üsul məsələləri (əsas məsələlər) danışılmalıdır. Əsas etiqadi məsələlər (Allahın varlığı, peyğəmbərlərin və kitabların göndərilməsinin zəruriliyi və s. ardıcıllıqla) danışılmadıqca, müzakirə edilmədikcə, ikinci, üçüncü dərəcəli məsələlərdən ümumiyyətlə danışılması doğru deyildir.

8 – **Yalandan İslami kitabları oxuduğunu və bu işdə dərinə getdiyini iddia etmək;**

Müasir internet dövründə cihazın arxasında oturan hansısa bir ateistin bizə özünü İslami kitablar barədə dərin biliklərə sahib olduğunu göstərməsi çox asandır. Hətta, ona kitabın içindən sual versən, internetdə bir düyməni basmaqla rahat şəkildə hansısa kitab haqqında müxtəsər məlumat əldə edib bunu kopyalayıb göndərərək özünün o İslami kitabı oxuduğunu və dərindən bildiyini iddia etməsi mümkündür.

Belə bir şəxslə dialoq quran müsəlman dəvətçi əgər canlı bir dialoqdadırsa və rəqibiylə üzbəüz danışırsa, ona hansısa kitab barəsində sual verməklə onu çətin vəziyyətə sala bilər. Halbuki, o bunu yazılı dialoqda edə bilmir.

Belə bir vəziyyətdə (bu hiylənin qarşısını almaq üçün) müsəlman şəxs ağıllı tədbir görərək ateistin yalanını ifşa etməlidir. Bunu da qarşı tərəfə (ateistin islami kitabları oxuması yalanının ifşasını) unutduraraq qəflətən ondan: filan alimin sözlərini filan kitabdan oxuduğunu deyirsən, amma, o alimin nə dediyini bizə bildirmədin, bu barədə fikrin nədir? – deyə soruşa və ya elmi münaqişə babından: “Sən o oxuduğunu iddia etdiyin kitabda bu alimin sözünü oxumamısanmı? Hansı ki, o alim belə deyir…” Sonra ona açıqca o alimin demədiyi sözü ateisti yoxlamaq məqsədilə demək ki, görək ateist o sözü oxuyubmu və ya o kitaba qayıdıb baxacaqmı bunun doğruluğunu yoxlamaqçün, əgər oxuyubsa, tapa biləcək, yoxsa, yalan danışır? Bunu da biləcək. Lakin, dərhal o alimin elə söz demədiyini, həmçinin, bununla da ateistin yalanının ifşa olunduğunu və oxuduğunu iddia etdiyi kitabdan heç nə oxumadığı aydın olacaq. Bundan sonra onun bu əməli pislənməlidir ki, ona ibrət və dərs olsun.

9 – **Xristianların və şərqşünasların şübhələrini kopyalamaq və köçürmək;**

Bu hiylə onu istifadə edən ateistin mədəni səviyyəsinin aşağı olmasının nəticəsidir. Dialoq etmək iddiasında olub kopyalamaqla məşğul olan, öz fikrini dialoqda bu cür bildirən ateistin yazısından bir-iki sözünü internetdə yazıb axtarmaqla əgər aydın olsa ki, ateist şəxsi fikrini ifadə edə bilmir və yalnız kopyalamaqla məşğuldur, bununla belə özünü elmli göstərirsə, elə o kimsə münazirə əsnasında rüsvay olacaq və aktivliyi aradan qalxacaq. Bu zaman ateist məcbur olacaq ki, dialoqu kopya ilə deyil, öz fikiri ilə davam etdirsin. Bu zaman müsəlman dəvətçiyə artıq dialoq asanlaşmış olacaqdır.

10 – **İslami inanclara istehza və təhqirlə yanaşmaq;**

Təbii ki, bu növ ateistlərin çox olduğunu görəcəksiniz. Bu üslubu istifadə edən ateistlər yalnız dinə və dindarlara qarşı öz kin-küdurətlərini, nifrətlərini boşaltmağa və hislərini ifadə etməyə çalışırlar. Əgər nəzərə alsaq ki, burada sosial şəbəkədə edilən elmi münazirə və ya dialoqdan söhbət gedir, onda belə bir hal baş verdikdə gərək dialoqu idarə edən şəxs (və ya admin) elmi şəkildə deyil, təhqirlə danışan ateistin sözlərini tamamilə silsin, sonra qaydaları pozan şəxsə xəbərdarlıq edilsin və bildirilsin ki, əgər bir daha buna qayıdarsa, münazirə qarşı tərəfin ümumi ədəb qaydalarına riayət etmədiyi üçün dayandırılacaqdır. Qurani-Kərim bizə bu barədə bu mühüm mesajı vermişdir:

«Allah Kitabda sizə nazil etmişdir ki, Allahın ayələrinin inkar edildiyini və onlara istehza olunduğunu eşitdiyiniz zaman, günahkarlar başqa bir söhbətə keçməyincə onlarla bir yerdə oturmayın. Yoxsa siz də onların tayı olarsınız. Şübhəsiz ki, Allah bütün münafiqləri və kafirləri Cəhənnəmə toplayacaqdır.» (ən-Nisə, 140)

11 – **İslami kitablardan dəqiqləşdirilməmiş məlumatları yaymaq;**

Bu hiyləni də zəif ateistlər istifadə edirlər. Bu hiylə onlara İslama kin bəsləyən xristianlardan miras qalmışdır. Onlardan biri bu yolla hansısa İslam aliminə o alimin demədiyi bir sözü nisbət edir və deyir ki, "get filan kitaba və filan səhifəyə bax", qarşı tərəf də çox vaxt elə güman edir ki, onun sözü doğrudur və baxıb dəqiqləşdirməyə ehtiyac yoxdur. Bu hiyləyə aldanan dərhal başlayır ki, "ola bilər, nə olsun ki, alim məsum deyil ki? Məsumluq peyğəmbərlə birgə dəfn edildi" və s. kimi sözlər danışmağa. Lakin, alim məsum olmasa da müsəlman dəvətçi birinci dəqiqləşdirməlidir ki, alim belə bir söz deyib ya yox?! Həmçinin, müsəlman dəvətçi belələrinə mütləq şəkildə etibar etməməli, daim ehtiyatını götürməli, dəqiqləşdirməli və cavab vermədən öncə müəllifin sözünə baxmalıdır. Hətta, əgər nəql doğru olsa belə, (aşağıdakı şərh) iqtibas yerinə baxmalı və ya həmin yerləri diqqətlə oxuyub alimin qəsdini düz başa düşməyə çalışmalıdır. Ola bilsin ki, müəllif ateistin anlamadığı bir şeyi demişdir.

Lakin, əgər alimə isbat edilən məlumat doğru çıxmazsa, o zaman o ateist hər yanda ifşa edilməlidir. Ateistin bir aldatmaca məlumatı yayması (bu məlumatın ifşası) bəs edir ki, onun bütün yazı və çıxışları etibardan düşsün.

12 – **Əslində mövcud olmayan elmi işləri və nəzəriyyələri "varmış kimi" təqdim etmək;**

Bu hiylə isə ateistin özündən nəzəriyyələr ixtira etməsi, bəzən mövcud olan ismlərdən istifadə etməsi, bəzən də əslən heç mövcud olmayan ismlərdən istifadə etməsiylə müşahidə olunur. Məsələn; sənə: bioloq alim filankəs oğlu filankəsin bir nəzəriyyəsi var (bu nəzəriyyəyə də özündən bəzəkli bir ad fikirləşir), lakin, sən əgər o ismi axtarsan, nə

o nəzəriyyənin, nə də o ismin mövcud olmadığını görəcəksən. Yaxud da o elmi sahədə mövcud olan bir ad ilə özündən bir nəzəriyyə ixtira edir və yaxud öz inancını yeritmək üçün mövcud olan hansısa nəzəriyyəni təhrif edir.

Bu məqamda dəvətçi müsəlmanın (dialoq quran şəxsin) bu mövzuda olan müxtəlif elmi nəzəriyyələri bilməsi gərəkdir. Əgər dünyəvi elmlər istiqamətində təcrübi elmlər əsasında söhbət gedəcəksə, müsəlman bu sahədə mütəxəssis deyilsə, qoy bu sahəni daha yaxşı bilən birinin öhdəsinə buraxsın. Çünki, bu sahədəki xeyir əldə etmək və bu şərlərin qarşısının alınması bacarıq və ixtisaslarda yardımlaşdıqca daha da kamilləşir.

Həmçinin, bu zaman müsəlman dəvətçi gərək həmin ateistin (şəxsi) inancları barədə məlumat əldə etsin. Əgər məlumat əldə edə bilməzsə, onda ateistdən dəlil və məsdər tələb etməli, ya da ateist ona iddia etdiyi söz olan kitabın və səhifəsinin şəklini çəkməlidir.

Əgər o bundan aciz olarsa, bil ki, yalan danışır. Əgər hansısa nəzəriyyə barədə doğru danışarsa, müsəlman dəvətçi gərək ateistə ən birinci təcrübi elmin sərhədlərini bəyan etsin. Həmçinin, elmi həqiqət hesab olunan şeylə nəzəriyyə arasındakı fərq də izah edilməlidir.

13 – **Dilaloq etdiyi şəxsin sözünü qəsd etmədiyi mənaya yozmaq;**

Bu zaman ateist müsəlman dəvətçinin sözünü qəsd etmədiyi mənaya yozaraq deyir ki *"sən belə-belə dedin"*… onun sözünü təhrif edir, sonra (özündən) bu təhrifə cavab verir. Çünki, onun rəqibin sözlərini təhrif etməkdə müsəlmanın sözünü zəiflətmək qəsdi vardır. Əgər müsəlman dəvətçi (dialoq edən) çoxlu məşğuliyyətlərindən və ya çoxlu məsələlərdən dolayı buna diqqət yetirməzsə, o

zaman bu hiylə oxuculara və ya dinləyicilərə yönəlmiş olacaqdır. Elə isə ey müsəlman dəvətçi, hər hansısa bir münazirəyə vaxt ayıra bilməyəcəksənsə, bu münazirəyə əvvəldən başlama. Başladınsa da başqa iş barədə düşünmə, çünki, bu vaxt Allahın dini üçün ayırdığın vaxtdır, məxluqlar üçün deyil.

Sən gərək sözdən söz çıxaran, sözünü təhrif edən rəqibinin diqqətinə çatdırasan ki, sənin sözünü düzgün ifadə etsin və başqa yerə yozmasın. Əgər bundan sonra ateist yenə bu hiyləyə əl atarsa, bu zaman dialoqu dayandıra və ya münazirəni idarə edəndən (və ya admindən) münasib gördüyü icraatı tətbiq etməsini tələb edə bilərsən.

**Dəyərli oxucu!** Bu qeyd olunan hiylələr ateistlərin öz münazirələrində istifadə etdikləri hiylələrdir. Bu yollarla dindarları susdurmaq, onların dəlillərini və rəylərini zəiflətmək istəyirlər. Elə isə – Allah səni qorusun – bu hiylələrdən çəkin və bu hiylələrlə az öncə qeyd etdiyimiz şəkildə rəftar et. Nə badə şeytan sənə yumşaqlıq yolu tapıb ateistin İslamı qəbul etməsi ehtimalı ilə ona qarşı yumşalmağınla, səhlənkarlıq edib rahatlamağın və bu qaydalara əməl etməməyinlə fitnəyə salmasın. Çünki, sən elə bir mövqedən çıxış edirsən ki, dinini təmsil edirsən və ümmətin adından danışırsan. Sanki, İslamın səfirisən və dəvət bayrağını daşıyırsan. Sən dini və dinin ayinlərini, şəriət barədə olan şübhələri dəf edirsən. Ona görə də nəzakətli danışmağa layiq olmayan birinə yumşaq davranıb onun hiyləgərliyə əl atmasına şərait yaratmalı deyilsən. Necə ki, şiddətli davranmağa layiq olmayana da şiddətli davranmırsan.

Əslində bu məsələ, davranış qaydaları şəxsdən şəxsə, hiylə işlədib işlətməməsinə görə dəyişir. Sən yenə də bu əməlinlə Uca Yaradanın (Xaliqin) razılığını istəməlisən, istər O səni

müxalifinin İslamı qəbul etməsinə səbəb etsin, istər də etməsin.

O cümlədən də sənə gərəkən odur ki, müxalifinə təziq edib İslamı qəbul etməsini tələb edərək nəticə əldə etməyə tələsməyəsən! Əksinə, tələsmək lazım deyil və ola bilsin ki, o İslamı aylar sonra yalnız münazirə bitdikdən sonra və hətta bəlkə də illər sonra qəbul etsin.

Çünki, həmişə münazirə müxalif kimsənin İslamı qəbul etməsiylə nəticələnmir. Bu yalnız onun zehnində müəyyən təsirə səbəb olur. O cümlədən də onun anlamadığı məsələlərə yenidən baxmasına zəmin yaradır. Çox vaxt isə səmərəli bir münazirədən sonra ateist İslami kitablara və bu mövzudakı kitablara daha da yaxınlaşır.

# Ateistlə danışmaq istəyən kimsəyə bəzi tövsiyələr:

**Birincisi:** Hikmətlə danışmağa səy göstərmək; Əvvəlcə bilməliyik ki, ateistlərlə danışmaq, onlara haqqı başa salmaq istəyi bir çoxumuzda olsa da çox az insanlar hikmətli şəkildə danışmağı bacarırlar. Üstəlik də az insanlar elmi şəkildə, təhqirə keçmədən dialoqu davam etdirə bilirlər. Uca Allah buyurur: **«İnsanları Rəbbinin yoluna hikmətlə, gözəl öyüd-nəsihətlə dəvət et və onlarla ən gözəl tərzdə mübahisə et. Şübhəsiz ki, Rəbbin azğınlığa düşənləri də, doğru yolda olanları da yaxşı tanıyır.»** (ən-Nəhl, 125)

Unutmaq lazım deyil ki, söyüşdən və təhqirdən uzaq olmaq lazımdır. Əsas məqsəd bu uçuruma düşənləri hikmətli bir şəkildə bu girdabdan xilas etməyin yolu üzərində düşünək və münasib bir tərzdə danışaq. Söyüş söymək, təhqir etmək inandırmaq və qane etmək üslubu olsaydı, bizdən xeyirlilər bunu edərdi. Uca Allah buyurmuşdur:

**«Müşriklərin Allahdan başqalarına tapındıqlarını söyməyin. Yoxsa onlar da elmsiz olaraq düşməncəsinə Allahı söyərlər.»** (əl-Ən`əm, 108)

Ona görə də bir insan özündə dini və dünyəvi elmdən naqislik ola-ola bu məsələlərə və xüsusən də dərin dialoqlara girişməsi təhlükədir və məzəmmət olunmuş mübahisədən sayılır.

**İkincisi:** Elmi dayağı olmayan dəvətin təsiri və bərəkəti az olur; Ateizm mövzusunda geniş qiraəti, şübhələrə cavab verən məqalələri, kitabları oxumamış bu məsələlərə baş

qoşub mübahisələrə girmək insanın özünə güvəni olsa belə yenə doğru deyil. Yalnız yaxşı cavabını bildiyi bir şübhə varsa, o zaman yalnız həmin məsələdə sosial şəbəkədə və s. qısa yazı yoluyla, çox uzatmadan haqqı müdafiə etmək mümkündür. Xülasə, onların əsas şübhələrinə tutarlı cavab vermək ayrı, onların saytlarına girmək, kitablarını oxumaq ayrı məsələdir. **Sonuncusu yalnız mütəxəssis olan kəslərə aiddir.**

**Üçüncüsü:** Şübhələrlə tanış olmağın həddi barədə; Ateizmdən və şübhələrindən xəbəri olmayanların onların saytlarına girmələri, kitablarını oxumaları və s. onların fikirlərilə tanışlıq məqsədilə də olsa icazəli deyil. **Bu alimlərin çəkindirdiyi əməldir.** İnsanın özünü müdafiə edəcəyi bir elmi (qalxanı) olmadan bir mənəvi düşmən qarşısına çıxması məntiqi cəhətdən də doğru deyil. Lakin, onu da qeyd edək ki, Ateizm mövzusunda məlumatı az olan qardaşlar sosial şəbəkələrdə hansısa ateist şübhəsi paylaşıldığını görsələr, əgər hazır cavab olan bir məqalə və ya dərs bilirlərsə, şübhə atılan səhifələrdə şərh yerində bunu paylaşmaları və ya həmin cavabın xülasəsini yazmaları məqsədəuyğundur. Bununla da özləri elmi mübarizə edə bilməsələr də, artıq o şübhənin cavabını şübhənin altından yerləşdirmiş olacaqlar ki, bununla da Allahın müvəffəq etdiyi bir kimsənin bu şübhədən qorunmasına və ya şübhənin cavabıyla tanış olmasına səbəb olacaqlar.

**Dördüncüsü:** Dinində yəqinliyi qorumaq və bu yəqinliyi artıran məsələlərə fikir vermək:

Bilmək lazımdır ki, İslam sonuncu və haqq dindir. Odur ki, İslam barədə hər bir şübhənin cavabı da vardır. Lakin, bu cavab ya səndə ola bilər, ya da elminin naqisliyindən və ya dini-dünyəvi biliyin azlığından dolayı səndən gizli qala

bilər. Ona görə də bilmədiyin bir məsələ olduqda daim elm əhlinə qayıt və onlara sual ver.

**«Əgər bilmirsinizsə, Zikr əhlindən soruşun.»** (ən-Nəhl, 43)

Müsəlman öz dinində yəqin üzərində olmalı və ətrafındakılara da bu fikiri aşılamalıdır. Uca Allah buyurur: **«Həqiqətən, bu, şübhə doğurmayan bir həqiqətdir.»** (əl-Vaqiə, 95)

Başqa bir ayədə isə uca Allah buyurur: **«Sözsüz ki, bu Quran əsl həqiqətdir.»** (əl-Haqqa, 51l

Dində yəqin olmaq, şəkkə düşməmək uca bir mərtəbədir. Uca Allah buyurur: **«Səbir etdiklərinə və ayələrimizə yəqinliklə inandıqlarına görə Biz əmrimizlə onlardan doğru yolu göstərən rəhbərlər təyin etmişdik.»** (əs-Səcdə, 24)

Dinində yəqin olmaq amili şübhələr önündə duran şəxsin özünə, həm də dəvət etdiyi insanlar üçün çox faydalıdır. Daim xatırlatdığımız və təkrarən demək istədiyimiz bir məsələ də müsəlmanın öz dini ilə fəxr etməsini bacarmasının gərəkdiyidir. Yəni, müsəlman öz dinindən yəqin olduğunu, dini ilə qürur duyduğunu, fəxr etdiyini gözəl şəkildə bildirməyi bacarmalıdır. Bəzi məqamlarda buna ehtiyac yaranır. Belə emosional (hissiyatla əlaqəli) məqamı qeyd edən müsəlmanın bunun ardınca İslamın gözəlliklərindən elmi şəkildə danışması gözəl bir üslubdur. Müsəlman qardaş və bacılarımız insanlara İslamın gözəlliklərini təqdim etməyi bacarmalıdırlar. Çünki, bu gözəlliklərin bir çoxunu gündəlik həyatımıza da daşımaq imkanımız vardır. İslam dini həyat tərzi olduğundan dolayı İslamın gözəlliklərindən danışmaq elə çətin bir istiqamət deyildir.

**Beşincisi:** Ateistlərin bəzi şübhələri çoxşaxəlidir. Buna aldanmamalıyıq. Məsələn; Sən bir şübhəyə cavab verməmiş, onlar yeni bir şübhə atırlar. Yəni, elmi müzakirənin adi qaydalarına belə riayət etməyən ateistlərə bir mövzunu (və ya suala cavabı) yekunlaşdırmadan yeni mövzuya keçməyə imkan vermək olmaz. Çünki, belə üsluba razı olmaq çaşqınlığı, fikir dağınıqlığını əmələ gətirir ki, bu cür söhbətin bir nəticəsi olmur. Həmçinin, ateistlərin böyük yanlışlarından biri də bir sualı verəndə cavab "hə və ya yox" olmalıdır kimi düşünür və qarşısındakından dərhal qısa cavab gözləyirlər. Bu da bu cür müzakirələrin əsas üslub problemlərindəndir. Halbuki, bəzən bir suala ən azı beş dəqiqəlik bir cavab yazmalı olursan. Çünki, bəzi şübhələrin bir neçə nahiyədən cavabı olur və bir nahiyədən cavab vermək kifayət etmir. Hər suala bir cümlə ilə cavab gözləyən ateistlər bununla sanki, "cavabı eşitmək istəmirik" demiş olurlar. Çünki, birincisi bu cavabla qane olmaqdan və cavabdan razı qalmaqdan uzaqlaşdırır. İkincisi isə, cavab nə qədər obtektiv və bir neçə nahiyədən olarsa, o qədər tutarlı olur. Bunu isə ateistə başa salmaq çətindir. Əksinə, onlar ardıcıl sual yağdırmaqla müzakirədən yayınmış olurlar. Ona görə də onlara bir məsələni başa salmaq istəyən şərt qoymalıdır ki, mövzudan kənara çıxmamalıyıq.

**Altıncısı:** Məntiqi, əqli dəlillər və misal çəkməklə bir şeyi başa salmağa çalışmaq; Bu da çox mühüm məsələdir. Amma, elə anlaşılmasın ki, Quran ayələrindən və hədislərdən heç bir dəlil gətirməyə ehtiyac yoxdur. Xeyr, lazım olan yerdə (yerində) bəzən ayə və hədisi dəlil gətirməklə onları bu mənbələrin ilahi qaynaqlar olması barədə düşündürmüş oluruq. Məsələn; insan qətlindən danışarkən, «bir insanı haqsız yerə öldürməyin bütün bəşəriyyəti öldürmək olduğu barədə» ayə olduğunu qeyd etmək və s. kimi. Hədislərdən isə; məsələn, "heyvana əziyyət vermək" mövzusundan danışarkən «heyvanı

kəsərkən bıçağı yaxşı itiləmək, bıçağı digər heyvana (qorxmasın deyə) göstərməmək» və s. anlamında olan hədisləri qeyd etmək kimi yerindəcə edə biləcəyimiz dəlil gətirmə haqqımızdan istifadə edirik və bununla da məntiqə üstünlük verən ateistləri ara-sıra şəriətin uca mənbələri barədə düşündürmüş oluruq. Buradan da belə bir nəticəyə gəlmək olar ki, quran və hədislərdən sitat gətirməyi tamamilə tərk etmək lazım deyil. Sadəcə bu dəlilləri yerində işlətməyi bacarmaq lazımdır. Bunu ona görə qeyd etdik ki, bəzi müsəlmanlar elə bilirlər ki, ateistlərlə danışdıqda onlar Quran və hədisləri inkar etdikləri üçün bu məsdərlərdən onlara dəlil gətirmək doğru deyildir. Bu fikir iki cəhətdən yanlışdır:

1) *Qeyd etdiyimiz kimi lazımi məqamda, lazımi yerdə ayə və hədisin dəlul kimi düzgün istifadə edilməsi çox təsirli olur və ateisti bu ilahi məsdərlər barədə düşündürmüş olur.*

2) *Hər birimiz Allaha möhtac olduğumuz kimi əslində inadkar ateistlər də Allaha və Onun ayələrini eşitməyə ehtiyaclıdırlar. Sadəcə düzgün məqamda yerindəcə bu dəlilləri gətirməklə onları dərin düşündürmüş ola bilərik.*

**Yeddincisi:** Əqidə məsələlərini düzgün öyrənmək və başa düşülən bir tərzdə ateistə və ya deistə başa salmaq; Bilmək lazımdır ki, əqidə məsələlərinin insanlara asan dildə çatdırılmasına çox ehtiyac var. **«Bil ki, Allahdan başqa ibadətə layiq olan heç bir məbud yoxdur.»** (Muhəmməd, 19)

Ateistlərin və deistlərin ən böyük problemlərindən biri əvvəlcədən də İslam əqidəsindən xəbərsiz olmaları və ya İslam əqidəsi barədə az olan məlumatlarının da doğru olmamasıdır. Bu səbəbdən də onlarla dialoq quran insan onları İslama dəvət etmək istəyirsə, onların bu məlumatsızlıqlarını nəzərə alıb onlara bəzi əqidə, inanc

mövzularında təməl sayılacaq məsələlərdən danışmağa çalışmalıdır. *«Qəzavü-qədər»* məsələsi barədə isə demək olar ki, hər bir ateistə bu qəbildən ətraflı izah verməyiniz çox faydalı olardı.

**Səkkizincisi:** Dəvət məqamı təkfir (kafir çıxartma) məqamı deyildir; Dəvət əsnasında "Sən kafirsən, onsuz da cəhənnəmdə yanacaqsan və s." kimi ifadələr işlətməmək. Bunun əvəzində "belə-belə edən cəhənnəmə düşər, kafir olar" deməklə həm fikiri çatdırmış, həm də təxvif (qorxutmaq) metodunu tətbiq etmiş olacağıq. Ateistin hökmü onsuz da heç kimə gizli deyil. Lakin, əgər onları dəvət ediriksə, dəvət məqamında onların bizə etdiyinin mislini etməkdən uzaq durmalıyıq. Çünki, bu sahədə bir qədər təcrübəsi olan müşahidə edə bilər ki, onlar bu cür söyüş və təhqirləri necə müsəlmanların əleyhinə istifadə edirlər. (Bu sözlərdən elə anlaşılmasın ki, ateistlərin təkfir olunmadığını iqrar edirik.) Baxmayaraq ki, bu söyüşə, təhqirə qədər gedib çıxan sözlər dinin, həmçinin, dinin müqəddəs şüarlarının aşağılanması zamanı çox vaxt təbii hislər olaraq ortaya çıxır, bəzən də səbrsizlikdən qaynaqlanır. Amma, biz bir amili unutmamalıyıq ki, biz dinimizi təmsil edirik və bizə görə başqa müsəlmanlar haqqında pis təəssürat yaranmasına imkan verməməliyik. Üstəlik də bilmək lazımdır ki, söyüş, təhqir, istehza, dini şüarları alçaltmaq üslubu məhz elə ateistlərin üslubudur. Rahat şəkildə demək olar ki, bu, qədim və müasir ateistləri birləşdirən bir xüsusiyyətdir.

**Doqquzuncusu:** Şəri elm öyrənmək və «şəriətin məqsədləri» elmini bilmək; Şəriətin məqsədlərini müsəlman özü bilməlidir ki, İslamı anlamadığından və islamofobiya təsirlərindən dolayı şəriətə qarşı çıxan insanlara İslamın gözəlliklərini başa sala bilsin. Bu çox mühüm bir amildir. «Məqasiduş-şəria» (şəriətin məqsədləri) elmi məhz şəriətin uca məqsədlərini izah

etmək üçün nəzərdə tutulmuşdur. Bu elmə aid məsləhət olan kitablardan: Tahir ibn Aşurun *«Məqasıduş-Şəriətil-İsləmiyyə»* (İslam şəriətinin məqsədləri) kitabını, Şeyx Süleyman ər-Ruheylinin *«ət-Tariqul-Qasıd ilə məbəədi'i ilmil-Məqasıd»* kitabını, Abdul-Aziz ər-Rabianın *«İlmu məqasıduş-Şəria»* və s. kitabları oxumaq məsləhətlidir.

**Onuncusu:** Bilmək lazımdır ki, ateist şübhələri ya dini, ya da dünyəvi elmlə əlaqədar olur. Dini şübhələr bir neçə qism olsa da, dini şübhələrin çoxunu elmi cəhətdən əqidə babına daxil etmək mümkündür. Məsələn; Allahın varlığı, cənnət-cəhənnəm, ölümdən sonrakı həyat, qeyb aləmi, peyğəmbərlərə, kitablara, mələklərə, qəzavü-qədərə iman və s. bir çox məsələlər bura daxildir.

Dünyəvi elmlə əlaqədar şübhələr isə əsasən müəyyən elmi nəzəriyyələrə əsaslanır ki, bir çox nəzəriyyələr fərziyyə olmaqdan o yana keçmir. Rahat şəkildə deyə bilərik ki, öz əqidəsini yaxşı və dəlillərilə bilən bir müsəlman birinci istiqamətdə ateistlə söhbətə hazırdır demək mümkündür. Lakin, ikinci istiqamətdə belə bir xüsusiyyəti olan müsəlman tədbirli davranmalıdır. Bunu ya dünyəvi elm istiqamətində söhbətə qarışmamaqla (əgər mümkün olarsa), ya da hər iki istiqamətdə söhbət etdiyi təqdirdə bir istiqamətdə (dünyəvi) elminin zəifliyindən dolayı dəvətinin kəsəri gedəcək və vaxt itkisi olacaqsa, o zaman ümumiyyətlə bu dialoqu tərk etmək məsləhətlidir. Lakin, belə bir xüsusiyyəti olan müsəlmanın dost, tanış və ya yaxınlarından ərki çatan, sözünü dinləyəcəyindən əmin olduğu kəslərlə əqidəsini yaxşı bilmək və hikmətli olmaq şərtilə danışmağında bir problem yoxdur. Daha düzünü Allah bilir.

Ümid edirəm ki, bu kiçik tövsiyələr müsəlman qardaş və bacılarımız üçün faydalı olacaqdır.

# ATEİST TİPLƏRİN PSİXOLOGİYASI

**Müxtəlif tipli (psixologiyalı) ateistlərlə davranış üslubları:**

Dəyərli oxucu, bu dəfəki yazımızda müxtəlif xarakterli ateistlər, onların psixologiyası və tipləri barəsində məlumat veriləcəkdir. Bu xarakterləri bilməklə ateist düşüncə tərzi və psixologiyası ilə daha yaxından tanış olan müsəlman dəvətçi onları İslama hikmətlə və daha münasib şəkildə dəvət etməyin yollarıyla tanış olacaqdır.

Həmçinin, insan tiplərini öyrənən şəxs insanları daha yaxşı tanıdıqca onları Allahın yoluna daha münasib dil və üslublarla dəvət edə bilər. Uca Allah buyurur: **«De: Bu, mənim yolumdur. Mən və mənə tabe olanlar, mötəbər dəlillərə əsasən, insanları Allaha tərəf çağırırıq.»** (Yusuf, 108)

Həmçinin, buyurmuşdur: **«İnsanları Rəbbinin yoluna hikmətlə, gözəl öyüd-nəsihətlə dəvət et və onlarla ən gözəl tərzdə mübahisə et. Şübhəsiz ki, Rəbbin azğınlığa düşənləri də, doğru yolda olanları da yaxşı tanıyır.»** (ən-Nəhl, 125)

Mömin kimsəylə ateistin psixoloji fərqi, ruhi səviyyəsi, mənəviyyat aləmi də fərqli olur. Həqiqi İslamı öz həyatında yaşayan müsəlman daim qəlbi hüzur içində olur ki, o öz üzərində Allahın yardımını, qorumasını və himayəsini hiss edir. O, daim öz Rəbbinə yönəlir, qorxduqda, yalnız qaldıqda, qəlbi sıxıldıqda, kədərli olduqda və bütün hallarında Rəbbinə yönəlir, belə olduqda onun üçün hansı pis hal qalır ki? Ölməkmi? Ölüm onun üçün yalnız Rəbbinə qovuşmaqdır. Mömin özünü öldürə, intihar edə bilməz.

Amma, ateistin sıxıntısı zirvəyə çıxdıqda intihara və s. yollara əl ata bilir. Həmçinin, möminin bəlaya, müsibətə baxışı, ateistin baxışından fərqlənir. Mömin kimsə bilir ki, onun başına gələn müsibətlər həyatda mümkün olan şeylərdir ki, bununla insanın səbri imtahan olunur, insan səbrinə görə savab qazanır və dərəcəsi yüksəlir. Ateistə gəldikdə isə, ona müsibət üz verdikdə o qəmlənir, dünya sanki, başına yıxılır. Çünki, o yalnız bu dünya həyatının mövcudluğuna inanır. Ona görə də elə bilir ki, əgər bu həyatı rahat yaşamasa, fürsəti əldən verəcək və yoxluğa məhkum olacaqdır.
Müsəlman kimsə isə Allahın bu ayəsinə iman gətirmişdir:

**«Həqiqətən də: "Rəbbimiz Allahdır!"– deyib sonra düz yol tutanlara heç bir qorxu yoxdur və onlar kədərlənməyəcəklər.»** (əl-Əhqaf, 13)

Bu fərqlər (müsəlmanla ateistin mənəvi fərqləri) olduqca çoxdur, lakin bu qədərilə kifayətlənirik.

İndi isə bu kiçik girişdən sonra keçək əsas mövzumuza…

Bu məqamda ateist tiplərindən bəzilərinin xarakterləri barədə məlumat vermək, həmçinin, bu xarakterlərlə necə dəvət ünsiyyəti qurmaq gərəkdiyindən danışacağıq.

**BİRİNCİ TİP:** ***NARAHAT ŞƏXS*** *(La personnalite anxieuse)* :

Bu elə bir şəxsdir ki, onun narahatçılığı, sıxıntısı inandığı etiqaddan qaynaqlanır. O baxımdan ki, bu cür ateist Allaha inanmadığını iddia etsə də öz seçimlərindən əmin olmur və narahatçılıq keçirir, çünki, yəqin olmadığı bir seçimi elan etmişdir. Görəsən, doğurdan da Allah vardırmı? Əgər varsa, o kimdir? Görəsən ateizm doğru yoldurmu? Bu

dünyada mənim rolum nədir? Görəsən biz ana bətnindən yerə enən, sonra yerin udduğu varlıqlarıqmı sadəcə? Əgər bu din (İslam) haqq olsa, onda halım necə olacaq? Görəsən, öldükdən sonra Allahın mövcud olduğunu görsəm taleyim necə olacaq?

Beləcə, bu tipdə olan insan davamlı narahatçılıq (un etat de tension perpetuel) içində olur.

**Bu cür şəxslə necə davranılmalıdır?**

Təbii ki, hər bir şəxsin öz danışıq üslubu vardır. Elə insanlar vardır ki, onları susdurmaq və şərtlərə tabe etdirmək lazımdır. Elə insanlar vardır ki, onlarla ətraflı danışmaq münasibdir. Bu da hər şəxsin səviyyəsinə və hədəflərinə görə dəyişir.

Belə bir tipə gəldikdə o şəxsin narahatçılığını azaltmaq, ondan rahat olmağını istəmək və bildirmək lazımdır ki, biz güləş meydanında deyilik, adi söhbət edirik. Üstəlik bu söhbət məcburi də deyil. Sonra həmin şəxsə danışıq qaydalarına riayət etməyi tövsiyə edir, sonra isə onun narahatçılığının səbəbini araşdırırıq. Bu zaman ilk olaraq əqidə mövzularından başlayırıq. Beləcə onun kainata və özünə yanaşmasındakı gizli yanlışları təyin edir, sonra isə onun bilməli olduğu bu mövzular ona İslami baxımdan izah olunur. Sonra isə həmin ateisti – üç əməliyyatı yerinə yetirməklə yanaşı – dialoqa rəğbətləndirir:

*1) Uzaqlaşdırma (L’evitement):*

Bu şəxsdən onda möhkəm kök salmış xəlallara dalmaq, narahatçılıq barədə düşünmə halından uzaqlaşmasını istəmək.

*2) Diqqət mərkəzini dəyişdirmək (Modifier le centre d'attention):*

Belə şəxsdə olan yersiz qorxulardan fikrini uzaqlaşdırmaq, onun halını izah etmək və onu sakitləşdirmək, o cümlədən də belə tip insanlara şüursuz şəkildə beyinin sakitləşərək yuxu halına düşməsini istəməməsindən dolayı ölüm qorxusunun gəldiyini izah etmək, bu barədə inancını düzəltmək və bildirmək ki, ölüm qorxulu deyil, ölümə hazır olmamaq qorxuludur. Əslində ölüm Uca Allahla gözəl bir qarşılaşmaya aparan yoldur.

*3) İnanca (əqidəyə) hakim olmağı itirdikdə baxışı dəyişdirmək metodu (Modifier la perveption de perte de controle):*

Narahat şəxs özündə inanc rəmzinin itirilməsini hiss edir. O, baxımdan ki, o bu düşüncələrin onda heç bir psixoloji ahəngdarlıq ərsəyə gətirdiyini hiss etmir.

Elə isə belə bir insanla dialoq quran kimsə bacardığı qədər ona İslama baxışı asanlaşdırmalıdır. Əgər sən onun psixoloji durumuna uyğun şəkildə əqidə (inanc) məsələlərini salamat şəkildə izah etsən, bu zaman – Allahın izniylə – sən onu inandırmağa və İslamı qəbul etməsinə nail ola bilərsən.

## İKİNCİ TİP: *CANFƏŞANLIQ EDƏN TİP* *(La personnalite obsessionnelle):*

Bu tip insan özünə həddən artıq güvənən, özündən ziyadə arxayın, iştiraklarını (çıxışlarını) şadyanalıqla izhar edən, xarakterindəki bu halın artan bir xəstəlik halı almasıyla seçilir. Bu tipin canfəşanlığı müəyyən fikirlərdə və təkrarçılığa yol verməkdə görsənir, aktivlik sərgiləyir, əsas

mövzulardansa, çox aşağı əhəmiyyətli mövzulara üstünlük verir. Bunu da ona görə edir ki, inancını insanlara 100 % doğru olaraq təqdim edə bilsin. Bu tiplərdə elə fikir formalaşıb ki, sanki, onlar ətrafındakı insanların etiqadlarının vəkilidirlər və sanki, hamı ateist olmalıdır. Bu cür tiplər bir qədər rəsmi görünməyə, şəxsi münasibətlərdən yayınmağa çalışırlar. İnsanlarla münasibətlərində bu qəbildən (froideur relationnelle) soyuqluq vardır. Başqalarının üstün fikirləriylə də çətinliklə razılaşan, inadkardırlar.

**Bu cür şəxslə necə davranılmalıdır?**

Belə bir tiplə danışmadan əvvəl onu bu hala çatdıran səbəbləri aydınlaşdıracaq bəzi suallar verilməsi məsləhətlidir. Çox zaman onu bu hala gətirən səbəblər bu altı səbəbdən kənara çıxmır:

**1)** Ya bu bioloji amillərin nəticəsi olur: Hansısa bir hadisə və ya içki, narkotik aludəçiliyi nəticəsində sağalmaz xəstəlik, davamlı bir qüsura yoluxmaq ki, bu da məsələlərə həqiqət nahiyəsindən baxmalarına (emosiyalara qapılmaqla) təsir edir.

**2)** Üzərində böyüdüyü ailə təcrübəsi ki, bu da hansısa valideyninin hikmətsizliyindən təsirlənməsi və ya ailədə gördüyü bəzi meyarlardan təsirlənməklə olur.

**3)** Keçmiş mübahisələr; uşaqlıq və ya gənclik vaxtı baş vermiş mübahisələr.

**4)** Düşünmə tərzində olan ağıllı sayılmayan üslub; hansı ki, o özünü heç zaman səhv etməyən və insani kamillik içində yaşamalıymış kimi təsəvvür edir.

**5)** Dostlarının və yaxınlarının onu islah etmədə laqeyd yanaşmaları ki, bu zaman onun öz fikirlərində (yanlışlarında) qalmasına zəmin yaradaraq o fikirlərə düzəliş etmədən onu tərk etmiş, vaxtında onu ciddiyə almamışlar.

**6)** Yaşadığı bəzi səbəblər ki, bu amillər onun bu inancı qəbul etməsinə gətirib çıxarmışdır.

**Dialoq quran bildirmədən bəzi hədəfləri qarşısına qoymalıdır:**

– Onun öz problemlərini həll etmək bacarığını yaxşılaşdırmaq.

– Onun ünsiyyət əlaqəsini yaxşılaşdırmaq və onu başqalarıyla danışmağa rəğbətləndirmək.

– Onun birbaşa əqidəylə əlaqəli fikirlərini yaxşılaşdırmağa çalışmaq.

Dialoq quran kəs onunla mehriban münasibət qurmalıdır. Bildirməlidir ki, insanlarla möhkəm əlaqələr qurmaq onun şəxsiyyəti üçün faydalıdır. Sonra onun düşündüyü məntiqi metodu tənqid etsin. Beləcə ona eyiblərini aydın və bəsit şəkildə izah etsin, ona gizli qalan xatalarını real, gerçək misallar çəkmək yoluyla izah etsin. Göstərsin ki, ətraf mühiti dərk etmək üçün onun yeganə yol hesab etdiyi yol ağıl və məntiq əhlinin icmasıyla yalnız istisna bir yoldur. Beləsinə məntiq alimlərinin sözlərindən çoxlu məntiqi və höcətləşmə dəlilləri gətirmək faydalıdır. Həm də belə bir ateistə bəyan edir ki, o heç bir əsas üzərində deyil. Həmçinin, münazirənin abı-havasını korlayan sözlərdən (onunla istehza etmək, onu axmaq və səfeh adlandırmaq) çəkinmək lazımdır. Bütün bu kimi şeylər insanı haqdan

döndərən və haqqı başa düşməkdən uzaqlaşdıran şeylərdəndir.

## ÜÇÜNCÜ TİP: *ÖZÜNÜ BƏYƏNDİRMƏK İSTƏYƏN TİP* *(La personnalite narissique):*

Bu tip ateistlər çox lovğa olurlar. Bu onların beynində din və dindarlar haqqında formalaşdırılmış təsəvvürlərin nəticəsidir. Dindarları geridə qalmış, *«əfsanəvi»* bir dinə inanan kütlə olduğu qənaətindədirlər. Yəni, aşağılamaq düşüncəsindədir (inferiorite). Qarşısına çıxan hər dindara *«geridə qalmış»* kimi baxır. Lakin, ola bilsin ki, qarşısındakı dindarın yüksək elmi səviyyəsi olsun və ya ola bilsin ki, o ateistin özünün çatmadığı bir neçə elmi ixtisas, peşəkarlıq həmin dindarda olsun.

Beləcə, ateist özünü bəşər fövqündə bir insan kimi qələmə verir və yalnız nadir insanların düşünə biləcəyi şeyi özü barəsində düşünür. Bu isə özünü müqəddəsləşdirmə **(Le Moi)**, cəmiyyəti isə bütünlüklə dini, adətləri və mədəniyyəti ilə alçaltmaqla olur. Beləcə ateist dialoqa daxil olur və elə bilir ki, müxalifinini çox asanlıqla susdura biləcək. Lakin, o bilmir ki, o əsasları zəif, dayaqları qarmaqarışıq olan bir düşüncə üzərindədir. Hətta, belə bir insan dindar tərəfindən hərtərəfli susdurulsa belə, o bunun səbəbini dindarın onun dediyini başa düşməməsilə əsaslandıracaq və çıxış yolu axtaracaq.

Belə tipi tanımağın yollarından onun özünü “şəriəti yaxşı bilən, şəriətdən başı çıxan, xeyli dini kitablar oxuyan” şəxs kimi təqdim etməsidir. Həmçinin, özünü elə göstərir ki, guya dini yaxşı-yaxşı dərk edib, sonra ateist olub. Üstəlik də hökm verməkdən də geri qalmayan bu tip qarşısındakını aşağılamaq, istehza etmək, ittiham etməkdən geri qalmır.

Bununla da qarşı tərəfi öz hədəflərinə təslim etdirmək istəyir.

**Bu cür şəxslə necə davranılmalıdır?**

Belə tip insanlar təcrübəyə əsasən yumşaq rəftara layiq deyillər. Çünki, onlar çox zaman az ədəbli, istehza edən, insanların etiqadına başqa don geyindirən və münazirə əsnasında **"əzələlərini"** göstərməyə çalışan tiplərdir. Hətta, münazirəyə gələn hər kəsi azdırmaq istəyirlər.

Çünki, belə tiplər ilk öncə mütəxəssis psixoloqa göstərilməlidir ki, psixoloq onunla fərdi və ya qruplar şəklində müalicə seansı keçsin.

Belə bir tiplə rastlaşan insan onu bacardıqca (elmi müstəvidə) sıxmalıdır, onunla heç bir şeydə səhlənkar davranmaq olmaz, onu bacardıqca qaydalara tabe etmək və hər tərəfdən susdurmaq lazımdır ki, hətta, səni pisləmək üçün gətirəcəyi dəlillərin həqiqətini bilməyində, onun hiyləsini dəf etməyində çətin bir şey olmasın. Əgər onu sıxışdırsan oxucunun nəzərində zəif düşərək öz batilini gizlədər, beləcə bir şey edə bilməz.

Əgər insanlara onun yalan iddiaları aydın olarsa, o özünün İslamı dərindən bildiyini və az qala ictihad mərtəbəsinə çatdığını iddia etməyə başlayar. Elə isə diqqət yetir, hər kimdə bu sifətlər varsa, bil ki, o özünü bəyəndirmək istəyən tipdir:

– *Özünü ətrafında olan hər kəsdən üstün zənn etməsi.*

– *Dindarın şərtinə tabe olmaqdan qaçmaqçün öz fikrini qısa müddətdə dəyişə bilməsi.*

*– Zənn etməsi ki, insanların ondan xoşu gəlir.*

*– Öz məqsədinə çatmaq üçün yalan və təhrifdən istifadə etməsi.*

*– Başqa dialoq quran şəxslərin uğurlarını aşağı görməsi.*

*– Tənqidi qəbul etməməsi.*

*– Hökm verən şəxsiyyəti var və dialoqu öz istəyinə uyğun idarə etmək istəməsi.– Təkəbbür və inadkarlığı ilə seçilməsi.*

*– Nəsihətləri dinləməyə qarşı çıxması.*

*– İnsanların onun savadından faydalandığını zənn etməsi.*

*– Təklif olunan münazirə qaydaları və ümumiyyətlə dialoq ədəblərinə riayət etməməsi.*

**DÖRDÜNCÜ TİP: *İQTİDARSIZ, QAPALI TİP*** *(Personnalite refoulee):*

Belə bir insanın hisslərini, xislətlərini, inanclarını və s. düzgün ifadə edə bilməyən bir tipdir. İctimai psixologiya elminə görə də sabitdir ki, insan anadangəlmə dinə meyilli bir varlıqdır, dinə rəğbət bəsləyir, kainatın yaradıcısının olmasına inanclı olur. Bu hiss və inanclar bəşər övladının daxilində mövcud olan hisslərdir. Bu tip ateist bu fitri hisslərini, inanclarını daxilində gizlədir. Var gücü ilə bu hissləri örtür və yaradılışının nidasına haray vermir. Çünki, o sadəlövhlüklə ateizmə yönəlib və bunu özünə yol kimi seçdiyinə inandırmağa çalışıb. O ateist olmaq istəyib, belə yaşasa da, bu fikirləri bəzən unudur və içindəki fitrətinin səsinə səs verir, bu hissləri yaşayır və yenidən yuxusunu

qaçırır. Bax beləcə, o, bütün ömrü boyu sanki, bir boş halqanın ətrafında fırlanır. Belə bir insan gizli şəkildə daxili hərəkətdə *(dyinamique)* olur, özünü bu özünəqapanmadan və danlaqdan qurtarmaq istəyir.

Psixologiya elminə görə də bu cür iqtidarsız və qapalı olmaq insanı bir çox psixoloji xəstəliklərə aparıb çıxarır. Bunlardan nevroz *(la nevrose)* əsəb xəstəliyini qeyd etmək olar.

Onun bu hala yenidən düşməsi onu dini dialoqlara maraq göstərməyə, İslami saytlara girməyə sövq edir. Bəziləri isə açıq-aydın müsəlmanlara bildirirlər ki, psixoloji bədbəxtlik, ruhi gərginlik və davamlı yorğunluq *(fatigue perpetuelle)* içindədilər. Daha çox dözə bilmədikdə isə hansısa dəvətçidən və ya mütəxəssisdən özlərinə yardım əlini uzatmasını istəyirlər. Bu cür iqtidatsız və qapalı, hislərini bildirməyə çətinlik çəkən ateist qarşı tərəfin inancının doğru ola biləcəyi sıxıntısını da yaşayır.

**Bu cür şəxslə necə davranılmalıdır?**

Dialoq quran müsəlman şəxs gərək belə tip şəxslə ağıllı davransın, onunla danışdıqda onu bu gizli suallardan və din hissiyyatına qarşı mübarizədən çıxarsın. Bunu isə ona öz suallarını və fikirlərini biruzə verməyə rəğbətləndirmə ilə etmək və bu barədə düşünməkdən qorxmamağa rəğbətləndirməklə etmək gərəkir.

Bu cür iqtidarsız kimsə qorxur ki, din onun həyatını tamamilə çevirəcək və onun öyrəşdiyi adətini dağıdacaqdır. Belə insan daim qorxuda olduğu üçün bəzən əqidə məsələlərindən deyil, şəriətin bəzi fiqhi məsələlərindən qorxur və fəri (şaxələnən) fiqhi məsələlərdən də qorxur.

Bununla yanaşı dialoq quran şəxs müxalifi bu əsaslar ilə başa salmağa çalışmalıdır:

**1** – Ya müxalifə bu şeylərin hikmətini aşkar etməlidir; Çünki, insan Rəbbinin əmrlərinə təslim olmalıdır. İkinci dərəcəli məsələlər isə əqidəyə tabe olan məsələlərdir. Beləcə, ateistin gətirməyə qorxduğu bu maneələrin aradan qaldırılmasına çalışır.

**2** – Ya da ona bildirir ki, ikinci dərəcəli (fiqhi) məsələlərdə ixtilafın baş verməsi mümkündür. Həm də məsələləri ona tədricən başa salmaq lazımdır. Çünki, onun İslamı qəbul edib dinin böyük (əsas) rükunlarına əməl edərək ikinci dərəcəli məsələlərə laqeyd yanaşması, onun küfr üzərində qalmasından daha xeyirlidir. O zaman ki, ona əsaslar başa salınacaq və o İslam əqidəsini qəbul edəcək və inanc halı yaxşılaşacaqdır, bu zaman onun ikinci dərəcəli məsələlərdə fiqhdə etimad olunan və üstün rəy hesab olunan görüşlərə baxmağa hazırlığı olacaqdır.

Bu yerdə dialoq edən müsəlmanlara mühüm tövsiyə odur ki, söhbət zamanı ikinci dərəcəli məsələlərə əqidə məsələlərindən daha çox yer verməsinlər. Çünki, məsələlər birdən-birə ələ alınmır. Əksinə, İslama yaxın olan ateistlə və ya yeni müsəlmanla yavaş-yavaş müamilə etmək lazımdır. Həmçinin, bu qəbildən olanlarla ikinci dərəcəli məsələləri addım-addım ələ almaq lazımdır. Nümunəvi dəvət üslubunda bizə Allah Elçisi (Allahın Ona salavatı və salamı olsun) gözəl örnəkdir.

## BEŞİNCİ TİP: *İFRAT MƏNTİQÇİ* *(Personnalite de L'intellectualisation):*

Bu tip şəxslər öz zehnini ağıla əsaslanmış əfsanələrdə (fərziyyələrdə) istifadə edirlər ki, məntiqi üstünlük

qazanaraq psixoloji baxımdan özlərini qəbul etdirə bilsinlər! Bu cür məntiqi fərziyyələrə əsaslananlar üçün heç də daim sağlam və doğru məntiqə əsaslanmaq şərt deyil. Serban İonesku bu şəxslərin üslubunu belə vəsf edir:

***«Xüsusiləşdirmə və ümumiləşdirmə gözlənilməz hal qarşısında bir çox insanın yuxusunu qaçırır.»***(Serban Unesku et collaborateurs, Les mecanisme de defense, Nathan Universite, 2003)

*Beləcə bu tip ifrat məntiqçi şəxslərdə iki müşahidə olunan hal olur:*

**1)** Müəyyən inanclar, hislər və emosiyalar toplusuna məntiqi çalar verməyə çalışmaq.

**2)** Gözlənilməz vəziyyətə düşdükdə, eləcə də dialoq zamanı ümumiləşdirmə metodundan istifadə etmək.

Yəni, etiqadını silkələyəcək və inancında şəkkə salacaq təhlükə olduqda bu tip ateist aşkar olur. İfrat məntiqçi şəxs əslində məntiqi şəxsiyyət deyildir. Əksinə, o məntiqçilik xəyalları içində yaşayan birisidir (illusion dialectique).

**Bu cür şəxslə necə davranılmalıdır?**

Belə bir ateist tipiylə dialoq quran kimsə həmin ateistin öz ziddiyyətli etiqadını təmizə çıxarmaq üçün əqli, məntiqi hesab etdiyi xəyali əsaslara diqqətini yönəltməli, onun ateist əsaslarını sırf əqli tənqid etməlidir ki, hətta, onun İslamı qəbul etməsinə mane olan bər-bəzəkli batilləri laxlada bilsin.

Məsələn; o zaman ki, ateistlərdən: Allahın olmamasına dəlil nədir? Deyə soruşulduqda dərhal cavab verməyə

tələsərək: *"Çünki, onun varlığına dəlillər yoxdur!"* – deyirlər. Onların bu cavabı birinci dərəcəli ifrat məntiqi cavabdır. Halbuki, Allahın varlığı barədə dindarların çoxsaylı, qüvvətli dəlillərini görməməzlikdən gəlirlər. Bu məqamda mühüm bir qeyd də odur ki, hansısa ateist bu iddianı ortaya atarkən bunun üstündən keçilmədən dərhal ondan birinci özünün dəlil gətirməsini tələb etməli, əsl (əsas) olanın Allahın var olması həqiqəti olduğunu bildirməli və bunu əsaslandırmalıyıq. Xülasə, ateistlər tez-tez bu ibarədən istifadə etdikləri üçün bu ifadəni qəbul edilmiş qayda kimi üstündən keçmək doğru deyil. Əksinə, bu iddianı edən, sonra da üstünə başqa məsələlər gətirib uzunçuluq edən ateist hətta, sual əsnasında bu uzunçuluğu edib bu məsələyə toxunsa, dərhal onu dayandırıb Allahın varlığı barəsində sübutları gətirmək, ona həqiqətin heç də elə olmadığını izah etmək lazımdır. Bu məsələni "ateistin hiylələri" barəsində danışarkən ətraflı vurğulamışıq.

Ateist öz cavabını olduqca məntiqi hesab edir. Məntiq xəyallarında dərinləşir. Buna misallardan biri də Avropadakı "ateizm" çağırışlarıdır. Onlar iddia edirlər ki, fəzada bəzi olduqca inkişaf etmiş və yüksək zəkaya malik varlıqlar vardır ki, ola bilsin ki, onlar yer üzündəki həyatın var olmasına səbəb olmuşlar. Fikir versək, yaradılış barədə bütün iddialar Allahın varlığını insanlara unutdurmaq üçün düşünülmüşdür.

Elmi təbəqələrdə tədrici ateizm batilinin üstünü örtməyə təşəbbüslər başladığı zamandan bəri "yadplanetli adamlar" ideası da o zamandan irəli sürülməyə başladı və günü-gündən dünyəvi alimlər yaradılışda dəqiq nizam və qaydalar olduğunu, əbəs yerə ortaya çıxan xaos və qarışıqlıqdan yaranmadığını təsdiqlədilər. Ona görə də Richard Dawinks də utanmadan bu barədə danışaraq: *"uca fəzanın zəkası"* nı söhbətlərində qeyd edirdi.

Bu baxımdan, onlarla dialoq quran kimsə düşünülmüş elmləri (orta qiymət verərək) lazım olan həddən artıq yüksək qiymət verilməsini, nəzəriyyələri həqiqətlər mərtəbəsinə qaldırmağı tənqid etməlidir. Əksinə, ona elə həmin elmin tarixinə əsasən göstərə bilər ki, neçə-neçə nəzəriyyələr olub ki, vaxtilə həqiqət kimi qəbul edilirdi. Bir müddət keçdikdən sonra isə həmin nəzəriyyəni qüvvədən salan başqa bir nəzəriyyə meydana çıxmışdır.

O cümlədən də, ateistə bildirmək lazımdır ki, elm qeybi məsələlərdə mütləq (konkret) söz demək ixtisasına malik deyil. Dünyəvi elm yalnız təcrübi çərçivə və «necə?» sualına cavab vermək ilə əhatələnmişdir. Lakin, «Nə üçün?» sualında dünyəvi elm öz istəyini tapa bilmir.

**ALTINCI: ÜMUMİ VASVASI TİP:** *(La personallite paranoique):*

Bu cür şəxslər olduqca hər şeydən ehtiyat edən, şübhələnən və etibar etməyən tiplərdir. Onların nə isə bir şeyə güvənməsi mümkün deyildir. Onun düşüncəsinə görə başqası ona qarşı şərr istəyir və qəlbindəki pis niyyəti ona yol göstərmək istəyir. Beləsinə görə İslam əhlinin dəvətçiləri (onunla dialoq quran dəvətçilər) onu ələ salmaq istəyən, onu öz mənafeyinə xidmət etdirmək istəyən kələkbazlardır. Hətta, onun bu halı o həddə çatar ki, az qala iddia etsin ki, onlar doğru yolda olmadıqlarını bilirlər. Əslində isə bunu özü barəsində düşünməlidir. Bu cür şəxslər fikirlərini ifadə etdikləri zaman bir növ düşmənçilik və ədəbin azlığı ilə fərqlənirlər. Dialoq zamanı mənfi xüsusiyyətlərini aşkar edir və onlara deyilən bütün fikirlər barədə şübhə edirlər. Həmçinin, onlar yanlış hökmlər vermək və cəmiyyətdə başqalarıyla yola getməyən adam kimi tanınmaqla seçilirlər.

**Bu cür şəxslə necə davranılmalıdır?**

Dialoq quran kimsə burada ateistin az və ya çox vəsvəsəli olduğuna nəzər yetirməlidir, hətta, bilsin ki, onun xəstəliyinin şiddətini azaltmaq üçün psixoloji mütəxəssisə yönləndirməyə ehtiyac varmı? Yoxsa, onun bu halı yalnız fəlsəfi ateist yolunu qəbul etməsindən qaynaqlanır?

Ən birinci addım da dialoq qurduğu ateistə halını başa salmaqdır ki, onun, ətrafındakı cəmiyyətə baxışında, inanc nöqteyi nəzərindən isə varlıq aləmi və həyata baxışında problem vardır. Ateistlərin çoxu təhrif olunmuş dinlərdəki (xristianlıqdakı rahiblər kimi) din xadimlərinin və bəzi firqələrdəki din xadimlərinin batil əməllərini, dindən maddi qazanc əldə etmələrini və s. tənqid etmiş, sonra isə bütünlüklə din xadimlərinə olan etimadı itirmişlər.

Ona görə də ateistlə dialoq quran kimsə ondakı itmiş etimadı geri qaytarmağa çalışmalıdır, hansı ki, ateisti bu cür yol seçməyə vadar etmişdir. O cümlədən də ona həqiqi İslam dəvətçisi ilə nəsranilikdəki rahib və keşişlərin fərqini izah etməlidir. Əhli Sünnənin etiqadı alim və şeyxlərin məsum, günahsız olduğunu inkar edir. Əksinə, müctəhidin insan olduğunu, ictihadi məsələlərdə rəyinin doğruya isabət edə biləcəyini, xətadan da sığortalanmadığını, Allah və peyğəmbərinin dediyini əsas götürülməli olduğunu, hansısa alimin sözünün bu əsasa müxalif olduğu zaman ona (xata etməyin) insanın təbii halı olması baxımından üzür gətirilərək sözünün götürülmədiyini bildirilməlidir.

Allahla qul arasında vasitə yoxdur. Nə də (bəzi dinlərdəki kimi) günahı etiraf etməkçün xüsusi məclislərə ehtiyac yoxdur. Həmçinin, ateistlərlə danışanlar buna sərf etdikləri vaxtı tam səmimi sərf edir, dindən uzaqlaşmış kimsələri başa salmaq, irşad etməyə görə maddi mənfəət güdmür, nə

də bizə görə kiminsə İslamı qəbul etməsi, ateistin və ya filankəs oğlu filankəsin tövbə etdiyi zaman ona veriləcək maddi bir dəstək güdülmür, bu əməllər sırf Allah rızası üçün edilir! Nə də yeni müsəlmandan mükafat, pul, nə də hansısa bir mənfəət güdülmür!

Əgər ateist müsəlmanın onunla tam səmimi danışdığını və bu söhbətə görə heç bir maddi maraq güdmədiyindən əmin olarsa, bu yaxşı haldır və yanlış təsəvvürlərin aradan qaldırılmasına bir addım olar.

Sonra onunla dialoq qurmaq istəyən ateistə söhbət əsnasında ədəbli olması üçün bəzi şərtlər qoymalı, söyüşün, təhqirin və düşmənçilik hərəkətlərinin bu dialoqun sonu olacağını bildirməlidir. Çünki, bir dəvətçi kimi bizim haqqımız çatır ki, qarşı tərəf dialoqun məlum ədəb qaydalarını pozarsa, biz bu dialoqu dayandıraq.

**YEDDİNCİ TİP:** ***SUSDURMAQ İSTƏYƏN TİP*** *(Personnalite projective):*

Bu cür şəxs el arasında deyildiyi kimi rəqibini *"bağlamağa"* çalışır. cür şəxs psixoloji durumunu, hislərini, duyğularını, eyiblərini, xətalarını, başqasının üzərinə yıxır. O baxımdan ki, özündə olan qüsurları, yanlışları görməyərək, onları həmin qüsurlarda təsəvvür edir. Necə ki, qonşusuna öz daxilindəki hislərlə əlaqəli düşmən kimi yanaşan biri bəzən zənnə qapılaraq elə bilir ki, qonşusu da onunla düşmən kimi rəftar edir. Ona görə də ateist daim İslam əhlini düşmənçilik, kin-küdurət və nifrətlə vəsf edir. Əgər qərbdə (müsəlman cəmiyyətdən uzaq) yaşayan bir ateistdən soruşsan ki, səni tanıyanlardan və qonşularından ateist olduğunu niyə gizləyirsən? O sənə: öz həyatına görə qorxduğunu və öldürülə biləcəyini deyəcək.

Sanki, müsəlmanlar küçədə gedərkən üstlərində qılınclar daşıyırlar ki, harda ateist görsələr onu öldürsünlər!!!…

Bu da əslində ateistdə olan qüsurdur ki, o İslamı nifrət və ikrah məsdəri olaraq təsəvvür edir. Onlar İslamın rəhmət dini olmasını bilmirlər. Çünki, qərbdəki İslamofobiyanın güclü təsirləri onlara çox mənfi təsir göstərmişdir.

Hətta, Qurani-Kərimdə də bu tip insanların özlərini müdafiə etməkçün eyni üslubla getdiklərini və peyğəmbərin dövründə də bu düşüncə sahiblərinin olduğuna işarə edilmişdir:

**«Sən onlara baxdıqda bədən quruluşları xoşuna gəlir, danışanda onların dediklərinə qulaq asırsan. Halbuki, onlar divara söykədilmiş dirəklər kimidirlər. Onlar hər bir səs-küyün özlərinə qarşı olduğunu sanırlar.»** (əl-Munəfiqun, 4)

Bu tip insanlar ayədəki münafiqlər kimi gecə- gündüz müsəlmanlara hiylələr qurub, düşmənçilik edir, sonra isə elə zənn edirlər ki, müsəlmanlar da onlara qarşı bu cür düşmənçilik edirlər və bu özlərindəki düşmənçilik hislərini müsəlmanlara nisbət etmiş və özlərini unutmuş olurlar.

**Bu cür şəxslə necə davranılmalıdır?**

Belə bir şəxslə dialoq quran müsəlman onunla sağlam bir ünsiyyət qurmağa çalışmalı və ona bəyan etməlidir ki, onun bu hisləri yalnız öz fikirlərinə qarşı təhdid olaraq qəbul etdiyi şəxslərə qarşı özünü müdafiə xarakterli zənn və xülya olub gerçəklikdən uzaqdır. Lakin, bunu gözəl şəkildə etmək lazımdır.

Ateisti (onun özündə görə bilmədiyi vəziyyəti) öz halı ilə tanış etmək çox mühümdür. Hətta, öz ətrafını ayırd edə bilsin. O cümlədən də onun fikir tərzini laxlatmaq üçün bəzi suallar vermək olar. Məsələn; Özün özünə sual ver, məgər sən müsəlmanların qiymətini ölçən və özündə xalqın dəyərlərini daşıyan bir meyarsanmı? Yoxsa, bu etdiyin ittihamlar keçmişdə başına gələn, rastlaşdığın bəzi hadisələrin səndəki əks təzahürüdürmü?

Bu məqamda müsəlman şəxs ateistin müsəlmanlar haqqında düşündüyü bütün yanlış təsəvvürləri ortadan qaldırmağa çalışmalıdır.

**SƏKKİZİNCİ TİP: *ÖZÜNDƏN ÇIXAN QƏZƏBLİ TİP*** *(La personallite «borderline»):*

Bu şəxs ən az təmkini olan şəxslərdəndir. Xarakteri isə qeyri sabitliyi ilə seçilir (humeur tres instable), xüsusən də qəzəbləndiyi zaman öz hislərinə hakim ola bilmir. Bu şəxslərin daşıdığı kin-küdurət onları stresə salır və özlərinə sevgi, diqqət göstərəcək şəxsləri axtarırlar. Çox vaxt daxili sıxıntılarını aradan qaldırmaq üçün narkotik, spirtli içkilərə sarılırlar. Davamlı şəkildə bu inancsızlıq, maraq stresi və intihar etmək istəyinə qarşı mübarizə aparırlar.

Bu tip şəxslər müsəlman dəvətçinin ən çox diqqət göstərməsinin gərəkdiyi ən çətin şəxslərdirlər. Bu şəxslərlə müsəlmanın dialoqunun baş tutması fürsət olduğu kimi yaxşı dəyərləndirilməlidir. Çünki, ola bilsin ki, dialoq uğurlu alınmasa, bu şəxsin son ümidləri və şansı tükənəcək və o intihara əl ata bilər. Ona görə də bu şəxsin islahı üçün olan dialoq fürsəti yaxşı dəyərləndirilməlidir.

Friedrich Nietzsche (Alman filosofu) çox vaxt bu şəxslərin Jean-Paul Sarter'in naturalism cərəyanını seçdiklərini qeyd edir.

**Bu cür şəxslərlə necə davranmalıdır?**

– Bu cür şəxslərlə ən birinci inanc boşluğuna qarşı mübarizə aparılmalıdır ki, bu ən əsas qayələrdəndir. Çünki, o düşünür ki, həyatın mənası yoxdur və o da digər heyvanlar kimi varlıqlardandır. O həyatın mənasız olduğunu düşündüyü üçün ona bu mənanı qaytarmaq lazımdır. Bu iş həm fikri müstəvidə, həm də psixojoji müstəvidə görülməlidir. Fikri (elmi) müstəvidə həyatın təsadüfən və əbəs yerə yaradılmadığı ona sübut olunmalıdır. Psixoloji müstəvidə isə ona nə hislər keçirdiyini ifadə etməyə şərait yaradılmalıdır ki, onun bu mənfi hislərinin qaynaqlandığı səbəblər ortaya çıxsın və müalicə asanlaşsın.

– İslam dəvətçisi ona öz dinində tapdığı səadəti bəyan etməlidir. O necə ruhi əminamanlıq içində olduğundan danışmalı, bununla necə iman və Allaha yönəlməklə rahatlıq əldə etməyini bildirməlidir.

– Müsəlman həmçinin qəlbi yumşaldan, nəfsi təmizləyən, əxlaq, ibadət və əqidə sahəsində İslami xüsusiyyətləri izhar edəcəyi kitabları oxumalıdır.

– Daha üstün olan isə onunla əlaqəni möhkəmləndirib ona bir növ xoş qarşılama və genişlik hiss etdirmək, dostlarını da onunla xoş davranmağa, gözəl qarşılamağa, onunla tanış olmağa və onu müsbətə doğru dəyişməyə rəğbətləndirməyə səy göstərməkdir.

**DOQQUZUNCU:** ***TƏQLİDÇİ TİP*** *(La personnalite dependante):*

Bu tip insanların özlərinin şəxsi tənqidi fikirləri olmur. Əksinə, hər məsələdə tabe olduğu şəxsin fikirlərinə azdırıcı fikirlər olsa belə təqlid edir. Beləsi çox zaman mülaim olur, başqasının hislərinə toxunulmasını sevməz, danışdıqda ədəb-ərkana riayət edər, əlindən tutub haqqa yönəldənə ehtiyacı olar.

**Bu cür şəxslərlə necə davranmalıdır?**

Bu məqamda müsəlman dəvətçi onun qərb mədəniyyətinə bağlılığını, şüursuz şəkildə qərblilərin texniki inkişafını onların inanclarıyla əlaqələndirməsini, İslamı isə pisləməyini gördükdə ona çalışıb izah etməlidir ki, ideologiya başqa şeydir, əqidə, din, inanc isə başqa şeydir. İnkişaf sırf ideologiya ilə əlaqəlidir. Tarixdən buna misallar çəkilsə, daha yaxşı olardı. Misal üçün, Romalı bütpərəstləri misal çəkmək olar, onların mədəni inkişafları yüksək səviyyədə idi.

Sonra isə onun tabeçilik etdiyi şəxsi hikmətlə və aydın bir şəkildə tənqid edir. Müsəlman şəxs gərək öz mədəniyyətinin və elminin onun təqlid etdiyi şəxsin çalışmalarından yüsək olmasını biruzə verməkdən qətiyyən utanmasın. O cümlədən də rəqibinin dəlillərinə laqeyd yanaşmasın və onun xətalarını ona göstərsin. Burada hədəf təqlidçi müxalifin nəfsindəki bu təqlidçiliyi aradan götürmək və ona bu çıxdığı yolda itirdiyi tənqid hissini yenidən qazandırmaqdır.

**ONUNCU:** ***ÖZÜNƏ QAPANAN TİP*** *(La personnalite schizoide):*

Bu cür şəxslər özünə qapanan olur. O baxımdan ki, ateizmi qəbul edir, öz-özünə beynində əfsanələr canlandırır, bu fərziyyələrlə yaşayır və bundan əl çəkmir.

Bu cür şəxslər adətən insanlardan kənarda bir inzivaya çəkilmiş həyata meyl edir (yazı və araşdırma kimi) daim üzbəüz dioloqlardan qaçır, sosial şəbəkələrdə xitab etməyə üstünlük edirlər. Çox vaxt da nadir hallarda yeni dostluqlar qururlar. Onların cəmiyyət daxili uyğunlaşması çətindir.

Çox zaman isə xəyallarına məxsus, öz hislərindən, ehtiyaclarından ərsəyə gələn bir aləm qurmağa çalışırlar.

**Bu cür şəxslərlə necə davranmalıdır?**

Bu şəxslə dialoq quran kimsə əvvəlcə o şəxsin içində olduğu problemi özünə başa salmalıdır. Bu problemin içində olan şəxsin öz problemindən xəbəri olmur və öz halını təbii hesab edir.

İlk addım olaraq onun rahat danışması üçün yaxşı abı-hava yaratmaq, onu danışmağa rəğbətləndirmək və öz fikrini tam sərbəst ifadə etməsinə çalışmaq lazımdır. Sonra isə ona insanın ictimai bir varlıq olmasıyla seçildiyini, yəni, onun təkbaşına ictimai bağlar və əlaqələr olmadan yaşaya bilməyəcəyini bildirmək gərəklidir. Hədəf isə bu ateisti adət halına çevirdiyi, xoşladığı özünəqapanma və təkliyə çəkilmə halından çıxarmaqdır.

Sonra isə ona batillərin bildirilməsi və doğruların öyrədilməsi prossesinə başlamaq olar. Onun öz nəfsində dəlillərə əsaslanmadan, əksinə, nəfsində xəyal etdiyi,

gerçəklikdən dəlilləri olmadan qurduğu xəyali aləmin batilliyi ona izah edilir.

**ON BİRİNCİ:** ***XƏSTƏ (TƏRBİYƏSİZ) TİP*** *(La personnalite sociopathe):*

Bu tip insanlar müsəlmanın rastına çıxacaq ən çətin tiplərdir. Bunun səbəbi də o tipin psixikasındakı xəstəlik, sərtlik və tərbiyəsizliklə əlaqədardır. Bu cür şəxsdə nə başqalarının inanclarına, nə də yaşadığı cəmiyyətin qanunlarına və əxlaq normalarına bir az da olsun ehtiram, hörmət olmur. Onlar sabit insanlar deyillər və öz əməllərindən azca da olsa həya (günah) hiss etmirlər. Çox zaman azğınlığa meyl edirlər.

Başqalarını alçaldıb, özlərini hamıdan ziyalı hesab edirlər!

**Bu cür şəxslərlə necə davranmalıdır?**

Qeyd edildiyi kimi bu cür şəxslərlə danışmaq çətindir. Bu cür şəxslər özlərinə yaxın olan şəxslərlə də eyni tərbiyəsizliyi edə bilirlər. Qaldı ki, kənar şəxslər olsun. Xülasə, bu cür şəxslərə ilk öncə psixologiya elmində olduğu kimi psixoloji xəstələrə tətbiq edilən seanslar qəbilindən hissə hissə danışmaq cəhdləri edilə bilər, lakin, bu elə də uğurlu alınmaya bilər. Ya da həmin tip şəxsi mütəxəssis bir psixoloqa yönləndirib onun psixiki durumundakı hiddəti yüngülləşdirib onunla əqidə, inanc mövzusunda danışmağa uyğun və hazır hala gəldikdən sonra söhbət etmək, dialoq qurmaq mümkündür.

Bu qeyd edilən tiplərin hamısını xüsusən sosial şəbəkələrdə və ümumən isə fərdlər arasında görə bilərsiniz.

Bu tiplər və onlarla danışıq üslubları barədə xülasə məlumat verməyə çalışdıq ki, rastınıza bu əlamətləri olan şəxslər çıxdıqda onlarla bir üslubda deyil, qeyd olunan müxtəlif üslublarla və hərəsinin öz halına uyğun şəkildə rəftar edə biləsiniz. Müvəffəq edən Allahdır!

## ATEİSTLƏRİN ZİDDİYYƏTƏRİ

**Birincisi**: Ateist kimsə Yaradan (Xaliq) bir ilahın olmasını inkar edir. Bununla yanaşı o, kainatın müxtəlif hissələrinin yaradan olmasını qəbul edir. Yəni, "kainat özü-özünü yaradıb" — deyir. Deməli, ateistə görə "qarışıqlıq" (xaos) yaradan ola bilir, "təbiət" yaradan ola bilir, "təsadüf" yaradan ola bilir, amma, tək olan Allah Yaradan ola bilmir!?

- Ateist iddia edir ki, var olmayan şey var olan şeyi yaratdı. "İlk hüceyrə də var olmayan şeydən yarandı". Gəl indi bir şey başa düş!

- Ateist özünü ağıllı hesab edir. O, ağılı ilə də kar və ağılsız maddənin ağıllı bir məxluq yaratdığını (yəni, təbiətin insanı yaratdığını) iddia edir. Məgər bu ağıllı fikirdirmi, ey ağıllı bəndə?
-

**İkincisi**: Əgər Allah bir zalımdan intiqam alarsa, ateist deyər: «Mən belə bir intiqam alan Allaha ibadət edə bilmərəm. Çünki, haqq olan ilah gərək Rəhmli olsun.»
Əgər Allah hansısa bir zalıma möhlət verərsə, bu zaman ateist deyər ki: «Bəs sizin Allahınız bu zalıma niyə heç cəza vermir?»

**Üçüncüsü**: Ateist iddia edir ki, "mərifətə (həqiqəti tapmağa) gedən yol yalnız təcrübədədir." Hər şey ki, təcrübəyə ziddir, o boş söz və safsatadır. Lakin, o özü də bilmir ki, təcrübə yoluyla indiyə kimi təkamül fikrini təsdiq edən bir sabit nəzəriyyə belə yoxdur. Hətta, onun bu iddiası təcrübəyə də uyğun deyil. Bu sadəcə əqli iddiadan başqa bir şey deyil.
Məsələn; Ateist iddia edir ki, əsli-kökü bir balıqdan gəlir, onun əmisi oğlu da meymundan törəyib. Lakin, sübut edə

bilmir ki, bunu haradan çıxarıb? Hətta, bu ikisi (balıqla meymun) arasındakı müştərək mərhələ də qondarmadır. Bu iddia nə elmi təsdiqini tapıb, nə də əqli fərziyyə olmaqdan o yana keçmir. Yəni, ateistlər sərf edəndə əqli fərziyyələri qəbul edirlər, amma, ağılın dəlalət etdiyi ən böyük həqiqət olan və ağılla inanmağa ən çox layiq olan Allah barəsində ağıllı mövqe sərgiləmirlər.

**Dördüncüsü**: Ateist dinin zənni bir şey olduğunu, dəlillərinin isə yəqinlik üzrə olmadığını iddia edir. Lakin, özü ateist fikrinə bir yəqin, sabit dəlil gətirə bilmir.

**Beşincisi**: Ateistə desən ki, ateizmi tərk et və Allaha iman gətir! İnkarçı şəklində deyəcək ki: «Dünyada İslamdan başqa 5000 din var, mən hansına inanım?» Yaxşı, onda ey ateist, İslamı niyə təhqir edirsən? Sənə görə 5000 din yoxdurmu? Yoxsa, gözlərin İslamdan başqa din görmürmü? Bəlkə bunu bilə-bilə özünü aldadırsan?!

**Altıncısı**: Ateist deyir ki, əxlaqın əsli din deyil və əxlaq hərəyə görə dəyişir. Yəni, kimə nə xoş gəlirsə, o əxlaq sayılır. Buna baxmayaraq, əxlaqdan danışdıqda gətirdiklərinin 90%-i dindən götürülmüş olacaq. Elə isə bu iddia haradan çıxdı?

**Yeddincisi**: Ateist deyir ki, heç nə haram deyil və ya haram anlayışı yoxdur. Lakin, kimsə desə ki, ey ateist, ananla, bacınla və ya qızınla yaxınlıq et, onda haramı qəbul edir. Lakin, təəssüflər olsun ki, bizim cəmiyyətdə də bacı-qardaşı ilə yaxınlıq etməyə normal baxan ateistlər peyda olub.

**Səkkizincisi**: Ateist deyir ki: İslam oğurluğu, zinanı və yalanı haram edib. Amma, bu şeylər onun özünə qarşı törədilərsə, deyir ki, əxlaq hanı bəs?

**Doqquzuncusu**: Ateist deyir ki: "Allah yoxdur və kainatın idarə edicisi yoxdur." Baxmayaraq ki, o etiraf edir ki, onun bədənini idarə edən ağılı var. Yəni, kainatda zərrə qədər kiçik olan insan möhtəşəm bir ağılla idarə edilməyə möhtacdır, amma, bu böyüklükdə kainat nizamı ilə alimləri heyrətə salan bu böyüklükdə kainatın ağıla ehtiyacı yoxdur?! Kainatı idarə edənə də heç bir nizam-intizam işarə etmir?

**Onuncusu**: Ateist deyir ki, mən bütün azadlıqları istəyirəm, amma, İslamın təqdim etdiyi azadlıqları istəmirəm. Amma, unudur ki, onun azadlığı başqalarının azadlığı ilə yanaşı durur. Yəni, öz azadlığını istəyən başqalarının azadlıqlarına da hörmətlə yanaşmalıdır.

**On birincisi**: Ateistlər "yadplanetlilərə" inanırlar, baxmayaraq ki, "onları görməyiblər". Buna maddi dəlil də yoxdur. Axı onlar görmədiklərinə inanmırdılar!…Nə oldu görəsən, bəs bu nağıllara necə inanırlar!?

**On ikincisi**: Ateist Quranın elmə müxalif olduğunu iddia edir. Əgər ona Quranın elmi ecazkarlığından danışsan, elmin dəyişkən olduğunu deyərək bunu bütünlüklə inkar edəcək.

**On üçüncüsü**: Ateist özünə ünvanlanan: "Birdən öldükdən sonra Allahı görsən nə olacaq?" sualına fitrətinin tələbi ilə "ölümdən sonra yoxluğu" inkar etməklə cavab verir. Eyni zamanda da "ölümdən sonra həyat yoxdur" — deyir.

**On dördüncüsü**: Ateist İslamdakı çoxarvadlılığı inkar edir. Lakin, eyni zamanda bir çox qadınla zina etməyi inkar etmir. Bu əsil ziddiyyətdir.

**On beşincisi:** Ateistlər gah deyirlər ki, dinlər ancaq İbrahimin dinindən bir neçə il əvvəl meydana çıxıb, ondan

əvvəl isə guya ateizm olubmuş, gah da deyirlər ki, din ilk insanın yaranmasından bəri mövcud olmuşdur. O baxımdan ki, insanlar təbiət hadisələrini izah edə bilməyəndə qeybdəki böyük gücə sığınırdılar. İslamda isə bu məsələdə ixtilaf yoxdur. İslama görə bəşərin dini ilk insandan bu yana mövcuddur.

**On altıncısı:** Əqidəsi yalnız maddə üzərində olduğu halda ateistlərin «islamı kin-küdurət dini» kimi vəsf etmələri əsil ziddiyyətdir. Çünki, onlarda mənəviyyat meyarı yoxdur. Ona görə də mənəviyyat meyarı baxımından etdikləri bu iradlar ilk öncə özlərinin mənəviyyatsız maddi ateizm nəzəriyyələrini inkar etməyə səbəb olmalı idi.

**On yeddincisi**: Ateist deyir ki, elm Yaradanın olub olmadığını isbat edəcək. Daha çoxu isə deyir ki, isbat edib. Bunda ixtilaf ediblər. Ateist bilmir ki, bu qeybi imandır. Bu, nə maddi və təcrübi elmin həll edəcəyi iş deyil, nə də o elmlərə aid məsələ deyil. Biri var Allahın isbatı, biri də var Allahın kəşfi. Biz Allahın varlığını əqli dəlillərlə isbat edirik. O dəlillərlə ki, hər biri Allahın varlığına işarət edir. Lakin, Allahın kəşfi dedikdə onu gözlə görmək və ya maddi (təcrübi) elmlə (məsələn; Fizika elmiylə) göstərmək nəzərdə tutulur. Bu, doğru deyil və yanlış metoddur. Çünki, Fizika elminin qayda-qanunlarını qoyan Allahın özüdür, belə olduqda Fizika elmi ilə Allahı kəşf etmək mümkün deyil. Üstəlik də, Allah Fizika elmiylə məhdud deyildir. Allah bu dünyada bizə özünü göstərmək istəməyib, belə olduğu halda Fizika elmiylə Allahı kəşf etmək istəmək doğru deyildir. Çünki, sənin bu elminin alətləri kəşf etmək istədiyinin qarşısında çox cılızdır.

**On səkkizincisi**: Ey ateist! Sən insan həyatının öz-özünə yaranmasını qəbul etməyə çalışırsan və heç bir dəlilin, isbatın olmadan sən bu ehtimalı qəbul edirsən. Halbuki, Allahın varlığı iki ehtimalla məhduddur. Yəni, ya Allah

var, ya da Allah yoxdur. İnsanın ağılının qəbul etdiyi dəlillər isə Allahın olması ehtimalını yəqinliklə qəbul edir. Belə olduğu halda 50 faiz yəqinliklə qəbul edə biləcəyin bir ehtimalı trilyonda bir qədər kiçik olan və sübutu üçün heç bir dəlil olmayan ehtimalın qarşısında inkar etməyin əsil ziddiyyətdir.

**On doqquzuncusu:** Ateist mömini tənqid edib deyir ki: Quran bizi kafir adlandırır və dördayaqlı heyvanlardan betər olduğumuzu deyir. Sonra da "Bu radikallıqdır" — deyir.

Bəs necə olur ki, ateistlər özləri dini, dinin müqəddəs şüarlarını təhqir edir, dindarları alçardırlar? Məgər bu radikallıq deyilmi? Sən ey ateist! Necə özün bir şeyi deyib, sonra onun əksinə əməl edirsən?

Həmçinin, ateist Qurandakı: «Onlar dördayaqlı heyvan kimidirlər.» ayəsinə etiraz edir, lakin, Darvinin təkamül nəzəriyyəsində insanın heyvandan əmələ gəldiyi deyiləndə bunu qəbul edir. Nəyə görə Darvin sizə heyvan deyəndə qəbul edirsiniz, amma, Allah «onlar dördayaqlı heyvan kimidirlər» deyəndə qəbul etmirsiniz? Ən azından Quranda çəkilən misal (əti, südü, dərisi) faydalı heyvanlardır. Darvin isə sizi həqir meymunlara oxşadıb. Onda Darvinə də qəzəblənin! Üstəlik Quranda bir xüsusi tayfaya bu xitab edilməyib, sadəcə Allaha inanmayanlar qəsd olunub!

**İyirmincisi:** Ateist Quranda Allaha inanmayan, inadkar və təkəbbürlü imansızların «dördayaqlı heyvanlar» kimi olduqları vəsfinə qarşı çıxır, lakin, eyni zamanda əsil-kökünün balıqdan başladığını və insanın meymundan əmələ gəldiyini, donuzun insandan daha üstün olduğunu, insanın da mikrob, bakteriya, virus kimi başqa canlı varlıqlar kimi bir canlı olduğunu deyir.

**İyirmi birincisi**: Ateist iddia edir ki, Quran asan dildədir və onu hər kəs oxuyub başa düşə bilir. “Ona görə də bu Allah kəlamı ola bilməz.” Sonra isə deyir ki, əgər Quran Allah kəlamı olsaydı, o daha qəliz, daha çətin anlaşılan olardı. Bu yerdə birinci sualı veririk: Nəyə görə Allah bizə anlaşılmayan kəlam göndərsin və sonra bizə ona tabe olmağı əmr etsin?! Bu adillik olardımı heç? Lakin, həqiqətdə problem bu deyil. Problem odur ki, bu sözləri deyən ateistlər Qurandakı bəzi surələrin əvvəlində gələn rəmzi həriflər (Əlif, lam, mim. Ya sin və s.) haqqında: “Allah bu anlaşılmaz hərfləri niyə göndərib?” — deyərək ziddiyyətə düşürlər. Qeyd edək ki, həmin həriflərini hamısının izahı vardır.

**İyirmi ikincisi:** Ateist iddia edir ki, şərin mövcud olması Allahın inkar edilməsinə ən böyük dəlildir. Bəs ateist necə unudur ki, felin (şərin) mövcudluğu faili (işi görəni) lazımlı edir. Yəni (iş) varsa, fail (işi görən, təsir edən) də olmalıdır. Belə olduğu halda biz fail (işi görən) olmadan feli (görülən işi) necə təsdiqləyə bilərik?!

**İyirmi üçüncüsü**: Ateistlərin qəribə ziddiyyətli sözlərindən biri də Muhəmməd Peyğəmbər haqqındadır. Onlar gah Onun oğurluq etdiyini, gah adam öldürdüyünü və s. işlər gördüyünü iftira edir, sonra isə bir müsəlman onun cavabını verəndə deyirlər: «Əslində tarixdə adı Muhəmməd olan şəxs heç mövcud olmayıb».

Həmçinin, ateist Peyğəmbərə sehr edilməsi və Onun Aişə (Allah ondan razı olsun) ilə evliliyi barəsində danışır. O zaman ki, biz ona cavab verərək bəzi peyğəmbərlik dəlillərini göstəririk, başlayır belə deməyə: “Tarixi dəlil hesab etmirəm. Çünki, tarixi qalib gələnlər yazırlar.”

**İyirmi dördüncüsü:** Ateist sənə İslamda ixtilaf gördüyü şeyləri gətirməyə çalışar, halbuki, İslamın əslində ixtilaf yoxdur. Lakin, özü isə ateist alimlərin belə ittifaq etmədiyi fəlsəfəni irəli sürməkdən çəkinmir.

**İyirmi beşincisi:** Ateistlər deyirlər ki: dinlərin batil olmasına əsas dəlil dinlərin çox olması və ixtilaf etmələridir. Baxmayaraq ki, din inkarçıları özləri bir çox firqələrə bölünürlər.

**İyirmi altıncısı:** Ateistlər Allahın varlığına çoxsaylı aydın dəlillər olmasına baxmayaraq, Onu inkar edirlər. Lakin, varlığına bir aydın dəlil belə olmayan çoxlu varlıqları və yadplanetliləri qəbul edirlər. Bu əsil ziddiyyətdir.

**İyirmi yeddincisi:** Ateist deyir ki: İslamın batil olmasına ən böyük dəlil İslam barədə şübhələrin olmasıdır və sanki, heç ateizm barədə şübhələr yox imiş kimi danışır.
Şübhələr isə özü-özlüyündə həmişə bir şeyin batil olmasına dəlalət etmir.

İslam barəsində olan bütün şübhələrin elmi və əqli cavabı vardır. Əgər bu din bəşər övladının ixtirası olsaydı, onda bu qədər qüvvətli cavabların olması mümkünsüz olardı. Bir də ki, bu şübhələrin çoxusu pis anlayış və dini cahillik səbəbindəndir. Ona görə də hər kəsin düz anlamadığı bir şeyə etiraz etməsi və "bu şübhədir" deməsi asandır. Doğru olan isə budur ki, heç bir iddia sağlam dəlil-sübut olmadan qəbul edilmir.

**İyirmi səkkizincisi:** Ateist iddia edəndə ki, filankəs fizika üzrə alimdir və ateistdir. Biz də deyirik ki, təbiət alimlərinin çoxusu inanclı insanlardır və ateistlər inanclılardan azdır. O da deyir ki, ateizm fikirdir, nə şəxslərə, nə də çoxluğa görə deyil. Filan alim bizi

maraqlandırmır, hətta, bütün dünya iman gətirsə belə “no problem”…

**İyirmi doqquzuncusu:** Ateist iddia edir ki, ağıla hörmətlə yanaşır və öz sözünün məntiqə uyğun olduğunu deyir. Amma, həqiqətdə isə ateistin sözlərinin çoxu bunun əksini göstərir; məsələn, elə “bu aləm təsadüfən yaranmışdır” demək kimi və yaxud da hər hadisənin bir səbəbinin olmasını inkar etmələri kimi. Baxmayaraq ki, balaca uşağın əlindəki oyuncağı onun arxasından gəlib gizlicə götürsən, o balaca uşaq arxaya boylanacaq ki, görəsən mənim oyuncağımı kim götürdü?! Balaca uşaq da hər hadisənin bir səbəbinin olduğunu fitrətilə dərk etdiyi halda, ateist bu boyda aləmin, dünyanın təsadüfən, səbəbsiz yarandığını iddia edir.

**Otuzuncusu:** Ateist səmimi görsənməyə çalışıb “haqqı axtarıram və ədalətliyəm” deyir, lakin, qeyri səmimiliyinə dəlalət edən əsassız fəlsəfi sualları verməklə (o suallar ki, əslən sual kimi qoyulması doğru deyil; məsələn; Allahı kim yaradıb? Bilir ki, “Yaradanı yaratmaq” sözü doğru söz deyil və ilk yaradan özü yaradılmır.) bir daha öz niyyətini ifşa edir.
Çünki, səmimiyyət yaradılanlardakı əlamətləri görüb Yaradanı qəbul etməyi tələb edir. Onların “yaradanı kim yaradıb” sualı isə artıq birbaşa ondan əvvəlki mərtəbəni həll etməmiş növbəti mərtəbəyə keçmək cəhdidir, bu isə səmimiyyətdən xəbər vermir. Yaradanın yaradılmasına isə ehtiyac yoxdur. Çünki, biz tək yaradandan danışırıq. Tək Yaradanın isə yaradanı olmur.

## ATEİSTLƏ MÜBARİZƏDƏ TƏRTİB (ardıcıllıq)

Belə bir yazıya olduqca çox ehtiyac olduğunu üçün bu yazını yazmağa qərar verdik. Bu yazı üzərinə kiçik tamamlama işi qaldığından dolayı kitaba əlavə olunmadı. Lakin, Allahın izniylə ATEİSTLƏ MÜBARİZƏDƏ YARDIMÇI KİTABÇADA oxuculara təqdim ediləcəkdir. Müvəffəq edən Allahdır!

# MÜNDƏRİCAT:

1. – Müqəddimə................................................2
2. - Allaha nə üçün inanmalıyıq?........................4
3. – Allahı kim yaradıb? sualı barədə...............23
4 - Təbiətin yaratdıqları? Yoxsa, Allahın yaratdığı təbiət?!..................................................27
5– Ateizmdə "Şər Problemi" (The Problem of Evil)..........................................................38
6– Humanizm nədir? Allahsızlıq çağırışı, yoxsa, insanlığa xidmət adı altında gizli ideologiyanın təbliği?...50

7 – Üç alimin ateistlərlə söhbəti..................................59

8 – İslam dinində quldarlıq ləğv edilməyib? ...............62

.....9 – İslamda qadına şiddət varmı? ................................70

....10 – Ateizmdə əxlaq anlayışı........................................77

....11 – İslamofobiya – Qərbin İslam düşmənçiliyinin təzahürü..........................................................................84

....12 – Allah niyə şikəst və qüsurlu insanları yaradıb?.... 96
....13 – Peyğəmbərin öz oğulluğunun zövcəsiylə evlənməsi şübhəsinə cavab...............................................................114

....14 – Heyvanların acı çəkməsi nəyə lazımdır?.............122

....15 – Allah niyə bəzi insanların tövbəsini qəbul etmir?123

....16 – İslami döyüş məfhumu barədə yalnış baxışlar.... 137

....17 – Şəriətdəki cəzalar barədə atılan şübhələrə cavablar.................................................................151

....18 – Quranda hər şey yazılıbmı?.................................171

....19 – İslam əqidəsi müsəlmanların geri qalma səbəblərindəndirmi? .......................................................180

....20 – Ərəbin dini, yoxsa, bütün dünyanın dini?............191

....21 – Günah anlayışını inkar edənlər? ..........................213

....22 – Allah niyə kafirləri və zalımları dərhal cəzalandırmır?...................................................................230

....23 – O dünyadan kim gəlib ki?...................................240

....24 – İslam çatmayıb başqa dində olanın aqibəti nə olacaq?.............................................................................247

....25 –" İman zəkalılar üçün deyil" – deyənlərə cavab...254

....26 – Müasir dövrdə müsəlman alimlərin uğurları.......262

....27 – Axirətə nə üçün inanmalıyıq?.............................271

....28 – Həccə xərclənən pulların dərdini çəkənlərə cavab...............................................................................290

....29 – Ateistlərin ziddiyyətləri .....................................295

....30 – Adəmlə Həvvanın nəsli necə çoxalıb? – (Ateistlərin İnsest şübhəsinə cavab) .................................................304

....31 – İkinci Fəsil – Ateistlərlə mübarizəyə aid bəzi metodlar.........................................................................314

....32 – Ateistin dialoq əsnasındakı hiylələri və bu hiylələrin qarşısının alınması yolları................................................315

....33 – Ateistlə danışmaq istəyən kimsəyə bəzi tövsiyələr.... .........................................................................................326
....34 – Ateist tiplərin psixologiyası.................................333
....35 – Ateistlərin ziddiyyətləri......................................35٦